Türk ellərindən-11

ƏLİ ŞAMİL

QUMUQLAR-NOQAYLAR:

yol qeydləri, məqalələr

Bakı-2026

Elmi redaktor: **Aynur QƏZƏNFƏRQIZI**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Şamil Əli (Şamilov Əli Hüseyn oğlu).
Qumuqlar, noqaylar: yol qeydləri, məqalələr,
Bakı: "İmza" nəşrlər evi, 2026, 360 s.

Kitaba müəllifin Dağıstanda yaşayan qumuqların və Dağıstanla Qaraçay-Çərkəzdə yaşayan noqayların folkloru, ədəbiyyatı, tarixi, ictimai-siyasi xadimləri, yazıçı və şairləri haqqında məqalələri, eləcə də bölgəyə səfərləri haqqında yazdığı yol qeydləri daxil edilmişdir.

İSBN 978-9952-37-839-9

© Əli Şamil, 2026

İÇİNDƏKİLƏR

Quzey Qafqaz sovetlərin çöküşündən sonra 4
Qumuq türkləri ədəbiyyatının dünəni və
bu günü.....41
Noqay türklərinin ədəbiyyatı keçmişdə və indi..160
Redaktorlardan 232
Uman yerdən küsərlər: – Şeyit Xanım 242
Türk dünyasının məşhurları..... 258
İnamını itirdiyindən ömrünü bitirən Qamzat
Acigəldiyev..... 259
Noqay şairi, 29 yaşlı Qədriyə nədən öldürüldü?.276
Abdraxman Umarov 288
Abusufyan Akayev 295
Alim Paşa Salavatov..... 305
Cəlaləddin Qorxmazov..... 314
Haydar Bammat..... 323
Muhammat Əfəndi Osmanov 332
Rəşid Xan Qaplanov..... 340
Yusup Qereyev 349

QUZEY QAFQAZ SOVETLƏRİN ÇÖKÜŞÜNDƏN SONRA

Sovetlər Birliyində geniş sanatoriya və kurort şəbəkəsi yaradılmışdı. Oraya istirahət və müalicəyə getmək istəyənlərə göndərişlər verilirdi. Bu göndərişlərin də pulunun 85 faizini (bəzən də 100 faizinin) yerli həmkarlar təşkilatları ödəyirdi. Təbliğat da öz işini görürdü. Adamlar kurort və sanatoriyalara, istirahət mərkəzlərinə getməyə həvəslənirdilər. Sanatoriyalar əsasən xəstələrin fizioterapiya müalicəsi üçün yaradılmışdı. Oraya getmək istəyənlər mütləq xəstəliyi haqqında sənəd aparmalı idi. Xəstə olmayanlar da həkimdən saxta bir sənəd alırdı. Bu sənədin saxtamı, doğrumu olduğuna nə sanatoriyalarda çalışanlar ciddi yanaşırdılar, nə də onu verən poliklinikaların həkimləri. Buna görə də hər hansı bir təşkilatda çalışan adam ildə bir dəfə, iki ildən bir göndəriş alıb sanatoriya və kurortlara gedə bilirdi.

Hər il sanatoriyaya gedənlər sırasında xanımım və mən də vardıq. Müalicə bir bəhanə idi. İmkandan istifadə edib qədim türk yurdlarını gəzir, oradakı aydınlarla görüşürdük.

Göndərişsiz səfərə çıxanda həm çoxlu problemlərlə üzləşirdik, həm də baha başa gəlirdi.

Moskva, Leninqrad kimi böyük şəhərlərdən tutmuş ən kiçik rayon mərkəzində, böyük qəsəbələrdə belə otel vardı. Lakin orada yer tapıb qalmaq mənim kimiləri üçün çətin idi. Otel boş olsa belə qeydiyyatçı "yer yoxdur" deyirdi. Elə ki pasportun arasına 10-25 manat qoyub verirdin, onda "yer tapılırdı". Qanundan kənar pul verməyi özümə sığışdırmırdım. Buna görə də otellərdə yer tapmağım çətin olurdu.



Şəkildə: soldan Əli Şamil, Eldar Hacıyev, İmperiat Xalipayeva, Larisa Məmmədova

Otelin dolu və ya boş qalmasının işçilərin maaşına təsiri yox idi. Onlar da dolanışıqlarını yaxşılaşdırmaq üçün nə yolla olursa-olsun qonaqlardan pul qoparmağa çalışırdılar.

Sanatoriyaya, kurorta göndəriş alanda isə bilirdin ki, pis-yaxşı qalacağın yer də, yemək-içməyin də öncədən hazırlanıb.

Krımdakı, Quzey Qafqazdakı sanatoriyalarda olarkən yerli radio-televiziyaya, qəzet və jurnal redaksiyalarına, nəşriyyatlara gedirdik. Oradan malkar (balkar), qaraçay, noqay, qumuq dillərində kitablar, qəzet-jurnallar gətirir, peşə yoldaşlarımıza, dostlarımıza verir, oxuyub müzakirə edirdik.

Rəsmi statistikada yunan (qrek) yazılanlar, özlərinə urumlu deyirdilər. Sadə urumlular ilə söhbətimiz şirin keçirdi. Həvəslə bayatılar, dastanlardan parçalar, nağıllar, ata sözləri və s. söylə-yirdilər. Maqnitofonum və diktafonum olmadığın-dan səslərini yazmağa imkanım olmurdu. Bu səbəbdən danışıqları qələmlə kağıza yazmağa çalışırdım.

Türkcə dil açan, məktəbə gedənə kimi əsasən türk dilində danışan, kilsədə keşişin söylədiyini anlamayan bu topluma mənim doğulduğum bölgədə – Göyçədə yaşayan türklər də, ermənilər də urumlular deyirdilər. Gürcülər isə onları berzen adlandırırdı. Səhv etmirəmsə, bu sözün tərcüməsi “yeni gələn” demək idi. Xeyirdə-şərdə, ailədə, küçədə-bacada bir-bir ilə türkcə danışan, yəni ünsiyyət dilləri türkcə olan bu xalqda belə bir fikir

formalaşdırılıb ki, onlar tarixin hansı dönəmindəsə yunan dilində danışırlarmış. Osmanlılar Bizansı yendikdən sonra şərt qoyublar ki, ya dininizi dəyişin, ya da dilinizi. Urumlular da inanclarına sadiq olduqlarından dillərini dəyişiblər.

Urumluların savadlıları ilə ünsiyyət qurmaq heç də asan olmurdu. Onların antitürk söhbətlərinə faktlarla cavab verməyə çalışanda qəbul etmək istəmirdilər. "Osmanlı dövlətində yaşayan yunanların hamısı dilini dəyişmədiyi halda siz necə oldu dilinizi dəyişdiniz?"- sualını verəndə ciddi və məntiqli cavab vermək əvəzinə əsəbiləşir, 19-20-ci yüzillərdə Rusiyada nəşr edilmiş kitablara istinad edir, məni inandırmağa çalışırdılar. Sultanların urumluların dilini dəyişdirməsi haqqında rəsmi bir sənəd, qaynaq da göstərə bilmirdilər.

Osmanlı dövlətində islamı qəbul edənlərin ciziyə vergisindən azad edildiyini, dilini dəyişib dinini qoruyanlara isə heç bir güzəşt edilmədiyini dönə-dönə söyləyirdim. "Onda vergidən azad olmaq xatirinə gərək urumlular dinlərini dəyişəydilər, nədən dillərini dəyişiblər?"- sualına cavab vermək əvəzinə əsəbiləşirdilər.

Açıq-aşkar görürdüm ki, urumlular da qaqauzlar, çuvaşlar, kreşni tatarlar və başqa toplumlar kimi xristian inanclı türklərdir. Lakin

Rusiyanın və Avropa dövlətlərinin apardıqları uzunmüddətli təbliğat onlarda türklərə qarşı nifrət formalaşdırıb.

Məzuniyyətdən geri döndükdən sonra görüşlərim haqqında dostlarımla, iş yoldaşlarımla fikir mübadiləsi edirdik. Səfər təəssüratlarımı yazanda isə redaksiyalar onu verməkdən imtina edirdi. Belə olduqda mən də fərqli bir yol seçdim. İşlədiyim o zamankı "Sovet Naxçıvanı" ("Şərq qapısı") qəzeti ilə SSRİ-dəki muxtar respublikaların qəzetləri arasında səhifə mübadiləsi etməyə başladım. Mən Naxçıvan haqqında məqalələr hazırlayaraq muxtar respublikaların qəzetlərinə göndərirdim, onların da əməkdaşlarından xahiş edirdim, bölgələri, millətləri haqqında məqalələr hazırlayıb bizim redaksiyaya göndərsinlər.

Planlı sosialist idarəetməsi adı altında hər şey mərkəzləşdirilmişdi. Yəni Azərbaycanın hansısa bir kəndində məktəb, mədəniyyət evi tikiləcəyini də, körpü salınacağını da, hətta əkinçinin neçə hektar soğan əkəcəyini də Moskva planlaşdırırdı. Qəzet və jurnalların kənardan almalı olduğu informasiyalar da SİTA (Sovet İttifaqının Teleqraf Agentliyi) və XMA (Xəbərlər Məlumat Agentliyi) deyilən təşkilatlardan göndərilirdi. Yerli mətbuatlar da onların yazılarına səhifələrində yer ayırmağa borclu

idi. Əslində bu yerdəkilərin də işinə çox yarayırdı. Çünki həmin yazılara senzor nəzarəti lazım gəlmirdi.

Respublikalarda, muxtar respubliklarda, vilayətlərdə, eləcə də rayonlarda çap olunan qəzet-jurnalların redaktorlarının seyfində bir kitab çox ciddi nəzarət ilə qorunub saxlanırdı. "Pereçen" (senzur qaydaları) adlandırılan bu kitabı yalnız redaktor, redaktor olmayanda onu əvəz edən oxuya bilirdi, yəni redaksiyanın başqa əməkdaşlarına göstərilmirdi. Bununla yanaşı, respublikaların, muxtar respublikların, vilayətlərin nəşrlərinə nəzarət edən senzorar da vardı.



Şəkildə: Mahaçqalanın ən yaşıl guşəsi, qaldığımız otelin yanı

Mənim muxtar respublikalar və vilayətlərlə birbaşa əlaqə qurmağım isə həm redaktoru maraqlandırır, həm də narahatlıq yaradırdı. Düşünürdü ki, həmin materiallarda birdən senzor nəzarətindən yayınmalar olar. Bu da onun üçün "başağrısı" yaradar. Quzey Qafqazda yaşayan xalqlarla yanaşı, yakutlar (saka), tatarlar, başqırdlar, altaylar və başqa xalqlar haqqında onların öz jurnalistlərindən informasiya almağımız mərkəzdən qaçmanın ilk qığılcımları idi. Qəribəsi bu idi ki, oxucular da rəsmi agentliklərin göndərdiyindən çox birbaşa alınmış yazıları oxumağa həvəsli idilər. Yadımda qalan odur ki, Naxçıvan haqqında hazırlayıb Başqırdıstanda və Yakutiyada çap etdirdiyim yazılarla bağlı "Sovet Naxçıvanı" ("Şərq qapısı") qəzetinin redaksiyasına 500-dən çox məktub gəlmişdi. Qəzet və jurnala gələn məktubların çoxluğu həmin mətbuatın nüfuzunun yüksəkliyi kimi dəyərləndirilirdi. Naxçıvan kimi ucqar bir bölgədə nəşr edilən qəzetə Rusiyadan bu qədər məktub gəlməsi redaktoru sevindirirdi. M.S.Qorbaçovun başladığı "perestroyka", "qlasnost" birbaşa əlaqələri genişləndirməyə imkan açsa da, bundan səmərəli istifadə edə bilmədim. Moskvanın Azərbaycan üçün hazırladığı "Dağlıq Qarabağ" problemi oxucuların

istəyi ilə jurnalistlərin də diqqətini bu mövzuya yönəltdi.

Beləcə, SSRİ-də yaşayan türk xalqları haqqında yazılar vermək, onlarla əlaqələri genişləndirmək arxa plana keçdi. Sərhədlərin açılması İran, Türkiyə mövzusunu aktuallaşdırdı. Dağıstanda, Quzey Qafqazın başqa bölgələrində yaşayan türk xalqlarının nəşrlərini almaq, onların ictimai-siyasi xadimləri ilə görüşmək də çətinləşdi. Necə deyərlər, proseslər başqa istiqamətə yön aldı. Mən isə zamanın sürəti ilə ayaqlaşa bilmədim. SSRİ-də yaşayan türk xalqlarının ziyalıları ilə əlaqəni yeni istiqamətdə davam etdirməyə başladım. Onlarla daha çox elmi toplantılarda görüşdüm. Alimlərini Azərbaycanda, Türkiyədə və Avropa ölkələrində keçirilən toplantılara dəvət etdim. Bu işlər də istədiyim kimi getmədi. Onların əksəriyyəti rusdilli olduqlarından türk dilində və Avropa dillərində məruzələr hazırlamağa çətinlik çəkirdilər.



Şəkildə: Qumuq professoru İmperiat Aslanbəy qızı Xalipayeva

Bütün bu problemlərə baxmayaraq, onlarla müntəzəm əlaqə saxlamağa çalışırdım. Əlaqələrim yaradıcılığıma da təsirsiz ötüşmürdü. "Tanıdığım adamlar", "Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı" kitablarında, Türkiyə radiosu üçün hazırladığım "Türk dünyasının məşhurları" seriyasından verilişlərdə, eləcə də Azərbaycanda, Qazaxıstanda, Türkiyədə iştirak etdiyim elmi konfranslarda qumuqlardan, qaracaylardan, malkarlardan (balkarlardan), noqaylardan geniş söz açırdım.

Ömrümün qürub çağında o yerləri bir daha görmək, ziyalıları ilə görüşmək, söhbətləşmək, mənzərəli yerləri gəzmək üçün Nalçikdəki sanatoriyalardan birinə getməyi planlaşdırdım. Nalçikdəki tanışlara fikrimi bildirdim. Onlar bizim üçün "Mayak" sanatoriyasında yer ayırtdırdılar. Biz yolboyu Mahaçqalada, Vladiqafqazda bir neçə gün qalıb, tanışlarla görüşmək məqsədilə sanatoriyada bizə ayrılmış vaxtdan bir neçə gün əvvəl yola düşdük.

Gürcüstan, Azərbaycan və Rusiya gömrük məntəqələrinin fərqi

Rusiyaya gedən qatarların vaqonlarının, avtobusların köhnəliyi və göstərilən xidmət səviyyəsinin aşağı olması bizi vadar etdi ki, heç olmasa, Mahaçqalayadək taksi ilə gedək. 2017-ci il iyulun 28-də Bakıdan yola çıxdıq. Azərbaycanla Rusiya arasında 4 keçid məntəqəsi açılsa da, yenə tələbatı ödəmir. Adamlar keçid məntəqələrində saatlarla gözləməli olur. Sıxlıq vaxt itkisi yaratmaqla yanaşı keçid məntəqəsində işləyən gömrük işçilərinin gəlir mənbəyinə çevrilib. Onların bilərək növbənin pozulmasına şərait yaratmaları qanqaralıq, əsəbilik yaradırdı.

Bizi aparan taksi sürücüsü təcrübəli idi. Sərhədə yaxınlaşanda telefonla keçid məntəqələrindəki vəziyyəti öyrəndi. Maşın və adamın seyrək olduğu məntəqədən keçmək ona da sərfəli idi. Çünki axşam Mahaçqalada yatıb dincəlməli, səhər tezdən müştəri tapıb yenidən Bakıya qayıtmalıydı. Bəzən müştəri tapanda onlar yorğunluqlarını unudub elə həmin gün də Bakıya qayıdırlar.

Seyrəklik olan keçid məntəqəsi bizə də sərfəli idi. Oraya gələndə növbədə 4-5 minik maşını vardı. Növbəmiz çatanda Azərbaycan gömrük işçilərinin qoyduqları qaydaya əsasən taksidən endik. Yol çantalarımızı sürüyüb monitor olan otağa getməli olduq. Azərbaycanın quru sərhəd keçidlərinin

hamısında belədir. Gürcüstan tərəfin keçidində isə maşından enməyə, çantalarını sürüyə-sürüyə monitor otağına aparmağa ehtiyac qalmır. Sərhədçilər və gömrük işçiləri bütün əməliyyatları maşında oturduğun yerdə gülərüzlə həyata keçirirlər.

Şükür ki, Azərbaycan gömrüyündə yüklərimizi töküb-töküşdürməyə ehtiyac duymadılar. Monitorda baxmaqla kifayətləndilər. Sərhəd nəzarət-buraxılış məntəqəsində də pasportlarımıza sakitcə möhür vurdular. Daha heç bir çək-çevir, vaxt uzatma, təmənna olmadı. Yenidən çantaları sürüyə-sürüyə aparıb taksinin baqajına yüklədik. 50-60 metr o tərəfdəki Rusiyanın gömrük-keçid məntəqəsində taksidən enməyi, yüklərimizi də özümüzlə yoxlama otağına aparmağı əmr etdilər. Qocalar da, şikəstlər də min bir zülümlə çantalarını dartıb yoxlama otağına apardılar. Monitorun yanında yaşlı bir gömrük məmuru oturmuşdu. Yükümüzü monitora qoymaq istəyəndə o əsəbi və amiranə tərzdə yol çantalarımızı qarşısına qoymağı və ağzını açmağı tələb etdi. Sonra da ayaqlarının arasına aldığı yol çantalarımızın içərisindəkiləri töküb-töküşdürməyə başladı. O, nəyəsə nəzarət edəndən, yoxlayandan çox, paltarları, ayaqqabıları qurdalamaqdan ləzzət alana oxşayırdı. Xeyli qurdalandıqdan, səliqə ilə yığılmış paltarları qarışdırdıqdan sonra

çantalarımızı götürməyə icazə verdi. Çantalarımızı səliqə-səhmana salmağa azı yarım saat vaxt itirdik.

Qarşısında monitor ola-ola gömrük məmurunun çantaları əl ilə yoxlaması mənə təəccüblü gəldi. Bu, vaxt itkisinə səbəb olur, boş yerə növbələr yaradır. Narazılığımı gömrük məmuruna bildirdikdə əsəbiliklə: "Biz belə tələb edirik, bizi öyrətməyəmi gəlibsiniz?" cavabını aldıq.

Səfərə çıxarkən xanımım paltarlarımı səliqə ilə çantaya yığır. Səfər müddətində isə çirkli paltarları necə gəldi çantaya atıb evə gətirirəm. Geri qayıdanda başımıza gələcəkləri gözümün qarşısına gətirdim. Demək, onda da bu gömrük məmuru mənim çirkli paltarlarımı da beləcə, özündən razı halda əlləşdirəcək.

Hər dəfə quru yolla xarici ölkələrə gedib-gələndə Azərbaycan gömrükçülərinin və sərhədçilərinin yoxlama metodu qanımı qaraldır. Düşünürəm ki, nədən böyük xərclər hesabına onları xarici ölkələrə təcrübə mübadiləsinə göndərirlər. Elə beş-on metr o tərəfdəki Gürcüstana göndərsələr, olmazmı? Gürcüstanın sərhəd keçid məntəqələrində adam özünü mədəni və inkişaf etmiş bir ölkədə hiss edir. Bir sözlə, Gürcüstanla bizim aramızdakı fərq nə qədərdisə, Azərbaycanla Rusiya gömrük

yoxlamaları arasında da fərq o qədərdir desəm, yəqin ki, yanılmaram.

Qumuq aydınlarla görüş

Mahaçqalada bizi milliyətcə qumuq olan Dağıstan Dövlət Pedaqoji Universitetinin professorları Eldar Hacıyev və İmperiat Xalipayeva qarşıladılar. 30-a yaxın xalqın və etnik qrupun yaşadığı Dağıstanda Azərbaycandan gedib yaşayan və işləyənlərin də sayı az deyil. Onlar əsasən Azərbaycanda doğulub boya-başa çatmış, orta və ali təhsil almış avarlar, ləzgilər, saxurlardır. Dağıstanda yaşayan bir xalq da var, 19-cu yüzilin sonlarında və 20-ci yüzilin əvvəllərində ruslar onları tərəkəmə kimi qeydə alırdı. 1937-ci ildən sonra isə onları qumuq və azərbaycanlı adlandırdılar.

Azərbaycandan gedib Dağıstanda rəhbər vəzifələrdə işləyənlər haqqında məqalə və kitablara rast gəlmək olur. Amma Dağıstan xalqları üçün Azərbaycanda milli kadrlar hazırlanmasından, Bakıda onlar üçün kitablar, jurnallar nəşr etdirilməsindən, milli ədəbiyyatlarının formalaşdırılması sahəsindəki işlərdən son 50-60 ildə, demək olar, ciddi bir əsər ortaya qoyulmayıb. Bu mövzu elə bil yaddan çıxıb. Rəsmi dairələrimiz də Dağıstan ziyalılarına diqqəti

azaldıb. Dövri mətbuatda hərdən bir Azərbaycan-Dağıstan iqtisadi əlaqələrindən bəhs edən yazılara rast gəlmək olur.

Dağıstanda yaşayan Azərbaycan doğumlular valideynlərini görməyə, xeyirdə-şərdə iştirak etməyə can atırlar. Lakin sərhəd keçid məntəqələrindəki bürokratik əngəllər onların istəklərini reallaşdırmağa imkan vermir.

Dağıstanda yüzillər boyu hər bir xalq və etnik qrup kəndində öz dilində danışıb. Kənddən kənara çıxanlar, qonşu xalqlar və etnik qruplarla əlaqə saxlamalı olanda isə türk dilindən istifadə ediblər. Ümumiyyətlə, təkcə Dağıstanda deyil, Quzey Qafqazda yaşayan xalqlar arasında yüzillər boyu ünsiyyət vasitəsi türk dili olub.

Bolşeviklər hakimiyyətə gəldikdən sonra Çar Rusiyasının həyata keçirə bilmədiyi bir işi qısa zamanda reallaşdıra bildilər. Ərəb əlifbasını dəyişməklə, islam dinini yasaqlamaqla rus dilini xalqlar arasında ünsiyyət dilinə çevirməklə kifayətlənmədilər, ruslaşdırma siyasətini də gücləndirdilər. Milli aydınlar belə evlərində rus dilində danışmalarından narahatlıqlarını gizlətmirlər.

Sovetlər Birliyinin dağılması Dağıstanda da xalqların özünə qayıdışını sürətləndirdi. İslam dininə maraq artdı. Təəssüf ki, ənənəvi nəqşibəndilik,

şafilik, hənəfilik inkişaf etdirilmədi. Yaranmış boşluqdan sələfilər, vəhabilər, yeqova şahidləri və başqa təriqətlər bacarıqla istifadə etməyə başladılar. Buna Rusiyanın hakim dairələri də bilərək şərait yaratdılar. İndi də təriqətlərarası ziddiyyətləri qızışdırırlar. Onlar bundan məharətlə istifadə edərək xalqların bir inanc, bir amal ətrafında birləşməsini əngəlləyirlər.



Şəkildə: soldan 1. Dağıstan Dövlət Pedaqoji Universitetinin professoru Eldar Hacıyev, 2. -, 3. Krımlı İsmail Kərimov, 4. İstanbul Universitetinin professoru Nuri Yüce, 5. Dağıstan Dövlət Pedaqoji Universitetinin professoru İmperiat Xalipayeva və 6. Əli Şamil

Dağıstanda yaşayan xeyli araşdırıcı tanışım olsa da, onlarla görüşə bilmədik. Yay tətili olduğundan

hərə bir iş dalınca getmişdi. İmperiat Xalipayeva və Eldar Hacıyevlə bir süfrə arxasında əyləşib dərdləşdik. Kənardan qulaq asan olsa, bizim hansı ləhcədə danışdığımızı müəyyənləşdirməyə çətinlik çəkərdi. Türkiyə türkcəsinin, Azərbaycan türkcəsinin və qumuq ləhcəsinin qarışığında danışırdıq. Bir-birimizi anlamaqda da çətinlik çəkmirdik. Əksinə, özümüzü çox rahat hiss edirdik.

1990-cı illərdə qumuqların yaratdığı "Tenlik" təşkilatını bərpa etməyin mümkün olub olmadığı ilə, qumuq dilində nəşr olunan qəzet-jurnal və kitablarla, radio, televiziya verilişlərinin həcmi ilə maraqlanırdım. Onlar da suallarıma cavab verirdilər. Bu cavabların çoxunda bir inciklik və giley var idi. Onların gileyləri yalnız Azərbaycan hökumətindən və ziyalılarından deyildi, Türkiyədən, Qazaxıstandan, Özbəkistandan da incik idilər. Daha çox umuküsüləri isə Azərbaycana idi. Azərbaycanın heç olmasa, 20-ci yüzilin başlarında Dağıstana göstərdiyi diqqətin təkrarlanmasını istəyirdilər.

İmperiat xanım 2008-ci ildə nəşrinə başladığı "Türk dünyası belleteni" (Dağıstan Dövlət Pedaqoji Universitetinin nəzdində elmi məqalələr toplusu) adlı jurnala buradan az məqalə göndərildiyindən, Azərbaycan kitabxanalarının və elm ocaqlarının bu dərgini almadıqlarından narazılığını bildirirdi.

Rusiya Ali Attesstasiya Komissiyasının siyahısına salmadığı elmi məqalələr toplusunun Azərbaycanda siyahıya salınmasına çalışırdı. Düşünürdü ki, bəlkə onda jurnalın nüfuzu artar, məqalə göndərənlərin sayı çoxalar. Beləcə, Dağıstanda Türkiyə türkcəsində və türk xalqlarının dillərində nəşr olunan nüfuzlu bir jurnal meydana çıxar. Jurnal ətrafında daha çox araşdırıcı toplaşar.

İmperiat xanım mətbəəyə göndərməyə hazırlaşdığı jurnalın son sayının maketini göstərdi. Azərbaycanda Murad Adcını tanıyan, kitablarını həvəslə oxuyan araşdırıcıların sayı çox olsa da ona həsr olunmuş nömrədə həmyerlilərimizin sayı yox dərəcəsində idi. Məqalə yazacaqlarını söz verənlər də sözlərini tutmamışdılar. Araşdırıcılarla yalnız elmdən, ədəbiyyatdan, tarixdən söhbət etmirdik. Bölgədəki dini cərəyanların durumu da onları bir vətəndaş kimi narahat edirdi. Çar Rusiyası zamanı burada nəqşibəndilik geniş yayılıbmış. Şeyx Şamilin rəhbərlik etdiyi müridizm hərəkatının da əsas dayağı nəqşibəndilik idi. İsmayıl Siracəddin Şirvani (o, Kürdəmirdən doğulub-1782-1848) və onun müridləri nəqşibəndiliyin yayılmasında və bu dini cərəyanın işğalçılara qarşı xalqı səfərbər etməsində böyük rol oynayıblar.

Çar məmurları İsmayıl Siracəddin Şirvaninin nüfuzundan və apardığı təbliğatdan yaxa qurtarmaq üçün onu öncə Axısqaya, oradan da Amasyaya (Osmanlı dövlətində şəhər) sürgün edib. İsmayıl Şirvani isə təqib və təzyiqlərə baxmayaraq, ömrünün sonuna kimi müridizm hərəkatına ideoloji və maddi yardım edib. Onun müridlərindən Xas Məhəmməd Yaraqlının və Küllülü (İndiki Ağsu rayonunda kənd – Ə.Ş.) Hacı Əhməd Əfəndinin (?-1856) Dağıstanda təsiri böyük olmuşdur. Qafqazı işğal edən rus generalı A.P.Yermolov 1825-ci ildə Xas Məhəmməd Yaraqlını həbs etdirir. Müridləri isə onu həbsdən qaçırıb Tabasarana aparırlar. O, gizli fəaliyyətini davam etdirir və 1838-ci ildə Soqratlı kəndində dünyasını dəyişir.

General-leytenant, knyaz V.O.Behbudovun (1791-1858) Rusiya Daxili İşlər Nazirliyinə 1846-cı il sentyabrın 6-da göndərdiyi 552 saylı raportda Küllülü Hacı Əhməd Əfəndinin iki müridi ilə Tambov quberniyasına sürgün edildiyi göstərilir.

Çar Rusiyası dönəmində ən çox nəqşibəndilər təqib və təzyiqlərə məruz qalırdılarsa, bolşeviklər silah gücünə hakimiyyəti ələ aldıqdan sonra bütün dinlərə qarşı mübarizə elan etdilər. Sovetlər Birliyinin çöküşü bölgədə dini təbliğatın genişlənməsinə imkan yaratdı. Necə deyərlər, bütün

təriqətlərə geniş meydan açılsa da, rəsmi dairələr vəhabiliyin yayılmasında maraqlı oldular. Sonra da vahabilərə qarşı təqiblər başladı. Mətbuat, radio və televiziyada vəhabilər terrorçu təşkilat kimi tanıdılmağa çalışıldı. Ölkədə baş verən bütün kriminal hadisələr onların adına yazıldı.

Hüquq mühafizə və xüsusi xidmət orqanlarının əməkdaşlarının Moskvanın göstərişilə kimi istəsələr vəhabi, terrorçu adı ilə həbs etmələri, öldürmələri dağıstanlı araşdırıcıları bərk narahat edir. Necə deyərlər, bölgədə at izi it izinə qarışıb.

Bölgədə hənəfiliklə şafiliyin az qala bir təriqət kimi yayılması da diqqətimi çəkdi. Şafiliyin yayılması Azərbaycanla münasibətlərin qədim ənənəyə qayıtmasında böyük rol oynaya bilər. Azərbaycan-Dağıstan əlaqələrindən söhbət edərkən xan qızı Xurşud banu Nətəvanın əri rus generalı Xasay xan Usmiyev, onun nəsli və bu nəslin faciəvi taleyini də yada salırıq.

Dağıstan şamxallarından olduğuna görə ruslar onları knyaz adlandırıblar. Rusiya ilə əməkdaşlığa məcbur olan Usmiyevlər ailəsinin övladlarını çar məmurları Peterburqa aparıb orada təhsil və hərbi rütbə verib vəzifəyə təyin etsələr də, həmişə onlara şübhə ilə yanaşıb, üzərlərində daimi gizli nəzarət qoyublar. Xasay xan Usmiyevin (1808-1867) ömür

yolunu izləyəndə bunu aydın görmək olur. 1808-ci ildə Yaxsayda general Musa Usmiyevin ailəsində doğulan Xasay xan Usmiyev 1866-cı ildə vəzifəsindən azad edilərək Voronejə sürgünə göndərilib. 1867-ci il aprelin 21-də orada dünyasını dəyişib.

Yaxsayı görə bilmədim

Mahaçqaladakı görüşümüzdə professor Eldar Hacıyev və İmperiat Xalipayeva ilə mədəniyyət və elm mərkəzi olan Yaxsaydan, oradakı mədrəsədən və mədrəsənin məzunları olan Yusup Axsavi (Qılıcyev), Muhammet Efendi Osmanov, Minay Alibekov, Nuxay və Zeynalabdin Batırmurzayevlər, Abdulla Mahammedov, Alim Paşa Salavatov, Abdul Vahab Süleymanov, Siraceddin Toqbolatov, Şarip Aliberiyev, Mahammad Atabayev, Latip Hajaqayev, Mahammad Amin Adilxanov, Yunus Alimxanov kimi şair, yazıçı, publisistlərdən, Ahmat Sayıp Əfəndi kimi araşdırıcı müəllimlərdən, Rəşid xan Qaplanov kimi dövlət xadimindən, rus yazıçısı Bulqakovun dostu və onunla birlikdə pyes yazmış, uzun illər Vladiqafqazda hüquqşünas işləmiş Tajuttin Penzullayev və başqalarından danışdıq. Seyid Əzim Şirvani də Yaxsay mədrəsəsində oxuyub. Yalnız qumuqların deyil, Quzey Qafqazda yaşayan

xalqların övladlarının çoxu Yaxsay mədrəsəsində oxuyub.

Təəssüfləndik ki, mədrəsə haqqında indiyədək ciddi araşdırmalar aparılmayıb, sanballı kitablar, məqalələr yazılmayıb. Eldar Yaxsay məscidinin imamı ilə dost olduğunu söylədi. Ona zəng vurub xeyli danışdı. Mənim mədrəsə ilə bağlı fakt toplamaq üçün Yaxsaya getmək istədiyimi bildirdi. Çox şirin söhbət etdilər. Eldar kənddə yaşayan Anvar Baysunqurovun Yaxsay mədrəsəsi ilə bağlı çoxlu material topladığını, muzey açmağa can atdığını söylədi.



Şəkildə: Qumuq professoru Eldar Nəbi oğlu Hacıyev

Yaxsay yolumuzun üstündəki Xasavyurd şəhərindən 15-17 kilometr aralıda idi. Eldar Hacıyevin söhbəti və verdiyi bilgi ürəyimdən oldu. Düşündüm ki, arzumu reallaşdırmağa yaxşı imkan yaranıb. Yolüstü Yaxsaya gedər, vaxtilə o mədrəsənin məzunu olmuş Seyid Əzim Şirvani haqqında da bilgilər toplayaram. Planımı Eldar Hacıyeva bildirdim. O, təklif etdi ki, Yaxsaya kimi onun maşını ilə gedək. Orada tanıdığı adamlarla görüşək, bilgilər toplayaq. Sonra da bizi gətirib Xasavyurddan Vladiqafqaza gedən taksilərlə yola salsın. Sözarası yol məsrəflərini ödəyəcəyimi söylədim. Eldar Hacıyev etiraz etmədi.

Restorandan ayrılıb biz otelə, qumuqlar isə evlərinə yola düşdülər. Səhər tezdən yola düşmək üçün hazırlaşırdıq ki, bir telefon zəngi gəldi. Zəng edən İmperiat xanım idi. Utancaq bir tövrlə dedi ki, Yaxsayda görüləsi elə bir şey yoxdur. Mədrəsənin binası Sovet dövründə uçurulmuşdu, indi yerində məscid tikilib. Çeçenistanla sərhəddə olduğundan oranın rusları və yerli məmurları ciddi həssaslıqla yanaşırlar. Siz orada gəzib, bir-iki şəkil çəkdirsəniz, görüşdüyünüz adamları sorğu-suala tutacaqlar.

İmperiat Xalipayevanın söhbətindən anladım ki, onlar bizdən ayrılandan sonra kimlərləsə məsləhətləşiblər. Eldar Hacıyev bizimlə Yaxsaya

getmək fikrindən daşınıb. Özü bunu deməyə utandığından İmperiat xanıma dedirdib. Mən də İmperiat xanımı sakitləşdirməyə çalışdım. Yaxsaya getmək planımızı dəyişdirdiyimizi dedim. İmperiat xanım məsləhət gördü ki, Vladiqafqaza avtobusla getsək, yaxşı olar. Taksilərlə getsək, yolda rus hərbçiləri, polisləri bizi daha çox çək-çevirə salarlar. Mən də ona təşəkkürümü bildirdim və avtobusla gedəcəyimizi söylədim.

Acıbiylə söhbət

Mahaçqaladan Vladiqafqaza gedən avtobusa öncədən bilet sifariş etmək istədim. Otelin qeydiyyatçısı, bir müddət Türkiyədə işləmiş xanım idi. Dedi: "Özünüzü yormayın, öncədən bilet sifariş verə bilməyəcəksiniz. Biletləri avtobusun yola düşməsinə bir-iki saat qalmış satırlar".

Rahatsız olduğumuzu gördükdə belə bir təklif etdi: "Bizim otelin xidmətindən əsasən türkiyəli qonaqlar istifadə edir. İşimizi Türkiyədəki kimi qura bilməsək də, onları yamsılamağa çalışırıq. Tanıdığımız taksi sürücüləri var, qonaqlarımızın çoxunu onlar qarşılayır və yola salır. Narazılıq edənini görməmişəm. İstəyirsiniz onlara deyim sizi aparıb yola salsınlar". Razılaşdım. Səhər yeməyi üçün

aşağı enəndə otel işçisi taksi sürücüsünün gəldiyini söylədi və əlavə etdi ki, rahat yeməyinizi yeyin, taksi sizi gözləyəcək.

Sürücü ilə görüşdük. Gənclərin çoxunun səhər tezdən evdən çıxarkən tənbəlliklərindən qəlyanaltı etmədiklərini bilirdim. Ona görə də taksi sürücüsündən bizi otelin yeməkxanasına aparmasını xahiş etdim. Yeməkxanada birlikdə qəlyanaltı etməyi təklif etdim. O, təşəkkürünü bildirib geri dönmək istəyəndə: "Dağlılar qonaqpərvər olur. Bəs sən qonağı qoyub hara gedirsən? Əyləş, qəhvəaltı edək, bir az da söhbətləşək. Dağıstanı mənə tanıt", – dedim. Gülümsədi və utancaq bir görkəmlə bizimlə bir süfrədə oturdu.

Adını soruşdum. Adının Acıbiy olduğunu dedi. Mən də özümün, xanımımın adını dedim və vizit kartımı verdim. Həmin dəqiqə vizit kartını diqqətlə gözdən keçirərək: "Neçənci azərbaycanlıdır ki, vizit kartının öz dilində və ingilis dilində yazıldığını görürəm. Nədən rus dilində yazmırsınız?" – sualını verdi. "Əsarətlərində olduğumuz 200 ildə rusların çox yaramazlıqlarını gördük, ona görə", – dedim.

Fikrə getdi və heç bir cavab vermədi. Mən ondan: "Haralısan?", – deyə xəbər aldıqda "mahaçqalalıyam", – dedi. Mən bir də soruşdum: "Harada doğulubsan demədim, atanın-babanın haralı

olduğunu soruşdum". Gülümsəyərək: "Biz də haralısan deyəndə babalarımızın yaşadığı yerin soruşulduğunu başa düşürük. Ata-babam tabasaranlıdır. 1960-cı illərdə "kiçik dağ kəndlərinə yol çəkmək, orada məktəb, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana açmaq sərfəli deyil", – deyərək əhalisini köçürüb qumuqlar yaşayan bölgələrdə, Xasavyurd və Dərbənd ətrafına yerləşdirdilər. Babamgil deyir ki, dağdan köçənlər Xəzəryanı ovalığının isti havasına, suyuna, üzüm və tərəvəz əkməyə alışa bilmədilər. Bir çoxu öldü. Babamgili də Xəzər ovalığına köçürüblərmiş. 1990-cı illərdə kəndlərdə iş olmadığından atamgil Mahaçqalaya köçüb. Mən də Mahaçqalada doğuldum, orta məktəbi də, universiteti də burada oxudum. İki ali təhsil diplomum olsa da, ixtisasıma uyğun iş tapa bilmirəm. Özümü dolandırmaq üçün taksi işlədirəm", – dedi.

– Bir zaman Azərbaycanda Tabasaranski familyalı adamlar olub, özü də rəhbər vəzifədə işləyiblər. İndi Tabasaranski familyasına heç rast gəlmirəm. Bilmirəm uşaqları köçüb gedib, ya familyalarını dəyişiblər, – deyəndə elə bil Acıbiyin gözləri parladı.

– Dostlarımla ildə bir-iki dəfə Bakıya gedirik. Mən də heç Tabasaranski familyasına rast

gəlməmişəm. Bakı gündən günə gözəlləşir. Mahaçqalaya baxan yoxdur. Binalar köhnədi, nə onları təmir edən var, nə yollara asfalt döşəyən, nə də yeni parklar salan, – dedi.

Qəlyanaltını etdikdən sonra yol çantalarımızı gətirib taksiyə əyləşdik. Acıbiy Türkiyə və Azərbaycanda yaşamağı çox arzuladığını dedi. Mən Azərbaycanda və Türkiyədə dağıstanlıların sayının az olmadığını deyəndə Acıbiy "Türkiyədə ləzgilərin toplu yaşadığı yerdə yaşamaq istəmərəm", – cavabını verməsi məni çox heyrətləndirdi.

– Niyə? – deyə xəbər aldım.

– İki səbəbdən. Birincisi, şovinistdirlər. Məni görən kimi ləzgicə danışırlar. Məndən də ləzgi dilində danışmağımı istəyirlər. Rus dilini bilmirlər. Aramızda problem yaranır. İkincisi, onların əksəriyyəti dindardır. Mənim də onlarla birlikdə məsciddə namaz qılmağımı, içki içməməyimi istəyirlər. Heyif deyil Antalya, Alanya. Orada hamı rus dilini bilir. Məscidlərin, camilərin sayı az, restoranların sayı çoxdu. Günün nə vaxtı, harada istəsən içə bilərsən, – dedi.

Mən gülərək:

– Bəs Azərbaycan necə? – sualını verdim.

– Azərbaycanda yaşamaq çətindir. Ora milyonerlər məskənidir. Yaxşı pul yığmağın üçün

gərək böyük bir vəzifən ola. Oğurluq-doğurluq yığdığın pulları da bir gün ilişdirib əlindən alırlar. Oraya gəzməyə, yeyib-içməyə getmək yaxşıdır, – dedi.

Söhbətindən belə başa düşdüm ki, Bakının muzeylərini, tarixi yerlərini tanımır. Orada qohumları, yaxından tanıdıqları, dostları da yoxdur. Tanıdığı otel və restoranlardır. Belə başa düşdüm ki, min bir zəhmətlə qazandığı pulları əyləncə mərkəzlərində xərcləyir.

Mövcud olmayan dövlətin işğal olunmuş torpaqları

Sadə və yeyib-içmək həvəskarı olan Acıbiy söhbət arası Azərbaycandan narazılığını da bildirdi. Müsahibim gömrük keçid məntəqələrindəki basırıqdan, qaydalara əməl edilməməsindən, polis özbaşınalığından, qiymətlərin bahalığından deyil, "Ləzgistan"ın böyük bir parçasının Azərbaycan tərəfindən işğal edilməsindən gileylənirdi.

– Harada, hansı ölkədə yaşayırsan? – sualım onu çaşdırsa da, nə demək istədiyimi öyrənmək üçün həvəssiz "Dağıstanda" deyə cavab verdi.

Təkrar xəbər aldım: "Xaricə hansı ölkənin pasportuyla gedirsən?" Rusiya Federasiyasının

pasportu ilə getdiyini bildirdi. Yenə sual verdim: "Ləzgistan, Tabasaran dövləti haradadır? Niyə Ləzgistan, Tabasaran dövlətinin pasportu ilə xaricə getmirsən?"

Bir xeyli fikirə getdi. Təkrar xəbər aldım: "Sizin torpaqları kim işğal edib, Azərbaycan, yoxsa Rusiya?" Nə demək istədiyimi başa düşdü. "Rusiyanın pasportunu daşıyıramsa, demək, Rusiyanın işğalı altındayıq", – cavabını verdi.

Könlünü almaq üçün zarafatla dedim: "Sən Rusiya işğalından qurtarıb Ləzgistan, Tabasaran dövləti quranda gələrsən yanıma, Azərbaycandan istədiyin əraziləri sənə verəcəm".

Ağır-ağır:

– Bu mümkün olan iş deyil, – dedi.

– Dinimiz bir, mədəniyyətimiz bir. Yüz illər boyu eyni dövlətlərin tərkibində yaşamışıq. Aramızda milli zəmində heç bir toqquşma olmayıb. Dilinizi də unutdurmağa çalışan olmayıb. Son 50 ildə ləzgilərin, avarların, darginlərin, bir sözlə, Dağıstanda yaşayan xalqların əksəriyyətinin dili unutdurulub. Çox vaxt evdə övladlarınızla da rus dilində danışırsınız. Sovetlər Birliyi dağılandan sonra əksəriyyətiniz Türkiyədə yaşamaq istəyirsiniz. Nədən Rusiyada yaşamaq istəmirsiniz? Bunu heç düşünübsənmi? – dedim.

– Bunu heç fikirləşməmişdim, gərək bu haqda yenə də götür-qoy edəm, – dedi.

Avtovağzala çatanda Vladiqafqaza gedəcək avtobusun sürücülərinə bizi qohumları kimi tanıtdı. Yolda nə problemimiz olsa, onun həllinə kömək etməsini tapşırdı. Avtobusun bilet pulunu da özü ödədi. Biletləri bizə verəndə taksi xidmətinin və avtobus biletinin pulunu ona rublla verdim. Xahiş etdi ki, mümkünsə, ona rubl deyil, manat və ya dollar verim. Böyük həvəslə istəyini yerinə yetirdim. Qürur hissi keçirdim ki, Azərbaycan manatına Rus rublundan çox dəyər verirlər.

Avtobusun qapısının aşağısında karikatura vurulmuşdu və altından da rus dilində "Trampın və Obamanın girişi qadağandır" yazılmışdı. Bu karikatura və yazı mənə çox qəribə gəldi. Odur ki, Acıbiydən soruşdum:

– Tramp, Obama Dağıstana gəlib və ya gələcəyi gözlənilir?

O heyrətlə üzümə baxaraq:

– Yox, – dedi.

Mənim sualımın mənasını başa düşmədiyini görüb avtobusun qapısının aşağısındakı karikaturanı və yazını göstərdim. Bərkdən gülərək:

– Onu mən də görmüşəm, amma əhəmiyyət verməmişəm. Sizin nə tez diqqətinizi çəkdi, – dedi.

Mən heç bir cavab verməsəm də, Acıbiy avtobus sürücüsünü yanına cağırdı və gülərək ondan xəbər aldı:

– Sənin ağlın yerindədir? – deyə xəbər aldı.

Avtobus sürücüsü, görünür, qonaqlarının yanında ona sərt cavab vermək istəmədi. Sual dolu nəzərlərlə üzümüzə baxdı. Acıbiy avtobusun qapısındakı şəkli göstərib dedi:

– Tramp, Obama Dağıstana gəlsə, milyon dollar da versən, sənin köhnə avtobusunun yanından keçməz. Dağıstanın prezidentinin "Mersedes"inə də minməz. Putin qarşılayıb gəzdirər. Təyyarə ilə Amerika cipləri gətirərlər ki, dağları gəzdirsin. Sənin köhnə avtobusunu da onun keçəcəyi yollara buraxmazlar.

Avtobus sürücüsü sanki yuxudan ayılaraq:

– Türkiyəlilər[1] sənin başını xarab edib, yoldan çıxarıb, – deməklə canını qurtarmaq istədi.

Acıbiy: "Qohumlarım Türkiyəli deyil, Azərbaycandandır. Onlar da bir zaman bizim günümüzdə idilər. Bizdən ayıq çıxdılar. SSRİ-dən ayrıldılar. İndi bizim axmaqlıqlarımızı həmin dəqiqə görür və bizə gülürlər", – dedi. Avtobus sürücüsü onun sözündən incimədi. Gülümsəyərək

[1] Rus dilində Türkiyə Cümhuriyyəti vətəndaşlarına турк (turk), türk irqinə mənsub şəxsə isə тюрк (tyurk) deyilir.

ayrıldı. Mən avtobus sürücüsünün milliyətini xəbər alanda Acıbiy dedi ki, orta məktəbdə bir sinifdə oxumuşuq, ləzgidir. Yaxşı oxuyurdu. İdman yarışlarında da fəal iştirak edirdi.

– Elə bildim avardır, dargindir, noqaydır və ya başqa xalqdandır, ləzgicə bilmir. İkiniz də ləzgisinizsə, nədən bir-birinizlə rus dilində danışırsınız?

Acıbiy günahkarcasına, sakit səslə "Ləzgilərin dili ilə tabasaranlıların dili arasında da fərq var", – deyəndə mən gülümsəyərək dedim:

– Bayaqdan Azərbaycanın "Ləzgistan" torpaqlarını işğal etdiyindən gileylənirdin, indi isə tabasaranlıların ləzgi olmadığını deyirsən.

– Siz babama oxşayırsınız. O da tez-tez səhvimi tutur. Babam sizin dili yaxşı bilir. Mən türkcə danışanda bəyənmir. Mən də vəziyyətdən çıxmaq üçün deyəndə ki, ay baba, mən Azərbaycan dilində danışmıram, türk dilində danışıram. Mənə hirslənir, deyir: "Nə fərqi var, ikisi də eyni dildir. Adlarını fərqləndiriblər". Babam Bakıda oxuyub. Onlara Türkiyədən gələn müəllimlər dərs deyirmiş. Sizin onunla söhbətiniz yaxşı tutar. Geri dönəndə zəng vurun, gəlib sizi qarşılayım. Sizi kəndə, babamgilə qonaq aparacam. Sovet hökuməti kiçik kəndləri rentabelli olmadığına görə köçürdü. Sovetlər

yıxılandan sonra rüşvətxorlar, korrupsionerlər xaraba kəndlərdə villalar tikdirdilər, elə villalar ki, Nadir şahın sarayı onların yanında daxmaya oxşayır. Rahat gedib-gəlsinlər deyə asfalt da çəkdilər. O kəndlərə çəkilən asfalt Mahaçqalanın küçələrinin asfaltından yaxşıdır.

Acıbiy biletlərimizi köhnə "İkarus" avtobusunun sağ tərəfindəki oturacaqlara almışdı ki, yol boyu gün bizi az vursun. O, çantalarımızı baqaja verib sağollaşdı. Keçib yerlərimizdə əyləşdik. Acıbiy əlindəki buz kimi iki şüşə limonadla yanımıza gəldi. Bizə verərək "Yolda içərsiniz", – dedi və telefon nömrəsi yazılmış kağız parçasını da ovcuma basdı.

Mahaçqaladan Vladiqafqaza yolçuluq

Rusiyanın Güney-Quzey avtomagistralı Dağıstandan keçir. Biz də bu yolla Xasavyurda doğru irəliləyirik. Dünyanı titrədən hərbi gücə malik, kosmosu fəth etmiş bir ölkənin avtomagistralının bərbadlığı bu ölkədə insanın rahatlığının həmişə sonuncu planda olduğunu göstərir. 70-80 kilometr yolu 3 saata gedə bildik. Avtobus Xasavyurda çatanda yola düşəcəyimiz vaxt haqqında heç bir bilgi almadan yarım saata yaxın gözlədik. Bura bir keçid məntəqəsidir. Quzey Qafqazın bir

çox bölgələrindən Rusiyaya gedən avtobuslar buradan keçir. Dağıstana getmək istəyənlər də Rusiyaya gedən avtobuslardan burada enib başqa marşrutlara minirlər. Normal gözləmə salonu, yeməkxanası, çayxanası olmayan avtodayanacaqda bir saat gözləmək adamın səbrini daraldır.

Çeçenistan sərhədinə yaxınlaşanda zirehli geyimdə olan hərbçilər avtobusa minib sənədləri yoxladılar. Bəzi adamların çantalarını da baqajdan endirib çək-çevir etdikdən sonra getmələrinə icazə verdilər. Açıq-aydın hiss olunurdu ki, bu yoxlamalar pul qoparmaq üçün bir vasitədir.

Çecenistanda isə vəziyyət tamam başqa idi. Yolu kəsmiş fiziki cəhətdən sayseçmə, zirehli geyimdə, əlində avtomat olan hərbçilər bütün maşınları saxlayır, sənədləri və yükləri yoxlayır, xüsusən, gənc və orta yaşlı kişiləri dəmir vaqonda yerləşən keçid məntəqəsinə yollayırdılar. Yolun kənarındakı qum torbalarından düzəldilmiş səngərlərdə isə pulemyotun arxasında sayıq dayanmış əsgərlər növbə çəkirdilər. Yol kənarında bir neçə vaqon ev vardı.

Rusiya Quzey Qafqazda yollarda keçid məntəqələri yaradıb, onları müdafiə qurğuları ilə təmin edib, oradakı hərbçiləri döyüşə hazır vəziyyətə gətirib. Bununla bölgədə sabitlik, dinclik yaratdığını düşünür. Keçid məntəqələrinə

yaxınlaşanda sürücülərin sərt tormoz verməsi nəticəsində asfalta sürtülən təkərlərin səsi, eləcə də keçid məntəqələrindən çıxan sürücülərin maşınlarını əsəbiliklə yerindən tərpətməsinin doğurduğu səslər burada necə bir gərginlik hökm sürdüyündən xəbər verir. Yalnız yerli əhali deyil, buraya Rusiyanın müxtəlif guşələrindən dincəlməyə gələnlərin də, qonaqların da sifətlərindən elə bil zəhər yağır. Demək olar ki, səslərini bərkdən çıxarmasalar da, sakit səslə deyinirdilər.

Bizi avtobusdan endirdilər. Yüklərimizi və əl çantalarımızı alıb vaqon evlərə getməyimizi əmr etdilər. Azərbaycanla Rusiya arasındakı yoxlamadan daha sərt bir yoxlama ilə burada rastlaşdıq. Keçid məntəqəsində də yoxlamalar sakit keçmirdi. Bəzilərini yükləri ilə birlikdə başqa vaqon-evlərə aparırdılar. Bizim soyadımızın Şamil yazılması və pasportlarımızın Azərbaycan türkcəsində və ingilis dilində olması onları bərk qıcıqlandırmışdı. Sənədlərimizi yoxlayan podpolkovnik əsəbiliklə pasportumuza baxaraq: "Niyə rusca yazılmayıb?", – deyə xəbər alanda mən sakitcə: "Siz Xarici İşlər Naziri olanda göstəriş verərsiniz, pasportlarında rusca yazı olmayanları ölkəyə buraxmazlar," – dedim.

Yəqin, imkanı olsaydı, məni basıb döyərdi. Əsəbiliklə dedi:

– Siz dünənədək Sovet vətəndaşı idiniz. Bütün sənədləriniz rus dilində yazılırdı. İngilislərlə heç bir əlaqəniz yox idi. İndi sənədləri ingiliscə yazırsınız, rusca heç bir şey yazılmır. Biz də oxuyanda əziyyət çəkirik.

Mən təmkinlə və gülümsəyərək dedim:

– Sizin kimilərin davranışından SSRİ-dən ayrıldıq. SSRİ Avropa Birliyi kimi bir ittifaq olsaydı, heç kim ayrılmaq istəməzdi.

Yanında duran mülki paltarlı şəxs:

– Belələrini saxlama. Gələn kimi pasportlarına möhür vur, getsinlər. Bunlar həm bizi əsəbiləşdirir, həm də buradakı adamlara pis təsir edirlər, – dedi.

Hiss edirdim ki, imkanları olsa, pasportumu çırıb atar, özümü də bərk kötəkləyərlər. Çantalarımızı götürüb avtobusa gəldik. Hamı gəlib əyləşəndən sonra avtobus sürücüsü mənə müraciətlə:

– Yaxşı dediniz! Ürəyimizdən tikan çıxdı. Mən bir neçə dəfə Avropaya getmişəm. Maşınla neçə ölkəni dolanmışıq. Bir yerdə də bizi saxlayıb "Hara gedirsən", – deyən olmayıb. Burada isə hər 30-40 kilometrdən bir saxlayıb həm vaxtımızı alırlar, həm də qanımızı qaraldırlar. İnquşetiyada, Osetiyada da

saxlayıb sənədləri yoxlayacaqlar. Hər gün bunların kobudluğu ilə üzləşirik. Minlərlə insan əziyyət çəkir. Bu ölkədə məmurlar elə bil adamlara əziyyət verməkdən ləzzət alırlar, – dedi.

Avtobusdakılara da elə bir mövzu verdi. Əksəriyyəti yersiz yoxlamaların doğurduğu narahatlıqlardan danışmağa başladı. Avtobus sürücüsünün dediyi kimi də oldu. Yolda iki dəfə də saxlayıb sənədlərimizi yoxladılar. Amma bu yoxlamalar Çeçenistandakı kimi sərt olmadı.

Axşamüstü Vladiqafqaz avtovağzalına çatdıq. Orada rəhmətlik Aşıq İsgəndərin oğlu Murtuza bizi gözləyirdi.

Baş tutmayan geri dönüş planı

Murtuza İsgəndər oğlu ilə razılaşmışdıq ki, geri dönəndə yenidən Vladiqafqaza gedək. Bir neçə gün qalaq, azərbaycanlılarla görüşümüzü təşkil etsinlər. Oradan Qərbi Gürcüstan yolu (Kazbek aşırımından keçən yol Qərbi Gürcüstan yolu adlandırılır) ilə Borçalıya gedib, tələbəlik dostum Osman Əhməd-oğlunun qonağı olaq. Keçəli kəndindən uzun illər tanıdığım insanlarla dərdləşək.

Həmin günlərdə Moskva televiziyası gündə bir neçə dəfə xəbər verirdi ki, Kazbek aşırımındakı

sərhəd keçid məntəqəsində basırıq yaranıb. Adamlar üç gündür gömrüyü keçə bilmir. Növbələrə səbrim çatmadığından geri dönüş planını dəyişdik. Qatara bilet alıb birbaşa Bakıya gəldik.

15 sentyabr 2017-ci il

Qeyd: ***"Quzey Qafqaz sovetlərin çöküşündən sonra" məqaləsi Əli Şamilin "Yol dəftərimdən: Quzey Qafqaz, Ukrayna, Moldova və Güney Koreya" kitabından (Bakı, "Köhlən" nəşriyyatı, 2022, s. 15-100) alınaraq burada ixtisarla verilib.***

QUMUQ TÜRKLƏRİ ƏDƏBİYYATININ DÜNƏNİ VƏ BU GÜNÜ

Özət

19-cu yüzilədək qaynaqlarda qumuq ədəbiyyatı ifadəsinə rast gəlmirik. Rusiya Qafqazı müstəmləkəsinə çevirəndən sonra hakimiyyətini möhkəmləndirmək naminə xalqları bölmək, bir-birindən ayırmaq üçün bir çox "tələlər" qurdu. Bu məqsədlə yüzillər boyu yazılı ədəbiyyatı bir olan türklərin də hər bölgəsi, hər tayfası üçün yeni ədəbi dil, ədəbiyyat tarixi, tarix yaradıldı.

Muhammat Apendi (Əfəndi) Osmanovun 1883-cü ildə Sankt-Peterburqda yayımlatdığı "Ногайские и кумыкские тексты (Сборник ногайских и кумыкских песен, преданий, поговорок, пословиц)" qumuq ləhcəsində ilk kitab sayılır. Qumuqlardan toplanmış "Minküllünün yırı", Şumer dastanı "Bilqamıs"ı, "Eniligim, Seniligim, eşikni ac!" nağılı yenə də Şumerlərdən keçinin qurdla (və ya keçinin şirlə) savaşını, "Bozoğlan" nağılı "Kitabi-Dədə Qorqud"dakı "Bamsı Beyrək" boyunu, "Cavat biy" yırındakı qəhrəmanın ölüm mələyi Əzraillə savaşması "Kitabi-Dədə Qorqud"dakı Dəli Domrulu yada salır. "Koroğlu" nağılı "Koroğlu" dastanını

xatırladır. Bu cür oxşarlıqlar yalnız folklorda deyil, yazılı ədəbiyyatda da çoxdur.

Son illərdə qumuq yazılı ədəbiyyatının tarixini 15-ci yüzildə yaşamış Kamal Ummu Nuri ilə başlayırlar. Onun yayımlanmış şeirləri isə günümüzün qumuq türkcəsindəkindən çox Azərbaycan və Türkiyə türkcələrinə yaxındır. Araşdırıcıların bəziləri isə daha cəsarətli hərəkət edərək qumuqların ədəbiyyatını və tarixini Şumerlərdən başlayırlar. Beləcə qumuqlar arasında ümumtürk ədəbi abidələrini ədəbiyyat tarixlərinə daxil etmək və onu öyrənmək meyli gündən-günə artır.

Rus-Sovet müstəmləkəçiləri 150 ildə qumuq dili, qumuq ədəbiyyatı yaratmağa çalışsalar da qumuqlardan toplanmış folklor örnəkləri, hətta günümüzün qumuq yazıçılarının əsərləri bizimkilərdən sadəcə ləhcəsinə görə fərqlənir. Düşüncə, üslub, mövzu, sözlük etibarı ilə isə onlar ümumtürk ədəbiyyatının bir parçasıdır.

Məqalədə Ummu Kamal (15-ci yüzil), Abdulrahman Atlıboyunlu (19-cu yüzil), Yırçı Qazaq (1830-1879), Muhammat Apendi Osmanov (1838-1904), Abusufyan Akayev (1872-1931), Manay Alibekov (1861-1920), Nuxay (1865-1919) və Zeynalabid (1865-1919) Batırmurzayevlər,

Abdulla Mahammadov (1864-1937), Temirbolat Biybolatov (1879-1942), Nabi Xanmurzayev (1893-1950), Bahautdin Astemirov (1898-1967), Alim Paşa Salavatov (1901-1942), Abdul Vahab Suleymanov (1909-1995), Yusup Qereyev (1903-1941), Atqay Acamatov (1910-1998), Kamil Sultan (1911-2002), Rəsul Rəsulov (1912-1977), Anvar Hajıyev (1914-92), İbrahim Kerimov (1922), Mahammadsoltan Yahiyayev (1923-2007), Srajdin Tokbolatov (1923), Şarip Aliberiyev (1926), Abdulla Abakarov (1928), Abdulmejit Məjidov (1936), Muhammatşapi Minatullayev (1937), Muhammat Atabayev (1938), Muhammatnabi Xalilov (1941), Badrutdin Mahammedov (1943), Şeyit Xanım Alişeva (1949), Atav Atayev (1949), Jeminat Kerimova (1949), Bahavutdin Hacıyev (1950), Supiyan Mamayeva (1958), Abdulkerim Zalimxanov, Nabiulla Mahammadov və b. qumuq ədiblərinin ömür yolundan və yaradıcılığından söz açılır.

Açar sözlər: Qumuq və Azərbaycan türklərinin ədəbiyyatı, “Minküllünün yırı”, “Bozoğlan” nağılı, ümumtürk ədəbiyyatı.

Giriş

“Qumuq” sözünə rast gəlinən ilk qaynaq Mahmud Kaşğarinin “Divanü luğat-it-türk” əsəridir. Lüğət müəllifi bu sözü “bir zaman yanında olduğum bəylərdən birinin adı” kimi izah edir. Qumuqların yayılma arealı noqaylar, tatarlar, qazaxlar kimi geniş deyil. Toplu halda Azərbaycanın quzeyində, yəni Rusiya Federasiyasının Dağıstan Respublikasında, az qismi isə qonşu İçkeriya (Çeçenistan), İnquş, Quzey Osetiya Respublikalarında və Türkiyənin Üçqozen, Kuşoturağı, Yavu, Ataköy, Doqan, Azize, Keyikqırı kəndlərində (Xalipaeva, 1993: 82) yaşayırlar. 2002-ci ilin siyahıyaalmasında Rusiya Federasiyasında qumuqların sayının 425 min nəfər olduğu göstərilir. Onlardan 365,8 min nəfərinin Dağıstanda, 12 min nəfərinin İçkeriyada (Çeçenistan), 15 min nəfərinin Quzey Osetiyanın Mazdok rayonunda toplu halda, qalanının Rusiya Federasiyasının müxtəlif bölgələrində dağınıq halda yaşadığı göstərilir. Türkiyədə də 10 min nəfərdən çox qumuğun yaşadığını yazırlar.

İnternet saytlarında isə qumuqların sayı yarım milyondan çox göstərilir. Qumuqların əksəriyyəti rus dilini ana dili kimi bilsə də, bu dildən ictimai yerlərdə, hökumət idarələrində ünsiyyət vasitəsi

kimi istifadə etsə də, öz aralarında ana dilində danışmağa üstünlük verirlər.

Qumuqların yaşadığı Dağıstan Respublikası sanki bir xalqlar, dillər muzeyidir. Orta yüzilliyin ərəb səyyah və coğrafiyaçıları da buranı "cebel-ül elsan", yəni dillərin dağı, çox ellər yaşayan dağ adlandırmışlar. Burada radiolar hər səhər 33 dildə yerli xalqları salamlamaqla verilişlərinə başlayır. Bu isə orada yaşayan xalqların və etnik qrupların hamısı demək deyil. Rəsmi qəzet-jurnallar, kitablar isə əsasən 14 dildə: qumuqların, noqayların, avarların, darginlərin, ləzgilərin, lakların, Azərbaycan türklərinin, tabasaranlıların, saxurların, rutulların, aqulların, tatların, çeçenlərin, rusların dillərində nəşr olunur. Ümumtəhsil məktəblərində 14 dildə dərs keçilir. Bu dildən biri də qumuq dilidir. Bölgənin ən qədim xalqlarından biri olmasına baxmayaraq müasir qumuq ədəbiyyatı 19-cu yüzildən formalaşmağa başlamışdır. Çünki qədim dövrlərdən ta 20-ci yüzilədək nəinki türksoylu qumuqlar, hətta bölgədəki türk olmayan, fərqli dil ailələrinə daxil olan xalqlar belə türk dilindən ümumi ünsiyyət vasitəsi kimi istifadə etmişlər. 1937-ci ilədək qumuq dili Dağıstanda rəsmi dövlət dili sayılırdı.

Qumuq şairlərinin yazdıqları şeirlər Azərbaycanda da, Krımda da, Kazanda da, Türkmənistanda da, Özbəkistanda da tərcüməsiz başa düşülmüşdü.

Rusiya işğal etdiyi ərazilərdə hakimiyyətini uzunömürlü etmək üçün "Parçala, hökm sür!" siyasəti yeritmiş, türk xalqlarını bir-birindən ayırmaq üçün az qala hər tayfadan bir xalq yaratmağa çalışmışdı. Yüzillər boyu yazılı ədəbiyyatı bir olan türklərin də hər bölgəsi, hər tayfası üçün yeni ədəbi dil, ədəbiyyat tarixi, tarix yaradılmışdı. Əslində bu türk xalqlarını bir-birindən ayırmaq siyasəti olsa da onlarda milli şüurun inkişafına da təkan vermişdi.

1917-ci ildə çar Rusiyasında son həddə çatan daxili qovğalar 300 illik Romanovlar sülaləsinin hakimiyyətdən uzaqlaşdırılması ilə nəticələnmişdi. Fevralda Kerenskinin başçılığı ilə yeni yaradılmış Müvəqqəti Hökuməti 1917-ci il oktyabrın 25-də (yeni təqvimlə noyabrın 7-də) bolşeviklərin silah gücünə hakimiyyətdən uzaqlaşdırması vəziyyəti daha da gərginləşdirmişdir. Bu qarışıqlıqdan istifadə edən əsarət altına alınmış xalqlar azadlıqlarına nail olmaq istəmişlər. Osmanlı dövlətindən dəstək alan Quzey Qafqaz xalqları da 1918-ci il mayın 11-də müstəqilliklərini elan edib, yeni bir dövlət qurur. Bu

çoxdilli xalqlardan qurulmuş dövlətin rəsmi dili qumuq dili olduğu elan edilir. Mondros anlaşmasına görə Antantaya məğlub olmuş Osmanlı dövləti əsgəri birliklərini Qafqazdan çəkmək məcburiyyətində qalır. Dəstəksiz qalan gənc dövləti yenidən Rusiya işğal edir.

Bolşeviklər bölgədə öz dayaqlarını möhkəmlətmək üçün çar Rusiyasından fərqli olaraq yerli xalqlara bir sıra güzəştlər edir. Onlara ana dillərində məktəblər, qəzet-jurnallar açmaqla yanaşı, sözdə müstəqil görünən dövlət qurumlarını yaratmağa imkan verir. Beləcə Quzey Qafqazda Dağıstan, Çeçen-İnquş, Qaraçay-Çərkəz, Kabarda-Balkar muxtar qurumları yaranır.

Lakin bu qurumlar da ədalətli, elmi, siyasi bir prinsip əsasında yaradılmır. Belə ki, sayca heç də başqa Quzey Qafqaz xalqlarından az olmayan avarlar, ləzgilər, qumuqlar və b. üçün muxtar respublika, muxtar vilayət və ya muxtar mahal belə yaradılmır. Qumuqlar adlarını çəkdiyimiz digər xalqlar və çoxlu etnik qruplarla birgə Dağıstan MSSR-in tərkibinə daxil edilir.

Türk dilinin qıpçaq qrupuna daxil olan qumuq dili üç ağza (şivəyə) - buynak, xasavyurt və qaytaq ağızlarına bölünür. Araşdırıcıların fikrincə, ədəbi əsərlər buynak-xasavyurt ağzı (şivəsi) əsasında

yazılır (Dünya xalqları, 1998: 106, İsayev, 1970: 91). Yüzillər boyu ərəb qrafikalı əlifbadan istifadə edən qumuqlar Sovetlər Birliyində yaşayan əksər türk xalqları kimi 1929-cu ildən latın qrafikalı əlifbaya keçdilər. Lakin bu, uzun sürmədi. Onlar üçün də 1938-ci ildə kiril qrafikası ilə əlifba yaratdılar. Bu əlifbada 38 hərf var. Türk xalqlarının əksəriyyətinin danışarkən eyni cür səsləndirdikləri səslər fərqli işarələrlə göstərildiyindən onlar bir-birlərinin yazılarını rahat oxuya bilmirlər.

1. Şifahi xalq ədəbiyyatı

Muhammat Apendi (Əfəndi) Osmanov 1883-cü ildə Peterburqda çap etdirdiyi kitaba noqaylardan və qumuqlardan toplanmış folklor nümunələrini və yazarı bəlli olan şeirlər daxil etmişdir. Sankt-Peterburq Universitetinin Şərqşünaslıq fakültəsində 1880-ci illərədək türk dili dərsi deyən Muhammat Əfəndi Osmanov "Ногайские и кумыкские тексты (Сборник ногайских и кумыкских песен, преданий, поговорок, пословиц) " kitabını dərslik kimi çap etdirmişdir. Tələbələr ondan "Oxu kitabı" qismində istifadə etmişlər.

Altay dilləri nəzəriyyəsinin qurucusu Qustav Ramsted Quzey Qafqazda qumuq türkcəsinin geniş

yayılmasının, qonşu xalqlar arasında ünsiyyət vasitəsinə çevrilməsinin səbəblərini öyrənmək üçün 1904-cü ilin sonlarında Dağıstana gəlir. O, burada qumuq ləhcəsinə, ədəbiyyatına, folkloruna və etnoqrafiyasına dair materiallar toplayaraq araşdırmalar aparır. Çox təəssüf ki, onun topladığı mətnlər zamanında çap olunmadığından uzun illər elmi araşdırmalardan kənarda qalır. Nə yaxşı ki, professor Emine Gürsoy-Naskali bu məsələyə diqqət yetirərək, 1991-ci ildə həmin mətnləri Helsinkidə ingiliscəyə tərcümələri ilə birlikdə çap etdirmişdir (Pekacar Çetin, 2003: 319-340, 4-cü cild).

Qustav Ramsted qumuq türkcəsinə təsadüfən belə önəm verməmişdir. 1918-ci ildə keçirilən Quzey Qafqaz xalqlarının milli qurultaylarında qumuq türkcəsi dağlı xalqları adlandırılan 50-yə yaxın xalqın və etnik qrupun ortaq dili kimi qəbul edilmişdi. Professor Bəkir Çobanzadə 1926-cı ildə Bakıda qumuq dili və ədəbiyyatından bəhs edən silsilə məqalələr yazaraq onların bir qismini jurnallarda çap etdirmişdir (Çobanzadə, 1925: 29-31). Az sonra bu məqalələri Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin nəşriyyatında ərəb qrafikalı əlifba ilə kitab kimi çap etdirmişdir (Çobanzadə, 1926). “Qumuq dili və ədəbiyyatı tədqiqli” adlı 105 səhifəlik bu kitab olduqca yüksək elmi dəyərə

sahibdir. Uzun müddət qumuq dili və ədəbiyyatı haqqında bu səviyyədə əsər ortaya qoyulmamışdır.

Azərbaycanın mühacirətdə olan ictimai-siyasi xadimi və elm adamı Mirzə Bala Məmmədzadə İslam Ensiklopediyasında qumuqlar haqqında yazdığı məqaləsində onların tarixindən, soykökündən bəhs etməklə yanaşı, ədəbiyyatları haqqında da bilgi vermişdir (Mirza Bala, 1967: 986-990, 6-cı cild). O, yazır:

"Qumuqlarda və qonşularında yır-Qazaq tabiri məşhurdur. Qumuqlar yır yaratmaqla tanınmışlar. Xalqın hafizəsində qalan yırçı Qazaq kimi ən qədim yır şairləri: Aksaylı Batır-Ay (Batray − Ə.Ş.), Tarkili Ananay-Arslan və Torkalı Piridir. Yaxın zamanların yır şairləri bunlardır: Aksaylı Sultanbəy, Əndireyli Ənsari Zülqameyn (bu şəxs Aşıq Ənsar kimi də tanınır − Ə.Ş.), Hamamatyurtlu Alıp-Murza (Alıpmurza) və Kostəkli Harun.

Qumuq xalq ədəbiyyatının lirik qismini sarın deyilən dördlüklər ilə yas adını daşıyan ağılar təşkil edir. Toy və əyləncələrdə və ümumən münasib düşən hər fürsətdə, bir çalğıçının müşayiəti ilə bədahətən söylənilən dördlüklər, mədhiyyənin ziddi olan və Azərbaycanda bədiyyə (bədyə) deyilən və tənqidi-hicvi bir mahiyyət daşıyan xalq şeirinin eynisidir. Hər iki məmləkətdə qarşı-qarşıya gələn iki

şəxs, o günün hakim bir mövzusunu və ya məsələsini ələ alaraq, sıra ilə dördlüklərini düzərlər. Əksəriyyətlə dinləyənlər də əl çırpmaq surəti ilə buna iştirak edərlər. Yas isə, matəm günlərində, bir ölü üzərində və ya arxasından söylənilən və bənzərinə yenə Azərbaycanda şahid olduğumuz ağılardır " (Mirza Bala, 1967: 989, 6-cı cild).

Qumuq ədəbi dilində yas, Quzey qumuqlarında vayax və Güney qumuqlarında şahalay kimi işlədilən kəlmə həm mərasimə, həm də mərasimdə nəzm və nəsrlə söylənənlərə verilən addır. Keçmişdə gənc və ya toplumda nüfuz sahibi olan birisi öldüyündə, bir qadın başına torba geyərək ağılar söylər, başqa qadınlar "vöv-vöv!" diyərlər, kişilər isə "ay!" deyə bağırıb döyünərək dairəvi şəkildə dolanırmışlar. Bəzən ölənin atını da dolandırarlarmış. Bu mərasim qədim türklərdəki insanın ölümündən sonra o biri dünyada da yaşadığı inancı ilə bağlıdır.

Azərbaycanla sıx əlaqədə olan, 20-ci yüzilin əvvəllərində kadrlarının burada hazırlanmasına üstünlük verən qumuqlar kitab, qəzet və jurnallarını, məqalələrini də burada nəşr etdirməyə üstünlük verirdilər. N.M.Şabarov topladığı nağılı ruscaya çevirərək Bakıdakı Azərbaycanı Öyrənən

Cəmiyyətin “Xəbərlər”inin 1927-ci ilin 4-cü sayında çap etdirmişdir.

Araşdırıcı Afaq Xürrəmqızı “Azərbaycan mərasim folkloru” əsərində aşağıdakı sitatları yazarkən Bəkir Çobanzadənin qumuqlar haqqındakı kitabına istinad etmişdir:

1. “Nisbətən son dövrlərdə çar İraklinin cənazəsi ətrafında “çianuri” çalan ağıçının dil deyib ağlaması da mahiyyəti etibarilə türklərin yuğ törənini xatırladır. Qırğızların “jok toşuu”, qazaxların “jok tau jilau”, çuvaşların “sas kalarni”, Kırım türklərinin “tokmak” ağı mərasimi də azərbaycanlıların analoji mərasimi kimi mənşəyini adıçəkilən törəndən götürür”. (Xürrəmqızı, 2002: 135).

2. “Qumuq ağıları – “viyax”lar da bəzən qarğış əsasında qurulur:

Dars oxuyqan medresen bozulsun

Kitablarınq xar ayağına yozulsun

Kalam-tarın kara özenqe açılsın” (Xürrəmqızı, 2002: 146).

3. “Bundan başqa, qumuqlarda qızı ər evinə müşayiət edən şəxslərin “quda-xatın”, “quda-qızlar” adlandırılması, Dağıstan tərəkəmələrində qızı bəy arabasına qız evinin gəlinlərinin əyləşdirməsi bu

personajın vaxtilə qadın səciyyəli olmasından xəbər verir" (Xürrəmqızı, 2002: 94).

Türkoloq Güllü Yoloğlu da Azərbaycan mətbuatında qumuqlar, onların mədəniyyəti və ədəbiyyatı ilə bağlı bir sıra maraqlı məqalələr çap etdirmişdir (Yoloğlu, 1996: 23-29 fevral).

Azərbaycan şairi, rəssam və xeyriyyəçi, "Xan qızı" kimi tanınan Xurşidbanu Natəvanın əri knyaz Usmiyev də qumuq idi. Çox təəssüf ki, Azərbaycan-qumuq əlaqələri öyrənilmədiyindən hələ bir çox məsələlərə aydınlıq gətirə bilmədik və faktları dəqiqləşdirmədiyimizdən bəzi mülahizələrimizi burada yazmadıq.

Rusiya işğal altında saxladığı xalqlar arasında bölücülük siyasəti yeritdiyindən uzun illər qumuqlar yaşayan bölgələrdən toplanan folklor nümunələri ümumtürk folklorundan ayrılaraq qumuqların şifahi ədəbiyyatı kimi öyrənilmişdir. Buna görə də toplayıcılar xalq arasında mövcud olan nümunələrin hamısını deyil, məhz "qumuqlara aid olan" folklor nümunələrini toplamağa və nəşr etdirməyə üstünlük vermişlər.

1.1. Bölgülərə ayırma

Toplanmış nümunələrin bölgülərə ayrılmasında və janrlarının müəyyənləşdirilməsində də fikir ayrılığı, qarışıqlıq yaranmışdır. Beləliklə, folklor nümunəsinin bölgülərə ayrılması daha çox mövzusuna görə müəyyənləşdirilmişdir. Məsələn, "zahmat yırları", "igitlik yırları", "igitlik-tarixi yırları", " tarixi yırlar", "Sibir yırları", "tapşurma, ya da nasiqat yırları", "masxara-irişxat yırları", "Qazaq yırları", "haşık yırları", "oylu yırlar", "alışıp aytahan yırları" (Kumık xalk..., 2002) və s. başlıqlar altında antologiyalarda verilmiş nümunələrin böyük bir qismi türk xalqları folkloru üçün səciyyəvidir. Onların bir qismi yalnız qumuqlar yaşayan bölgələrdən toplandığına görə onları qumuq folkloru adlandırmaq olar. Hətta qumuq araşdırıcılarının topladıqları nümunələr arasında fərqlər olduğu kimi, bölgü prinsipində də fərqlər vardır. Abdulla Abdullatipov və Abakar Sultanmuratovdan fərqli olaraq, Abdulhakim Hacıyev yırları "igidlik eposu", "igidlik-tarixi yırlar", "tarixi yırlar", "balladalar", "qanna (qanlı) Qazaq yırları", "Sibir və tosnaq yırları", "haşıq yırları" kimi janrlara ayırır (Türkiye dışındakı..., 2002: 21-107, 20-ci cild).

Abdulla Abdullatipov və Abakar Sultanmuratov "Anjili kız"ı igidlik eposuna daxil edirsə, Abdulhakim Hacıyev onların fikri ilə razılaşmır, "Javatnı yırı"nı igidlik eposuna daxil edir. Bu bir daha onu göstərir ki, araşdırıcıların müəyyənləşdirdikləri bölgülər, janrlar şərtidir. Qumuq folklorşünaslığındakı bu halı noqaylarda, qaraçaymalkarlarda və b. xalqlarda da görmək olar.

1.2. Qumuq folklor nümunələrində Şumer dastanının izləri

Qumuqların çap etdirdikləri yırın bir qisminə, yəni bölgənin tarixi şəxsiyyətləri və hadisələri ilə bağlı olanlara başqa türk xalqlarında rast gəlinmir. Lakin bunlarda da qədim türk dastan, mif və nağıllarındakı ifadələrə, epitetlərə və başqa bədii təsvir vasitələrinə rast gəlmək olur. Araşdırıcılar bədii təsvir vasitələrinin oxşarlığına görə qumuqlardan toplanmış "Minküllünü yırı"nı qədim Şumer (Sumer) dastanı "Bilqamıs"la müqayisə edir və onu ən qədim qumuq folklor nümunəsi sayırlar. "Minküllünü yırı" belə başlayır:

Minküllü üyde tuvan, kırda ösqen,
- *Minküllü evdə doğulmuş, çöldə böyümüş*,
Haray, bugün art elkesin çaç qeçqen,

- *Haray, bugün saçları çiyinlərinə tökülmüş,*
Tuvarlağa yimik tük bitqen.
- *Davarlar kimi bədənini tük örtmüş,*
Katın-kızlağa yimik çaç bitqen
- *Qadın-qızlar kimi saç bitirmiş*
Korkunçlu talalaqa köş tikqen,
- *Qorxunc talalarda köşk tikmiş,*
Kaburqasın kıy qeçqen…
- *Qabırğasına təzək keçmiş* (Kumuk xalk yırları, 1990: 13).

"Bilqamıs" dastanının qəhrəmanlarından Enkidu ilə Minküllü arasındakı oxşarlıqları başqa folklor nümunələrində də tapmaq olar. Qumuqlardan toplanmış "Eniligim, Seniligim, eşikini aç!" uşaq nağılı ilə qədim Şumerlərdəki keçi-canavar (və ya şir) əhvalatı ilə də paralellər aparmaq olar (Uşaq ensiklopediyası, 1999: 333). Hətta onu da söyləmək olar ki, Azərbaycandan toplanmış "Şəngülüm, Şüngülüm, Məngülüm! Aç qapını mən gəlim!" nağılı ilə müqayisədə qumuqlardan toplanmış mətnlərdə keçinin balalarının adları Şumer mətnlərinə daha yaxın səslənir. Bu nağıllarda keçi balalarını xilas etmək üçün qurdla savaşır və qalib gəlir.

Qumuq folklorunda mifləri dilçilik baxımından incələyən İmperiat Xalipayeva doktorluq

dissertasiyasında Tanrılara sitayiş zamanı oxunan bir nəğməni verir:

Gök Tenqirim gökten mağa
- *Göy Tanrım göydən mənə,*
Gök gözlerini açıb bağa
- *Göy gözlərini açıb baxa,*
Gök çüman avlaqlarda
- *Göy çəmən oylaqlarda,*
Gök çicekli tarlada
- *Göy çiçəkli tarlada,*
Gök kozular haydeygen,
- *Göy quzular otlayır,*
Gök çopkenli balama
- *Göy çəpkənli balama,*
Gök Tenqirim örden bağa.
- *Göy Tanrım ucalardan baxa* (Şamil, 2000: 55).

Araşdırıcıya görə, bu nəğmə qədim dövrlərdə yaranmış bir ovsunun, sitayiş nəğməsinin, duanın qalığı, yaxud Tanrıya həsr olunmuş mərasimdə oxunan mahnının bir parçasıdır. Dağıstan Respublikasının Kayaxan bölgəsində bir Tanrıxan ağacı var. Bölgənin insanları həmin ağaca tapınıb qurban kəsirlər. Bu bölgədə yaşayanlar yüzillərdir İslam dininə sitayiş etsələr də, əlli ildən çox ateist təbliğatının təsiri altında qalsalar da, bu gün yenə də

Tanrıxan (Təngixan/Tenqrixan) ağacına və bu kimi daş-qayalara sitayiş edir, Tanrının göy rəngdə olduğuna və bu rəngin "ilahi gözəllik" anlamı verdiyinə inanırlar.

Onlarla folklor nümunəsi arasında paralelləri aparmaqla həmin süjetlərin türk xalqları arasında geniş yayıldığını göstərmək olar. Bu, tarixçilərimizə də mövzu vermiş olar. Azərbaycanda "Qodu-qodu" mərasimində oxunan nəğmənin bir hissəsi qumuqlarda "Oyunlar", "Yumunçuqlar" (sanamalar) adı ilə oxunur. Məsələn:

Gün çıq,
Gün çıq, gün çıq!
Duşmanlanı janı çık,
Ariv kızın alıp çık,
Erşi kızınq
Eşik artda qoyup çık! (Türkiye dışındakı..., 2002: 50, 20-ci cild)

Azərbaycanda günəşin çıxması, yağışlı günlərin sona çatması üçün keçirilən "Qodu-qodu" mərasimində oxunan nəğmələr qaraçay-malkarlarda, qumuqlarda bir az fərqli şəkildədir. Qumuqlarda bu mərasim əsasən "Qüdürbay" adlandırılsa da ayrı-ayrı bölgələrdə "duqurmay", "kassamay", "massay", "hüsemey" də adlandırılır. Məsələn, birisi oxuyur:

Qüdür-güdür Qüdürbay!
O birilər xorla səs verir:
- Hossay!
Qüdürbaynı görqenler!
- Hossay!
Görüb salam berqenlər!
- Hossay!
Salamıngın ari koy!
- Hossay!
Kapçığıma tari kuy!
- Hossay!
Tartıp boza etermen!
- Hossay! (Kumık xalk..., 2002: 8)

Qumuqlarda da toylarda, mərasimlərdə oxunan nəğmələrin əksəriyyəti yeddi hecalıdır. Onlar çox vaxt dörd misra şəklində ifa edilir. Araşdırıcı Əmin Abid hələ 1928-ci ildə "Türk xalqları ədəbiyyatında mani nevi və Azərbaycan bayatılarının xüsusiyyətləri" mövzusunda araşdırmasını tamamlayaraq 1930-cu ildə "Azərbaycanı öyrənmə yolu"nda çap etdirmişdir (Abid, 1930: 24) O, türk xalqlarından toplanmış beş min dördlük üzərində apardığı araşdırmasında yazır: "Qərb (Osmanlı) ləhcəsində mani, çöl Krım türkcəsində çın, Kazan ilə cənub Krımcada cır, özbəkcə əşulə, aşulə, İraq türk ləhcəsində türkü, qazax və qırğızlarda kayım

öləng, yaxud aytıspa adlanır". Yazarın fikrincə bu dördlüklər müxtəlif cür adlandırılsa da, eyni kökdəndir. Qusardan olan tələbəsi Mustafa Əzəmətzadədən topladığı qumuq mani nümunələrini incələyən araşdırıcı yazmışdır: "Qumuq türkçəsi ilə Dağıstan əhalisi arasında da mani nevi inkişaf etmiş haldadır. Bunlar ümumi quruluşca Azərbaycan bayatılarına çox yaxın bir şəkil göstərməkdədirlər:

Bar, bar gəltir, bar gəltir,
Bazarda satar əltir.
Qaşın bulan gözünü,
Arası çəltir-çəltir.

At mindim alaşasın,
Ogür yekdim qaşqasın.
Alsam səni alırman,
Alman səndən başqasın.

Tar tırğırıq tar sokmak,
Tartayım biləgindən.
Tamurlanğan terəksən,
Taymadıng yürəgimdən.

Qapqara qara yaşman,

Qaralığım yaşırman.
Sən mağa gəlməsən də,
Sağa gəlip baş vurman" (Abid, 1930: 34).

Azərbaycanda "bayatı" dediyimiz janra qumuqlar sarınlar deyirlər. Çox zaman sarınlar deyişmə şəklində söylənilir. Deyişmə şəklində söylənən, yəni əsasən bədahətən deyilən sarınlara "taqmaq" deyirlər. Bayatıları toplayıb başa çatdırmaq mümkün olmadığı kimi, sarınların toplanmasını da başa çatmış hesab etmək olmaz. Çünki yaddaşlarda qalanlarla yanaşı yeni yaradılanlar da olur. Bəzən onların hansının keçmişdə, hansının çağımızda yarandığını müəyyənləşdirmək olmur.

Qumuq yırlarından bir nümunə verməkə fikrimizi tamamlayırıq:

Qız yoldan keçən atlıya deyir:
- Hey barağan hey atlı! - *Hey gedən, hey atlı*!
Atın nege burcuma? - *Atın necə şaxələnir*?
Özün ariv ulansan - *Özün gözəl oğlansan*
Börkün nege qırcıma? - *Börkün niyə tüksüzdür?*
Atlı da qıza bu sarınla cavab verir:
Sen özün ariv qızsan - *Sən özün gözəl qızsan*
Sarın bulan sınaysan. - *Sarın ilə sınayırsan*.
Meni ariv görgen son - *Məni gözəl görən sən*.

Börküm nege sanaysan? - *Börkümə nə baxarsın?*

İl quraq gələndə, yağış yağmayanda insanların bir yerə toplaşaraq müsəllaya çıxmalarına, Tanrıdan yağış istəmələri mərasiminə qumuqlar Zemire deyirlər. Zemire mərasiminə qadınlar qızlar da qatılır və mərasimlə bağlı nəğmələr oxunur.

Qumuqlarda, eləcə də bir çox türk xalqlarında janr kimi göstərilən yır, jır, cır, çır qədim türklərdə şeirə, nəzmə verilən ümumi ad olmuşdur. Bu günün özündə də İran İslam Respublikasının mərkəzi vilayətlərindən olan Əraq ostanında yaşayan Savə türkləri şeirə yır, şeir söyləyənə yırçı deyirlər (Şamil Əli, 2000: 98).

Qumuqlarda yırlar bir neçə misradan başlayaraq bir neçə yüz misrayadək uzana bilir. Mövzusunda isə məhdudiyyət yoxdur. Qumuq folklorçularının "Minküllünü yırı", "Anjili qız"ı igidlik eposu, "Abdullanı yırı", "İşayının yırı", "Zoruşnu yırı", "Eldaruşnu yırı", "Akmurzanı ve Bekmurzanı yırı", "Ayqazini yırı", "Torkalili Tonay biyii yırı"nı igidlik-tarixi yırları, "Soltanmutnu yırı", "İslam batırın ve Soltanmutnu yırı"nı və b. tarixi yırlar kimi (Türkiye dışındakı..., 2002: 50, 20-ci cild, Kumık xalkı..., 2002) təqdim etsələr də, xalq tərəfindən sevilə-sevilə oxunur və onlarca yeni-yeni əlavələr, dəyişikliklər də edilir.

Əsarət altında olan xalqların işğalçılar əleyhinə yaratdıqları bədii əsərlərin ifası, yazıya alınması və nəşri yasaq olsa da, insanlar həmişə belə əsərləri sevmiş, gizlində olsa da ifa etmiş, soydan-nəslə ötürərək yaşatmışlar. Nəhəng Rusiya dövlətinə qarşı iyirmi ildən artıq döyüşmüş Şeyx Şamil haqqında qumuqların yaratdıqları və yaşatdıqları "Şamil yırı" da başucalığı ilə söylənmiş folklor nümunələrindəndir. Yırda deyilir:

Terekleni bulay başın quvartqan,
-Ağaclar belə başını sallamış,
Ertenqi aççı ayaznı, tumanı,
-Sabah ertənin acı ayazı, dumanı,
Maskev bulan on seqiz yıl dav etdi.
- Moskva ilə 18 il dava etdi,
Dağıstannı imam Şamil ulanı.
-Dağıstanlı imam Şamil oğlanı.
Dağıstandan Şamil taydı - sıy taydı,
-Dağıstandan Şamil getdi-həmişəlik getdi,
Üstübüzden töre qerqen er taydı.
- Üstümüzdən törə yürütən ər getdi (Türkiye dışındakı..., 2002: 43, 20-ci cild).

Qumuqlar arasında İmam Şamil və onun mübarizəsi ilə bağlı çoxlu şeir, mahnı, rəvayətlər olsa da, onlar vaxtında toplanıb çap edilməmişdir. Maraqlı burasıdır ki, türk xalqlarının bir çoxunda

nəsr şəklində olan folklor nümunələri qumuqlarda yır kimi, yəni mənzum söylənildiyi halda "Koroğlu" kimi məşhur dastan isə nağıl janrında verilir. Hətta Koroğlu haqqında yır belə toplanmamışdır. Bu da açıq-aşkar onu göstərir ki, dastan vaxtında onu yaxşı bilən və söyləyəndən toplanmamışdır. Qumuq folklorunun toplanmasına ilk başlayan Muhammat Əfəndi Osmanov olmuşdursa, sonrakı illərdə bu sahədə Cəmaləddin (Djamalutdin) Şixəliyev, Abdulla Şəmsüddinov, Maqomed Alibekov, Sapiyət Hacıyeva, Abdulla Hacamatov, Ahmed Hacıyev, Kamil Abukov, Abdulla Abdullatipov və Abakar Sultanmuratov, Ahmed Hacıyev və başqaları böyük işlər görmüşlər. Siyasi sifarişlərin azalmasından yararlanan qumuq folklorçuları son illər bir çox maraqlı nümunələr çap etdirmişlər. Miflərin, ovsun mətnlərinin, müstəmləkəçilərə qarşı döyüşmüş igidlərə həsr olunmuş yırların və s. çap edilməsi dediklərimizə nümunədir. Bütün bunlar qumuq xalqının əski çağlardakı dünyagörüşünü ortaya qoymağa imkan verir.

İnsanları doğruluğa, ədalətə, düzlüyə, mərdliyə, sədaqətə səsləyən atalar sözləri, "beynin idmanı" adlandırılan tapmacalar (qumuqlar bu janra tapşurmala deyirlər. Cavabları öz içərisində gizlədilən tapşurmaları qumuqlar çox vaxt yır və

sarın şəklində söyləyir, cavablarını da eyni şəkildə verirlər), müdrik fikirlər aşılayan nağıllar, mərasim nəğmələri, miflər, alqışlar, qarğışlar, bir sözlə, folklorumuz əvəzsiz bədii nümunələr olub yazılı ədəbiyyatın inkişafına təkan vermişdir. Qumuq yazılı ədəbiyyatı uzun illər klassik ədəbiyyatdan ayrı salınmağa çalışılsa da, zəngin şifahi xalq yaradıcılığına dayanaraq milliliyini qoruyub saxlaya bilmişdir.

2. Qumuqların yazılı ədəbiyyatı

Son dövrlərdə qumuq tarixini araşdıranlar qürurla Xəzər hövzəsində, Qafqazda, Ön Asiyada mövcud olan mədəniyyətin böyük bir hissəsinin onların ulu babaları - protoqumuqlar tərəfindən yaradıldığını yazırlar (Kadıradjuyev, 1992: 5).

Qumuqlar qədim keçmişləri ilə qürur duysalar da, uzun illər yazılı ədəbiyyatlarının tarixini 19-cu yüzildə yaşamış Yırçı Qazaqla başlamışlar. Sovetlər Birliyi çökdükdən sonra bu ideoloji təsirlər də aradan qalxmağa başladı. Hələlik qumuqlar ədəbiyyatlarını zəngin folklorları və 15-ci yüzildə yaşamış Ummu Kamal (Nuri) ilə başlayırlar. Həştərxan şəhərində oxumuş, xanı öldürdüyünə görə özü də öldürülmüş Amanxoru (1670-1706),

şeirlərində zalımları, haqsızlığı, xanları və murzaları tənqid etdiyinə görə gözləri kor edilmiş Sayit Koçxurlunu (1767-1812), igidliyi tərənnüm edən, yurdu uğrunda savaşan cəsur insanları öyən Mirza Qaluqlunu (1696-1742) da qumuq ədəbiyyatına daxil edirlər (Merhan, 2008: 13).

Bugünki Dağıstan Respublikasının ərazisi uzun illər ya tam, ya da qismən Şirvan bəylərbəyliyinin tərkibinə daxil olduğundan burada yetişən alim və şairlər də bugünki Azərbaycanla sıx bağlı olmuşlar.

Abdulla Abdullatipov isə orta yüzillər qumuq ədəbiyyatından bəhs edən kitabında məşhur "Dərbəndnamə" tarixi xronologiyasının müəllifi 16-17-ci yüzillərdə yaşamış Muhammat Avabi Ağdaşini qumuq nəsrinin banilərindən saydığı kimi 17-ci yüzildə yaşamış tarkovlu Əli Bağdadini (Bağdat Əli), Əliqulu xan Valeh Dağıstanini (1712-1756), endireyli Taşav Xacini (v. 1841), yaxsaylı Yusup Yaxsavini (Qılıcev), endreyli İdris Əfəndini (v. 1878), Maqomat Kazanbiyevi (1865-1926) də qumuq ədəbiyyatına daxil edir.

Əslində Endirey kəndində vəfat etmiş Muhammat Avabi Ağdaşi də yuxarıda adı ondan sonra çəkilənlər də qumuq olsalar da ana dillərində yazıb-yaratmamışlar. Mədrəsələrdə dərs deyən bu elm

adamları əsərlərini əsasən ərəb və fars dillərində yazmışlar.

Türkiyəli araşdırıçı Çetin Pekacar qumuq yazılı ədəbiyyatını üç dövrə bölür. 19-cu yüzilə qədər olan dövrü müştərək dönəm, 19-cu yüzildən 1917-ci ilədək olan dövrü Ekim (Oktyabr) devrimi öncəsi dönəm, üçüncü dövrü isə Ekim devrimi dönəmi (20-ci yüzilin başlarından günümüzədək olan dövr) adlandırır.

Ummu Kamal (Nuri) (15 yüzil, Koünqa-1475, Konya). Son illərdə qumuq araşdırıcıları orta çağ qaynaqlarını diqqətlə incələyərək öz tarixi irslərinə yiyə çıxırlar. Buna Ummu Kamalın (Nuri) yaradıcılığının öyrənilməsi gözəl nümunə ola bilər. 18-ci yüzildə yaşayan ləzgi şairi Əli Ruhulidən qalan kitabların arasında Ummu Kamalın da şeirləri tapılmışdır. Onun bəzi şeirləri Oktyabr çevrilişindən əvvəlki illərdə Türkiyədə, Kazanda çıxan kitablarda çap olunmuşdur.

Şairin qumuq olduğunu isbatlamaq üçün aşağıdakı misraları nümunə göstərirlər:

Elter qönqül ol ellerqe
Misqin kumuk sümbünlerin…
Gezdim, tuzdum çox devleşdim,
Axır vatanım oylaşdım,
Hay aman, Koünqa yol görmedim

İnq son barıp Şama döndüm (Karçıqa, 2002: 6).

Misralardakı "Misqin kumuk" ifadəsinə dayanaraq şairin qumuq olduğunu və "Koünqa" ifadəsinə dayanaraq, onun Koünqalı olduğunu söyləyirlər. Araşdırıcılar Koünqanı indiki Dağıstan Respublikasındakı Bavaqay və Çirürt yaylasındakı Koysun çayının sahilindəki Koünqala ilə eyniləşdirirlər. Şairin öncə kəndlərində, sonra Şirvanda (indiki Azərbaycan) təhsil aldığını, əsgəri bölüklərdə qazi olduğunu, Osmanlı orduları ilə birlikdə döyüşlərdə iştirak etdiyini, sonralar indiki Türkiyədə yaşadığını və 1475-ci ildə Konya şəhərində öldüyünü yazırlar (Karçıqa, 2002: 6).

Ummu Kamala aid edilən:

Dengizde bir saz olur,

Gül açılır, yaz olur.

Men yarıma gül demen -

Gülün ömrü az olur (Türkiye dışındakı..., 2002: 197, 20-ci cild),

-şeiri bu gün də Azərbaycanda xalq mahnısı kimi oxunur və bayatı kitablarına yazarı bəlli olmayan mətn kimi salınır. Şairin "Haşıq ellerine kim geter?" şeirində Yunis İmrə ruhu aydın duyulur.

Qazaq Tatarxan oğlu Yırçı (1830, Tarkovsk qəzasının Müslüm (indiki Atlan) kəndi-1879). Doğum və ölüm ili dəqiq bəlli olmayan Qazaq gözəl

yırlar-şeirlər söylədiyinə görə xalq arasında Yırçı Qazaq kimi tanınmışdır. Azərbaycanda bu şairin adı İrçi (Yırçı) Qazaq, rus qaynaqlarında Qazaq kimi yazılır (ASE, 3-cü cild: 301; 4-cü cild: 526).

Doğulduğu bölgədə xarakterik olan bir "işdə" - qız qaçırmada (gəncliyində dostuna sevdiyi qızı qaçırmasına kömək edibmiş) iştirak etdiyinə görə həbs edilib Sibirə sürgünə göndərilir. Sibirdə olarkən vətən həsrətli, nisgilli və zəmanəsindən, məmurların özbaşınalığından, haqsızlıqdan, ədalətsizlikdən bəhs edən şeirlər yazmışdır. Vətənə döndükdən sonra da yazı üslubuna sadiq qalmışdır. Onun şeirləri arasında aşiqanə, lirik nəğmələr olsa da, yaradıcılığının əsasını zəmanədən şikayət, düşmənlərinin ona etdikləri pisliklər, məmurların isə haqsızlıqlara göz yummalarının tənqidi təşkil edir. Gözəl şeirləri ilə xalqının qəlbini ovsunlayan şairi düşmənləri, təxminən, 1879-cu ildə öldürtdürürlər (ASE, 1980: 526, 4-cü cild).

Yırçı Qazaqın ağrılı-acılı ömür yolu və zəmanədən narazılıq dolu şeirləri Sovet ideoloqlarının işinə yarayır. Hətta rəsmi və ciddi nəşr sayılan ensiklopediyalarda onun haqqında "...qumuq ədəbiyyatının banisi. Aşiqanə və fəlsəfi didaktik şeirlər yazmışdır. Feodal sarayında kəniz olan sevgilisini qaçırmaqda dostuna kömək etdiyi

üçün Sibirə sürgün edilmişdir... Sürgündən qayıtdıqdan sonra bəyləri və knyazları ifşa edən şeirlər yazmışdır" kimi bilgi verilir (ASE, 1980: 526, 4-cü cild).

Qumuq ədəbiyyatşünaslarının Yırçı Qazaqın yaradıcılığına daha çox önəm vermələrinə səbəb orada haqsızlığa, zülmə, ədalətsizliyə etiraz, insanları düzlüyə, doğruluğa, xeyirxahlığa, yardımsevərliyə çağırış notlarının güclü olmasıdır. Sovet dövründə tərbiyə almış ədəbiyyatşünaslar isə buna bir sinfi mübarizə motivi kimi baxmağa çalışmışlar.

Əslində Yırçı Qazaq sinfi mübarizədən uzaq, cəmiyyətdəki nöqsanları, ayrı-ayrı adamların pis əməllərini kəskin tənqid edən, beləliklə, insanları tərbiyələndirməyə çalışan bir sənətkardır. Çox vaxt Yırçı Qazaqla Muhammat Apendi Osmanovu qarşı-qarşıya qoymuşlar.

Göründüyü kimi, onun həyat və yaradıcılığına bir sinfi mübarizə donu geyindirmişlər.

Abdulrahman (Abduraman) Atlıboyunlu (?, Kakaşura kəndi-1870, Atlıboyun). Şairin şeirlərində doğulduğu və öldüyü hər iki kəndin adı təxəllüs kimi işlədilir. Şirvanın (Azərbaycan) və Dağıstanın məşhur din bilginlərindən elm öyrənən, ərəb, fars, türk dillərini mükəmməl bilən

Abdulrahman ömrünün sonunadək kadılıq (qazı) etdiyinə görə onu çar Rusiyasının da, Sovet hökumətinin də məmurları sevməmişlər. Doğu poeziyası gələnəklərinə sadiq qalan Abdulrahman dini məzmunlu didaktik, lirik şeirlər yazmışdır. Onun şeirlərinin dili bugünkü qumuqcadan fərqli, yəni Çətin Pekaçarın bölgüsündə göstərilən müştərək dönəmin şairlərinin dilindədir. Sovetlər zamanı onun əsərlərinin çapına və təbliğinə soyuq bir münasibət vardı.

Sovetlər Birliyi çökməyə başladıqdan sonra şairin yaradıcılığına diqqət artmışdır.

Muhammat Apendi (Əfəndi) Ömər oğlu Osmanov (24 fevral 1838, Dağıstanın Tersk vilayətinin Yaxsay kəndi-1904). Rusiya işğal etdiyi bölgələrin nüfuzlu ailələrindən seçdiyi yeniyetmə və gənclərə təhsil vermək, onların təlim-tərbiyəsi ilə məşğul olmaqla özünə sadiq məmurlar hazırlamağa çalışırdı. Osmanovlar ailəsi də belə secilmiş nəsillərdən biri olmuş, Muhammat Apendinin atası Ömər Osmanov uzun illər çar mühafizə alayında xidmət etmişdir.

Muhammat ilk təhsilini Yaxsaydakı mədrəsədə almışdır. Bu mədrəsə bölgənin ən seçilən və təhsil proqramını zamanla uyğunlaşdıran bir mədrəsə olmuşdur.

1865-ci ildə atası çarın mühafizə alayında xidmətdən təqaüdə çıxdıqda onun yerinə oğlu Muhammatı müsəlmanlardan təşkil edilmiş alayda kadı (qazı) vəzifəsinə götürmüşlər. Beləcə Muhammat Əfəndi Osmanovun Peterburq həyatı başlamışdır. O, çar mühafizə xidməti alayından tərxis olunduqdan sonra vətənə dönməyib, Peterburqda qalaraq 1867-ci ildən Universitetinin şərqşünaslıq fakültəsində türk-tatar dilindən dərs deməyə başlamışdır (Literaturadan..., 1979: 22).

Muhammat Əfəndi Osmanov 1883-cü ildə Peterburqda çap etdirdiyi "Ногайские и кумыкские тексты (Сборник ногайских и кумыкских песен, преданий, поговорок, пословиц)" kitabına Yırçı Qazaqın ona nəzmlə yazdığı məktubunu da daxil etmişdir. Şair şeir dili ilə həmyerlisini vətənə dönməyə səsləmişdir. Hökumət qulluğunda olan, hakim dairələrə yaxın sayılan bir şəxsin belə vətənpərvər şeiri universitetin dərs kitabına salması onun cəsarətindən və mövzuya ürəkdən bağlılığından xəbər verir. Bunu ədibin sonrakı fəaliyyəti də təsdiqləyir.

Şair Kazan şəhərində olarkən cədidçilərin - yenilikçilərin təsiri ilə sadə və aydın dillə xalqı təhsilə çağıran, sosial məsələləri gündəmə gətirən, alkoqollu içkilərdən uzaq durmağı nəsihət edən,

igidliyi, qəhrəmanlığı öyən şeirlər yazır. “Nəsihət” adlı kitabını da 1889-cu ildə Kazan şəhərində çap etdirmişdir. Onun lirik-romantik səpkili “Gülqız”, eləcə də “Şavxalın qalası” və b. əsərləri klassik Doğu şairlərinin işlətdiyi təşbih və istiarələrlə zəngindir.

Bolşeviklərin azsaylı xalqlara verdiyi mədəni imtiyazlardan yararlanan qumuq ziyalıları şairin ölümündən 22 il sonra - 1926-cı ildə Buynakda “Muhammat Apendi Osmanovun şeirlər məcmuəsi” adlı kitabı çap olunmuşdur (Ahmedov, 2004: 309). Lakin kitaba şairin şeirlərinin hamısı daxil edilməmişdir. Sovet ideologiyasına uyğun gəlməyən bir sıra əsərləri nəşrdən kənarda qalmışdır.

Sovetlər Birliyi çökdükdən sonra Muhammat Əfəndi Osmanovun həyat və yaradıcılığına, elmi və ictimai fəaliyyətinə olan diqqət yenidən artmışdır.

Yırçı Qazaqla Muhammat Əfəndi Osmanov çağdaş olduqlarından yaradıcılıqlarında bir yaxınlıq vardır. İkisi də cəmiyyətdəki nöqsanları, ayrı-ayrı adamların çatışmazlıqlarını poetik dillə tənqid edib onu islaha çalışmışlar. Aralarındakı fərq ömür yollarının ayrılığı və birinin bu mövzuda çox, o birinin az yazmasından o yana keçmir. Yırçı Qazaqın şeirlərini ilk dəfə toplayıb nəşr etdirən də

Muhammat Əfəndi Osmanov olmuşdur. Lakin Sovet dönəmində bir çox araşdırıcılar ideoloji nədənlərdən bu iki sənətkarı qarşı qarşıya qoymuş, Yırçı Qazaqı sanki bununla daha böyük göstərməyə çalışmışlar.

Abusufyan Akayev (1872, Tersk vilayətinin Töben Qazanış kəndi-1931, Rusiya Federasiyası, Arxangelsk vilayətinin Kotlas şəhəri). Dağıstan vilayətinin Temirxan-Şura dairəsinin Aşağı Qazanış kəndində İslam şairi Akay-Kadı Arslanbekovun (1829-1904) ailəsində Qazı Akayın bir oğlu dünyaya gəlir və onun adını Abusufyan qoyurlar. O, əvvəlcə doğma kəndində, sonra Tarki, Nijni Cenqutay və Temirxan-Şurada İslam mədrəsəsində təhsil almışdır. Altı il Soqratledə ali İslam təhsilini almışdır. Məhz orada çap istehsalının gələcək banisi Məhəmməd Mirzə Mavrayevlə yaxın münasibət qurmuşdur. 28 yaşında məntiq üzrə ilk əlyazma kitabı olan "Xavlyat əl-Üsul"u ərəb dilində yazmışdır (Оразаев. Акаев Абусупьян. https://www.dumrf.ru/islam/rites/21885). Bu elə bir zaman idi ki, Rusiyanın Qafqazı işğalından 70 ildən çox keçməsinə baxmayaraq, oranı hələ də istədiyi kimi, yəni ölkənin hər yerində işlək olan qanunlarla

idarə edə bilmirdi. Rusiyada mövcud olan qanunların bəziləri Qafqaz xalqlarına, eləcə də əsarət altına aldığı müsəlman xalqlarına aid edilmirdi.

Rusiyada ictimai yerlərdə mülki şəxslərin qılınc, xəncər və b. kəsici silahlarla görünməsi qadağan olduğu halda, Qafqaz xalqlarının nümayəndələrinin xəncərlə gəzməsi milli atribut sayılırdı. Müsəlman xalqları aralarında mübahisələr, ziddiyyətlər düşdükdə, hətta problem ölüb-öldürməyə gəldikdə belə Rusiyanın məhkəmə orqanlarına deyil, müsəlman qazılarına müraciət edirdilər. Rusiyanın hakim dairələri zor gücünə də olsa, bunun qarşısını ala bilmədiklərindən qazıları saxlamağa məcbur oldular. Beləliklə ölkədə iki məhkəmə sistemi mövcud oldu.

Abusufyanın atası Akay da dini təhsil gördüyündən, İslami ehkamları yaxşı bildiyindən onu qazı seçmişdilər. Çar məmurları qazıların işinə nəzarət etsələr də, onlar cəzaları Rusiyanın qanunlarına görə deyil, şəriət qanunlarına görə müəyyənləşdirir, hökm verərkən "Qurani-Kərimi" əsas götürürdülər.

Fitri istedadı ilə seçilən Abusufyan məktəbdə yaşıdlarına və özündən yaşda böyük olsalar da proqramı mənimsəməyənlərə rəhbər təyin edilir. Necə deyərlər, balaca Abusufyan öyrənməklə

yanaşı, həm də öyrədir. Bununla da, özünün oxuduqlarını bir daha təkrarlamış olur.

Abusufyan doğulduğu kənddəki ibtidai məktəbi bitirdikdən sonra, atası onu Güngüteydəki mədrəsədə oxumağa göndərir. Oradakı tədris proqramını birincilər sırasında başa vurur. Atası Akay dövrünün elm adamlarını və pedaqoqlarını yaxşı tanıdığından oğlunu Teymurxan-şuradakı, Soğratdakı, Tarqutdakı mədrəsələrə göndərir və bununla da Abusufyanın Dağıstanın tanınmış alimlərindən dərs almasına, dini elmlərlə yanaşı, dünyəvi elmləri də dərindən mənimsəməsinə şərait yaradır.

O, türk, fars, ərəb dillərini, ədəbiyyat, tarix, astronomiya, astrologiya, fəlsəfə, fizika, riyaziyyat, həndəsə, coğrafiya və b. fənləri bilən bir gənc kimi doğma kəndlərinə qayıdır. Kənddə yeni məktəb açaraq bildiklərini həmyerlilərinin övladlarına öyrətməyə çalışır. Onun sorağı tezliklə ətraf kəndlərə də yayılır. Bölgənin sayılıb-seçilən adamları uşaqlarını Abusufyanın yanına gətirirlər. Beləcə az zamanda onun şagirdlərinin sayı xeyli artır.

Abusufyan müəllim işlədikcə təhsil və tədrisdəki nöqsanları görmək imkanı əldə edir. Keçmiş mədrəsə proqramlarının zamanın nəbzini tutmadığının şahidi olur. Odur ki, həm təhsilini

artırmaq, həm də təcrübə qazanmaq üçün Kazan və Orenburq şəhərlərində oxumağa gedir.

1902-ci ildə təhsilini tamamlayaraq təcrübə qazanan Abusufyan Akayev Dağıstana, yəni doğma kəndi Töben Qazanışa dönərək yeni məktəb açmağı planlayır. Lakin bu dəfə mədrəsə açmaq istəmir. Çünki mədrəsələrin tədris proqramı onu qane etmirdi. Yeni qaydalı – "Üsuli-cədid" məktəbini açmaq istəyir. Bu məktəb üçün dərslik və metodik vəsait çatmadığından yaxın dostu Muhammat Mirza Mavrayev ilə birlikdə Krıma, İsmayıl bəy Qaspıralının yanında gedir.

1902-1903-cü illərdə orada mətbəə, nəşriyyat işlərini öyrənir. "Tərcüman" və başqa qəzet-jurnallara məqalələr yazmaqla yanaşı, Baxçasaray və Akmescitdə (Simferepol) özünün yazdığı kitabları da çap etdirir. 1903-cü ildə Baxçasarayda nəşr etdirdiyi "Macmu al-aşgar al-acamiyat" adlı topluya yırları, sarınları, atışmaları, atalar sözləri, qumuq şairlərindən Yırçı Qazaqın, Muhammat Osmanovun, Maqomed Alibekovun və özünün bəzi ədəbi əsərlərini daxil edir.

Qumuq Abusufyan Akayev İsmayil bəy Qaspıralının "Dildə, fikirdə, işdə birlik" tezisinə ürəkdən bağlı olsa da, onu Dağıstanda həyata keçirə bilməyəcəyini görür.

Abusufyan Akayev yaxşı başa düşürdü ki, bölgə xalqlarını türk dili vastəsilə bir araya gətirmək olmaz. Çünki kəndlilərin çoxu ömürləri boyu bəlkə bir dəfə də olsun doğulduğu yerdən uzağa getməyib, orada doğulub, yaşayıb və ölürdülər. Buna görə də çoxdilli bir bölgədə ümumi işlək və ünsiyyət dili kimi türk dilinin yayılmasına calışsa da, bu xalqları birləşdirəcək yeganə vasitənin İslam dini olduğunu görürdü.

Abusufyan da dinin yayılmasına və dini təbliğata xüsusu önəm verir. Yaxşı bilirdi ki, Şeyx Şamil də İslam dininin birləşdirici gücündən bacarıqla yararlanaraq Rusiya kimi hərbi qüdrəti dünyanı lərzəyə salan dövlətə otuz il müqavimət göstərə bilmişdi.

İstanbulda, Krımda təcrübə keçib Dağıstana qayıdan Abusufyan Akayev kənddə məktəb açmaq fikrindən daşınır. Bölgənin ən böyük yaşayış məskənlərindən olan Teymurxan-şuraya gələrək 1904-cü ildə orada Muhammat Mirza Mavrayev ilə birlikdə ilk milli mətbəə qurur. O, ərəbcə yazılarında ad və soyadını Abusufyan ibn Akay al-Dağıstani al-Qazanışı al-Kubra şəklində yazır, bəzən də Arslanbekov soyadını işlədir.

Abusufyan Akayevin Teymurxan-şurada Muhammat Mirza Mavrayev ilə birlikdə qurduğu ilk

milli mətbəə böyük uğur qazanır. Azərbaycanın ictimai-siyasi xadimləri və ədiblərindən Şeyx Məhəmməd Xiyabani, "Əkinçi" qəzetinin müxbirlərindən Məmnun Əlqadari, Mirzə Əbdürrəhim Talıbov və b. Abusufyan Akayevlə sıx əməkdaşlıq edir, kitablarını onun mətbəəsində çap etdirir, onun ərəb dilində nəşr etdiyi "Bəyan ül-həqiqət" jurnalına məqalə yazırlar.

Abusufyan Akayev əsas ağırlığı İslam dininə dair kitabların nəşrinə verməklə yanaşı, özü də dinin təbliğinə dair kitablar yazır. O, yalnız din alimi və dini ədəbiyyatı yayan naşir olmaqla qalmır, qumuq folklorunu toplayıb nəşr edir, müxtəlif dillərdən qumuq dilinə tərcümələr edir.

Müəllimlik etməklə yanaşı, Doğu ədəbiyyatına dair araşdırmalar aparan, folklor nümunələri toplayıb çap etdirən Abusufyanın qələmindən 40-dan çox kitab çıxmışdır.

1917-1920-ci illərdə bölgədə gedən savaşlar Abusufyanın fəaliyyətinə də mənfi təsir göstərir. 1920-ci ildə bölgəni işğal edən bolşeviklər Abusufyan kimi nüfuzlu, əlində təbliğat vasitəsi və mətbəəsi olan bir insanın gücündən məharətlə istifadə edirlər.

Abusufyan da Sovet hökumətinin sülh, bərabərlik, azadlıq və s. şüarlarına aldanaraq onlarla

əməkdaşlığa razılaşır. İnternasional marşını qumuq türkcəsinə tərcümə edən Abusufyan, qumuq türkcəsində ilk bolşevik qəzeti "İşçi xalq"ı da nəşr edir və bir müddət onun redaktoru olur.

İlk kitabını 1900-cü ildə nəşr etdirən Abusufyan Akayev dərs deyib gənc nəslin tərbiyəsi ilə məşğul olmaqla yanaşı, "Sullam al-lisan" lüğətini hazırlayır. Bu dörd dilli sözlükdə ərəb-qumuq-avar-rus dillərindən alınmış sözlərin izahı verilir. Qumuq türkcəsinin söz xəzinəsini zənginləşdirmək üçün 200 səhifəlik bir terminlər sözlüyü də hazırlayır. Onun "Totuname", "Dahir ilə Zahra", "Yusup ilə Zulayxa" kitabları tatarcanın qumuqcaya uyğunlaş-dırılmasıdırsa, dərmanların hazırlanması qayda-larından bəhs edən "Hazir darman" kitabı, eləcə də "Əxlaq kitabı", "Yüz ilin asan təqvimi", "Qumuq folkloru və ədəbiyyat əsərləri antologiyası", "Bozoğlan" və b. kitabları bir araşdırıcı zəhmətinin, axtarışlarının bəhrəsidir.

Sovet hökumətinin şüarlarına aldanaraq onun gəlişini alqışlayan, möhkəmlənməsi üçün var qüvvəsi ilə çalışan, bolşeviklərin açdığı qəzetdə onların ideologiyasını yayan alim-yazıçı sonradan yanlışlığa yol verdiyini anlayır və xəyal qırıqlığına uğrayır. Bolşeviklərin də ona göstərdiyi diqqət və qayğı uzun sürmür. Qadınlara çadralarını, kişilərə

papaqlarını atdırma kampaniyası, dinə qarşı təzyiqlər, min ildən çox istifadə edilən ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsi Abusufyanın ürəyincə olmur. Hökumətin siyasətinə açıq narazılığını bildirir.

Abusufyan Akayev və bölgənin bir çox ziyalıları, hətta partiya-sovet işçiləri Moskvaya Dağıstan xalqları arasında ortaq ünsiyyət vasitəsi olan türkcənin rus dili ilə əvəzlənməsinə etiraz edirlər. Təklif edirlər ki, Moskva uzaq olduğundan ora ilə əlaqə qurmaq çətindir, buna görə də Dağıstan MSSR Azərbaycan Respublikasının tərkibinə verilsin.

Sovet xüsusi xidmət orqanları sərt tədbirlər həyata keçirir. Onlarla ziyalı və partiya-sovet işçisi həbs edilir, sürgünə göndərilir, vəzifədən uzaqlaşdırılır.

1929-cu ildə Abusufyan Akayevin mətbəəsi bağlanılır və özü də həbs edilərək Perm vilayətindəki Pinug stansiyasında dəmiryolu çəkilişində işləməyə göndərilir. Oradan da Arxangelsk vilayətinin Kotlas şəhərinə göndərilən yazıçı-alim ilk dəfə həbsxanada siyasi aclıq aksiyasını təşkil edən azərbaycanlı siyasi məhbusları ilə görüşür. Bu yer daha çox Solovki kimi tanınır. Rus

yazıçısı Soljenitsinin Nobel mükafatına layiq görülən "Qulaq arxipelaqı" romanı da burada baş verən hadisələrdən bəhs edir.

Abusufyan Akayev orada həbsdə olan Azərbaycan siyasi məhbusları ilə görüşür və onların mübarizəsini dəstəkləyir. 1931-ci ildə həbsdə ölən ictimai xadim, şair, naşir, tərcüməçinin həyat yolunun və yaradıcılığının öyrənilməsinə maraq Sovet hökumətinin çöküşündən sonra başlayır. Nə yazıq ki, hələ də onun fəaliyyəti layiqincə qiymətləndirilməmiş, əsərlərinin hamısı çap olunub araşdırılmamışdır.

Abusufyan 1929-cu ildə həbs edilməsinə, 1931-ci ildə ölməsinə baxmayaraq 1937-ci ildə tutulanların müstəntiqə verdikləri ifadələrdə onun adı da var. SSRİ-ni dağıdaraq Vahid Türk-Tatar Respublikası yaratmaq istəyənlərdən söz gedəndə Bəkir Çobanzadə onun rəhbərlik etdiyi gizli təşkilatda Quzey Qafqaz qrupuna aşağıdakı şəxslərin daxil olduğunun deyir: Alim Paşa-Solqar (Alim Paşa Salavatovun adı bu şəkildə yazılıb − Ə.Ş.), Abusufyan-Kumuk, Ədhəm Feyzi, Şövqi Bektora (Babayev, 2003: 85).

Ensiklopediyaçı bilgin, şair, bacarıqlı nasir Abusufyan Akayevin acı taleyi də qumuq ədəbiyyatına ağır zərbə olmuşdur.

* * *

Yırçı Qazaqdan öncə yaşamış Ummu Kamalın və ya onunla çağdaş olmuş Abdulrahman Kakaşuralının (Atlıboyunlu), Muhammat Apendi Osmanovun, Abusufyan Akayevin (baxmayaraq ki, onun əsərlərinin bir çoxu ədəbiyyatı mövzuca yeniləşdirmə dövrünə təsadüf edirdi, hətta Sovet dövründə yazdığı əsərləri də vardı) adları ənənəvi Doğu şeir üslubunda - didaktik, əxlaqi, lirik şeir yazdıqlarından Sovet dövründə o qədər də təbliğ olunmurdular. Yırçı Qazaqın və şeirlərində dövrün nöqsanlarını tənqid etməyə üstünlük verən, zəmanədəki haqsızlıqlardan şikayətlənən Manay Alibekovun və onlar kimi haqsızlıqları tənqid edən şairlərin əsərlərinə ədəbiyyatşünaslar mətbuatda geniş yer ayırmışlar.

Bu tarixşünaslıqda da özünü göstərirdi. Ulu babaları qüdrətli türk dövlətləri qurmuş qumuqlara 17-19-cu yüzillərdə mövcud olmuş yerli özünüidarə qurumları, yəni yerli feodalların hakim olduğu Pargu (Targu/Tarki şahvallığı da deyilir) şavhallığı, Mehtulu xanlığı, Endrey, Köstek və Yaxsay bəylikləri qumuq dövlətləri kimi tanıdılır və bunlarla qürur duymaları təbliğ olunurdu. Onlar ulu babalarının qurduqları qüdrətli dövlətlərdən uzaqlaşdırıldıqca, həmin mühitdə yaşayıb-yaratmış

şair və yazıçılardan, elm adamlarından da uzaqlaşdırılırdılar. Beləliklə, cismən olduğu kimi, şüurca da ümumtürk varlığından ayrılmış olurdular.

Bütün bunlara baxmayaraq Yırçı Qazaq da, Abdulrahman Kakaşuralı (Atlıboyunlu) da, Muhammat Apendi Osmanov da, Abusufyan Akayev də, hətta Aşıq Ənsar da (1860-1934) qumuq ədəbiyyatının klassiklərindən sayılmalıdırlar. Əslində onların yaradıcılığı istər dil-üslub, istərsə də mövzu baxımından çağdaşları olan Azərbaycanda, Ön Asiyada, Krımda, Türkmənistanda yaşamış el şairlərinin, aşıqların əsərlərindən o qədər də seçilmir.

Çox təəssüf ki, qumuqların, eləcə də Dağıstanda yaşayan xalqların aşıqları lazımınca öyrənilməmişdir. Bunun da başlıca səbəbi aşıqların şeirlərinin və söylədikləri dastanlar vaxtında toplanıb nəşr edilməməsidir. Qaynaqlar isə bölgədən aşıqların olduğunu xəbər verir.

2.1. Qumuq yazılı ədəbi dilinin formalaşmasında, ədəbiyyatının inkişafında Yaxsay və Töben (Aşağı) Qazanış kəndlərinin rolu

Yaxsay yaxın yüzillərdə Dağıstanın ən inkişaf etmiş inzibati mərkəzlərindən biri olmuşdur. Buradakı mədrəsədə dövrünün savadlı din bilginləri çalışmışlar. Onlarda təhsil və tərbiyə alanların bir çoxu sonralar Doğuda məşhurlaşmışlar.

Şair Seyid Əzim Şirvani də bu mədrəsədə oxumuşdur. 1835-ci il iyulun 10-da Şamaxıda anadan olan Seyid Əzim 7 yaşında atasını itirir. Anası Gülsüm xanım övladlarını da götürüb Yaxsayda qazı-şəriət hakimi işləyən atası Molla Hüseynin yanına gedir (Köçərli, 1981: 30, 2-ci cild).

Molla Hüseyn Seyid Əzimin fərasətinə, hazırcavablığına, diribaşlığına görə onu əzizləyir və təhsilini davam etdirməsinə yardımçı olur. On ilə yaxın Yaxsayda yaşayan Seyid Əzim 1853-cü ildə anası Gülsüm xanımla geriyə - Şamaxıya qayıdır. Şair sonralar həmin günləri xatırlayaraq yazır:

Oldum ol gün ki, çardəh salə,
Düşmədim fikri-dövləti malə.
Eylədim arifanə kəsbi-ülum,
...Oxudum nəhvü -sərfü, fiqhü üsul,
Hikmətü heyət eylədim məhsul (Hüseynov, 1977: 13).

Çox təəssüf ki, Seyid Əzimin və babası Molla Hüseynin yaşamının Yaxsay dövrü gərəyincə öyrənilməmişdir. Mədrəsədə yeniyetmə Əzimə

kimlər dərs deyib, kimlərlə dostluq edib, sonralar qumuq ziyalılarından kimlərlə ünsiyyətdə olub? Bu suallara cavab verən araşdırmaya hələ rast gəlməmişik. Seyid Əzimlə Muhammat Əfəndi Osmanovun arasında yaş fərqi o qədər də çox deyildi. Hər ikisi eyni mədrəsədə oxumuşdur. Yəqin ki, bir-birini tanıyırmışlar.

Azərbaycan qaynaqlarında Yaqsay və Aksay, Ağsay (Dağıstan ədəbiyyatı antologiyası, 1959, ASE. 1980, 8-ci cild, Köçərli F, 1981) kimi yazılan bu kənddə Muhammat Əfəndi Osmanov, Maqomed Alibekov, Nuxay və Zeynalabid Batırmurzayevlər, Abdulla Mahammadov, Alim Paşa Salavatov, Abdul Vahab Suleymanov, Srajdin Tokbolatov, Şarip Aliberiyev, Muhammat Atabayev, Latip Hajaqayev, Mahammadali Adilxanov, Yusup Alimxanov kimi şair, yazıçı, publisistlər, Ahmat Sayıp Əfəndi kimi alim və pedaqoq, Rəşid xan Qaplanov kimi dövlət xadimi, rus yazıçısı Mixail Bulqakovun dostu və onunla birlikdə bir pyes yazmış, uzun illər Vladiqafqazda hüquqşünas işləmiş Tajuttin Penzullayev və b. aydınlar doğulub boya-başa çatmışlar. Bu kənddə oxumuşların adlarını da əlavə etsək böyük bir siyahı yaranar.

Azərbaycan Cümhuriyyətinin naziri olmuş Rəşid xan Zabit oğlu Qaplanov da 1883-cü ildə

Yaxsayda doğulmuşdur. Mədrəsəni bitirdikdən sonra Vladiqafqazdakı realnı gimnaziyada oxumuşdur. Sonra Parisə gedərək Sarbon Universitetinin hüquq fakültəsinə qəbul olunmuşdur. 1910-cu ildə universiteti bitirəndə onu İstanbula Darülfününda işə dəvət etmişlər. Rəşid Qaplanov 1913-cü ilədək orada müəllim işlədikdən sonra yenidən Vladiqafqaza gələrək dairə məhkəməsi sədrinin köməkçisi işləmişdir.

Rusiya əsarətində olan Dağlı xalqlarını, eləcə də türk-müsəlman xalqlarını azad və firavan görmək istəyən Rəşid Qaplanov ölkədə baş verən hadisələrə müşahidəçi kimi baxa bilməmiş, Rusiyada gedən siyasi proseslərdə fəal iştirak etmiş, Quzey Qafqaz xalqlarının müstəqil dövlətlərini qurması üçün əlindən gələni əsirgəməmişdir. Çərkəz-Dağıstan və Quzey Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası hökumətlərində müxtəlif nazir vəzifələrində çalışmışdır. Rusiyanın hərbi qüvvələri gənc hökuməti dağıtdıqdan sonra, yəni 1919-cu ilin əvvəllərində Rəşid Qaplanov Bakıya gələrək Azərbaycan Cümhuriyyətində Nəsib bəy Yusifbəylinin martın 14-də təşkil etdiyi 4-cü hökumətdə maarif və dini etiqad naziri vəzifəsinə təyin olunmuşdur.

Vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirən Rəşid Qaplanov nazir işlədiyi dövrdə ana dilində məktəblər açılmış, dərsliklər, tədris proqramları yaradılmışdır. Hazırkı Bakı Dövlət Universitetinin açılmasında yaxından iştirak edən Rəşid Qaplanov nazir vəzifəsini yerinə yetirməklə yanaşı, universitetdə "Osmanlı ədəbiyyatı tarixi"ndən dərs də demişdir.

Onun işgüzarlığını, işinə məsuliyyətlə yanaşmasını dəyərləndirərək Azərbaycan Cümhuriyyətinin 5-ci hökumətdə də maliyyə naziri təyin etmişlər. Rəşid Qaplanov dövriyyəyə buraxılan pulların qiymətdən düşməməsi və devalvasiyaya uğramaması üçün böyük səy göstərmişdir. 1920-ci il fevralın əvvəlində Bakı bonlarının Zaqafqaziya pullarının dəyişdirilməsini dayandırmaq haqqında, 1920-ci ilin aprelində Batuma ixrac edilən neft və neft məhsulları üçün rüsumların yalnız Azərbaycan pulu ilə ödənilməsi haqqında sərəncam vermişdir.

Bolşeviklər həmişəki kimi yenə də vədlərinə əməl etməyərək 1920-ci ilin aprelində Azərbaycanı işğal etdikdə kütləvi həbslərə başlamışlar. Beləcə iyun ayında keçmiş nazir, peşəkar hüquqşünas Rəşid Qaplanov da Bakıda həbs olunmuşdur. Onu əvvəlcə Vladiqafqaza, sonra isə Moskvaya göndərmişlər.

Rəşid Qaplanov kimi savadlı və vicdanlı kadra bolşeviklərin böyük ehtiyacı olduğundan həbsdən azad olduqdan sonra onu Moskvadakı Şərq Xalqları Universitetində işə götürmüşlər. Universitetdə "Osmanlı imperiyası tarixi"ndən dərs deyən və vəkil kimi fəaliyyət göstərən Rəşid Qaplanovun mühazirələrini dərslik kimi çap etmişlər. Xoş görünən bu münasibət o qədər də uzun sürməmişdir. 1937-ci ildə onu da həbs etmişlər.

Qumuq yazıçı və şairlərinin yetişməsində Yaxsay kəndi ilə yanaşı Töben Qazanış kəndinin də rolu az olmamışdır. İbrahim İbrahimov, Taymuraz Biybolatov, Nureddin Xanmurzayev, Abakar Abakarov, Abdulla Hacı Tatamov, Abdulla Məcidov, Mahammad Şarif Minatullayev, Abdülhəmid Hamidov, Mahammad Hacı Xelilov, Abdulla Zalimxanov, Nuraddin Mahammedov və b. ədiblər bu kənddə dünyaya gəlmişlər. Bu onu göstərir ki, həmin kəndlərdə ədəbi mühit formalaşmışdır. Ədəbi mühitin formalaşmasında oradakı mədrəsələrin də rolu böyük olmuşdur. Əslində mədrəsələr təhsil ocağı olmaqla yanaşı, bir elmi mərkəz, ədəbi məclis rolunu da oynamışdır.

2.3. Sovet dövrü qumuq ədəbiyyatı

Elə yazıçı və şairlər var ki, onlar Dağıstanda Sovetlərin hakimiyyəti ələ almasını görməsələr də, onların həyat və yaradıcılığı Sovet ədəbiyyatının tərkibində öyrənilməlidir. Çünki onlar Sovet ədəbiyyatının təməl daşlarını qoyanlar, ədəbiyyatı siyasiləşdirənlər və bolşeviklərin mövqeyinə yaxın bir mövqedə duranlar olmuşlar. Hətta uzun zamanlar onlar qatı bolşevik, fanatik inqilabçı kimi tanıdılmışlar.

Bolşeviklərin tərəfini saxlayan, Rusiyada onların hakimiyyətə gəlməsini alqışlayan və onların yerlərdə də hakimiyyəti ələ alması üçün qələmlərini və ictimai-siyasi fəaliyyətlərini, bədii yaradıcılıqlarını bu yönə istiqamətləndirmiş qumuq ədibləri haqqında çox yazılmışdır. Lakin Rusiya işğalına qarşı duran, milli yönlü insanların və onların əsərlərinin adı belə uzun illər çəkilməmişdir. Elə buna görədir ki, 1917-ci il fevral inqilabından sonra qumuq dilində çap olunan "Müsavat" qəzeti haqqında, bu qəzetin ətrafına toplaşmış milli qüvvələr haqqında geniş bilgimiz yoxdur.

Sovetlərin hakimiyyətə gəlməsindən əvvəl yaşamış və bədii yaradıcılıqla məşğul olmuş Dadav Mahammedov (1856-1926), Manay Alibekov (1861-1920), Nuxay Batırmurzayev (1865-1919) və b. şairlərin yaradıcılığında zamanədən şikayət,

haqsızlıqların tənqidi, kasıbların güzəranının ağırlığının təsviri olduğuna görə onlar qumuq Sovet ədəbiyyatının təməlini qoyanlar kimi təbliğ edilmişlər. Abdulla Mahammedov (1869-1937) isə 88 illik ömrünün cəmi 17 ilini Sovetlər dönəmində yaşamasına baxmayaraq onun günümüzədək gəlib çatan əsərlərinin böyük əksəriyyəti Sovetlər dönəmində yazılanlardır. Uzun illər Yırçı Qazağın təsiri ilə şeirlər yazan Aybala Dadav (Dadav Mahammetov) ömrünün son illərində ictimai siyasi hadisələrlə səsləşən şeirlər yazdığına görə Sovet dövründə onu "işçi sinifi" şairi, qumuq türklərinin ilk "proletar" şairi kimi təbliğ etməyə başlamışlar.

Keçmiş Rusiya imperiyasında baş verən dəyişikliklər qumuq ədəbiyyatına da güclü təsir göstərmişdir. Sovetlərin qələbəsindən sonra ana dilində yazıb-yaradanların sayı artmış, qumuqlar üçün Bakı nəşriyyatlarında kitablar, qəzet və jurnallar çap olunmuş, Azərbaycanın ali və orta ixtisas məktəblərində qumuq gənclərinin təhsil almasına şərait yaradılmışdır. Bu da qumuq yazılı ədəbiyyatının inkişafına təkan vermişdir. Ədəbiyyatda epik nümunələr çoxalmış, poemalar, hekayə, povest, roman və pyeslər meydana gəlmişdir.

Əslində bir dövr kimi öyrənilməli olan Sovet dövrü qumuq ədəbiyyatını araşdırıcılar 1950-ci

illərin sonundan etibarən aşağıdakı kimi dövrləşdiriblər:

“I devür - İnqılapın va vatandaş davnu yıllanı adabiyatı (1917-1920);

II devür - yiqirimançı yıllarını adabiyatı (1920-1929);

III devür - otuzunçu yıllarını adabiyatı (1930-1941);

IV devür - Yullu Vatan davnu yıllarını adabiyatı (1941-1945);

V devür - davadan sonqhu yıllanı adabiyatı (1945-1956);

VI devür - haliqi adabiyat (KPSS-ni 20-ci siezdinden sonq yaratılqan adabiyat)” (Literaturadan xrestomatiya, 1986: 3).

1927-1928-ci illərdəki milli düşüncəli insanların kütləvi həbs və sürgünlərindən sonra qumuq gəncləri arasında rus Sovet ədəbiyyatının təsiri ilə yazıb yaratmaq dəb halına düşür. Beləcə qumuq ədəbiyyatında yalnız mövzuca deyil, janr, vəzn və ritmcə də dəyişikliklər baş verir. Sərbəst vəzndə yazmağa, Mayakovskini yamsılamağa çalışanların sayı artır. Rus və Avropa yazıçılarının əsərləri rus dili vasitəsilə qumuq türkcəsinə də çevrilir.

Bolşeviklər çar üsuli-idarəsini, keçmiş quruluşu sərt tənqid etsələr də, milli məsələdə onun siyasətini

davam etdirir, həmişə Kazan və Krım tatarları, azərbaycanlılar, özbəklərlə, qazaxlarla sıx ünsiyyətdə olan qumuqları öz kökündən ayırıb ruslaşdırmaq siyasəti yeridir. Onlar öz mövqelərini möhkəmlətmək üçün azsaylı xalqların ibtidai savad almasına, mədəniyyətlərinin inkişafına şərait yaradırdılar. Savadlanan, dünyagörüşü olan insanlar isə öz tarixi keçmişlərini öyrənməyə və yaşatmağa həvəs göstərirdilər.

Qafqazda nəinki türk xalqları arasında ünsiyyət vasitəsi kimi türk dilindən istifadə edilir, yazışmalar da türkcə aparılırdı. Bolşeviklər həm bu ənənəyə, həm də İslam mədəniyyətinə qarşı çıxırdılar. İslam dininə qarşı mübarizə, xalqın adət-ənənəsinin ateizm təbliğatı adı altında sıxışdırılması, ərəb əlifbasının dəyişdirilməsi müsəlman-türkləri bir-birindən ayırmağa, onların assimilə olunmasını gücləndirməyə xidmət etdiyini ziyalılar aydınca görürdülər.

Yalnız Dağıstanda yaşayan qumuqların deyil, ləzgilərin, tabasaranların, lakların, darginlərin, avarların, saxurların və b. azsaylı xalqların aydınlarını bir məsələ düşündürürdü: Nədən yüzillər boyu ünsiyyət vasitəmiz olan türk dili rus dili ilə əvəz edilməlidir? Nədən Dağıstan MSSR tarixi, adət-ənənəsi bir olan, paytaxtı daha yaxında

yerləşən Azərbaycan Respublikasının tərkibində deyil, hər cəhətdən onlara yad olan və mərkəzi uzaqda, Moskvada yerləşən Rusiya Federasiyasının tərkibində olmalıdır? Bu və buna bənzər suallara cavab axtaran aydınlar təqiblərə uğrayır, həbs edilir, sürgünə göndərilirdilər. Bütün bunlara baxmayaraq, Dağıstanda yaşayan və qumuq olmayan Said Küçxür, Süleyman Stalski və başqaları qumuq türkcəsində da şeirlər yazmışlar.

Milli dəyərlərdən uzaq olan, sosializm quruculuğunu, kolxozlaşmanı, bolşeviklərin vətəndaş savaşındakı hünərini, bolşevik öncüllərini tərənnüm edən şair və yazıçılara isə çap olunma, qonorar alma, bir sözlə, yaşama imkanı yaradılırdı.

Qumuq Sovet ədəbiyyatını Abdulla Mahammadov (1864-1937), Temirbolat (Taymuraz) Biybolatov (1879-1942), Bahautdin Astemirov (1898-1967), Alim Paşa Salavatov (1901-1942), Nabi Xanmurzayev (1893-1950) və başqaları formalaşdırırdılar.

Manay Alibekov (1861, Tersk vilayətinin Yaxsay kəndi-1920). Onun soyadı Əlibəyzadə kimi də yazılır. Manay tikinti işçisi olmuşdur. Təhsil ala bilməsə də xalq şeiri ruhunda yazdığı əsərləri ona böyük uğur qazandırmışdır. “Yaxsaydakı qumuq qızlarının arzuları”, “Hakimlərin işləri”, “Starşina”,

“Mollalar” və s. şeirləri qumuq yazılı ədəbiyyatının inkişafına təkan vermişdir.

Çar məmurlarının və yerli bəylərin, varlıların xalqa etdikləri zülmü tənqid edən, eləcə də soydaşlarını elm öyrənməyə, maariflənməyə çağıran şeirləri Manayı sevdirmiş, Bəkir Çobanzadə onu “köy ve köylü şairi” adlandırmaqla, şeiri sadəcə sənət üçün deyil, xalqının dəyişilməsi, zamanla ayaqlaşmağa uyması üçün yazdığına görə onu təqdir etmişdir.

Şairin xalqının yaşamından bəhs edən şeirlərində olduqca zəngin etnoqrafik materiallar var.

Mixail Kanbulatzadə onun şeirlərini toplayaraq ölümündən beş il sonra, yəni 1925-ci ildə Buynakskda çap etdirmişdir.

Abdulla Mahammedov (5 aprel 1869, Tersk vilayətinin Yaxsay kəndi-2 mart 1937). Kəndli ailəsində dünyaya göz açmışdır. Abdulla Mahammadovun yeniyetmə və gəncliyində Yaxsay mədrəsəsi o qədər nüfuzlu təhsil ocağı idi ki, hətta ətraf bölgələrdən buraya oxumağa gəlirdillər. Belə bir təhsil ocağı kəndlərində olmasına baxmayaraq o, dərin təhsil görməmişdir. Bu da onun bədii yaradıcılığına təsirsiz keçməmişdir.

Abdulla Mahammedov iti zəkası, fitri istedadı ilə yaşıdlarından seçilmiş, xalq arasında yaşayan yırları söyləyə-söyləyə özü də həmin janrda şeirlər yaratmışdır (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 17).

Bolşeviklər hakimiyyətə gəldikdən sonra daim xalq arasında olan sadə insanlardan bacarıqla istifadə edərək onları öz təbliğatçılarına çevirirdilər.

1920-1930-cu illərdə kasıb ailədən çıxan, folklordan qaynaqlanaraq sadə şeirlər yazan, xalq arasında dolaşan qazax Cambul Camoyev (1846-1945), ləzgi Süleyman Stalski, avar Həmzət Sadasa kimi sənətkarları reklam edərək, onlardan bacarıqla yararlanırdılar. Qumuqlar arasında da Abdulla Mahammadov bu funksiyanı yerinə yetirirdi. O, kolxoz quruluşunu, sosializmin qələbəsini, bolşeviklərin hünərini tərənnüm edən, kapitalizmi, köhnəliyi, adət-ənənələri tənqid edən şeirlər yazırdı.

Şair qocalanda yazı-pozu öyrənmiş, şeirlərini qəzetlərə göndərmişdir. İlk şeiri 1925-ci ildə "Yoldaş" qəzetində çap olunmuşdur. 1934-cü ildə isə "Qulaq asın, görün, qoca nə deyir" adlı ilk şeirlər kitabı işıq üzü görmüşdür. Kitaba sosializm quruculuğundan, bolşeviklərin hünərinin tərənnümündən, Leninin, Stalinin tərifindən, qadın azadlığından, qumuq qadınlarının baş örtüyü-

çadradan, yaşmaqdan imtina etdiyindən, kolxozlaşmadan, Oktyabr inqilabının qumuq xalqına bəxş etdiyi "xoşbəxtliklər"dən bəhs edən şeirləri daxil edilmişdir. Elə həmin il ona ləzgi Süleyman Stalski, avar Həmzət Sadasa ilə birlikdə Dağıstanın xalq şairi adı verilmişdir. SSRİ Yazıçılar İttifaqına üzv seçilən şairi 1935-ci ildə qoca vaxtında Moskvaya, Sovet Dağıstanının 15 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etməyə aparırlar. 1936-cı ildə isə onu Dağıstan Yazıçılar İttifaqının İdarə Heyətinə seçirlər.

Sonradan şairin şeirləri toplanaraq "Seçilmiş əsərləri" adı ilə çap olunmuşdur. Onun "Sovet quşları" şeiri zamanında daha məşhur olmuş və bir neçə dilə tərcümə edilmişdir.

"Dağıstan ədəbiyyatı antologiyası" kitabında Əhməd Cəmilin tərcüməsində şairin "Qadınlar, tarlaya çıxın" şeiri verilmişdir (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 17-19).

Nuxay Batırmurzayev (1865, Tersk vilayətinin Yaxsay kəndi-18 sentyabr 1919). Çağdaş qumuq poeziyasının və nəsrinin banilərindən biri sayılır. Mədrəsədə oxuyarkən ərəb dilini, islam tarixini, şəriəti, Doğu ədəbiyyatını öyrənir. Gənc yaşlarından bədii yaradıcılığa başlayan şair sosial ədalət uğrunda mübarizəni həyatının mənası sayır. "Yazıq Habibat"

(1910), “Davut blan Layla” (Davut ilə Leyla) (1912), “Harun və Zubaydat, yaxud nəsibsiz Canbike” kimi povest və Doğu süjetləri əsasında romantik novellalar, hekayələr yazmaqla yanaşı, ərəbcədən “Min bir gecə”, “Canşah” və “Sindibadın dəniz səyahəti” nağıllarından parçaları qumuq türkcəsinə çevirmişdir. Nuxay Batırmurzayev oğlu Zeynalabidin “Tanq çolpan” (Dan ulduzu) jurnalını nəşr etməsinə yaxından kömək etmişdir. Çox təəssüf ki, bu mübariz insan, eləcə də oğlu Zeynalabid 1919-cu ildə Denikinçilər tərəfindən güllələnmişlər.

Zeynalabid Nuxay oğlu Batırmurzayev (1897, Tersk vilayətinin Yaxsay kəndi-1919). Gənc yaşlarından bədii yaradıcılığa başlamış, atası ilə birgə “Tanq çolpan” jurnalını çıxarmışdır. Jurnalın 1917-ci ildə 4, 5, 7, 8 saylarında “Dağıstan tarixinə bir qarab” (Dağıstan tarixinə bir baxış), 1918-ci ildə 9 sayında “Dağıstanda tarixi günlər” məqalələri çap olunmuşdur.

Onun yaradıcılığında döyüşkən ruh hakimdir. Qumuq türklərinin milli oyanışa gec qaldıqlarını şeirində xalqına belə çatdırırdı:

Tuwdu Çolpan, tang bilindi,

- *Doğdu Dan ulduzu, sabah bilindi,*

Boldu uyanma zaman.

- *Oyanma zamanı gəldi*.

Şawla aldı dünya yüzün,
- *İşıq aldı dünya üzünü,*
Yuxlağanımız taman.
- *Yuxulamağımız yetər*.
Gözüng aç, dört yakğa qara!
- *Gözünü aç, dörd yana bax*!
Getdi kerwan erterek.
- *Getdi karvan erkəndən.*
Biz geçigip kalğanbız,
- *Biz gecikib qaldıq,*
Enni hozğalma gerek.
- *Artıq hərəkətə geçmək gərək.*

Zeynalabidin çağrı xarakterli bu şeiri "Tenlik" təşkilatının 1990-cı ildə çap etdiyi bülletenin birinci səhifəsində də çap olunmuşdur. Bu bir daha onu göstərir ki, bolşeviklərin qurmuş olduğu dövləti 1990-cı illərdə yıxmaq istəyənlər də fanatik kommunist kimi tanıdılan Zeynalabid Batırmurzayevin şeirindən istifadə etmişlər. Bu da onu göstərir ki, Zeynalabid Batırmurzayev bolşevik düşüncəli bir insandan çox, haqsızlığa dözməyərək ona etiraz edən, xalqının xoşbəxt gələcəyini arzulayan, bu yolda canından keçənlərdən biri olmuşdur.

Temirbolat (Taymuraz) Biybulat oğlu Biybolatov (21 dekabr 1879, Teymurxan-şura

dairəsinin Töben (Aşağı) Qazanış kəndi – 20 fevral 1942, Qazaxıstan Respublikasının Qaraqanda şəhəri). Qumuq ədəbiyyatında süjetli poemaların yaranmasında böyük rol oynamış şairin yaradıcılığı çoxsahəlidir. Gənc yaşlarından çar Rusiyasının Dağıstan Atlı Polkunda zabit kimi xidmət etməsinə baxmayaraq inqilaba qoşulmuş, mədəni-maarif sahəsində də gücünü sınamış, qumuq teatrının formalaşmasına böyük əmək sərf etmişdir. O, böyüklər üçün həvəskar teatr truppası təşkil edib tamaşalar göstərməklə yanaşı, uşaqlar üçün "Çiçəklər", "Qış", "Yaz", "Börkçü" səhnəciklərini yazdığını da müasirləri xatırlayırlar.

1922-ci ildə "Şamil", "Qazi Molla", "Qara günlər", 1928-ci ildə "Dağıstanda ulu inqilab", "Xaspolad", "İmam Əzəm və onun oğlu Əzəmət" və b. poema, pyeslər yazan Temirbolat Biybolatov haqqında tanınmış qumuq bilgini Abdulhakim M. Hacıyev yazır: "Kumukların ilk edebiyat ve kültür dergisi "Tanq çolpan"ın, kumuk tiyatrosunun, halk oyunları ve şarkıları toplusunun kurucularından birisi olan Temirbolat Biybolatov, çalıştığı bütün sahalarda halka faydalı bir çok işe imza attı. Besteci olarak bir çox bestenin yanı sıra "Şamil", "Tanq çolpan" operalarını, şair olarak pek çok şiirin yanında "Hacı Murat", "Stepka Razin", "Medende yarış" ve başka

manzumeleri, dramaturg olarak "Şamil", "Su perisi" ve başka piyesleri yaratmış, çevirmen olarak Uilyam Şekspirin, Fridrix Şillerin, Aleksandr Puşkinin, Mixail Lermontovun ve başka ünlü şairlerin eserlerini kumuk türkçesine çevirmiştir" (Türkiye dışındakı..., 2002: 237, 20-ci cild). Kadr çatışmadığından o çox vaxt tamaşalarda aktyorluq və rejissorluq da etmişdir.

Dağıstanda teatr texnikumunun, 1930-cu ildə Qumuq Dövlət Dram Teatrının və Dağıstan Mahnı və Rəqs Ansamblının yaradılmasında onun böyük rolu olmuşdur. Tamaşalara musiqi yazan, çox vaxt ifaçı kimi də çıxış edən Temirbolat Biybolatov hətta "İki açar" adlı film çəkməyə də nail olmuşdur.

Temirbolat Biybolatov bolşeviklərə inanıb onların yolunda əldə silah döyüşməsinə, sosializm quruculuğunun fəallarından olmasına, əsərlərində Sovetlərin ideologiyasını müdafiə etməsinə baxmayaraq mətbuatda və toplantılarda dəfələrlə kəskin tənqid edilmişdir. Tarixi mövzuda yazdığı əsərlərdə faktlara obyektiv yanaşmağa cəhd göstərdiyinə, dağlıların qəhrəmanlıqla çar Rusiyasına qarşı vuruşduqlarını yazdığına görə İsmail Aurbiyev onu "Şamil, Sovet ideologiyası və T.Bulatov" adlı məqaləsində kəskin tənqid etmişdir. Bütün bunlar onu göstərirdi ki, bolşeviklərlə Temirbolat Biybolatovun yolları ayrılırdı. Odur ki, aldandığını

başa düşür, onun kimi aldanmışlarla birləşərək vətənini azad görmək üçün yollar arayırdı.

Çevirmən kimi də o olduqca məhsuldar işləmişdir. Uilyam Şekspirin "Otello", "Romeo və Cüllyetta" faciələrini, Lope de Veqanın "Qoyun bulağı", Nikolay Poqodinin "Aristotel", Aleksandr Puşkinin "Daş cəngavər", Aleksandr Korneyçukun "Eskadranın məhvi" və b. əsərləri ana dilinə çevirmişdir.

Vətəni və milləti üçün böyük işlər görən bu insan Sovet irticasının qurbanı olmuşdur. 1938-ci ildə xalq düşməni adlandırılaraq həbs edilən Temirbolat Biybolatov1942-ci ildə Qaraqanda həbs-xanasının əlillər və çolaqlar düşərgəsində ölmüşdür.

Əli Qaziyav (1879, Dağıstan, Endrey kəndi-1964). Yaradıcılığa Birinci Dünya Savaşı illərində Dağıstan Atlı Alayının tərkibində döyüşlərdə iştirak edərkən başlamışdır. Qopuz çalıb sarınlar (bayatılar) oxuya-oxuya özü də yenilərini yaratmağa başlamışdır.

Şair Sovet dövründə kəndli komitəsində, kənd sovetində işləmiş, kolxozu, sosializmi tərənnüm edən, İkinci Dünya Savaşı illərində faşizmi tənqid və təhqir edən, söyən şeirlər yazmışdır.

Şairin "Qaziyav Əli mahnı deyir", "Qocanın qılıncı", "Oktyabr bəhrələri", "Seçilmiş əsərləri"

adlı kitabları nəşr olunmuş və ona Dağıstanın xalq şairi adı verilmişdir. Antologiyada Teymur Əliyevin tərcüməsində "Ay işığı və qırmızı işıq", "Onun ömrü uzun olsun", "Qarğıdalı dəni" şeirləri çap olunmuşdur (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 20-23).

Nabi İbrahim oğlu Xanmurzayev (1897, Teymurxan-şura dairəsi, Töben (Aşağı) Qazanış - 1950). Teymurxan-şuradakı realnı məktəbi bitirdikdən sonra uzun illər öyrətmənlik etmişdir. Səmərəli pedaqoji fəaliyyətinə görə o, Dağıstan MSSR-in əməkdar müəllimi adını almışdır. Ədəbiyyata yır söyləməklə gələn şair ilk şeirini 1919-cu ildə çap etdirmişdir. 1929-cu ildə isə "Göz yaşı içində gülüş" kitabı işıq üzü görmüşdür. Bundan başqa "Энечи ва эмчи" (Loğman və mamaça), "Qisasçılar" pyeslərinin yazarı olmuşdur. Onun satirik şeirləri, pamfletləri qumuq ədəbiyyatını zənginləşdirmişdir. "Mahnılar və şeirlər", "Savaş şeirləri", "Seçilmiş əsərləri" kitabları da vardır. Qumuq satirasının ustası kimi tanınmışdır.

Şairin adını Azərbaycanda Nəbi Xanmurza kimi yazıblar. Tələt Əyyubov şairin "Boçkanın (Çəlləyin) şikayəti" şeirini dilimizə çevirmişdir (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 41-44).

Bahautdin Acı oğlu Astemirov (17.10.1898, Tersk vilayətinin Yaxsay kəndi-03.04.1967).

Mədrəsə təhsili almış Bahautdin zülmə, haqsızlığa qarşı olmuş, xalqını xoşbəxt günlərə çıxarmaq arzusu ilə yaşamışdır. Zeynalabidlə dostluq etmiş, onunla birlikdə ailə kitabxanalarındakı kitabları oxumuşdur. 1917-ci ildə Teymurxan-şuradakı müəllimlər hazırlayan kursda oxuyan Bahautdin 20 yaşında ikən Zeynalabid Batırmurzayevin başçılıq etdiyi partizan dəstəsinə qoşularaq əldə silah ağqvardıyaçılara qarşı vuruşmuşdur. Onun ilk publisistik məqalələri də həmin illərdə çap olunmuşdur. 1920-ci ildə isə Zeynalabid Batırmurzayevin əsasını qoyduğu teatr truppası onun mövzusunu bolşeviklərin qələbəsindən almış "Hücum" pyesini səhnəyə qoymuşdur.

Bolşeviklər Dağıstanı işğal edəndə onlarla sıx əməkdaşlıq etmişdir. Gənclər təşkilatı yaratmış, qumuq dilində çap olunan "Dağıstan gəncləri" qəzetinin redaktoru olmuşdur. 1928-ci ildə SSRİ-də Proletar Yazıçılar Cəmiyyəti yaradılanda Bahautdin Astemirovu Dağıstan MSSR-in Proletar Yazıcılar Cəmiyyətinə sədr təyin edirlər. "Dəniz yagada" (Dəniz sahilində), "Qartligina, vöre, etme mükürlük" (Qocalığı qəti qəbul etmə), "Qart emen" (Qoca palıd) və b. şeirləri onun lirik duyğularından xəbər verir.

Bədii yaradıcılıqla yanaşı, ardıcıl təşkilati işlər də aparan Bahautdin Astemirov 1932-ci ildə

“Dağıstan şairləri” toplusunu, bir il sonra isə özünün “Mübarizə” adlı şeir kitabını çap etdirir. 1934-cü ildə yazıçılar təşkilatını formalaşdırır və Moskvada keçirilən SSRİ Yazıçılar İttifaqının I qurultayında iştirak edir. Əsərlərində sosializmi təbliğ edən, rus ədəbiyyatının təsiri altında yazıb yaradan şair-publisisti Dağıstan MSSR-in Yazıçılar İttifaqına sədr təyin edirlər.

Dağıstan MSSR Maarif Komissarı, Sov.İKP Dağıstan Ölkə Komitəsində məsul vəzifədə işləmiş ədib “Qılınc və qələm”, “Tan çolpan”, “Kim bilir”, “İldırım”, “Yabuşuv” (Savaş) kimi şeir və poemalarını yazmışdır.

Əsərlərində sosializm realizminin, rus ədəbiyyatının və mədəniyyətinin tərənnümçüsü kimi görünən Bahautdin Astemirov rəhbər vəzifələrdə işləməsinə baxmayaraq içdən cəmiyyətdəki haqsızlıqdan narazı qalır, idarəetmədəki nöqsanları görür və onu aradan qaldırmağa çalışır. Onun gizli fəaliyyəti Sovet xüsusi xidmət orqanları tərəfindən diqqətlə izlənilir. 1937-ci ildə vətən xainliyində ittiham olunaraq həbs edilir.

Sov.İKP-nin 20-ci qurultayında Stalin şəxsiyyətə pərəstişdə ittiham edilir və 1937-ci il qurbanlarına bəraət verildiyi elan edilir. 18 il həbsdə

yatdıqdan sonra Bahautdin Astemirov 1957-ci ildə həbsdən azad edilsə də, aldığı mənəvi və fiziki zərbələrdən çox yaşamamış, 1967-ci ildə dünyasını dəyişmişdir. Bahautdin Astemirov (şairin adı) Azərbaycan qaynaqlarında Vahab kimi yazılır. Onun "Partiya", "Dağlarla söhbət" şeirləri B.Adil tərəfindən Azərbaycan türkcəsinə çevrilərək Bakıda nəşr edilmişdir (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 39-40).

2.4. Teatr yeni təsir vasitəsi kimi

19-cu yüzilin ortalarında Avropada sosial-demokrat hərəkatının güclənməsi, 20-ci yüzildə Rusiyanın bir imperiya kimi zəifləməsi və Rusiya Sosial Demokratik Fəhlə Partiyası təbliğatının fəallaşması qumuq ədəbiyyatına öz təsirini göstərmişdi. Ədəbiyyatda ideoloji mövzularda yazılan əsərlərin sayı gündən günə artırdı. Lakin bu da millətin öndə gedənlərini qane etmirdi. Əhalinin böyük qismi savadsız və az savadlı olduğundan, qəzet jurnalları vaxtında alıb oxuya bilmədiklərindən teatra üstünlük verməyə başladılar.

Qumuq teatrının tarixini nə qədər bolşeviklərin hökuməti silah gücünə ələ keçirməsindən əvvələ

çəkməyə çalışsalar da peşəkar qumuq teatrı Sovet dövründə formalaşmışdır.

Yalnız qumuqlarda deyil, Dağıstan və Quzey Qafqaz xalqlarında teatrın yaranmasında və formalaşmasında Azərbaycan ədiblərinin və incəsənət ustalarının rolu böyük olmuşdur. Bölgənin Azərbaycan mədəniyyəti dairəsində olmaları, dil, adət-ənənə yaxınlığı öz təsirini göstərmişdir.

Azərbaycana çörəkpulu dalınca gələnlərin bir çoxu burada gördükləri teatr tamaşalarını təsiri ilə pyeslər yazmış və yaşadıqları şəhər və kəndlərdə həvəskarların köməyilə tamaşalar göstərmişlər.

Bakının təsiri ilə Teymurxan-şura da bir mədəni mərkəz kimi formalaşmışdır. Orada onlarla Azərbaycan aydını yaşayır və yazıb-yaradırdı. Azərbaycan teatr truppaları da Temurxan-şuraya və Dağıstanın müxtəlif şəhərlərinə qastrola gedirdi. Elə buna görə idi ki, Dağıstan xalqları arasında ilk teatr truppası yaradan, ilk tamaşalar göstərən də qumuqlar olmuşdur.

Qumuq araşdırıcıları teatrlarının tarixini 1906-ci ildə Teymurxan-şurada həvəskarların yaratdığı "Toy" adlı dərnəklə hesablayırlar. Həvəskar teatr truppasının təşkili, ardıcıl tamaşalar hazırlaması isə 1910-cu ildən başlanmışdır. Rus ordusunun Dağıstandakı Atlı Alayının komandiri, musiqi

istedadı ilə seçilən, bədii yaradıcılıqla ardıcıl məşğul olan Temirbolat Biybolatovun həvəskarlardan təşkil etdiyi teatr truppası Azərbaycanda oynanılan Əbdürrəhim bəy Haqverdiyevin "Pəhlivanani-zəmanə", Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" (Məşədi İbad), "Sultan Abdulhəmid" və başqa əsərləri oynayırlar.

1920-ci illərdə Əbdürrəhim bəy Haqverdiyevin pyesləri Dağıstan səhnəsində daha çox göstərilirdi. Onların içərisində də "Ac həriflər" xüsusilə seçilirdi.

1916-cı ildə isə Zeynalabid Batırmurzayev, Sultan Seid Kazbekov, Şahmirzə Davletov Xasavyurtda həvəskarlardan ibarət "Tanq çolpan" (Dan ulduzu) adlı teatr truppası yaradır. Onlar hazırladıqları tamaşaları ətraf kəndlərdə də göstərilirr. Zeynalabid Batırmurzayev səhnədə oynanmaq üçün əsərlər yazmaqla yanaşı özü aktyorluq və rejissorluq da edir. Yazmış olduğu "Danyal bek" pyesi tamaşaya qoyulanda baş rolu özü oynamışdır.

1917-ci ilin iyulunda Temirbolat Biybolataov "Dağıstan Müsəlmanlarının Teatrı və Ədəbiyyatı Cəmiyyəti"ni qurur. "Tanq çolpan" jurnalı bu cəmiyyətin orqanı kimi nəşrə başlayır, ilk redaktoru da Temirbolat Biybolatov olur.

1920-ci ildə Temirxan Muratov da III İnternasional fabrikində həvəskarlardan ibarət teatr truppası yaradır. Bu truppa öz rəhbərinin "Qanlı meydan", "Yazıq Umugülsum", "Namərd qazı" kimi pyeslərini tamaşaya qoyur. Tamaşalar sənətkarlıq baxımından zəif olsalar da dövrün tələblərinə cavab verdiyindən, necə deyərlər bolşevik təbliğatına xidmət etdiyindən yüksək qiymətləndirilirdi.

Teatra xüsusi diqqət yetirən hökumət teatr texnikumu və texnikumun nəzdində studiya yaradır. Tələbə və müəllimlər burada Bahadur Mallaxçixanovun "Hakim", Rəşid Davudovun "Üyleniv" (Evlənmək), texnikumun tələbəsi Əmir Qurbanovun "Tav qarçığalar" (Dağ qartalları) pyeslərini tamaşaya qoyurlar.

Teatr texnikumunun ilk buraxılışından sonra, yəni 1930-cu ildə Dağıstanda Qumuq Dövlət Teatrı fəaliyyətə başlayır. 1929-cu ildə Zeynalabid Batırmurzayevin "Müridlər" komediyası, 1930-cu ildə Abdulla Başirovun "Süyüvnü qurbanı" (Sevgi qurbanı) lirik sentimental pyesi tamaşaya qoyulsa da qumuq teatrının repertuarı olduqca zəif idi (Literaturadan..., 1986: 6). Dağıstan MSSR Maarif Komissarlığı yerli müəllifləri pyes yazmağa həvəsləndirmək üçün dalbadal iki il dram əsərlərinin

müsabiqəsini elan edir. 1933-cü ilin müsabiqəsində Alim Paşa Salavatovun "Qırmızı partizanlar" pyesi birinci mükafata, 1934-cü ilin müsabiqəsində Əmir Qurbanovun "Çoban Arslan" pyesi və Həsən Rüstəmovun "Həyatda" pyesi ikinci mükafata layiq görülür.

Alim Paşa Salavatovun "Qırmızı partizanlar", Atqay Acamatovun "Ansar", "Polad tələ", Temirbolat Biybolatov "Şamil", "İmam Əzəm və onu oğlu Əzəmət", "Su pərisi", "Dağıstan inqilab saklar Soveti", Temirxan Muratovun "Yazık Umukülsüm", "Namərd qazı", Bahautdin Astemirovun "Hücum", Zeynalabid Batırmurza-yevin "Müridlər" və b. dram əsərləri 1920-1930-cu illərdə yalnız qumuq dramçılığının inkişafına deyil, orada yaşayan avar, ləzgi, dargin və b. xalqların teatrının inkişafına təkan verməklə yanaşı, ədəbi əlaqələrin möhkəmlənməsində də mühüm rol oyna-mışdır.

Qumuq dramçılığı da Sovetlərin keçdiyi yoldan kənarda qala bilməzdi. Belə ki, 1920-1930-cu illərdə bolşeviklərin qələbəsi tərənnüm olunur, din xadimləri, varlılar, azad düşüncəlilər tənqid hədəfinə çevrilir, yenilik, qadın azadlığı adı altında adət-ənənəyə qarşı çıxılır, zorakılıq təbliğ edilirdi. Qumuq teatrının artisti Mahammed Qurbanovun

kasıbların öz haqları uğrunda mübarizəsindən bəhs edən satirik "Molla Nəsrəddin" komediyasını nümunə göstərmək olar.

1940-cı illərdə ədəbiyyatın və bədii publisistikanın əsas mövzusu İkinci Dünya Savaşı olur. Bundan istifadə edən qumuq ədibləri tarixi mövzulara müraciət etməklə xalqda düşmənə-faşizmə nifrət, vətənə məhəbbət, qəhrəmanlıq hissləri oyatmağa çalışırlar. Bu baxımdan Əmir Qurbanovun "Bozigit", "Asiyatın məhəbbəti" pyesləri diqqətçəkəndir. Belə ki, Abusufyanın çap etdirdiyi "Bozoğlan" əsərinin sujetini əsas götürərək yeni səhnə əsəri yarada bilmişdi. Həmin illərdə yazılan səhnə əsərləri arasında Ş.Abdullayevin "Yer" pyesini də yada salmaq lazımdır.

1950-ci illərdə konfliktsiz əsərlər yazmaq dəb halını alır. Əbdülqadir Qurbanovun "Qonşular", "Qarlı dağlarda", Həsən Rüstəmovun "Dostlar", "Salamata hədiyyə", Bəşir Atayevin "Gəlin", Ş.Abdullayevin "Geniş yol", Mahammed Seid Yahiyayevin "Qulyaybat" və b. pyesləri yazılır.

Sonrakı illərdə Stalinin şəxsiyyətə pərəstişindən, insanların mənəvi, psixoloji aləmindən söz açan səhnə əsərləri yaransa da bunlar o qədər də uzunömürlü olmurlar. Qumuq teatr tarixinin araşdırıcısı Layla Şabayeva 1950-1970-ci illərdən söz açarkən

Əbdülqadir Qurbanovun “Anamı ərə verirlər”, Kamil Abukovun “Məryəm, mən günahkaram”, Muhammat Atabayevin “Qızıl qaz”, Abdulla Atayevin “Biriləri gedir, o biriləri gəlir”, Abdülhəmid Hamidovun “Bayram təxirə salınır”, Bəşir Adjıyevin “İstəyirsiniz gülün, istəyirsiniz ağlayın”, Bəşir Atayevin “Şamxal Adilgəray Tarkovski” və b. pyeslərin adını çəkir.

1930-1980-ci illərdə Qumuq Dövlət Teatrında ən çox əsəri oynanan müəllif Ənvər Qurbanovdur. O, bütün dövrlərin ruhuna uyğun pyeslər yazmış, necə deyərlər, sosial sifarişləri məhsuldar yerinə yetirmişdir.

Qumuq teatrında da yavaş-yavaş pafos öz yerini obrazın daxili aləminin açılması ilə, şuarçılıq tamaşaçını düşündürə biləcək fikirlərlə əvəzlənir. Tarixi keçmişə, öz xalqının idarəçilərinə də münasibət dəyişir. Əvvəllər hökmdarlar, şamxallar ağılsız, qəddar, qaniçən, xalqına zülm verməkdən ləzzət alan insanlar kimi təqdim edilirdisə, sonralar tarixi həqiqətləri tamaşaçıya çatdırmaq meyli güclənir. Bunu eyni mövzuda yazılmış iki pyesin timsalında aydın görmək olar. Alim Paşa Salavatov “Ayqaz” pyesində Şamxal Adilgəray Tarkovskini qəddar, xalqına zülm verən idarəedici kimi tanıtmağa çalışırdısa, Bəşir Atayevin “Şamxal Adilgəray Tarkovski” dramında xalqını xilas etmək

üçün hər cür cəfaya hazır, ağıllı və fərasətli bir vətənpərvər kimi təqdim olunur.

Az zaman kəsimində Alim Paşa Salavatov, Abdul Vahab Suleymanov, Abdulla Hacamatov, Bəşir Atayev, Şarip Aliberdiyev, Əmir Qurbanov, Mahammed Seid Yahiyayev və b. qumuq dramçıları yetişir. Onların pyesləri estetik dünyagörüşün formalaşmasına, vətənpərvərlik duyğularının yüksəlməsinə xidmət edir.

Alim Paşa Salavatov (1901, Tersk vilayətinin Yaxsay kəndi-1942, İkinci Dünya Savaşı). İlk yaradıcılığa Zeynalabidin nəşr etdirdiyi "Tanq çolpan" jurnalında və "İşçi xalq" qəzetində nəşr edilən əsərlərin təsiri altında başladığını yazırlar. Bakıda təhsil alması onun yaradıcılıq yolunu dəyişmişdir. 1931-ci ildə Dağıstan Pedaqoji İnstitutunu bitirdikdən sonra kəndlərindəki məktəbdə və Buynakskdakı pedaqoji texnikumda müəllim, SSRİ EA Dağıstan filialında Tarix, Dil və Ədəbiyyat İnstitununda elmi işçi kimi çalışmışdır. İlk şeirlər kitabı 1925-ci ildə çap olunmuşdur. Folklor materialları və Yırçı Qazağın şeirlərini toplamışdır.

Ədəbiyyata şeirlə gəlsə də sonradan dramçılığa marağı artmış, "Ayqazi", "Qırmızı partizanlar" "Qarasaç" pyeslərini yazmışdır. İlk iki pyesi uzun

illər fasiləsiz şəkildə Dağıstan teatrlarının səhnələrindən düşməmişdir. Qumuq xalq ədəbiyyatından nümunələri "Çiçəklər" adı altında toplamışdır. Ona Dağıstanın əməkdar incəsənət xadimi fəxri adı vermişlər. "Dəmirçiyə", "Qulaq as!", "Məktəb", "Günəş necə danışır", "Rezin top" şeirləri Zeynal Cabbarzadənin tərcüməsində Azərbaycanda çap olunmuşdur (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 36-38).

Bakıda Bəkir Çobanzadə, Əziz Ubaydullin, Xalid Səid Xocayev, Abdulla Şərifov və b. araşdırıcılarla yaxından tanış olmuş və öyrətmənlərinin yaratmış olduğu əksinqilabi qrupa qoşulmuşdur. Bəkir Çobanzadənin 1937-ci ildə həbs edilərkən müstəntiqə verdiyi ifadədən aydın olur ki, SSRİ-dən ayrılmaq şərtilə türk-tatar xalqlarının vahid müstəqil dövlət halında birləşməsi (Vahid Turan Dövləti) məqsədini qarşıya qoymuş qrupların birinin tərkibində Alim Paşa Salavatov da varmış (İstintaq sənədlərində onun adı Alim Paşa-Solqar kimi qeyd olunur) (Babayev Adil, 2003: 85). Onun daxil olduğu 3-cü qrupda Atababa Musaxanlı, Hənəfi Zeynallı, Abdulla Tağızadə, Xalid Səid Xocayev kimi elm xadimləri ilə yanaşı, Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Abdulla

Şaiq kimi şairlər və başqa elmi-pedaqoji işçilər də olmuşdur (Babayev, 2003: 89).

Alim Paşa Salavatovun 1937-ci ildə həbs edilib edilmədiyindən və həmin illərdəki taleyindən xəbərsizik. Bildiyimiz odur ki, İkinci Dünya Savaşına göndərilmiş və Kırımda gedən döyüşlərdə həlak olmuşdur.

Yusup Arsu oğlu Qereyev (Yakov Yakovleviç Sirmais) (20 dekabr 1903, Dağıstan Kafır-Kumuk (Teymurxan-şura) kəndi- 27 noyabr 1941, Dağıstan, Xasavyurt). Qumuq ədəbiyyatının inkişafında xidməti olanlardan biri də milliyyətcə latış olan Yusup Qereyevdir. Ondan söhbət açanlar şair, publisist, bəstəkar, peşəkar qumuq teatrının əsasını qoyanlardan biri kimi tanıdırlar.

Dağıstanda yaşayan və müəllim işləyən latış Yakov Sirmais sonralar Yusup kimi tanınır. Bu da səbəbsiz deyil. Ona uşaqlıqda Yakov adı verilmişdi. Erkən yaşlarda valideynlərini itirən uşağı atasının dostu Avqustin Skrabe himayəsinə götürür və onun təlim tərbiyəsi ilə məşğul olur. Avqustin Skrabenin inqilabi fəaliyyətə görə həbs edilməsi balaca Yakovun yenə də kimsəsiz qalmasına səbəb olur. Bu dəfə onu Xalimbek kəndindən olan qumuq Arsu Qereyev himayəsinə götürür (bəzən onun atasının adı Hacıyeviç kimi də yazılır. Bunun haradan

qaynaqlandığını aydınlaşdıra bilmədiyimiz kimi, İkinci Dünya Savaşında öldüyü göstərilən ədibin adının nədən repressiya qurbanları siyahısına düşdüyünü və 1940-ci ildə öldüyünü yazmalarının haradan doğduğunu da bilmədik.). Gələcək yazıçıya Arsu ölmüş qardaşı Yusupun adını və özlərinin familiyalarını verir. Uşaqlığını İşkartı kəndində keçirən Yusup qumuq dilini ana dili kimi öyrənir.

Kənddəki məktəbi bitirdikdən sonra onu Azərbaycana pedaqoji seminariyaya oxumağa göndərirlər. Bakının qaynar mühiti yeniyetmə Yusupa güclü təsir edir. Mirzə Ələkbər Sabirin (1862-1911) şeirləri onda dərin iz buraxır. Geri döndükdən sonra ictimai-siyasi işlərdə fəallıq göstərdiyinə, qəzetlərə məqalələr yazdığına, hekayələrini çap etdirdiyinə görə partiya-sovet rəhbərlərinin diqqətini özünə çəkə bilir.

1924-cü ildə onu Rostov şəhərindəki diyar hüquqşünaslıq kursuna oxumağa göndərirlər. Kursu bitirib geri döndükdən sonra Dağıstanın prokurorluq orqanlarında işləsə də, bədii yaradıcılıqdan əl götürmür. 1925-1927-ci illərdə Sovet ordusunda əsgəri xidmətini başa vurduqdan sonra yenidən Dağıstana qayıdan Yusup partiya-sovet

təşkilatlarında işləyir. Dövrün ideoloji tələblərinə cavab verən satirik hekayələr çap etdirir.

Daqqaze nəşriyyatı 1927-ci ildə yazıçının qumuq dilində "İnsanın bədbəxtliyinin dərmanı", 1928-ci ildə "Yolgöstərən", "İnq paydalı dualar" (Ən faydalı dualar) hekayələr kitablarını oxucu mühakiməsinə verir. 1935-ci ildə isə Quzey Qafqaz Diyarşünaslıq nəşriyyatı yazıçının rus dilində "Neudaça" (Uğursuzluq) kitabını, Daqqaze nəşriyyatı isə qumuq dilində "Şimaldan qelqen yazbaşı" (Quzeydən gələn bahar) hekayələr kitablarını nəşr edir. "Molla Nasritdinin sapar yoldaşı", "Biyler va adatlar" (Bəylər və adətlər) hekayələrini yazan Yusup dramçılıqda da qələmini sınayır. Otuz il Quzey Qafqaz xalqlarının rus işğalçılarına qarşı mübarizəsinə rəhbərlik etmiş Şamildən bəhs edən "Kim kimni?" (Kim kimi), "Manap" pyeslərini də yazır. Bu pyeslər tamaşaçılar tərəfindən maraqla qarşılanır. Dağıstandakı Qumuq Dram Teatrı ona bir-birinin ardınca Midvaninin "Şərəf", Krasevanın "Mayakın işıqları", "Zirvə", "Biz gedirik" pyeslərini qumuq dilinə çevirməyi sifariş verir. Onun çevirdiyi əsərlər səhnələşdirilir və tamaşaçılar tərəfindən alqışlarla qarşılanır. Yusup Qereyev o dövrdə dəbdə olan, maraqla oxunan, filmi çəkilən Danil Furmanovun irihəcmli "Çapayev" romanını da qumuqcaya çevirir.

Yaradıcılıq sahəsində uğurlarını və təşkilatçılıq bacarığını nəzərə alıb 1936-ci ildə onu SSRİ Yazıçılar İttifaqı Dağıstan MSSR şöbəsinə katib təyin edirlər. Təşkilatın işini canlandırmaq və yazıçıları ideoloji yönlü əsərlər yazmağa istiqamətləndirmək məqsədilə 1936-cı ilin sentyabrın 30-da "Komsomolets Daqestana" qəzetində "Gənc yazıçıların vəzifələri haqqında" məqaləsini çap etdirir. Məqalə böyük əks-səda doğurur. Bu da rəhbər partiya-sovet işçilərinin istəklərinə cavab verirdi.İkinci Dünya Savaşına göndərilən Yusup Qereyev oradan geri dönmür.

Abdul Vahab Bekbulat oğlu Suleymanov (18 iyun 1909, Tersk vilayətinin Yaxsay kəndi-1995-ci il). Uşaqlıqdan yetim qalan Abdul Vahab qohum-qardaşın köməyilə kəndlərindəki mədrəsədə, sonra da Dərbənddəki orta məktəbdə oxumuşdur. 1926-cı ildən bədii yaradıcılığa maraq göstərmiş, 1929-cu ildən "Yoldaş" qəzetində işə girmiş, qısa zamanda şair və dramçı kimi şöhrətlənmişdir.

1930-cu ildə şairin "İnqilap tolqunları" (İnqilab dalğaları), "Qaranqıdan yarıqha" (Qaranlıqdan aydınlığa) şeir kitabları çap olunur. Zamanın tələbinə uyğun olaraq siyasi məzmunlu məqalələr və "Üstünlüknü igiti", "Kolxozlar qurma Allah buyurğan", "Ötgen günler", "Turnalar" kimi bədii

əsərlər yazır. Onun "Çelyuskinçilər", "Abissiniya" əsərləri də Sovet xalqlarının dostluq və qardaşlığının tərənnümünə, Sovetlərdə yaşayan insanların qəhrəmanlığına həsr edilmişdir. Qumuq ədəbiyyatında sujetli poemaların yaranmasında gənc şair Abdul Vahabın da rolu vardır. O, 1928-ci ildə "Vali və Mariya", "Nörjanat" poemalarını yazır.

Abdul Vahab Suleymanova böyük uğur qazandıran isə 1929-cu ildən 1960-cı ilədək üzərində işlədiyi "Üst bolhan söz" poeması olmuşdur. Poemanın qəhrəmanları Aminat və Batır sosializm quruculuğu uğrundakı mübarizədə hər çətinliyə dözərək sonda rəqiblərinə qalib gəlirlər. İkinci Dünya Savaşı iştirakçısı olan şair həmin illərdə "Dostlara", "Umar Paşanın yırı", "Paşitxanın yırı" əsərlərini yazır. Savaşdan sonra yazdığı "Kahız" poemasında dağıstanlı Muhammatla ukraynalı Qriqorinin dostluğundan söz açılır.

"Ötgen günlər", "Turnalar", "Yıllar" "Döyüş gecələri", "Yırlar və mənzumələr" və b. kitabları ana dilində, "Dağlarda günəş" kitabı isə rusca çap olunmuşdur. Uzun müddət qumuq teatrının direktoru işləyən ədib "Aybikə", "Kommunist", "Tanq çolpan" (Dan ulduzu), "Alyaqay və Telyaqay", "Qızıl qutunun sirri", "Davda toy", "İnqilab igidləri" və b. pyesləri yazmışdır. Sonuncu

pyesə görə Dağıstan Respublikasının Həmzət Sadasa adına mükafatını almışdır.

Nizami Gəncəvi, Əlişir Nəvai, Aleksandr Puşkin, Mixail Lermontov, Taras Şevçenko, Maksim Qorki, Suleyman Stalski, Cambul Cambul, Şota Rustaveli, Süleyman Rüstəm, Kosta Xetequrov və b. əsərlərini ana dilinə tərcümə edən şairin şeirlərindən "Partiyam", "Sabahın xeyri", "Analar sülh istəyir" adlı bəzi nümunələri İsmayıl Soltan Azərbaycan oxucularına təqdim etmişdir (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 94-97).

Atqay Akim oğlu Acamatov (27 iyun 1910, Xasavyurt yaxınlığındakı Endrey kəndi-1998). Əsil adı Acıakab olsa da ləqəbi Atkayla məşhurlaşmışdır. Buynaksk şəhərində Birinci Pedaqoji Texnikumda oxuyarkən "Yoldaş" qəzetində ilk şeirini çap etdirmişdir. 17 yaşında mətbuatda bir şair kimi görünməsi ona uğur qazandırmışdır. 1932-1934-cü illərdə bir neçə əsərini çap etdirsə də onu şöhrətləndirən "Tupav" povesti olmuşdur. Moskvadakı M.Qorki adına Ədəbiyyat İnstitutunda oxumuşdur. 1934-cü ildə SSRİ Yazıçılar İttifaqı yaradılanda o, ilk üzv qəbul edilənlərdən olmuşdur.

Ağqvardiyaçılar tərəfindən öldürülən Zeynalabid və Nuxay Batırmurzayevlər Dağıstan şair və yazıçıları üçün bir mövzuya çevrilmişlər.

Atqay da inqilabçı Zeynalabidin anası Umugülsümün dilindən “Men öktemmen” (Mən qürurluyam) adlı povestini 1940-cı ildə çap etdirməklə bolşeviklərin tərənnümçüsü olduğunu isbatlamışdır. 1930-cu illərdə qumuq nəsrinin formalaşmasında və dramçılığının inkişafında onun böyük əməyi olmuşdur. “Ansar”, “Gəlinlər”, “Xalqlar dostluğu” və s. pyesləri vardır. Qumuq Dövlət Teatrında “Bulat qapqan” (Polad tələ), “Ansar”, “Sotav bulan Paşıyə”, “Ağ göyərçin” əsərləri səhnəyə qoyulmuşdur. 1937-ci ildə o da həbs edilmişdir. Lakin az sonra onu həbsdən azad etmişlər.

Atqay Akim oğlu Acamatovun 15-dən çox kitabı çap olunmuşdur. Onlardan “Yulduzum”, “Kumuk tüzde” (Qumuq düzlərində), “Qaranlıq dağlardan geniş düzlərə”, “Kobudluğa hücum”, “Sotav bulan Raşıyə”, “Sıralı qollar”, “Üç yüz tav” və b. nümunə göstərmək olar.

Nəsr, dramçılıq və poeziya ilə ardıcıl məşğul olan Atqayın “Aulda toy”, “Maral buynuzu”, “Aydemir”, “Qızılyar”, “Rabiyat” və “Sotav bulan Raşıyə” poemaları daha məşhurdur. Moskvanın müxtəlif nəşriyyatları onun kitablarını rus dilinə çevirərək çap etmişlər.

Folklor toplamaq, uşaq şeirləri və hekayələri yazmaqla yanaşı, bədii tərcümə ilə də ardıcıl məşğul olmuşdur. Aleksandr Puşkinin şeirlərini, Nikolay Qoqolun "Taras Bulba" povestini, Aleksandr Ostrovskinin "Cehizsiz qız" və Maksim Qorkinin Azərbaycanda "Həyatın dibində" adı ilə çevrilmiş pyesini "Yurdsuz insan" başlığı altında ana dilinə tərcümə etmişdir.

Babayev Adil onun "Qocanın sözləri", "Söhbət" (Bizim nart nağılları), "Sevirəm yay fəsli, axşam düşəndə", "Məhəbbətin nəğməsi", "Əkizlər" şeirlərini dilimizə çevirmişdir. (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 98-104). Dağıstanın xalq şairi adına və S.Stalski adına Dövlət Mükafatına layiq görülmüşdür.

Kamil Danyal oğlu Sultan (Sultanov) (1911, Dağıstan, Turşunay kəndi- 1 dekabr 2002, Dağıstan, Mahaçqala). Qumuq araşdırıcıları onun 1937-1941-ci ildə Moskvadakı Çernışevski adına İnstitutun Tarix, Fəlsəfə, Ədəbiyyat fakültəsində, 1960-ci ildə Ali Ədəbiyyat kursunda oxuduğunu yazırlar (Literaturadan xrestomatiya, 1986: 122). Qumuq və rus dillərində yazıb yaradan Kamil Sultanov gəncliyində lirik və uşaq şeirləri ilə məşhurlaşsa da, sonralar daha çox ədəbi tənqid və ədəbiyyat tarixinin öyrənilməsinə meyl göstərmişdir.

1934-cü ildə “Basqın” adlı ilk kitabı çap olunan ədibin sonralar “Süleyman Stalski”, “Qumuqların ədəbiyyatı”, “Dağıstanın şairləri”, “Türlü-türlü xalqların şairləri”, “Rəsul Həmzətovun yaradıcılığı” və b. tədqiqat əsərləri işıq üzü görmüşdür. Uilyam Şekspirdən tərcümələri ilə qumuq dilini zənginləşdirmiş, onun imkanlarının böyüklüyünü sübuta yetirmişdir. Onun Uilyam Şekspirdən çevirdiyi “Kral Lir” faciəsi böyük uğur qazanmışdır.

Azərbaycan şairlərindən Ə.Əlibəyli onun “Yürüş”, “Kolxoz pionerləri”, “Beş qəhrəman”, “Uşaqlar həyatda”, “Ulduz” və “Puşkinin heykəli qarşısında”, İ.Soltan isə “Oynayırlar uşaqlar”, “Meşələr” şeirlərini dilimizə çevirmişlər (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 133-135).

Qumuq ədibi Alim Paşa Salavatovun həyat yolunun və yaradıcılığının öyrənilib təbliğ edilməsində xidmətləri böyük olan Kamil Sultanın “Yazıçılar haqqında xəbərlər” məqaləsi aktuallığı ilə seçilir. O, həm də dərs kitabları hazırlayan müəllif kimi tanınır.

Kamal İbrahim oğlu Abukov (2 may 1938, Xasavyurt rayonunun Çağar Otar kəndi). Yaxsay kəndindəki orta məktəbi bitirdikdən sonra Dağıstan Dövlət Universitetinin filologiya fakültəsində

oxumuşdur. 1963-cü ildə ilk hekayələri "Kıvılcımlar" adı ilə Mahaçqalada kitab şəklində çıxmışdır. Qəzetdə müxbir, nəşriyyatda redaktor, Xasavyurt rayon qəzeti "Dostluq"da redaktor, televiziyanın bədii verilişlər redaksiyasında baş redaktor, Sov.İKP Dağıstan Vilayət Komitəsində müxtəlif vəzifələrdə işləmiş Kamal Abukovu Sov.İKP yanında İctimai Elmlər Akademiyasına oxumağa göndərmişlər. Sonrakı illərdə o ardıcıl elmi yaradıcılıqla yanaşı, bədii yaradıcılığını da davam etdirmiş, ictimai siyasi işlərdə fəallıq göstərmişdir. SSRİ EA Dağıstan filialının Tarix, Dilçilik və Ədəbiyyat İnstitutunda çalışmışdır. Hazırda filologiya elmləri doktoru olan və Dağıstan Dövlət Pedaqoji Universitetinin professoru olan Kamal Abukovun müxtəlif dillərdə 20-ə yaxın kitabı çap olunmuşdur. Dağıstan xalqlarının ədəbiyyatının rus dili vasitəsilə dünyada tanıdılmasına çalışan alim yazıçının "Üz-üzə" (1965), "Xalqdan gizləyərək" (1973), "Ocaqda od sönmədən" (1974), "Balyurtun işıqları" (1980), "Köhnə dəyirmana gedən yolda" (1983), "Hələ savaşda kimi" (1989) nəsr əsərləri çap olunmuşdur. 1967-ci ildə Dağıstanda çap olunan "Mən suçluyam, Məryəm" adlı hekayəsi rus dilinə çevrilərək 1980-ci ildə Moskvada da nəşr edilmişdir.

Onun “Məryəm”, “Ssora”, “Qəza”, “Küçədə çamadan” pyesləri Alim Paşa Salavatov adına Qumuq Musiqili Dram Teatrında və Həmzət Sadasa adına Avar Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur.

2001-ci ilin iyulun 11-də Dağıstan Respublikası prezidentinin imzaladığı sərəncamla Kamal Abukova Rəsul Həmzətov adına Dövlət Mükafatı verilmişdir.

Badrutdin Muhammat oğlu Mahammadov (03 avqust 1943, Qarabudaxkənt rayonunun Kakaşura kəndi-17 noyabr 2017, Mahaçqala). Onun ömür yolundan söz açanların bir çoxu Balçar Abdurahimin oğlu Muhammatın ailəsində doğulduğunu, o anadan olmamış atasının İkinci Dünya Savaşında itkin düşdüyünü, rayon mərkəzindəki internat məktəbi medalla başa vurduğunu, yeniyetmə yaşlarından ədəbiyyata həvəs göstərdiyini yazırlar.

1963-1967-ci illərdə Bakıda Xəzər Hərbi Dəniz Donanmasında matros olan Badrutdin əsgəri xidmətini başa vurduqdan sonra vətənə qayıdır. Onu Moskvaya Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsi nəzdindəki Beynəlxalq Komsomol Məktəbinə oxumağa göndərirlər. Məktəbi bitirdikdən sonra Lenin (kənd) rayon Komsomol Komitəsində işləyir.

1972-ci ildə Dağıstan Dövlət Universitetinin filologiya fakültəsini bitirir. Az zamanda ədəbi aləmdə özünə böyük nüfuz qazanan Badrutdinin 1968-ci ildə Mahaçqalada "İrisim" (Çiçəyim) adlı şeir kitabı nəşr olunur. Onu Moskvadakı M.Qorki adına Ədəbiyyat İnstitutuna oxumağa göndərirlər. 1977-ci ildə oranı bitirir və həmin il də SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilir. Dağıstan Televizya və Radio Verilişləri Komitəsində qumuq redaksiyasında redaktor, Alim Paşa Salavatov adına Qumuq Musiqili Dram Teatrında ədəbi hissə müdiri, "Literaturnıy Daqestan" jurnalının qumuq şöbəsinin redaktoru və Dağıstan Dövlət Nəşriyyatında müxtəlif vəzifələrdə işləyən Badrutdin ardıcıl bədii yaradıcılıqla məşğul olan məhsuldar şairlərdəndir. O, xalq əfsanələrindən müxtəlif ədəbi üsullardan istifadə edərək uşaqlar üçün tapmacalar, nağıllar şəklində şeirlər yazmışdır.

Xalqın sıxıntıları, millətinin başına açılan oyunlar, 1920-ci illərdən başlayan və 1937-ci ildə kütləviləşən repressiyalar, savaşlarda öldürülənlərin taleyi şairin üsyankarcasına qələmə aldığı mövzulardan olmuşdur. Onun "Geçikgen yolavçu" (Gecikən yolçu), "Macnunnu gönürevü" (Məcnunun zümzüməsi), "Erşı qız" (Çirkin qız), "Ömürnü sırı" (Ömrün sirri), "Yanızlıq yargan yürek" (Yalqızlığın

üzdüyü ürək", "Paşmanlıqnı yaşları (Peşimançılıq uşaqları), "Talaysız" (Talesiz), "Ananı yoravu" (Ananın diləyi), "Nazlanıv" (Nazlanış) və başqa şeirləri xalq tərəfindən sevilə-sevilə oxunur.

Şeirlərini əsasən Badrutdin imzası ilə çap etdirən şairin "Geçenin gözyaşları", "İzatli", "Balçaralar" (Bal təknələri), "Tavan pencereleri", "Süyünçü", "Atama kağız" (Atama məktub), "Purxa tereze", "Üçüncü arivlük" (Üçüncü gözəllik), "Tüş namaz" (Öylə namazı) və b. kitabları qumuqca, "Tretya krasota" (Üçüncü gözəllik), "Tropa" (Çığır), "Blaqaya ves" (Müjdə) və b. kitabları isə Moskvada Sovremennik nəşriyyatında rusca çap olunmuşdur.

Dağıstan Pedaqoji Tədris Nəşriyyatı şairin uşaq və gənclər üçün yazdığı şeirləri 1975-ci ildə "Qış zarafatı", 1990-cı ildə isə "Göyə pəncərə" adı altında nəşr etmişdir. Dünya klassiklərinin əsərlərinin ana dilinə çevrilməsində də böyük əməyi olan Badrutdin Uilyam Şekspirin "Hamlet", "Maqbet" faciələrini çevirdiyinə görə Eyvone çayı üzərindəki Stradford şəhərindəki Beynəlxalq Şekspir Mərkəzinə üzv seçilmiş və B.Brextin "O əsgər də, bu əsgər də bir kimi" əsərini uğurlu çevirdiyinə görə 1981-ci ildə SSRİ-də Alman Pyesləri üzrə Festivalın diplomunu almışdır. 1981-

ci ildə SSRİ-nin nüfuzlu ədəbi jurnallarından olan "Drujba narodov"un da mükafatı Badrutdinə verilmişdir.

Dram əsərlərini çevirməklə yanaşı, özü də qələmini bu sahədə sınayaraq bir neçə səhnə əsəri yazmışdır. Onun "Cənnətin əzabı" əsəri böyük səs-küyə səbəb olmuşdur. Əsərə görə təzyiqlər artmış, onu "Dağıstanın Salman Rüşdüsü" də adlandırmışlar. "Cənnətin əzabı" rus dilinə çevrilərək Moskvada çap olunduqdan sonra da təzyiqlər azalmamış, ara sıra yenə də onu mətbuatda sərt tənqid edirlər.

2.5. Qumuq nəsrinin yaranması və inkişafı

Qumuq yazılı ədəbiyyatında ənənəvi və aparıcı janr poeziya olmuşdur. 1905-ci ildən sonra poeziyanın mövzusunda bir dəyişmə baş versə də Sovet hakimiyyətinin qələbəsindən sonra sənətkarlıq da, bədii dəyər də ideologiyaya qurban verilmişdir. Abdulla Mahammadovun "Lenin pamyatniqi", Abdulla Başirovun "Lenin kim?", Anvar Hajiyevin "Ürekge singen at", "Partiya", Əli Qaziyavın "Leninin gücü" kimi onlarla şeir və poeması sırf ideoloji məqsədlərlə yazılsa da, bunlar qumuq dilinin, poeziyasının inkişafına, ədiblərin

sənətkarlığının cilalanmasına müsbət təsir göstərirdi.

Qumuq ədəbiyyatına dramçılıq, nəsr kimi yeni janrlar da gəlirdi. 1920-ci illərin qumuq nəsrində Kamil Abakarovun adı birinci Sovet qumuq povesti - "Avamlığın qurbanı"nın yazarı kimi çəkilir. Çünki ondan öncə Abdulhüseyin İbrahimov (1890-1962) xanı öldürdüyünə görə özü də ölümə məhkum edilən şair Amanxorun yırlarından ilhamlanaraq yazdığı "Amanx" romanını çap etdirə bilməmişdi. Çetin Pekaçar isə xalq hekayələrindən, dastanlarından və yırlarından faydalanaraq yazılmış "Amanxor" romanının ilk variantını Abdulhüseyin İbrahimovun 1915-ci ildə çap etdirdiyini, sonralar üzərində işləyərək bir xeyli dəyişikliklərlə iki dəfə nəşr etdirdiyini yazır.

Kamil Abakarovun "Avamlığın qurbanı" povesti çap olunandan sonra Abdulhüseyin İbrahimovun "Ana ürəyi", "Gəncliyim", "Amanxor", Kamal Abukovun (1938) "Halal savaşa gedib", "Balyurdun işıqları", "Üz-üzə", Xayrulla Davudovun "Əziz təbiət", "Meşə" və başqa nəsr əsərləri oxucuların mühakiməsinə verilmişdir. Gənc ikən denikinçilər tərəfindən güllələnən Zeyna-labidin anası Ümugülsümün dilindən Atqayın yazdığı "Mən ötkemmen" (Mən qürurluyam)

povesti uzun illər gənclərin stolüstü kitabı olmuşdur. Bədii yaradıcılıqda ideologiyanı əsas götürən yazıçı və şairlər mükafatlandırılır, onlara fəxri adlar və vəzifələr verilirdi. Bu, bir tərəfdən əsərin bədii dəyərini aşağı salır, sənətkarlığa mənfi təsir göstərirdisə, o biri tərəfdən isə bu sahəyə marağı artırır, ədəbiyyata yeni gənclər nəslinin gəlməsini şərtləndirirdi. Otuzuncu illərdə qumuq türkcəsində "Yanqı kumuk adabiyatnı ösümleri" (1932), "Çiçekler" adlı ədəbiyyat topluları, eləcə də Abdulla Mahammedovun, Nureddin Xanmurzayevin, Abdul Vahab Suleymanovun, Abdulla Başirovun, Yusup Qereyevin, Atqayın, Anvar Hasıyevin müxtəlif kitabları, Vahit Dadımovun, A.Latipin (Latip Mollayev) və b. əsərləri nəşr olunmuşdur.

1920-1930-cu illərdə vətəndaş savaşından, kolxoz quruculuğundan, dinə qarşı mübarizədən yazan qumuq yazıçı və şairləri İkinci Dünya Savaşının başlanması ilə savaş mövzusunu önə çəkirlər. Alim Paşa Salavatov, Yusup Qereyev kimi gənc istedadlar savaşda həlak olurlar. Savaş illərində "Fronta, yoldaş, fronta" (1942), "Alqa, yoldaş, alqa" (1944) topluları ilə yanaşı, Anvar Hajiyevin, Atqayın, Abdul Vahap Suleymanovun bu mövzuda yazdıqları əsərlər ayrıca kitab şəklində nəşr olunur. Faşizm üzərində qələbə mövzusu 70-ci

illərədək qumuq ədəbiyyatında aparıcı mövqedə olmuşdur.

Rəsul Mirzə oğlu Rəsulov (1912, Teymurxan-şura şəhəri-1977). Qumuq nasirləri sırasında adı ilk sırada çəkilir. Rəsul orta məktəbi Azərbaycan türkcəsində bitirmişdir. Buna görə də Azərbaycanda gedən ədəbi prosesləri diqqətlə izləmiş, necə deyərlər, onun içərisində olmuşdur. 1934-cü ildə "Kabalay qəhrəmanları" povestini çap etdirmişdir. Kiçik hekayələri, roman, povest, felyeton və oçerkləri ilə oxucu qəlbinə yol tapan yazıçı Cəfər Cabbarlının "Solğun çiçəklər" pyesini, Mehdi Hüseynin "Komissar" povestini, Ə.Abbasovun "Zəngəzur" romanını qumuq türkcəsinə çevirmişdir. Əsərləri Özbəkistanda, Bolqarıstanda, Polşada, Vyetnamda və b. ölkələrdə çap olunmuşdur.

SSRİ Yazıcılar İttifaqı Dağıstan şöbəsində qumuq bölməsinə rəhbərlik edən Rəsul Rəsulov rusca "Daqestanskiy Komsomolets" qəzetinin redaktoru, "Lenin yolu" (qumuq türkcəsində) qəzetinin şöbə müdiri işləmişdir. Onun "Ana" hekayəsini N.Nağıyev dilimizə çevirərək çap etdirmişdir (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 141-171).

Abdulzagir Batirov (1918, Mahaçqala şəhəri-1960). Azərbaycan ədiblərinin əsərlərinin qumuq

türkcəsinə çevrilməsində əməyi az olmamışdır. Əsasən mahnı yazarı kimi tanınmışdır. Onun "Oktyabr və sülh", "Oxu, ey gözəlim!", "Gözəlim" şeirlərini B.Adil dilimizə çevirərək "Dağıstan ədəbiyyati almanaxı"nda çap etdirmişdir. (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 209-210).

Anvar Hajiyev (1914, Dağıstan, Kostek kəndi - 1992). Beşillik məktəbi bitirdikdən sonra Xasavyurtdakı kəndli gənclər məktəbində oxumuşdur. 1932-ci ildə oranı bitirdikdən sonra "Sosialist quruluşu", "Lenin yolu" qəzetlərində işləmiş, "Yaş dağıstanlı" qəzetinin redaktoru olmuşdur. 1932-ci ildən yaradıcılığa başlayan şairin "Yanhırv" (Yeniləşmə) adlı ilk kitabı 1934-cü ildə çap olunmuşdur. Şeirləri daha çox yayılmış, savaş illərində "Çapqın", "Qılıclar", "Anadol aytdı" kitabları çap olunmuşdur. "Murtaza" poeması 1944-cü ildə keçirilən müsabiqədə mükafata layiq görülmüşdür.

Savaşdan sonrakı illərdə Mahaçqaladakı partiya məktəbində oxumuş və vilayət partiya komitəsində şöbə müdirinin müavini işləmişdir. Sonra onu Moskvaya-Ali Partiya Məktəbinə göndərmişlər. 1956-cı ildə oranı bitirib Mahaçqalaya qayıdaraq Dağıstan MSSR Televizya və Radio Komitəsinə sədrlik etmişdir.

Satirik əsərləri ilə də məşhurlaşan, əsərləri bir neçə dilə çevrilən Anvar Hajiyevin sağlığında 15 şeir kitabı buraxdırmışdır. “Yeniləşmə”, “Hücum”, “Don ilə söhbət”, “Qumuq dərələrinin mahnıları”, “Bəxtiyar dağlar”, uşaqlar üçün “Boşboğaz ağ ördək”, “İki bacı”, “İt və Canavar”, “Camaşğa cavap”, “Dost uşaqlar” adlı əsərlərini yazmaqla yanaşı, Puşkinin, Lermontovun, Xetaqurovun, Stalskinin, Sadasanın, Qafurovun, Həmzətovun əsərlərini ana dilinə tərcümə etmişdir.

Zeynal Cabbarzadə şairin “Doğma aulum”, “Oraq və qılınc”, “Bəhs” şeirlərini dilimizə çevirmişdir (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 136-139).

Sovet dövründə doğulub boya başa çatan İbrahim Kerimov (1922), Muhammatsultan Yahyayev (1922), Bammat Atayev (1925), Şarip Aliberiyev (1926), İzamit Asekov (1928), Mikayıl Abukov (1929), Abdulmejid Mejidov (1936), Akay Akayev (1933), Mustafa Huseyn (1935) və b. qumuq ədəbiyyatının inkişafında xidməti olan ədiblərdəndirlər.

İbrahim Abdulkerim oğlu Kerimov (13 noyabr 1922, Dağıstan MSSR-in Buynaksk rayonunun Töben (Aşağı) Cenqutay kəndi- 4 mart 2012). 1938-ci ildə orta məktəbi bitirib kəndlərində və qonşu

Töben Qazanış kəndində müəllim işləmişdir. 1940-cı ildə Buynaksk şəhərindəki pedaqoji texnikuma qəbul olsa da oranı bitirə bilmir. Onu da İkinci Dünya Savaşına göndərirlər. 1943-cü ildə yaralandığına görə ordudan azad edilən gənc şair Dağıstan Pedaqoji İnstitutun qiyabi şöbəsində oxumuş, 1945-ci ildə institutun dil və ədəbiyyat fakültəsini bitirərək kəndlərində rus dili müəllimi və məktəb direktoru işləmişdir.

1947-1949-cu illərdə "Lenin yolu" qəzetində ədəbi işçi işlədikdən sonra Moskvada SSRİ EA Dilçilik İnstitutunun aspiranturasında oxumuşdur. Dilçilikdən yazdığı elmi işə görə ona 1953-cü ildə filologiya elmləri namizədi adı verilir. Sonralar filologiya elmləri doktoru, professor olan İbrahim Kerimov Dağıstan Pedaqoji İnstitutunda ümumi dillər kafedrasının müdiri və Dağıstan məktəblərinə müəllim kadrlarının hazırlanması sahəsində çalışır.

İlk yaradıcılığa rayon və respublika qəzetlərində çap etdirdiyi şeirlərlə başlayan İbrahim Kerimovun 1947-ci ildə "Narat" (Şam ağacı) şeir kitabı nəşr olunmuşdur. 1949-cu ildə "Gəlişmiş" (Nişanlı) poemasını nəşr etdirən şair 1950-ci ildən nəsr yaradıcılığına keçir. "Suvnu şavası" (Suyun parıltısı), "Ullu Ural" (1953), "Ürtlü qızlar" (1958), rusca "Altyus üfüqü" (1954), "Yolun başı" (1956),

“Maqaç”, “Teren bulak” adlı roman, povest və hekayələrini çap etdirir və 1986-cı ildə “Yırçı Qazaq” romanını yazır (Literaturadan, 1986: 129-130). Bu roman İbrahim Kerimovun öncəki əsərləri ilə müqayisədə keçmişə baxışda, milli dəyərlərə münasibətdə xeyli fərqlənir. Aleksandr Puşkin, Taras Şevçenko, Lev Tolstoy, Aanton Çexovun əsərlərini ana dilinə tərcümə edən İbrahim Kerimovun “Moskva ilə görüş”, “Aulda səhər”, “Dəmirçi” şeirlərini Ələkbər Ziyatay Azərbaycan oxucularına təqdim etmişdir (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 212-214).

Dağıstan Dövlət Pedaqoji İnstitutunun professoru olan İbrahim Kerimovun otuza yaxın kitabı çap olunmuşdur. Ona Dağıstan MSSR-in Əməkdar İncəsənət xadimi və Dağıstan MSSR-in Əməkdar Müəllimi adı verilmişdir.

Mahammadsoltan Yahiya oğlu Yahiyayev (10 dekabr 1922, Dağıstan MSSR-in Kaka Şura kəndi-3 oktyabr 2006, Dağıstan, Mahaçqala). 1948-ci ildən yaradıcılığa başlayan nasir əsasən uşaq hekayələri yazarı kimi tanınsa da qumuq ədəbiyyatı tarixinə trilogiya müəllifi kimi də daxil olmuşdur. “Avtobusda hadisə”, “Umalat necə evləndi” hekayələrini Ü.Hüseynov çevirərək “Azərbaycan”

jurnalında çap etdirmişdir (Dağıstan ədəbiyyatı antologiyası, 1959: 251-268)

Onun Ənvar Qurbanovla birgə yazdığı "Həyatın yol" və "Arslan tuvqan ulanlar" (Aslan doğulan oğlanlar) və b. pyesləri də tamaşaçı marağını cəlb etmişdir. Yazmış olduğu 12 pyesin bir neçəsi Dağıstandan kənarda da tamaşaya qoyulmuşdur. Məhsuldar tərcüməçiliklə də məşğul olan ədibə Dağıstanın Xalq Yazıçısı adı və muxtar respublikanın dövlət mükafatı da verilmişdir.

3.Şəxsiyyətə pərəstişin tənqidi və ədəbiyyatdakı dəyişikliklər

Stalinin şəxsiyyətə pərəstişdə ittiham edilməsindən sonra (1956) qumuq ədəbiyyatında da bir dəyişiklik görünməyə başladı. Ədəbiyyatda şüarçılıq, müsbət qəhrəman axtarışları öz yerini insanın daxili aləminin, iç dünyasının işıqlandırılması ilə əvəzlədi.

Sovetlər dönəmində ədəbiyyatda ideoloji xətt aparıcı olsa da, şairlərin şəxsi həyatından, lirik duyğularından bəhs edən əsərlər xalq tərəfindən sevilir və dillər əzbəri olurdu.

Hakim ideologiya bir çox mövzuları qadağan etdiyinə görə, şairlər təbiətin tərənnümunə, lirik

“mən”inə daha çox müraciət edir, yaxud da millətin, vətənin acınacaqlı taleyindən bəhs edən epik əsərlər yazarkən süjeti xarici ölkələrdə baş vermiş milli-azadlıq hərəkatından alırdılar.

1960-cı illərdə cəmiyyətdəki nöqsanlar eyhamlı şəkildə, sətiraltı tənqid edilirdi. Ədəbiyyata sosializm tərənnümçüsü kimi gələn gənclər də yaşa dolduqca xalqın tarixindən, adət-ənənələrindən, milli dəyərlərdən yazmağa üstünlük verirdilər.

Sovet ədəbiyyatının 1960-cı illər nəsli qumuq ədəbiyyatında da seçilir. Kamal Abukovun (1938), Muhammat Atabayevin (1938), Abzaydın Hamidovun (1938), Ahmat Jaçayevin (1939), Uzlipat İbrahimovanın (1940), Abdulkerim Zalim-xanovun (1940), Abdulxakim Hacıyevin (1940), Qebek Qonaqbiyevin (1961), Kazım Kazımovun (1961), Abdulla Zalimxanovun, Nabiyulla Mahammadovun və b. yaradıcılığında insanın daxili aləmi, həyatın rəngarəngliyi, psixoloji anlar önə çəkilir. Beləcə ədəbiyyatda sənətkarlıq yüksəlməyə doğru getsə də, mənəvi məsələlər ön plana çəkilsə də, şüarçılıq öz yerini yavaş-yavaş insan psixologiyasının açılmasına yönəltsə də, ideal müsbət qəhrəmanı daxili aləmində xeyir və şərin mübarizə apardığı surətlər əvəz etsə də bütovlükdə Sovet təbliğat maşınının təsirindən qurtula bilmirdi.

Moskvada-imperiyanın mərkəzində yaşayan bəzi rus yazıçı və şairləri cəsarətlə Sovet quruluşunun nöqsanlarını əsərlərində tənqid edə bildilər. Lakin əksər əyalətlərdə və milli ədəbiyyatlarda olduğu kimi qumuqlarda da bu mövzulara müraciət etməyə cəsarət edənlər tapılmırdı.

4.Uşaq ədəbiyyatına diqqət

Qumuq yazıçıları uşaqlar üçün maraqlı ədəbi nümunələr yaratmağa çalışmaqla ana dilini qorumaq və zənginləşdirmək, yetişməkdə olan nəsli milli ruhda böyütmək istəyirdilər.

Gənc nəslin tərbiyəsini diqqət mərkəzində saxlayan qumuq şair və yazıçıları uşaq ədəbiyyatının gözəl nümunələrini yaratmışlar. Bu sahədə Əli Qaziyavın (1879-1964) xidmətləri az olmamışdır. Onun uşaqlar üçün yazdığı "Mənim ayı yaxalamağım" əsəri qumuq uşaqlarının ən çox sevdiyi əsərlərdəndir. Mahammadsoltan Yahiyayev, Abdulməcid Məcidov, Ayav Akavov (1909-1954), Yünüs Alimxanov (1909-1958), Anvar Hajiyev (1914-1992), Absalam Askerxanovun (1922-2001), Mahammadamin Akmurzayevin (1930-1993), Kurbanali Şamsuttinovun (1932-1990), Akay Akayevin (1933-2000) və başqalarının əsərləri

bugünkü qumuq aydınlarının çoxunun uşaqlıq və yeniyetməlik illərində sevə-sevə oxuduqları bədii nümunələr olmuşdur.

Şeyit Xanım Arslanəli qızı Alişeva (10 fevral 1949, Xasavyurd rayonunun Bammatyurt kəndi-10 dekabr 2024, Dağıstan, Mahaçqala). Ata babası Tarqulu kəndindən olan Şeyit Xanım Buynaksk Pedaqoji Texnikumunu bitirdikdən sonra uşaq evində tərbiyəçi, SSRİ Yazıçılar İttifaqının Dağıstan MSSR şöbəsinin kitabxanasında işləmişdir. İlk şeirlərini texnikumda oxuyarkən yazan və 1961-ci ildə "Lenin yolu" qəzetində çap etdirən Şeyit Xanımın şeirləri sonra "Dostluq" jurnalında da çap olunur. Gənc yaşlarından istedadı ilə seçildiyinə görə onu Moskvaya, M.Qorki adına Ədəbiyyat İnstitutunda oxumağa göndərirlər. Oranı bitirib geri döndükdən sonra "Dağıstanlı qadın" jurnalında işləyir.

1968-1973-cü illərdə "Mosfilm"də tərcüməçi işləyən şairin ilk kitabı 1975-ci ildə çap olunur. Sonrakı illərdə "Yolda yır" (1981), "Salıncak" (1984), "Mən rəqs edirəm" (1986) və başqa kitablarını çap etdirmişdir. 1984-cü ildə ilk şeir kitabını Moskvada çap etdirən Şeyit Xanımın imzası sonralar da rusdilli mətbuatda görünmüşdür.

Millətinin ictimai-siyasi məsələlərində öndə gedən şair keçmiş ənənələrdən bacarıqla istifadə edir, dini mövzularda da şeirlər yazır. O, yetişməkdə olan ədəbi nəsli minillik ənənəsi olan dini və milli dəyərlərdən yararlanmağa həvəsləndirir. "Antım bar" şeirində yazır:

Meni nem bar, nem bar, nem -
Kumukluqum bar ünem!
Tenqirden tuv xalkım bar.
Tüzüm-tax, kök-kalkım bar.
Dağıstanım, Tarqum bar,
Denqiz-derya barğum bar.
Meni nem de bar, nem de -
Aykız, Korkut Dedem de.
Özden Qazaq Yırım bar.
Asrulardan sırım bar
Bar meni Minküllüdey -
Min hasiret batırım (Karcıqa, 2002: 155).

Şair 1995-ci ildə Mahaçqalada çap etdirdiyi "Süy! Yılla! Süün!" (Sevgi, kədər, xoşbəxtlik), 1990-cı ildə Moskvada "Sovetskiy pisatel" nəşriyyatında çap etdirdiyi "Plaç, lyubi, vs-pominay…", 2002-ci ildə uşaqlar üçün hazırladığı "Uyan, Tur!" və başqa kitablarını avtoqrafla mənə bağışlamışdır.

Vahid Ata oğlu Atayev (5 may 1934, Dağıstan MSSR, Erpeli kəndi-11 avqust 2021, Dağıstan). Dağıstan Kənd Təsərrüfatı İnstitutunda, Timiryazyev adına Kənd Təsərrüfatı Akademiyasında, Kuban Kənd Təsərrüfatı İnstitutunda oxuyaraq aqronom, iqtisadçı, pedaqoq ixtisaslarına yiyələnmişdir. Uzun illər Buynaksk şəhərindəki Kənd Təsərrüfatı Texnikumunda dərs desə də, onu daha çox uşaq şairi kimi tanıyırlar. Bir çox şeirləri rus və Dağıstan xalqlarının dillərinə çevrilərək qəzet və jurnallarda, nəşriyyatlarda çap olunması və şeirlərinə mahnılar bəstələnərək radio və televiziyada səslənməsi onun məşhurlaşmasında böyük rol oynamışdır.

"Böleley", "Gülyalan", "Gün çıx", "Tanq yaxşı bolsun" kitabları nəşr olunan şairin şeirləri dərsliklərə də daxil edilmişdir. Onun "Sinan", "Mişik ve Kalaç" kitabları Türkiyədə nəşr edilmişdir. 1998-ci ildən Rusiya Federasiyası Yazıçılar Birliyinin üzvüdür.

Şeyit Xanım Alişevanın və Akay Akayevin təşəbbüsü ilə qumuq şair və yazıçılarının "Qarcığa" jurnalında uşaqlar üçün yazdığı şeirlər və hekayələrdən nümunələr 2002-ci ildə Mahaçqalada "Qarcığa. Yaşlar adabiyatının antoloqiyası" adı altında çap olunmuşdur (Qarcığa, 2002).

5.Son dönəm ədəbiyyatı

Sovetlərdə yuxarıdan başlayan yenidənqurma və aşkarlıq hərəkatı qumuq ədəbiyyatına da öz təsirini göstərdi. Beş ilə yaxın gözləmə mövqeyi tutan yazıçı və şairlər 1990-cı ildən sonra daha cəsarətli görünməyə başladılar. 70 il adının çəkilməsi belə yasaq olan, xüsusən dini mövzuda yazılan əsərlər araşdırıldı, nəşr edildi. Bu baxımdan Erpeli Şıxammat Qadının Kərbəlada peyğəmbər Məhəmməd Əleyhissəlamın nəvəsi İmam Hüseynin dəstəsi ilə birlikdə qətlə yetirilməsinə həsr edilmiş "Hüseyinin xəbəri" ağısı (mərsiyə) diqqətiçəkəndir.

Şeyit Xanım Alişeva (1949), Badrutdin Mahammadov (1943), Atav Atayev (1949), Jaminat Kerimova (1949), Bahavutdin Hacıyev (1950), Supiyanat Mamayeva (1958) və b. milli və dini mövzulara diqqəti artırdılar. Xalqın həqiqi tarixinin bədii əksi olan bir sıra maraqlı əsərlər də ortaya çıxdı.

Lakin bu proses uzun sürmədi. Çeçenistanda başlayan milli azadlıq hərəkatı, Dağıstandakı Rusiya rejiminə qarşı açıq və gizli müqavimətlər hakimiyyət dairələrini bərk qorxuya saldı. Milli və dini mövzular terrorçuluq kimi qiymətləndirilməyə

başladı. Təqib və təzyiqlər formasını dəyişsə də davam etdirildi. Beləcə sözdə demokratiyadan dəm vurulsa da əməldə yenə qadağalar hökm sürməyə başladı.

İqtisadi sıxıntılar, çap olunan kitabların alınmaması da milli və dini mövzuda bədii əsərlərin çoxalmasına əngəl oldu. Buna görə də ədəbiyyatda yenidənqurma, keçmişin tənqidi əsas mövzu olsa da Rusiyanın bölgədəki işğalçılıq siyasəti hələ də olduğu kimi verilən bədii əsərlərə rast gəlinmir. Yazıçı və şairlər həyatlarını, dolanışıqlarını təmin etmək üçün bədii yaradıcılıqdan çox başqa işlərlə məşğul olurlar. Teatrların durumu ağırlaşdığından yeni tamaşalar hazırlaya bilmirlər.

Qumuqlar Azərbaycanın lap yaxınlığında olan türk toplumu olmasına baxmayaraq ədəbi əlaqələrimiz kəsilmiş kimidir. Sovetlərin çöküşündən sonra milli məsələyə diqqət artsa da qumuq ədəbiyyatının son nailiyyətini özündə əks etdirən elə bir ciddi əsərə Azərbaycanda rast gəlinmir. Toplantılarda türkçülükdən, türk xalqlarının yaxınlaşmasından çox danışılsa da Rusiyanın təzyiqindən ehtiyatlanan Azərbaycan hökuməti qumuqlara 1920-ci illərdə olduğu kimi yardım edə bilmir. Nəinki yardım etmir, heç mövzunu gündəmə gətirmək, onlar üçün kadrlar

hazırlanması qayğısına qalınmır. Televiziya və radiolarda ən yaxın qonşularımızdan olan qumuqlar haqqında verilişlər də yox dərəcəsindədir. Təkəmseyrək, az tirajla çap olunan qəzet-jurnallardakı kiçik nümunələri nəzərə almasaq son otuz ildə qumuq ədəbiyyatından Azərbaycan türkcəsinə çevrilmiş irihəçmli əsər yoxdur.

Qumuq ədəbiyyatı tarixinin öyrənilməsində əsas ağırlıq Abdulkadir Abdullatipovun üzərinə düşmüşdür. İndiyədək onun 8 monoqrafiyası, ali məktəblər üçün proqramları və s. çap olunmuşdur. Qumuq ədəbiyyatşünaslarının fikrincə, Dağıstan xalqları içərisində qumuqların ədəbiyyatı Azərbaycan ədəbiyyatı ilə daha yaxından səsləşir.

Sonuc

Sovetlər Birliyinin çöküşü ərəfəsində M.S.Qorbaçovun başladığı "yenidənqurma" hərəkatı ədəbiyyata da öz təsirini göstərdi. Dağıstanda yaşayan qumuqlar "Tenklik" adlı ictimai təşkilatlarını qurdular. Salav Aliyev, Şeyit Xanım Alişeva kimi aydınlar bu təşkilatın öncüllərinə çevrildilər. Rusiyanın xüsusi xidmət orqanları milli dəyərlərə yiyə çıxmaq uğrunda başlanan hərəkatı zəiflətmək üçün çoxmillətli

Dağıstan xalqları arasında nifaq saldı. Lakin siyasi sıxıntıya, iqtisadi çətinliklərə baxmayaraq, bölgədə ədəbiyyat inkişafdadır.

Onlar ata-babalarının yaratdığı mənəvi sərvətlərə yiyələnməyə, həqiqəti, öz köklərini öyrənib bədii dillə xalqa çatdırmağa çalışırlar, buna görə də qumuq yazıçı və şairlərinin yaradıcılığında publisistika son illər daha qabarıq şəkildə özünü göstərir. Bu proses qumuq ədəbiyyatşünaslarını keçmişə yenidən baxmağa, ədəbiyyat tarixlərini 19-cu yüzildə yaşamış Yırçı Qazaqdan deyil, kökləri miladdan öncəyə gedən ümumtürk ədəbiyyatından başlamağa sövq edir.

Qumuq ədəbiyyatının Türkiyədə tanıdılmasında böyük xidməti olmuş prof. Çetin Pekaçar yazır: "Kumuk edebiyatının gelişmesine katkı sağlayan şu şair ve yazarları da gösterebiliriz: H. Anvar, İbrahim Kerimov, Absalam Askerhanov, Sracdin Tok-bolatov, Aliberiyev, Alipaşa Umalatov, İzamit Asekov, Abdulla Abakarov, Abdurahim Abdurahmanov, Muhtar Aliyev, Patimat Abukova, İsrapil İsayev, Akay Akayev, Biysoltan Hacimuradov, Abdulhamit Tatamov, Vahit Atayev, Muhammat Kadırov, Abdulmecit Mecidov, Muhammatbek Osmanov, Muhammat-Şapi

Minatullayev, Abzaydin Hamidov, Muhammat Atabayev, Ahmat Caçayev, Sahadulla Abusuyev, Uzlipat İbrahimova, Muhammat-Nabi Halilov, Badrutdin, Abdul-Kerim Zalimhanov, Latip (Hacakayev), Muhammat-Amin Adilhanov, Şeyit-Hanum Alişeva, Atav Atayev, Caminat Kerimova, H.(Haciyev) Bahavdin. Bu saydıklarımızın hepsi de "Tanq çolpan" dergisinin 1994'te çıkan Xaligi Qumuq Şairler "Bugünkü Kumuk Şairleri" özel sayısında seçme şeirleriyle yer almıştır."

Badrutdin "Yoldaş" qəzetinə 1 iyul 2011-ci ildə verdiyi müsahibəsində ədəbiyyatın sabahına ümidlə baxdığını söyləyir və Musa Şixavovun, Kazim Kazimovun, Nabiyulla Mahammadovun, Gebek Qonaqbiyevin, Gereyxan Hacıyevin, Supiynat Mamayevanın, Gögürçün Atayevanın, Ruqiyat Ustarxanovanın, Zulayxa Atakişiyevanın, Alpiyat Zakavovanın, Gülüsümün adlarını çəkir (Harunov, 2011: 1 iyul)

Çox təəssüf ki, Azərbaycanda Çetin Pekacar kimi qumuq ədəbiyyatını ardıcıl öyrənən və tanıdan, əlaqələri yeni mərhələdə və yeni baxışla işıqlandıran bir araşdırıcıya rast gəlmirik. Elmi- texniki inkişafın belə sürətlə gəlişdiyi bir dövrdə, bilgisayarın hər şeyi asanlaşdırdığı və sürətləndirdiyi bir zamanda

Azərbaycanda qumuqlara maraq 1920-ci illərdə olduğu qədər olmaması ürəkağrıdıcı bir haldır.

ЛИТЕРАТУРА КУМЫКСКИХ ТЮРКОВ В ПРОШЛОМ И НАСТОЯЩЕМ

Резюме

До 19-го века в существующих источниках мы не встречались с выражением кумыкская литература. После того, как Россия превратила Кавказ в свою колонию, и чтобы укрепить здесь свои позиции, посеяла раздор среди народностей и всякими способами удаляла их друг от друга. В этом вопросе испокон веков имеющую письменную литературу, тем не менее, юрков поделили на регионы, племена и каждому племени присвоили свой новый литературный язык, историю литературы и историю.

В 1883 году в Санкт-Петербурге Мухаммед Эфенди Османов распространил первую книгу на кумыкском наречии под названием “Ногайские и кумыкские тексты” (Сборник ногайских и кумыкских песен, преданий, поговорок, пословиц). Собранные у кумыков Шумерский дастан “Минкуллнун йыры”, “Билгамыс”, сказка “Энилигим, Сенилигим,

Эшкини ач" вновь борьба шумерского козла с волком (или борьба козла со львом), "Сказка о Бозоглане", Бамси Бейрек из "Китаби - Деде Коргуд"а, Борьба ангела смерти с героем йырына "Джават бий", напоминает Дели Домрула из "Китаби - Деде- Коргуд"а, Сказка "Кероглу" схож с дастаном "Кероглу". Такие сходства встречаются не только в фольклоре, но и в письменной литературе.

В последнее время история письменной литературы кумыков связывают с именем Камал Умми Нури, жившим в 15 веке. Его распространенные стихи близки ни сколько нынешнему кумыкскому, столько Азербайджанскому и Турецкому наречию.

В последнее время принято считать, что история и литература кумыков берет свое начало у шумер. Повышен интерес к изучению общетюркской литературы в контексте истории литературных памятников.

На протяжении долгих лет советское общество как бы ни старалась искусственно сформировать кумыкскую литературу, собранные образцы кумыкского фольклора, даже произведения современных кумыкских писателей отличаются своим наречием, но по

образу мышления, стилю, теме, по словарному составу они являются одним и слоев общетюркской литературы.

В статье рассказывается о творчестве и жизненном пути таких кумыкских писателей, как Умму Камал (15 в.), Абдурагман Атлыбоюнлу (19 в.), Йырчы Казак (1830-1879), Магомед Аранди Османов (1838-1904), Авусупиян Акаев (1872-1931), Манай Алибеков (1861-1920), Нухай (1865-1919) и Зейналабид (1865-1919) Батмирзоевы, Абдулла Магамедов (1864-1937), Темирболат Бийбулатов (1879-1942), Наби Ханмурзаев (1893-1950), Багаутдин Астемиров (1898-1967), Алим Паша Салаватов (1901-1942), Юсур Гереev (1903-1941), Авдул Вагап Сулейманов (1909-1995), Атгай Гаджаматов (1910-1998), Камил Султан (1911-2002), Расул Расулов (1912-1977), Анвар Гаджиев (1914-1992), Ибрагим Керимов (1922), Магаматсолтан Яхияев (1923-2007), Сраджидин Токблатов (1923), Шарип Алибериев (1926), Абдулла Абакаров (1928), Абдулмажид Маджидов (1936), Магомадпаша Минатуллаев (1937), Магомаднаби Халилов (1941), Бадрутдин Магамадов (1943), Шейит-Ханум Алишева (1949), Атав Атаев (1949), Жеминат Керимова

(1949), Багавутдин Гаджиев (1950), Супиан Мамаева (1958), Абдулкерим Залимханов, Набиулла Магометов и др.

Ключевые слова: Литература Азербайджанских и Кумыкских тюрков, Сказки “Минкуллнун йыры”, “Бозоглан”, общетюркская литература

LITERATURE OF KUMUK TURKS IN PAST AND PRESENT

Abstract

The sources until the nineteenth century do not contain the term “Kumuk literature”. After the occupation of the Caucasus, Russia started making “traps” by dividing nations into parts with the aim of strengthening its power. This policy resulted in the creation of new literary language, new history of literature and new history for each region inhabited by Turks who had unique written literature for centuries.

The book “Noqayskie-Kumukskiye teksti” (Collection of Nogay-Kumuk songs, proverbs, sayings) published by Muhammat Efendi Osmanov in 1883 in Sankt-Petersburg is considered to be the first book on kumuk dialect. “Minküllünün yiri”

collected from Kumuks reminds of Shumer epos "Bilgamish"; the tale "Eniligim, Senligim eshkini ach!" reminds of the battle between goat and wolf (or between goat and lion) in Shumer tale; the tale "Bozoghlan" reminds of "Bamsi Beyrek" in "Dede Korkut"; the fight between the hero in "Javat biy" with the angel of death reminds of Deli Domrul in "Dede Korkut"; the tale "Koroghlu" reminds of the epos "Koroghlu". Such resemblances are encountered not only in folklore but also in written literature.

The start of the history of written Kumuk literature is claimed to begin with Kamal Ummu Nuri who lived in the fifteenth century. His published poems bear similarity with Turkic of Azerbaijan and Turkey rather than with modern Kumuk Turkic.

Some recent researchers associate Kumuk history and literature with Shumers. They tend to include joint Turkic literary works into the history of Kumuk literature and study them.

Although Russian-Soviet colonizers tried to create Kumuk language and Kumuk literature for 150 years artifically, the folklore samples collected from the Kumuks and even works by modern Kumuk writers possess differences only given the

dialect. Their idea, style, content and vocabulary prove that they are part of joint Turkic literature.

The article considers kumuk folklore and the life and creative activities of such writers of Kumuk written literature as Ummu Kamal (15 c.), Abdulrahman Atlıboyunlu (19 c.), Yırchı Qazaq (1830-1879), Muhammat Apendi Osmanov (1838-1904), Abusupyan Akayev (1872-1931), Manay Alibekov (1861-1920), Nuxay (1865-1919) və Zeynalabid (1865-1919) Batırmurzayev, Abdulla Mahammadov (1864-1937), Temirbolat (Taymuraz) Biybolatov (1879-1942), Nabi Khanmurzayev (1893-1950), Bahautdin Astemirov (1898-1967), Alim Pasha Salavatov (1901-1942), Abdul Vahab Suleymanov (1909-1995), Yusup Gereyev (1903-1941), Atqay Hacamatov (1910-1998), Kamil Sultan (1911-2002), Rasul Rasulov (1912-1977), H.Anvar (1914-1992), İbrahim Kerimov (1922), Srajdin Tokbolatov (1923), Sharip Aliberiyev (1926), Abdulla Abakarov (1928), Abdulmejit Mejidov (1936), Muhammat Atabayev (1938), Badrutdin Mahammedov (1943), Sheyit Xanım Alisheva (1949), Atav Atayev (1949), Jeminat Kerimova (1949), Bahavutdin Hacıyev (1950), Supiyan Mamayeva (1958), Abdulkerim Zalimxanov, Nabiulla Mahammadov.

Key words: The literature of Kumuk and Azerbaijani turks, Minkullunun yiri, the tale “Bozoghlan”, joint turkic literature

QAYNAQLAR

Azərbaycan Türkcəsində

ASE (Azərbaycan Sovet Ensiklopediyası). (1978). ASE nəşriyyatı, Bakı, 2-ci cild.

ASE (Azərbaycan Sovet Ensiklopediyası). (1980). ASE nəşriyyatı, Bakı, 4-cü cild.

ASE (Azərbaycan Sovet Ensiklopediyası) (1984). ASE nəşriyyatı, Bakı, 8-ci cild.

Azərbaycan toponimləri. Ensiklopedik lüğət. (1999). Azərbaycan Ensiklopediya Nəşriyyat Birliyi, Bakı.

Babayev Adil. (2003). Elimizin və elmimizin soyqırımı, Birinci kitab, Bakı Universiteti Nəşriyyatı, Bakı.

Çobanzadə Bəkir. (1925). Qumuq dili və ədəbiyyatı haqqında, “Maarif və mədəniyyət” jurnalı, sayı, 3.

Çobanzadə Bəkir. (1926). Qumuq dili və ədəbiyyatı tədqiqləri, Bakı.

Dağıstan ədəbiyyatı antologiyası. (1959). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı.

Dünya xalqları (tarixi, etnoqrafik ensiklopedik məlumat kitabı). (1998). Azərbaycan Ensiklopediya Nəşriyyat Birliyi, Bakı.

Əmin Abid. (1930). Türk xalq ədəbiyyatında manı nevi və Azərbaycan bayatılarının xüsusiyyəti (Beş min bayatı-manı üzərində yapılmış bir tətəbbönamədir), "Azərbaycanı öyrənmə yolu", sayı 4-5(9-10).

Hüseynov Sadıq. (1977). Seyid Əzim Şirvaninin yaradıcılıq yolu, "Elm" nəşriyyatı, Bakı.

Xəlilov Pənah. (1975). SSRİ xalqları ədəbiyyatı, I hissə, "Maarif" nəşriyyatı, Bakı.

Xürrəmqızı Aafaq. (2002). Azərbaycan mərasim folkloru, "Səda" nəşriyyatı, Bakı.

Köçərli Firudin. (1981). Azərbaycan ədəbiyyatı, Birinci cild, "Elm" nəşriyyatı, Bakı.

Məhəmməd Tahir. (1992). Şeyx Şamil, Bakı.

Şamilov Əli. (1986). Əmin Abid bayatılarımız haqqında. "Elm və həyat" jurnalı, sayı 11.

Şamil Əli. (2000). Uman yerdən küsərlər: – Şeyıt Xanım, "Tanıdığım adamlar", "Sumqayıt" nəşriyyatı, Bakı.

Uşaq ensiklopediyası. (1999). (nəşrə hazırlayan Əli Şamilov), Azərbaycan Ensklopediyası NPB, Bakı.

Yoloğlu Güllü. (1996). Noğaylar, “PRESS Fakt” qəzeti, 12-18 yanvar.

Yoloğlu Güllü. (1996). Qumuqlar, “PRESS Fakt” qəzeti, 23-29 fevral.

Türkiyə Türkcəsində

Ahmedov Ahmed. (2004). Muhammat Osmanovun örneğinde “Yedigey” Nogay destanının bazi gramer özelliklerine bir bakış, Türk halk dastanlarının edebi gelişmesi: Türk dastanları (Uluslararası simpozyum, 6-7 may, 2004), “Çağ” ögretim işletmeleri, Kafkas Üniversitesi filoloji fakültesi, Bakı.

Caferoğlu Ahmet. (1988). Türk kavimleri, İstambul.

Cihat önderleri. Şeyh Şamil ve cihat. (1986). “İslam” dergisi, Yay, İstanbul.

Merhan Aziz. (2008). Dört Kumuk masalı üzerinde gramer incelemeleri, Grafiker yayınçılık, Ankara.

Mirza Bala. (1967). Kumuklar, İslâm Ansiklopedisi, cilt 6, İstanbul.

Nogay S. (1997). Nogay Türkleri, Ankara.

Pekacar Çetin. (2003). Türk Dünyası. El kitabı, 4. cild, Ankara.

Şamil Ali. (1999). Folklorçu Emin Abid, “Milli folklor” dergisi, (Ankara), sayı 42, 43.

Türk dünyası el kitabı. (1992). Üçüncü cilt, edebiyat, İkinci baskı, Ankara.

Türk dünyası el kitabı. (2003). Dördüncü cilt, edebiyat, Üçüncü baskı, Ankara.

Türkiye Dışındaki Türk Edebiyatları Antolojisi. (2002). Kumuk ədəbiyyatı, Ankara, 20. cilt.

Türkiye Dışındaki Türk Edebiyatları Antolojisi. (2002). Nogay ədəbiyyatı, Ankara, 21 cild.

Qumuq və Noqay dillərində

Alişeva Şeyid Xanım. (1995). Sön! Yıla! Söön! (Nazmular majmuası), Maqcaçkcala.

Alişeva Şeyid Xanım. (1981). Yolda yır, Maqcaçkcala.

Kumuk xalk avuz yaratğçuluqğu, (2002). Xrestomatiya (Studentler uçun), Maqcaçkcala.

Kumuk xalk yırları. (1990). Maqcaçkcala.

Literaturadan xrestomatiya. (1986). Maqcaçkcala.

Oğsiet (Revolyusiyadan burınqı noqay pogtlerininc şıqarmaları. Sost. Mşum İmam-

Mazemoviç Sikaliev (Şeyxaliyev). (1990). Antaloqiya, “Daqkniqozdat”, Maqcaçkcala.

Harunov Reşit. (2011). Ariv sözlerim bitip, gerti sözlerim qalhan, “Yoldaş” qəzeti, 1 iyul.

Tanq çolpan. (1994). Haliqi Qumuq şairler. Maxaçkala.

Rus dilində

Абдуллатипов Абдул-Кадыр сын Юсупа из Тарков (Материалы юбилейной научной конференции). (2000). Редакционно-издательский центр “СТИЛЬ”, Махачкала.

Абдулатипова А-К.Ю. Средневековая литература кумыков, Махачкала.

Аджиев А., Ибрагимов М.Р. (1990). Кумыки, журнал “Политический собеседник, декабрь, №23(1023), Махачкала.

Алишева Ш.Х. (1990). Плачь любви, вспоминания, Москва.

Бероев Б.М. (1984). Приэлбрусье, “Профиздат”, Москва.

Исаев М.И. (1970). Сто тридцать равноправных, Из. “Наука”, Москва.

История народов северного Кавказа, Конец 18. в-1917 г. (1988). Москва.

Кадыкаджуйев К.С. (1992). Загадки Кумыкской и Тюркской истории от Эгейского до Каспийского моря, Махачкала.

Керейтов Р.Х. (1997). Культурное взаимодействие тюркских народов в этнической истории ногайцев. “Вестник Карачаево-Черкесского института гуманитарных исследований”. Выпуск 2, Черкесск, с. 24.

Краткая литературная Энциклопедия. (1966). 7 том, Издателство “Советская енсиклоредия”, Москва.

Культурная диаспора народов Кавказа: генезис проблем изучения (по материалам международной научной конференции. 14-19 октября 1991 г. Черкесск), (1993).Черкесск.

Литература народов Карачаево-Черкесии. (1999). 1 том. Черкесск. Сафаргалиев М.Г. (1949). Ногайская орда во второй половине XVI в. Саранск.

Песни Дагестана. (1970). (Из кумыкской народной поэзии. Перевод Наума Гребнева). “Дагучпедиздат”, Махачкала.

Пословицы и поговорки народов Карачаево-Черкессии. (1990). (Сос.: Р.А.Ормабаева, М.И.Мижаев, С.У.Чикатуева, А.И.Сикалиев), Черкесск.

Сафаргалиев М.Г. (1960). Запад Золотой Орды, Саранск.

Сикалиев (Шейхалиев) А.И. (1994). Ногайский героический эпос, Черкасск.

Суюнова Н.Х. (2006). Ногайская поэзия века (В национальном и общетюркском в историко-культурном контексте), ИМЛИ РАН, Москва.

Суюнова Н.Х. (2003). Кадрия Темирбулатова: на грани двух миров. (Вестник Карачаево-Черкесского института гуманитарных исследований) Выпуск 2, Черкесск.

Ярлыкапов А.А. (1998). Библиографический указатель научной литературы по ногайцам, Махачкала.

Qeyd: ***"Qumuq türkləri ədəbiyyatının dünəni və bu günü" məqaləsi Əli Şamilin "Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı" kitabının (2012, "Nurlan" nəşriyyatı) 297-373-cü səhifəsindən alınmışdır***.

NOQAY TÜRKLƏRİNİN ƏDƏBİYYATI KEÇMİŞDƏ VƏ İNDİ

Özət

Son illər bir çox noqay araşdırıcıları yazılı ədəbiyyatlarının tarixini Orxon-Yenisey abidələrindən başlayırlar. Bəzi noqay araşdırıcıları və rus müəllifləri isə hələ də ənənəvi şəkildə ədəbiyyat tarixini Noqay dövləti ərazisində yaranmış yazılı və şifahi ədəbi nümunələrdən, müasir ədəbiyyatı isə 19-cu yüzildən başladığını yazırlar.

Dastan söyləyənləri jırav, baxşı, mif və əfsanə söyləyənləri ertegişi, atalar sözü və yanıltmac söyləyənləri şeşen adlandıran noqayların qıpçaqların yaratmış olduqları ədəbi nümunələrə yiyə çıxmaları, onları özlərininki sayırları təbiidir. "Ahmet Adil ulu", "Yedigey", "Koplanlı batır", "Mamay", "Şora batır", "Edil Soltan", "Kırk Noqay batırı" noqayların məşhur dastanlarından sayılır. "Yedigey" dastanını milliyyətcə polyak (leh) olan Aleksandr Xodzko 1830-cu ildə Həştərxan noqaylarından olan Ali Şarapovdan toplayaraq 1842-ci ildə Londonda nəşr etdirmişdir.

Araşdırıcılar noqay folklorunun toplanmasının başlanğıcını 19-cu yüzil hesab edirlər. Xalq şeiri

üslubunda yazan Sıbra noqayların klassik yazılı ədəbiyyatının özülünü qoyanlardan sayılır. Sıbradan sonra 15-16-cı yüzillərdə Parızdak Şaban ulu, Şal Kiyiz Tileniş ulu, Asan Kaygulu, Domambet Azaylı, Jirenşe Şeşen, Kazı Tuan Suyunişin Şaban və b. şairlər yazıb yaratmışlar. Məcburi köçlərə, savaşlara, həbs və sürgünlərə baxmayaraq Faxreddin Abuşaxman ulu (1808-1883), Sadıkbay Alkaydar (1811-1876), Abdulxalıq Abdulraşid ulu (1858-1913), Aslan Şaban ulu (1858-1912), Baymırza Manap ulu (1888-1918), Ajı Molla Noğman ulu (1884-1930), Taram Qumuq ulu, Menkilişeyh İsmail ulu, Abdulkadır Bekbay ulu kimi ənənəvi poeziyanı davam etdirib yırlau (şeir), destan (poema), tolkau (monoloq, öygü), maktau (oda, mədhiyyə), munklau (ağı) və başqa janrlarda yaradıcılıqlarını davam etdirən sənətkarlar yeni noqay ədəbiyyatının formalaşması üçün zəngin bir baza yaratmışlar.

Sovetlər dönəmində isə noqay ədəbiyyatı yeni bir yön almış, Avropa metodlarını mənimsəmək, yeniləşmək adı altında rus ədəbiyyatının təsiri altına düşmüşdür. Bu, bir tərəfdən ədəbiyyatın siyasiləşməsinə, noqayların yazı dilinin qonşu türk xalqlarının dilindən uzaqlaşmasına xidmət etmişdirsə, o biri tərəfdən də ədəbi dilin inkişafına

yardımçı olmuşdur. Ədəbiyyata yeni gələn Basir Abdullin (1892-1937), Musa Kurmanaliyev (1894-1972) və Zeit Kaybaliyev (1898-1979) kimi gənclər sinfi mübarizəni aparıcı mövzuya çevirməyə, ənənəvi poeziyanı yeniləşdirməyə çalışmışlar. Absulxamit Canıbekov (1879-1955) da onlarla ayaqlaşmağa çalışmışdır. Asan (Xasan) Bulatıkov (1907-1937) 1936-cı ildə yazdığı "Fatimat" pyesləri ilə noqay ədəbiyyatında dramçılığın əsasını qoymuşdur. Bununla yanaşı, Basir Abdullin 1932-ci ildə yazdığı "Düşmən yenildi", "Batrak", 1934-cü ildə yazdığı "Əməyin yendiyi zaman" əsərləri ilə noqay nəsrini formalaşdırmışdır. Abdraxman Ömərov (Umarov) (1866-1933) ədəbi mühiti yönləndirməkdə böyük rol oynamışdır.

Noqayların yeni ədəbi və elmi mərkəzləri Karaçay-Çərkəz Muxtar Vilayətində və Dağıstan Muxtar Respublikasında formalaşmağa başlamışdır. Karaçay-Çərkəzdə Fazil Abdulcəlilov (1913-1974), Salexjan Zalyand (1924-1973), Söyün Kapayev (1927-2001), Maqomet Kirimov (1927), Canbolad Türkmenov (1935), Askerbiy Kireyev (1938), Qamzat Acıgəldiyev (1939-1966), Gülcamal Mirzayeva (1940), Keldixan Kumratova (1944-2003), Dağıstanda isə Musa Kurmanaliyev (1894-1972), Zeit Kaybalıyev (1898-1979), Kuruptursun

Orazbayev (1924-1990), Anvarbek Kultayev (1941), Kadriya Temurbulatova (1948-1978) və b. yazıçı və şairlər yetişmişlər.

1970-1990-cı illərin poeziyasının nümayəndələri olan Karaçay-Çərkəz xalq şairi Keldixan Kumratova, Nəsimi mükafatı laureatı Murat Avezov (1951), Kadriya Temirbulatova, Askarbiy Kireyev, Muharbiy Aubekigyev, Yelena Bulatıkova (1937), Ajdat Naymanov (1942), Farida Sidahmetova (1966), Salimat Maylibayeva, Maqamatali Asanov, Maqamat Kosayev, Arqrntin Ayıbov, Srajdin Batırov (1951-92) və b. əsərlərində tarixi mövzulara daha duyarlı yanaşmış, epik və lirik dastan janrını təkmilləşdirmiş, ədəbiyyatı şüarçılıqdan və ideologiyanın əsarətindən çıxarmağa çalışmışlar. Noqay poeziyasında ənənəvi janrların və klassik poeziyadan gələn bədii ifadə vasitələrinin yenidən canlandırılmasını davam etdirmişlər.

Bekbiyke Kuluncaxova (1946), Valeri Qazaqov (1948), İsa Kapayev (1949) və b. ədəbiyyata Kommunist partiyasının təbliğat vasitəsi kimi deyil, insanın daxili aləmini zənginləşdirən sənət nümunəsi kimi baxmışlar.

Açar sözlər: noqaylar, qıpçaq-noqay ədəbiyyatı, folklor, “Yedigey” dastanı, çağdaş ədəbiyyat

Giriş

Noqayların ədəbiyyat tarixlərini miladi V-X yüzildəki Orxon-Yenisey qəbirüstü abidələrindən, Mahmud Kaşqarlının "Divanü lüğat-it-türk"ündən (11-ci yüzil), Yusif Balasaqunlunun "Qutadgu bilig"indən, Hoca Əhməd Yəsəvinin "Hikmətlər"indən (12-ci yüzil), Süleyman Bakırkanlının (12-ci yüzil), Əhməd Yügnəkinin (13-cü yüzil), Rabğuzinin (14-cü yüzil) yaradıcılığından, "Nəhcül fəradis" kimi əsərlərdən başlama meyli təqdirəlayiqdir. Hətta bəzi araşdırıcılar bu siyahını daha da genişləndirərək Xarəzminin "Məhəbbətnamə"sini, Qütbünün "Hüsrevü Şirin"ini, "Kodeks kumanikus"u və b. əsərləri də noqay ədəbiyyatının nümunələri hesab edirlər (Сикалиев, 1994: 44).

Miladi 14-cü yüzildən tarix səhnəsində "noqaylar" adı ilə görünən bir xalqın 5-14-cü yüzillərdə ədəbi əsərlər yaratması inandırıcı görünməyə bilər. Əslində bir xalq kimi onlar vardı və bölgədə aparıcı idilər. Lakin "noqaylar" adlandırılmırdılar. Bütün türk xalqları kimi onlar da qaynaqlarda ayrı-ayrı adlarla qeyd edilirdilər. "Noqay" adının bir ulusa, elə verilməsi tarixi isə 14-cü yüzildən başlayır. Cəsur döyüşçü, bacarıqlı

sərkərdə, uzaqgörən siyasətçi, mahir diplomat və güclü dövlət qurucusu olan Noqay xanın öz ətrafına topladığı türk tayfaları sonralar bir etnos kimi birləşərək qüdrətli dövlət qurmuş və rəhbərlərinin adını yaşatmışlar. Beləliklə, qüdrətli sərkərdə və bacarıqlı dövlət adamı olan Noqayın adı xalq, toplum adına çevrilmişdir.

Qaynaqların verdiyi bilgiyə görə, Noqayın babası Taval bəy 12-ci yüzilin sonlarında Qıpçaq bozqırlarının Aksu-Buq çayı çevrəsində yaşayan bir peçeneq boyunun-tayfasının başçısı imiş (Noqay, 1997: 20). Atasından gələn bəylik haqqı ilə boyunun-tayfasının başına keçən Noqay Çingiz xanın nəvəsi Batı xanın (1236-1255) yürüşlərində iştirak etmiş, az bir zamanda cəsur döyüşçü, bacarıqlı sərkərdə kimi şöhrət qazanmışdı. Batı xanın ölümündən sonra hakimiyyətə gələn qardaşı Bərkə xan (1255-1266) qabiliyyət və bacarığını nəzərə alaraq, Noqayı ordu komandanı təyin etmişdi. Bərkə xan yeni torpaqlar əldə etmək, indiki Azərbaycan ərazilərini tutmaq üçün 1262 və 1265-ci illərdə Elxanilərlə savaşmışdı. (ASE, 1978: 148, 2-ci cild). Ordu komandanı kimi Noqay Qafqaz dağlarını keçərək Hülakü xan və varisləri üzərinə yürüşlər edir. Döyüşlərdə qazandığı qələbələr onun şöhrətini daha da artırır. Beləliklə, o dövləti Bərkə

xanla bərabər hüquqla idarə etməyə başlayır. (Сафаргалиев, 1949: 58). Bərkə xanın ölümündən sonra Don və Dunay çayları arasındakı bölgə Noqay xanın nəzarəti altına keçir (ASE, 1983: 7, 286). Bir çox tarixçilər Noqay xanın bu qələbəsini sərkərdəlik məharəti ilə yanaşı, İslam amili ilə də bağlayırlar. Belə ki, Hülakü xan həmin vaxtlar buddist idi. Noqay xan və döyüşçülərinin əksəriyyəti İslamı qəbul etmişdilər. Hülakü xanın işğal altına aldığı bölgədəki müsəlman əhali və xəlifə bu döyüşdə Noqay xanın tərəfini tutur. Qaynaqların verdiyi bilgiyə görə, Noqay xan İslam amilindən bacarıqla yararlanmışdı.

Belə ki, o, daim Xorasandan və Anadoludan İslamiyyəti yaymaq üçün qazilər gətirdirmiş. Şeyx Səfiyəddin Ərdəbili öz müridləri ilə birlikdə Qıpçaq çölündə (Dəşti Qıpçaq) və Krımda İslam dinini yaymışdı. 1263-cü ildə Sarı Saltuk Anadoludan on iki min türkmən ailəsi ilə birlikdə gələrək Krım və Dobrucada – yəni Noqay xanın hakim olduğu bölgədə yerləşmişdi. Noqay xan Trakyadakı bir çox Bizans şəhər və qalalarını almış, Aynos qalasında olan Səlcuq sultanı II İzzəddin Keykavusu İslam dinini qəbul etdiyinə görə əsirlikdən azad etmişdi (Noqay, 1997: 20). Noqay xanın əmri ilə Dobrucaya gedən Sarı Saltuk orada möhkəmləndikdən sonra

1280-ci ildə Varna yaxınlığında iki bulqar qalasını tutmuş və ömrünün sonuna qədər də Macarıstana, Balkanlara yürüşlər etməklə Altınordanın (Qızıl Orda) sərhədlərini genişləndirmiş və nüfuzunu artırmışdır. Noqay xan isə həmin yerləri istədiyi kimi idarə etməklə yetərlənmir, hətta Altınordada (Qızıl Orda) xanlar onun istəyi ilə hakimiyyətə gətirilir və taxtdan uzaqlaşdırılırdı. Buna görə də bir çox dövlətlər Altınordaya deyil, onun yanına elçilər göndərir, diplomatik əlaqələr qurmağa çalışırdılar. 1270-1271-ci illərdə Məmlük sultanı Məlik Zahir (Baybars 1260-1277) Noqay xanın yanına elçi göndərmiş və ona məktubla müraciət etmişdir.

Çingiz xan soyundan olmadığına görə Altınorda taxtını ələ keçirə bilməyəcəyini anlayan Noqay xan sarayla qohumluq əlaqələrini möhkəmləndirməklə yanaşı, xarici dövlətlərlə də sıx əlaqə qurur. O, 1273-cü ildə Bizans imperatoru Mixail Paleoloqun ögey qızı Efrosiya ilə evlənir. Noqay xan rus knyazlarını da onunla birlikdə Polşa-Lehistan (Polonya), Macarıstan, Bolqarıstan, Serbiya üzərinə yürüşlərdə iştiraka məcbur edir. Quzeydəki rus knyazlarına elçilər göndərərək Litva dukalığına yürüşlər təşkil edərkən ona ərazilərində lazımi şərait yaratmalarını tələb edir. 1288-1291-ci illərdə Polşa-Lehistana yürüş edərkən rus knyazları Mstislav ilə Danileviçi

də özü ilə aparmışdı. Onun siyasi gücü Bolqarıstanda hökmdarların taxta çıxmasına belə təsir göstərirdi.

Sami Noqay "Noqay türkləri" kitabında yazır: "Əsgəri səfərlərdə tümənbaşı olan bir insana bacarığı, komandanlıq qabiliyyəti, sərt dissiplini, təşkilatçılığı, güclü idarəçiliyi, hökmdar soyu ilə yaxınlığı... onu dövlətin yüksək məqamlarına çıxardı və geniş imkan qazandırdı. Bu imkan isə, digər tərəfdən, idarəsi altındakı torpaqlarda yeni boyların onun hakimiyyətini tanımasını təmin etdi. Beləcə qısa zamanda Noqay xanın çevrəsində yeni böyük bir etnik birlik (ulus, el) yarandı və inkişaf etdi".

Belə böyük qüdrət və nüfuzu olmasına baxmayaraq, zaman öz işini görürdü. 1290-cı ildə Noqay xanın taxta oturtduğu Toxta xan yerini möhkəmləndirdikdən sonra özünə tərəfdarlar toplayıb Noqay xanın fəaliyyətini məhdud-laşdırmağa çalışır. Uzun sürən bu gizli qarşıdurma 1298-ci ildə açıq toqquşmaya çevrilir. Döyüşdə Noqay xan yenilir. Onun əsgərlərinin və tərəf-darlarının bir qismi əsir alınaraq Misirdə və başqa qul bazarlarında satılır. Döyüşlər isə ara vermir. 40 ilə yaxın Altınorda dövlətində aparıcı şəxs olmuş, beş hökmdar yola salmış, qocalmış Noqay xan 1300-cü ildəki toqquşmaların birində rus əsgəri

tərəfindən öldürülür (Krekov, Ekubovskiy, 1960: 84).

1. Dastanlarda qəhrəmanlıq mövzusu

Noqaylardan toplanan folklor nümunələri arasında dastanlar həcminə və mövzu əlvanlığına, bədii dəyərinin yüksəkliyinə görə seçilir. Bu dastanların böyük bir qismi xalqın keçdiyi tarixi yola uyğun olaraq qəhrəmanlıq dastanlarıdır. Onlardan "Axmet Aysula ulu", "Koplanlı betir", "Yedigey", "Musa biy", "Mamay", "Karasaykazi", "Manaşı", "Manaşı ulu Tuyakbiy", "Er Tarkil", "Şora betir", "Adil Soltan", "Kırk Noqay betiri", "Er Kusep", "Er Kosay", "Er Şoban", "Er Kökçe", "Kambar betir", "Kurman biy", "Elkildek betir" və b. dastanları ümumi qıpçaq dastanları adlandırsaq, daha doğru olar. Dastanları diqqətlə araşdıranda burada nəinki miladın ilk minilliyinə, hətta miladdan öncəki türk folkloruna aid izləri də görə bilərik.

Noqaylar son yüzillərdə savaşlara, daxili çəkişmələrə daha çox vaxt sərf etdiklərindən dastanlarının çoxunun mövzusu qəhrəmanlıqdır. Xalq arasında "Boz yigit", "Kozı-Korpeş və Bayan slu", "Tolekın və Kız yibek", "Ariz və Kanber", "Şah İsmayıl", "Güntükan və Kölbikə", "Taxir və

Zöhrə” və b. lirik dastanlar da geniş yayılmışdır (Сикалиев, 1994: 5-6).

Yalnız “Yedigey” deyil, bir çox başqa dastanlar, eləcə də qəhrəmanlıq və vətənpərvərlik nəğmələri noqayların Rusiya işğalı altında olduqları zamanda yazıya alındığından, söyləyici və dastanı toplayanlar hakim dövlətin təsiri ilə mətnlərdə dəyişikliklər etmişlər. Bu cəhət “Adil Sultan” dastanında və qəhrəmanlıq yırlarında özünü qabarıq göstərir. Xüsusən də Rusiyadakı vətəndaş savaşına, Fin savaşına, İkinci Dünya savaşına həsr olunmuş yırlarda, eləcə də Qazaq mahnılarında, ümumiyyətlə, əksər mahnılarda ifa noqay türkcəsində olsa da, ayrı-ayrı noqay igidlərinin adı çəkilsə də, əsas diqqət bolşeviklərin, Sovet ordusunun, sosializmin, bir sözlə, Rusiyanın qüdrətinin öyülməsinə yönəldilmişdir.

1.1. Şifahi xalq ədəbiyyatının tarixlə bağlılığı

Noqaylar çox savaşlara qatılsalar da, son yüzillərdə təqib və basqılara uğrasalar da, folkloru-sözlü ədəbiyyatı qoruyub saxlaya bilmişlər. Folklor nümunələrində və yazılı ədəbiyyatda xalqın tarixi öz əksini tapır.

Yazılı qaynaqlar olmasa belə toplanmış folklor nümunələri ilə xalqların tarixini yazmaq olar. Bu baxımdan, noqaylardan toplanmış dastan və yırlar tarixçiyə zəngin material verir. Noqayların ilk qəhrəmanlıq dastanı "Axmet Aysula ulu" sayılır. Dastanın çoxvariantlılığı onun geniş yayılmasından xəbər verir. 1343-cü ildə taxta oturmuş Canıbey xan və onun oğlu Bərdibeyin arasında baş verən qarşıdurma "Axmet Aysula ulu" dastanının süjetini təşkil edir.

Dastanın əsas ideyası haqsızlığa, zorakılığa, qəddarlığa qarşı mübarizədir. Axmetin atası Aysula Canıbey xana nə qədər sədaqətlə qulluq etsə də, onun haqsızlıqlarına da dözmür. Xanın nöqsanlarını üzünə deyir. Bu da mübahisəyə səbəb olur. Xan tərəfindən sevilmədiyini və təqib edildiyini görən Aysula vətənindən uzaqlara gedir.

Axmet atasının harada olduğundan xəbərsiz və maddi sıxıntılar içində böyüyür. Qeyri-adi gücü, fantaziyası, cəsarət və xeyirsevərliyi ilə xalqının sevimlisinə çevrilir. Axmet də, atası Aysula kimi vətənini və xalqını ürəkdən sevir. Aysula uzun zaman evindən, ailəsindən uzaqda olsa da bir gün düşmənlərin onun xalqı üzərinə basqına hazırlaşdığı xəbərini eşidir. Özü də bu xəbəri bir zaman xanın tərəfini tutaraq onu aradan götürmək istəyənlərdən

eşidir. Vətəninin darda olduğunu duyan Aysula Canıbeylə ədavətini unudub evinə gəlir. Xanın çətin vəziyyətdə olduğunu görüb onunla barışır. Oğlunu savaşa yola salır. Düşmən Canıbeyin qoşunlarını darmadağın edir. Axmet xana yardım edib onu ölümdən qurtarır. Özü isə həyatını riskə ataraq döyüşü davam etdirir.

Axmetin bu hərəkəti onun xana şəxsi sədaqəti kimi deyil, yüksək vətənpərvərliyi kimi təsvir olunur. Xanın: "Məgər, sən öz həyatını qiymətləndirmirsən?" sualına Axmet belə cavab verir: "Əgər məni öldürsələr, mənim kimi çoxları doğular. Bundan vətənə zərər gəlməz. Əgər, səni öldürsələr, xan, bunu bütün aləm bilər və vətənim başsız qalıb dağılar" (Kerekov, Ekubovskiy, 1960: 57).

Dastanda Canıbey xan çətin vəziyyətdə olanda qızı Şaarbeki Axmetə verəcəyini vəd edir. Xan düşünür ki, Axmet bu ağır döyüşdən sağ çıxmayacaq. Lakin Axmet döyüşü qələbə ilə başa vurur. Xan sonradan fikrini dəyişərək qızını varlı Bukalın oğlu Teymura ərə vermək istəyir. Şaarbek atasının vədinə dönük çıxdığını Axmetə xəbər verir. Axmet qızı alıb qaçır. Xandan narazı olan igidlər onun başına toplaşır, Canıbey xana qarşı birlikdə mübarizə aparırlar. Sonda xan Axmetin öhdəsindən

gələ bilməyəcəyini görüb dostları ilə onun arasını vurur. Dostlarından inamsızlıq görən Axmet atını minib Şaarbeki də qucağına alaraq uca qayadan atılır.

1.2. “Yedigey” dastanı noqay tarixinin qaynağı kimi

İrtışdan Dneprədək böyük bir ərazini nəzarətdə saxlayan, Quzey Qafqaza, Krıma hakim olan Altınorda (Qızıl Orda) dövləti getdikcə gücdən düşdü və sıxışdırılaraq siyasi səhnədən uzaqlaşdırılmağa başlandı. Belə qarışıq və gərgin bir dövrdə noqayların böyük bir qrupu Volqanın sol sahilinə Ural və Emba çayları hövzəsinə, Xəzər sahillərinə yerləşir və burada mankitlərlə birləşərək yeni bir güc kimi tarix səhnəsində görünürlər.

Noqayların yenidən bir güc kimi tarix səhnəsində görünməsində Yedigey bəyin rolu böyük olsa da, Noqay Ordası dövlətinin qurucusu kimi onun oğlu Nurəddin Mirzə (1420-1430) tanındı. 1420-ci ildə Yedigey bəy öldürüldükdən sonra dövlətin mərkəzdən idarə edilməsi zəiflədi. Ölkə dağılıb-parçalandığı zaman Yedigey bəyin noqay ulusuna hakim təyin etdiyi oğlu Nurəddin Mirzə yeni bir dövlət yaratdı.

Dövrün hadisələrini bədii təsvir vasitələri ilə özündə yaşadan "Yedigey" dastanı noqaylar arasında geniş yayılmışdır. V.M.Jirmunskinin yazdığına görə, dastanın otuzdan çox variantı mövcuddur (Жирмунский, 1974: 349). Əski türk dastanlarının bədii ifadə vasitələrindən istifadə edilərək və Altınordanın (Qızıl Orda) çöküş dövründə meydana çıxan qüdrətli sərkərdə, bacarıqlı dövlət adamı Yedigeyin həyatından götürülmüş faktlarla zənginləşdirilərək, yeni dastan yaradılmışdır.

Yedigey də Noqay kimi Çingiz xan nəslindən deyildi. Buna baxmayaraq ağlı, gücü və diplomatik bacarığı sayəsində çökməkdə olan Altınordanı (Qızıl Orda) qoruyub saxlamağa çalışır və dövlətdə aparıcı şəxsə çevrilir. Volqa (İtil) ilə Yayıq arasındakı çöllərdə yaşayan mankitlər mərkəzi hökumətin zəifləməsindən istifadə edərək müstəqil siyasət yeritməyə çalışırdılar. Yedigey 1391-ci ildə onların üzərinə yürüş edərək mərkəzi hakimiyyəti möhkəmləndirir. Yedigey Temir Qutluq xanın (1396-1399), Sadıbey xanın (1399-1407) və b. hakimiyyətə gəlməsində aparıcı rol oynamışdı. Buna görə də övladlarını bölgələrə hakim təyin etdirə bilmişdi.

Hökumətin başında Çıngizxan soyundan olanlar dursa da, əslində ölkə Yedigey və oğlanları tərəfindən idarə olunurdu. Onun ölümü ilə (1420) dövlətin mərkəzi idarəsi laxladı və az sonra dağıldı. Yedigey bəyin oğlu Nurəddin Mirzə yeni bir dövlətin – Noqay Ordası dövlətinin qurucusu oldu. "Yedigey" dastanı da həmin vaxtdan formalaşmağa başladı. Dastan noqaylar arasında "Yedigey və Kubugil" adı ilə məşhurdur. Elmi ədəbiyyatlarda noqay dastanı kimi tanıdılan "Yedigey" tatarların, başqırdların, qazaxların, qırğızların, qaraqalpaqların arasında heç də noqaylardan az sevilmir. Əslində bu dastan qıpçaqların ortaq abidəsidir. Yedigeyin 1391-ci ildə mankitlər üzərindəki qələbəsini əldə əsas tutaraq, 1991-ci ildə "Yedigey" dastanının 600 illiyi təntənə ilə qeyd edilmiş və dastanla bağlı çoxlu araşdırmalar nəşr olunmuşdur.

132 illik ömrü olan Noqay Ordası dövləti (1426-1558) yeni siyasi güc kimi tarix səhnəsinə atılan Rusiyanın və Doğudan gələn kalmık basqınçılarının təzyiqi altında darmadağın oldu.

Rusiyanın güclənməsində və ordu quruculuğunda başqa qonşu türk xalqları kimi, noqayların da rolu olmuşdur. Noqay Ordasında daxili ziddiyyətlər gücləndikcə soydaşları olan xalqlarla münasibətləri də kəskinləşirdi. Əvəzində

onları məhv edəcək Rusiya ilə siyasi və iqtisadi əlaqələri yaxşılaşdırırdılar. Yalnız bir faktı qeyd etmək yetərlidir ki, noqaylar Moskvaya 1534-cü ildə 50.000, 1548-ci ildə 16.000, 1552-ci ildə 25.200, 1555-ci ildə 46.000, 17-ci yüzildə isə ildə 70.000 təmizqanlı at satmışlar (Керейтов, 1997: 24). Bu da Rus dövlətinə qüdrətli atlı ordu yaratmağa yetirdi.

Xarici güclərin, daxili ziddiyyətlərin və təbiətin yaratdığı qıtlığın nəticəsində Noqay Ordası üç yerə – Böyük Noqay ulusuna, Kiçik Noqay ulusuna və Altı Oğul ulusuna parçalandı. Böyük Noqay ulusunun başçısı İsmail Mirzə 1558-ci ildə müəyyən şərtlərlə Rusiyaya tabeçiliyi qəbul etsə də, xalq bununla razılaşmadı. 1563, 1564 və 1567-ci illərdə Rusiya çarına qarşı üsyanlar baş qaldırdı. Xalqın böyük bir hissəsi köçərək Krım xanlığına sığındı.

Lakin bununla da iş bitmədi. Kazanı, Həştərxanı, Krımı işğal etməklə kifayətlənməyən Rusiya çarları bu yerlərin əhalisini də kölə vəziyyətinə – Rusiyanın təhkimli kəndlisinin gününə salmaq istəyirdi. Avropalıların quldarlıq quruluşu adlandırdıqları idarə sistemini yaşamamış, İslamı qəbul etmiş türk xalqları isə heç bir vəchlə Rusiyanın təhkimçilik qanunlarını qəbul etmirdi. Buna görə də, üsyanlar ara vermirdi. Bu üsyanlar isə minlərlə dinc insanın ölümünə səbəb olurdu. Yalnız

onu qeyd etmək yetər ki, Osmanlı dövləti noqayları ölümdən xilas etmək üçün 19-cu yüzilin ikinci yarısından başlayaraq 700 min noqayın ölkəsinə gəlməsinə icazə vermişdi (Сикалиев, 1994: 4).

Araşdırıcı Musa Safarkalıyev ingilis Cenkinsona istinadən 1557-ci ilin sərt qışında Həştərxan bölgəsində 100 min noqayın aclıqdan və soyuqdan öldüyünü yazır… "On minlərcə noqay çocuğu ruslara kölə olaraq satılmış, ya da atılmışdır" (Сикалиев, 1993: 164-165). Bu qıtlığın bir səbəbi sərt qış idisə, başqa səbəbi də Kazan xanlığını işğal edib, Volqa boyu ilə Həştərxanadək irəliləyən Rusiya orduları idi. Ruslar yeni əraziləri işğal etməklə noqayların yaylaq və qışlaqlarını məhdudlaşdırırdılar. Bütün bunlar, sözsüz ki, xalqın yazılı və şifahi ədəbiyyatında əksini tapırdı.

Qonşu dövlətləri zəiflədərək təsir dairəsinə salmaq və yeni torpaqlar işğal etmək üçün Rusiya öncə həmin bölgələri yaxşıca öyrənirdi. Bu baxımdan Rusiyanın 16-cı yüzildə hazırlatdığı bir xəritə olduqca önəmlidir. "Большой чертеж государства Российского, конец 16-го века" adlanan bu xəritə günümüzədək gəlib çatmamışsa da xəritənin hazırlanmasında istifadə edilən bölgələrin, çayların, dağların, şəhər və kəndlərin sözlə təsviri olan yazı arxivlərdə qorunub

saxlanmışdır. Burada noqayların yaşadıqları bölgənin təsvirindən söhbət gedərkən məscidlər "tatar məscidləri" adlandırılır. Bu da onu göstərir ki, Noqay xanın zamanında da, Noqay Ordası dövləti zamanında da xalq noqaylı adı ilə çağırılmaqla yanaşı, tatar, qıpçaq, hun və s. adlarla da adlandırılırmış.

Çoxadlılıq bu günün özündə də davam etməkdədir. Rusiya Federasiyasının rəsmi statistikasında noqayların sayının 90 min olduğu göstərilir. İnternet saytlarında isə dünyada 4 milyon noqayın yaşadığı göstərilir. Rəqəmlər arasındakı fərq, əsasən, xalqın adlandırılmasından doğur. İnternet saytlarında bu gün "Krım tatarı", "türk" adlandırılanlar da soykökünə görə noqay adlandırılır. Başqa xalqlar arasında assimilə olunmuşlar da noqaylar kimi siyahıya daxil edilir. Belə ki, Dobrucada, Krımda yaşayanlar rəsmi statistikada tatar kimi qeyd edilsələr də, internet saytlarını hazırlayanlar onları və kazak kimi tanıdığımız rusdilli xalqın bir qismini mənşələrinə görə noqay kimi qeyd edirlər. Bunun səbəbi isə bu günün özündə də Krım tatarlarının və Dobrucalıların özlərini həm tatar, həm noqay, Buxara və Xivə ətrafında yaşayanların isə özlərini mankit (Alparku, 1996) və noqay adlandırmalarıdır.

1.3. Noqay folklorunun toplanması və yayımlanması

Noqay folklorunun və ədəbiyyat tarixinin araşdırıcılarından Abdulhamid Siqaliyev (Şeyxalıyev) noqayların yaşadıqları bölgəni aşağıdakı kimi təsvir edir: "Noqaylar (özlərini noqay, norkaylı adlandırırlar) türkdilli xalqlardan biridir. Onların əksəriyyəti Noqay çöllərində – Stavropol diyarının Neftekum rayonunda yaşayırlar. Dağıstan ərazisində isə Noqay, Tarumov, Kizler, Babayurt rayonlarında, həmçinin balıqçılıq qəsəbələri olan Klavsudar və Klavlopatində yerləşmişlər.

Noqaylar həmçinin Kizler, Xasavyurt və Mahaçkala şəhərlərində də yaşayırlar. Çeçen Respublikasının Şelkov rayonunda da noqaylar məskunlaşmışlar. Stavropol diyarının Mineralvodı və Koçibeyev rayonlarında, Kuzey Osetiyanın Mazdok rayonunda, eyni zamanda Adıgey Respublikası hüdudlarında noqayların yaşadıqları kəndlər vardır. Karaçay-Çərkəzin noqay əhalisi, əsasən, Adıge-Habl, Habez, Kuban ətrafı rayonlarında, o cümlədən Erkinşəhər qəsəbəsində

və Çerkessk şəhərində yaşayırlar" (Сикалиев, 1994: 3).

Noqaylar bu gün, əsasən, Qafqazın quzeyində toplu halda və qarışıq yaşasalar da, onların folklor və yazılı ədəbiyyat nümunələri Avrasiya məkanının geniş ərazisində - Almatıda, Həştərxanda, Buxarestdə, Varşavada, İstanbulda və b. şəhərlərdə saxlanılır. 18-ci yüzilədək olan abidələr runi-uyğur və ərəb əlifbaları ilə, sonrakı yüzildə isə bütövlükdə ərəb əlifbası ilədir. Keçmiş SSRİ-də türk, müsəlman xalqlarının əlifbası dəyişiləndə, yəni 1928-ci ildə noqaylar da ərəb əlifbasından latın qrafikalı əlifbaya, 1938-ci ildə isə latın qrafikalı əlifbadan kiril əlifbasına keçirildilər.

Hər bir xalqın yazılı ədəbiyyatı onun yüzillər boyu yaratmış və yaşatmış olduğu folklor nümunələri əsasında formalaşır. Ədəbiyyat, bir növ, xalqın tarixinin, mənəviyyatının, mədəniyyətinin güzgüsü rolunu oynayır. Noqay xalqının folkloru və yazılı ədəbiyyatı həm də bu xalqın tarixini yazmaq üçün əvəzsiz qaynaqdır.

Çox təəssüf ki, bu dəyərli mənəvi sərvət vaxtında gərəyincə toplanıb araşdırılmamışdır. Aparılmış araşdırmalardakı metodoloji səhvlər də ümumi işə böyük ziyan vurmuşdur. Ürək ağrıdan odur ki, metodoloji səhvlər bugün də davam edir.

İşğal altına aldıqları xalqları uzun illər əsarətdə saxlamaq üçün Rusiya strateqləri uzunmüddətli plan hazırlamış və onu gerçəkləşdirmişlər. Bu planın bəndlərindən biri də eyni dildə danışan, eyni tarixə və mədəniyyətə malik toplumu bir-birindən ayırmaq üçün az qala hər dialektdən bir müstəqil dil, hər tayfadan bir xalq yaratmaq, bir sözlə, xalqı kiçik parçalara ayırmaq, gücdən salmaq, kökündən uzaqlaşdırmaqla idarə etməkdir.

Bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra çar Rusiyasının varisliyindən sözdə imtina etdiklərini elan etsələr də, "parçala, hökm sür!" siyasətindən əl götürmədilər. Sovetlər Birliyi dağılsa da, onun yeritdiyi siyasət hələ də beyinlərdən təmizlənməmişdir.

Son illər noqay ovsunlarının poetikasını araşdıran Abdulhamid Siqaliyev və noqay epik mahnılarını öyrənən Bulat Kardanova araşdırdıqları mövzuların zamanında öyrənilməməsinin mədəniyyətimizə vurduğu ağır zərbədən ürək ağrısı ilə yazırlar (Вестник..., 1999: 167, 229). Lakin onlar bu gün də məhəlliçilikdən irəli gedə bilmirlər. Yalnız məhdud dairədə noqaylardan toplanmış folklor nümunələrini öyrənməklə yetərlənirlər. Mövzuya bir az geniş anlamda, ümumtürk kontekstində yanaşsalar, noqay folklor nümunəsi kimi təqdim

etdikləri materialların əksəriyyətinin qazaxlarda, qırğızlarda, tatarlarda, başqırdlarda, türkmənlərdə, özbəklərdə, türklərdə və b. türk xalqlarında da olduğunu görərlər. Türk xalqlarının folklorçu bilginləri də janrların bölgülərə ayrılması və araşdırılması sahəsində xeyli iş görmüşlər. Sadəcə bunları oxuyub ümumiləşdirmək gərəkdir.

Keçmiş Rusiya ərazisində yaşayan türk xalqlarının folklor nümunələrinin toplanmasında, nəşrində və araşdırılmasında oxşarlıq çox olduğundan onları ayrı-ayrılıqda araşdırmağa ehtiyac duymuruq. Buna "Yedigey" dastanı ilə "Koroğlu" dastanının toplanması, nəşri və tədqiqini misal göstərmək olar.

Milliyyətcə polyak olan Aleksandr Xodzko 1830-cu ildə Həştərxan noqaylarından olan Ali bey Şarapovdan "Yedigey" eposunu toplamış, onun yardımı ilə eposun nəsr hissəsini farscaya çevirmiş və 1842-ci ildə Londonda çap etdirmişdir (Сикалиев, 1994: 6). "Koroğlu" dastanı haqqında da eyni şeyləri yazmaq olar. Burada dəyişən dastanın söyləndiyi yer, il və söyləyən şəxsdir. Belə ki, Aleksandr Xodzkoya "Koroğlu" dastanını 1832-ci ildə İranın quzeyində Aşıq Sadıq söyləmişdir. Mahmud xan Dünbüli Dirsuydan toplanmış dastanı Mirzə Abdul Vahab yazıya almışdır. Aleksandr

Xodzko dastanın nəsr hissəsini yuxarıda adı çəkilən şəxsin köməyi ilə türkcədən farscaya çevirmiş və 1842-ci ildə Londonda ingiliscə çap etdirmişdir (Koroğlu, 1999: 6).

Noqay folklorunun Avropa metodları ilə toplanması və öyrənilməsi də Rusiya işğalı altında olan türk xalqlarında olanlarla eynidir. Qaynaqların verdiyi bilgiyə görə, İvanom Dobrovolski Həştərxanda çap olunan "Aziatskiy muzıkalnıy jurnal"ın 1817-ci il 3-cü sayında "Pesni Astraxanskix tatarov" və həmin jurnalın 1818-ci il 8-ci sayında "Noqayskie pesni" yazılarını nəşr etdirmişdir. Aleksandr Arxipovun "Kafkas" qəzetinin 1850, 1851-ci il saylarında (Сикалиев, 1994: 6) və "Moskvityanin" toplusunun 1852-ci il saylarında (Arxipov, 1850, sayı 78-79, Tayki, 1851, sayı 70-71), universitetdə müəllim işləyən, milliyyətcə qumuq olan Muhammat Əfəndi Osmanovun 1883-cü ildə Sankt-Peterburqda yayımlatdığı "Ногайские и кумыкские тексты (Сборник ногайских и кумыкских песен, преданий, поговорок, пословиц)", İlya Berezinin "Turetskaya xrestomatiya" kitabında (Berezin, 1907: 233-250), Konstantin Krebenskinin "Niva" jurnalında yayımlatdığı materialları noqay folklorunun öyrənilməsi və araşdırılmasında ilk addımlar saymaq olar.

Altay dilləri nəzəriyyəsinin qurucusu Qustav Ramsted də 1904-cü ilin sonlarında Dağıstanda olarkən buradan noqay türkcəsində də xeyli materiallar toplayaraq araşdırmalar aparmışdır. Çox təəssüf ki, bu mətnlər zamanında çap olunmadığından uzun illər elmi ictimaiyyətin diqqətindən kənarda qalmışdır. Nə yaxşı ki, professor Emine Gürsoy-Naskali bu məsələyə diqqət yetirərək 1991-ci ildə Helsinkidə ingiliscəyə tərcümələri ilə birlikdə onu bir kitab halında çap etdirmişdir.

Nikolay Baskakovun, Sergey Malovun, Vasili Radlovun, Abdulkerim Umerovun (Ömərov), Maqomed Osmanovun, Çokan Vəlixanovun əsərləri, eləcə də SMOMPK-un buraxılışları noqay folklorunun öyrənilməsi baxımından olduqca dəyərli qaynaqlardır.

Bolşeviklərin hakimiyyətə gəlişi və ədəbiyyata sinfi mövqedən yanaşmaları bir çox janrlarda folklorun toplanmasına və tədqiqinə olan marağı artırdı. Bu sahə ilə məşğul olan milli kadrlar yetişməyə başladı. Noqay folklorunun, ədəbiyyatının, tarixinin öyrənilməsində ictimai xadim Abdulla Canıbekovun xidməti olduqca böyükdür. O yalnız xalqının dilini, tarixini, folklorunu, ədəbiyyatını tədqiq etməklə yetərlənməmiş,

övladlarını da bu ruhda tərbiyə etmişdir. Odur ki, qızları Sofiya Kalmıkova, Roza Canıbekova, oğlu Ənvər ömürlərini elmi-tədqiqata həsr etmiş və onlar noqayların mənəvi sərvətinin öyrənilməsində çox işlər görmüşlər.

1955-ci ildə Çerkesskdə Svetlana Kalmıkovanın tərtibatı ilə çap olunan "Yırlar, erteqiler, aytubaklar, yumaklar" (Nəğmələr, nağıllar, atasözləri və tapmacalar) və 1969-cu ildə Moskvada Svetlana Kalmıkova və Abdulhamid Sikaliyevin topladığı və Svetlana Kalmıkovanın tərtib etdiyi "Noqay xalk yırları" (Noqayskiye narodnıye pesni) kitabları noqay folklorunun təbliğində böyük rol oynamışdır.

Son illərdə isə noqay folklorunun və ədəbiyyatının öyrənilməsi və təbliği sahəsində Abdulhamid Sikaliyev ardıcıl çalışır. O, 1991-ci ildə Mahaçqalada "Noqaydın kırk batiri", 1994-cü ildə Çerkesskdə "Noqayskiy qeroiçeskiy epos" və "Osiyet" (Vəsiyyət) kitablarını çap etdirmişdir.

1.4. Noqay folkloru ümumtürk folklorunun bir parçası kimi

Noqay folklor nümunələri çap olunan kitabları, topluları, qəzet və jurnalları gözdən keçirdikdə aydın olur ki, yaxın keçmişdə Rusiyanın əsarəti

altında olan əksər türk xalqları kimi onların da folkloru geniş, əhatəli şəkildə öyrənilməmişdir. Daxili toqquşmaları özündə əks etdirən, kasıbların varlılara qarşı mübarizəsindən bəhs edən folklor nümunələri dəfələrlə çap olunub tədqiqata cəlb edilsə də, müstəmləkəçilərə qarşı mübarizəni özündə əks etdirən, işğalçılara qarşı savaşlardan söz açan folklor nümunələri, miflər, ovsunlar və s. kölgədə qalmışdır. Son zamanlar rejimin yumşalması sayəsində bu sahələrə də diqqət yetirilməyə başlanılmışdır.

Araşdırıcı Abdulhamid Sikaliyev ilk və mühüm addım ataraq noqay mərasim folklorunun təsnifatını belə vermişdir: alqıs (alqış), karqıs (qarğış), ornau (ithaf), navruz, sabantoy, orak toy yırları (novruzda, sabantayda, oraq bayramında oxunan nəğmələr), beşik yırı (beşik nəğməsi-laylalar), toy yırı, bozlau (ağılar), sarın (bayatılar) və b.

Ateist təbliğat zəiflədikdən sonra araşdırıcılar miflərə də diqqəti artırdılar. Tanrılar, ilahlar haqqında mətnləri toplayıb nəşr etməyə başladılar. Bu mətnlərdə şamanizmin izləri özünü qabarıqlığı ilə göstərir. Tanrı (Baş göylər ilahisi), Umay (qadın başlanğıcını təqdir edən), Yer-Su, Baba tukli, Su iyesi, Yer iyesi, Ot (od) iyesi, Kıdırlı-yas (Xıdır-İlyas), Albaslı, Yin, Obır, Deyv, Azdaqa, Elmavız, Emire,

Sandırak, Sazaqan, Perişte (fəriştə), Anir və b. haqqında toplanan mətnlər türk xalqlarının keçmiş mədəniyyətinin, inancının birliyindən xəbər verdiyi kimi, onların yenidən və elmi şəkildə öyrənilməsinin vacibliyini də göstərir.

Noqaylar yaşayan bölgələrdən Albaslı (Hal anası) ilə bağlı toplanan mətnlər türk xalqlarının əksəriyyətindən toplanmış mətnlərlə səsləşir. Miflər, ovsunlar, nağıllar, məsəllər, atalar sözləri də eyniyyət təşkil etdiyindən üzərində geniş dayanmağa ehtiyac duymuruq. Fərq ayrı-ayrı bölgələrdən toplanmış nümunələr arasındakı variantlarda özünü göstərir.

Bu oxşarlıqlara bir-iki nümunə verməklə yetərlənəcəyik:

Alay da ettik, bılay da,
Arpa kostık biydayka.
Şükür bolsun Kudayka,
İşler geter onayka,
Aytayık bir-ekidi,
Taptayık tamekidi,
Kelmey bolsa evine,
Keltireyik ebine! (Сикалиев, 1999: 170).

İslamdan öncəki inancları özündə yaşadan bu cür nəğmələrə karaçay-malkarlarda da, qumuqlarda da, Azərbaycan türklərində də, başqa türk

xalqlarında da rast gəlinir. Araşdırıcıların fikrincə, İslamdan öncəki inancları yaşadan, tanrılara həsr olunmuş bu nəğmələr mərasimlərdə oxunarmış.

Anaların beşik başında uşaqlarını ovundurmaq, oxşamaq, tez boya-başa çatmalarını arzuladığını bildirmək üçün oxuduğu mahnı-ninnilər və uşaq oyunları da bu baxımdan önəm daşıyır.

Kızım, kızı, kız tana, – Qızım, qızım, qız dənə.

Kızıman gele yüz tana. – Qızımdan gələ (ola) yüz dənə,

Yürevi de ak tana, – Ürəyi də ağ (təmiz) ola.

Atası sığar maktana. – Atası çıxa öyünə,

Ağ tanadı pışaklar, – Ağ dananı bıçaqlar (kəsər).

Kızımı küyev kuşaklar. – Qızımı güvey (nişanlı, ər) qucaqlar (Nogay, 1997: 87).

–Ay Asımelek, – Ay, Hacıleylək,

–Kökte ne var? – Göydə nə var?

–Kök şeşekey var. – Göy çiçək var!

–Yerde ne var? – Yerdə nə var?

–Yer şeşekey var. – Yer çiçək var!

Noqaylar da nağıl və dastanları xüsusi seçilmiş mətnlərlə – yəni müqəddimə, təkərləmə ilə başlayırlar. İlk baxışda mətnə heç bir dəxli yoxmuş kimi görünən bu başlanğıc əslində dinləyicini hazırlamaq, toplumun diqqətini cəlb etmək mahiyyəti daşıyır. Azərbaycan folklor mətnlərinin

nəşrində bu hissə nəsrlə verilir. Noqaylar isə onu şeir kimi yazırlar. Buna nümunə olaraq aşağıdakı parçanı göstərə bilərik:

Burin birev bar eken,- Keçmişdə bir kişi var ikən,

Burnında temirev bar eken,- Burnunda dəmrov var ikən,

Kara suvuda kaynatıp,- Qara suyu qaynadıb,

Kaymak alkan bar eken,- Qaymaq alarkən,var ikən,

Kumırskasın qöy etup,- Qarışqasını qoyun edib

Töske toydan bar eken,- Döşünə döyər (özünü öyər) ikən,

Bir bar eken, bir yok eken.- Biri var ikən, biri yox ikən...

Yuxarıdakı nümunələrdən də aydın görünür ki, Azərbaycandan toplanan folklor nümunələri ilə noqaylardan toplanan folklor mətnləri arasında elə bir ciddi fərq görünmür.

2. Yazılı ədəbiyyat – qıpcaqların ortaq ədəbiyyatı

Sovet ədəbiyyatşünasları noqay yazılı ədəbiyyatının 14-cü yüzildən başladığını qəbul edirlər. Sıbra Jırayı noqay şairlərinin babası hesab

olunur. Onun adına nadir hallarda "Şopbaşlı" epiteti də əlavə edilir ki, bu da "zərif başlı" mənasını verir. 14-cü yüzilliyin sonlarında yaşadığı güman edilən, dastanlarda 180 yaşlı qoca kimi tanıdılan və şeirləri dillər əzbəri olan şairin xalq arasında nüfuzu olduqca böyükdür. Bu cür övgülər onu "Kitabi-Dədə Qorqud" dastanındakı ozan Qorquda bənzədir. 14-cü yüzildə bədii sözün görkəmli ustası olan Sıbra noqay tayfalarının müstəqil dövlət yaratmaq uğrunda Altınorda (Qızıl Orda) xanları ilə mübarizəsinin tərəfdarı kimi tanınır. Sıbra çoxlu xalq mahnılarının yaradıcısı sayılır. Lakin bizim günlərə onlardan yalnız bir neçə poetik tolkau (monoloq) gəlib çatmışdır. Xalq yaddaşında onun adı ilə bağlı olan bu tolkaularda Toxtamış xan və onun sələflərinin siyasətini tənqid edir. O, noqay tayfa başçılarının ağıllı tədbirlərini rəğbətlə qarşılayır və onların tərəfində olduğunu açıq söyləyir. Çünki onlar xalqı incidən Qızıl Orda xanlarının özbaşınalıqlarına qarşı çıxış edirdilər. Sıbranın xalq arasında geniş tanınması məhz bundan irəli gəlir.

Sıbradan sonrakı yüzillərdə yaşayan noqay şairləri onu poetik sözün banisi kimi təsvir edirlər. Ondan sonra Parızdak Şaban ulu bu ədəbiyyatın görkəmli nümayəndələrindən hesab edilir. 15-ci yüzildə yaşamış Şal Kiyiz Tileniş ulu, 16-cı yüzildə

yaşamış Asan Kaykılı, Dosmambet Azaylı, Jirenşe Şeşen, 17-ci yüzildə yaşamış Kazı Tuğan Suyunişi ulu və başqalarının yaradıcılığında doğrunun yalan, haqqın, həqiqətin zülm üzərində qələbəsi, sevgi aparıcı mövzudur. Şal Kiyiz Tileniş ulunun şeirlərindəki axıcılıq, dilin şirinliyi, Asan Kaykılının poeziyasındakı dərin fəlsəfi fikir yalnız çağdaşlarını deyil, sonrakı nəsilləri, noqaylara qonaq olmuş səyyahları da heyrətə salmışdır. Yaradıcılıqlarındakı humanizm və sözün təsir gücündən bacarıqla istifadə adı çəkilən sənətçiləri oxucuların sevimlisinə çevirmiş və noqay ədəbiyyatının klassikləri kimi tanıtmışdır (Литература..., 1999: 225).

Nəinki yuxarıda adları çəkilən şairlərin, hətta noqayların Ural-Volqa boylarından Kuban çöllərinə, Güney Qafqaza, Krıma qovulduqdan sonra yazıb yaratmış Elburkan Nayman ulunun, Sarkınbay Krımlının, İsmayıl Masarlının (18-ci yüzillik), Oraz Aytmambey ulunun (18-ci yüzil), 19-cu yüzildə yaşamış Menkili Boraxan ulunun, Mantik As ulunun, Alibey Şarap ulunun, Axmetie Adil ulunun, Mambet Ali Aşığın, Ali Kusi Onkutlunun (Сикалиев, 1993: 164-165) və b. yaradıcılığını da tatarların, qazaxların, qırğızların, qaraqalpaqların və qıpçaq kökənli türk xalqlarının ortaq ədəbiyyatının

nümunəsi saymaq olar. Mambet Ali Aşığın adındakı aşıq sözü noqaylarda arxaikləşsə də, bu gün Azərbaycanda, İranda, Türkiyədə və b. ölkələrdə çox işlədilir. El nəğməkarlarının, xüsusən məclislərdə saz çalıb oxuyan, dastan danışan sənətkarların adının önünə "aşıq" epiteti artırılır. Noqayların xalq şairləri də aşıq ləqəbindən istifadə edir, bədii əsərləri ilə xalqın ruhunu oxşayır və dilini yaşadır, mübariz əhval-ruhiyyə oyadırdılar.

Noqaylar İslamı qəbul etdikdən sonra da, yəni 18-ci yüzildə ərəb əlifbası ilə yanaşı, uyğur əlifbasından da yararlanmışlar. Ərəb əlifbası ilə yazılarda saitlərin olmaması və türk dillərindəki bəzi samitlərin ərəb əlifbasında bir neçə hərflə yazılması bugünkü araşdırıcıya klassiklərin əsərlərini çağdaş yazı qaydalarına uyğun oxumağa imkan vermir. Son yüzillərdə noqayların Həştərxanda, Kuban çöllərində, Bucakda, Quzey Qafqazda, Krımda və Türkiyədə dağınıq halda yaşamaları, onlar arasında sıx əlaqənin olmaması ədəbi dilin formalaşmasına mənfi təsir göstərmişdir. Bu kimi çətinliklərə və məcburi köçlərə, savaşlara, həbs və sürgünlərə baxmayaraq, Fexreddin Abu Şaxman ulu (1808-1883), Sadıkbay Alkaydar (1811-1876), Abdulxalıq Abdulraşid ulu (1858-1913), Aslan Şaban ulu (1858-1912), Baymırza Manap ulu

(1888-1918), Ajı Molla Noğman ulu (1884-1930), Taram Qumuq ulu, Menkilişeyh İsmail ulu, Abdulkadır Bekbay ulu kimi ənənəvi poeziyanı davam etdirirdilər. (Сикалиев, 1993: 164).

Fexreddin Abuşaxman ulu ilə Aslan Şaban ulunun birgə yaradıcılığının bəhrəsi olan "Karaydar man (ilə) Qızılgül" dastanı xalq arasında geniş yayılmışdır. Araşdırıcı Calaldin Şıxmirzəyevin yazdığına görə Beş tav (Beş dağ-Pyatiqorsk) noqayları arasında yaşayan gənc Aslan Şaban ulu Həştərxan vilayətindəki Alabuğat noqayları arasında yaşayan, xalq arasında ustad sənətkar kimi tanınan Fəxrəddin Abuşaxman ulunun yanına gəlir. Bu vaxt artıq Fexreddinin iki dastanı "Egiz" (Əkizlər) və "Gül Ənvər" xalq arasında yayılıbmış. Ustad-şagird şahidi olduqları hadisə əsasında Aşıq Qərib dastanının sujetini xatırladan "Karaydar man Qızılgül" dastanı yaradırlar. Az zamanda dastan dillər əzbərinə cevrilir.

Sadıkbay Alkaydarın "Yas gözəl", "Gül Ferdeys" dastanları da Doğu ədəbiyyatının təsiri ilə yaranmış dastanlardır.

2.1. Avropanın təsiri ilə yaranan ədəbiyyat

Rusiya işğal etdiyi ərazilərdə toplumu idarə etmək, vergi toplamaq, dəftərxana işlərini qurmaq üçün yerli xalqlardan azsaylı kadrlar hazırlamağa çalışırdı. Yerli kadrlar da rus dilini öyrənməklə Avropaya çıxış, oradakı elmi, mədəni fikirlə tanışlıq imkanı əldə edirdi. Rusiya və Avropa ziyalılarının təsiri ilə onlar ədəbiyyata yeni ədəbi biçimlər-hekayə, povest, roman, sonet, dram kimi janrlar gətirirdilər. Rusiyanın hökumət idarələrində kiçik məmur kimi çalışanlar beləliklə fəhmlə də olsa, tarixini, ədəbiyyatını, folklorunu öyrənir, millətinin maariflənməsinə çalışırdılar.

Məhəmməd Hadinin qohumu Mustafa Lütfü Şirvani Həştərxana gələrək burada "Bürhani tərəqqi" adlı qəzet açmışdır. Məhəmməd Hadi də bir müddət bu qəzetdə işləmişdir. Qəzetin qarşısına qoyduğu məqsəd bölgədə yaşayan tatarların, qazaxların, noqayların və b. türk xalqlarının anlayacağı bir dildə yazıb-oxumalarına nail olmaq idi. Rus məmurları isə türk, müsəlman xalqlarının yaxınlaşmasını hökumət üçün böyük təhlükə hesab edirdilər. Odur ki, Mustafa Lütfü Şirvanini gizli sıxışdırmaqla yanaşı bəzi noqay ziyalılarını da onun əleyhinə qaldıra bildilər. Bəzi əli qələm tutan noqaylar "Bürhani tərəqqi" qəzetinin redaktorunu bölgədə dini ayrıseçkilik törətməkdə, şiəliyi təbliğ

etməkdə suçlayırdılar. Mustafa Lütfü Şirvanda doğulmuş və sünnü təriqətinə mənsub birisi idi. O, atılan böhtanlara əsaslı dəlillərlə cavab versə də qəzeti qoruyub yaşada bilmədi.

Beləcə Rusiya bölgədə ənənənin davam etdirilməsini, ortaq türkcənin yaşamasını və gəlişməsini əngəlləmiş oldu.

Abdraxman Ömərov (Umarov) (1866-1933). İlahiyyatçı, ədib, naşir kimi şöhrətlənmiş Abdraxman mədrəsələr üçün dərs kitablarını redaktə və nəşr edir, siyasi və ədəbi qəzet və jurnallara maarifçilik ruhunda məqalələr yazır, folklor nümunələri toplayaraq çap etdirirdi. Onun 1913-cü ildə nəşr etdirdiyi "Noqay jırları" kitabına (Kitabda toplayıcının adı və soyadı Abdraxman Umerov kimi yazılır) yazdığı ön söz bu gün də elmi əhəmiyyətini itirməmişdir. Abdraxman Ömərov, Nəsib Mevluberdiyev, Abdulrehman Əliyev, Əli Xosayev, Qurbanəli Erembetov kimi maarifçi aydınlar 1914-cü ilədək Həştərxanda "Toy", "İslah" və "Maarif" adlı jurnallar nəşr etmişlər. Siyasi baxışlarına görə çar məmurları bu jurnalları qapatmış, onları nəşr edənləri sürgünə göndərmişdir.

Birinci Dünya Savaşı, 1917-ci ildə baş verən fevral və oktyabr devrimləri, vətəndaş savaşları noqay ədəbiyyatının da inkişafına olduqca mənfi

təsir göstərmişdir. Vətəndaş savaşı başa çatdıqdan sonra bolşeviklər öz ideyalarını xalq arasında geniş yaymaq üçün azsaylı xalqların dillərində məktəblər açılmasına, dərsliklər yaradılmasına, qəzet-jurnal buraxılmasına da diqqəti artırmışlar.

2.2. Sovet dönəmində yaradılan ədəbiyyat

1925-ci ilin aprelində dağlı xalqların (Qafqazın quzeyində yaşayan azsaylı xalqlara 20-ci yüzilin əvvəllərində verilən ümumiləşdirici ad) konfransı keçirildi. Bu konfransın əsas mövzusu mədəni-maarif məsələsi oldu. İnzibati muxtariyyəti olmayan xalqlara mədəni muxtariyyət verildi. Quzey Qafqazda Mərkəzi Nəşriyyat quruldu. Azsaylı xalqların dillərində dərs kitablarının yazılmasına başlandı. 1927-ci ildən isə "Krasnaya Çerkasiya" qəzetinin yanında bir səhifəlik "Noqay bet" (Noqay səhifəsi) yayına başladı.

Sovetlər Birliyində gedən ideoloji mübarizə noqay ədəbiyyatından da yan keçmir. Nəinki Sovet ideoloji mərkəzlərində hazırlananlar, hətta xalq arasında məşhur olan dastanları aul-aul, qışlaq-qışlaq gəzərək dinləyicilərə çatdıran, özü də yeni dastanlar qoşan Ajı Molla Noğman ulu kimiləri belə 1917-ci il devrimindən sonra Sovet hökumətinin

tərənnümçüsünə çevrilir. Molla Noğman ulunun Ası ləqəbinə görə araşdırıcıların bəziləri onun As nəslindən olduğunu və 1884-cü ildə doğulduğunu, bəziləri isə 1887-ci ildə Qaranoqaydakı Kurqan Acı kəndində doğulduğunu yazırlar.

Abdul Həmid Şarşembi ulu Canıbekov (18 mart 1879, Astarxan - 27 aprel 1955). Çağdaş noqay ədəbiyyatının inkişafında və formalaşmasında böyük xidməti olan Abdul Həmid etnoqrafik və tarixi materiallar toplamaqla, nəşriyyat işi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayda iştirakı onu yaradıcılığına təsir etmiş, milli məsələyə diqqətini artırmış və o, türk xalqlarının latın qrafikalı vahid əlifbasının yaradılması uğrunda çalışan aydınların sırasına qoşulmuşdur.

1928-ci ildə Moskvada "Karaydar man Qızılgül" lirik poeması işıq üzü görmüşdür. O, Moskvada, eləcə də Kazanda çap olunan "Beznen yol" (Bizim yol) jurnalında folklor materiallarını çap etdirmişdir. Onun topladığı folklor nümunələri 1935-ci ildə Mahaçqalada "Avıl poezyası", 1940-cı ildə Pyatiqorskda (Beş tau) "Xalk yırları em erteqiler" (Sadıq Dautovla birlikdə), 1949-cu ildə İsmail Kapayevin tərcüməsi ilə rus dilində Stavropolda çap olunmuşdur. O, yaşlandıqca bədii

yaradıcılıqdan daha çox elmi araşdırmalarla məşğul olmuşdur. Karaçay-Çərkəz Vilayətinin arxivində onun dördcildlik "Söz xazinası" və "İstoriceskiy oçerk noqayskoy literaturı" kitablarının əlyazması saxlanılır.

Abdul Həmid Canıbekovun 1918-ci ildə "Noqay toyu" adlı pyes yazdığı qaynaqlarda göstərilsə də, günümüzədək gəlib çatmamışdır.

Abdul Həmid Canıbekov çoxsahəli ədəbi, elmi, pedaqoji fəaliyyətlə yeni bir ədəbi nəsil yetişdirmişdir (Литература..., 1999: 234).

Ədəbiyyata yeni gələn Musa Kurmanaliyev (15 mart 1894, Stavropol vilayətinin Qara-Tyube kəndi -1970 Stavropol vilayəti) və Zeyd Kaybalıyev Abdul Halim ulu (2 dekabr 1898, Terek vilayəti, Açıkulak-Cemboyluk rayonunun Qara-Tyube kəndi-27 aprel 1979, SSRİ) kimi gənclər sinfi mübarizəni aparıcı mövzuya çevirməyə, ənənəvi poeziyanı yeniləşdirməyə çalışmışlar. Bununla yanaşı, Xasan Bulatıkov 1936-cı ildə yazdığı "Fatimat" pyesi ilə noqay ədəbiyyatında dramaturgiyanın əsasını qoymuşdur.

Basir Mesid ulu Abdullin (1892, Həştərxan vilayətinin Tiyek kəndi-1937). İlk təhsilini mollaxanada alan Basir sonralar Həştərxan və Kazan şəhərlərində mədrəsə təhsili görmüşdür.

Türk, ərəb və rus dillərini bilən ədib xalqının tarixini və folklorunu öyrənməyə də həvəs göstərmişdir. Öyrəndiklərini sonralar bədii əsərlərdə geniş istifadə etmişdir.

Bolşeviklər hakimiyyətə gəldikdə onların irəli sürdüyü şüarlar gənc Basirə də xoş gəlib, onlara qoşularaq Həştərxan bölgəsində varlı saydığı, sosializm quruculuğunu qəbul etməyən soydaşlarına qarşı vuruşmuşdur. 30-cu illərin önlərində Qaranoqay bölgəsinə köçərək burada bir müddət "Qızıl bayraq" qəzetində işləmişdir. Daha çox kiçik hekayələr yazan Basir Abdullin "Kırmızı gül" (1934) romanı və "Kır batırleri" (Çöl bahadırları-qəhrəmanları) (1934), "Aktivis" (1936) kimi sosializm quruculuğunu, Sovetlərin qələbəsini öyən nəsr əsərlərini yazmışdır. Basir Abdullin 1932-ci ildə yazdığı "Düşmən yenildi", "Batrak", 1934-cü ildə yazdığı "Əməyin yendiyi zaman" pyesləri ilə noqay dramaturgiyasının inkişafına təkan vermişdir.

1937-ci ilin Sovet irticası noqay ədəbiyyatına da ağır zərbə vurur, Basir Abdullin kimi istedadlı dramçı və yazıçını məhv edir.

Asan Şaxim ulu Bulatıkov (16.08.1907, Xabez rayonunun Qızılyurd kəndi - 1937). Noqayların birinci peşəkar yazıçısı sayılır. Onun "İki həyat" (1936), "Çoxları üçün iki" (1936) povestləri və

“Fatimat” pyesi, eləcə də “Azret, Erinşek, Mazan və kolxozçular” şeir toplusu sosializm quruculuğunun ilk illərində müsəlman respublikalarında sifarişlə yazılan qadın azadlığına, çadranın atılmasına, qadınların kişilərlə bərabər işləməsinə, kasıbların varlılara qarşı mübarizəsinə həsr olunmuş əsərlərdəndir. Sosializmin tərənnümçüsü kimi tanınmasına baxmayaraq 1937-ci ilin irticasından o da qurtula bilməmişdir.

Yalnız Basir Abdullin və Asan (Xasan) Bulatıkov deyil, onlarla aydın, yazıçı həbs edilib güllələnmişdir. Sağ qalanlar qorxu içərisində yaşadıqlarından cəsarətlə ədəbi axtarışlara girişmir, Kommunist Partiyasının qərar və göstərişlərini, rəhbər partiya işçilərinin məruzə və çıxışlarını bədii şəkildə xalqa çatdırmaqla yetərlənirlər.

Sosializm quruculuğunun ilk illərində ədəbiyyatla məşğul olanların yazdıqlarından çox, onların tərcümeyi-hallarına diqqət yetirilirdi. Kasıb ailədən olan gənclərə daha geniş imkanlar açır, onları yazıb-yaratmağa həvəsləndirir, əsərlərini nəşr edir, pyeslərini səhnələşdirirdilər. Kasıb ailədə doğulub ədəbiyyata gələn gənclərdən biri də Fazil Apas ulu Abdulcəlilovdur.

Fazil Apas ulu Abdulcəlilov (01.03.1913, Stavropol vilayəti, Mineralnıye Vodı rayonunun

Kanqlı kəndi-1974). Kasıb bir ailədə doğulan, kəndlərindəki məktəbi bitirdikdən sonra Çerkessk Pedaqoji Texnikumunda oxuyan Fazil "Tənbəl Girey", "Murat şəhərdə nə gördü?" (1932), "Biz sosializm qururuq" (1932), "İki dünya" (1932), "Uşaqlar üçün müxtəlif hekayələr" (1933) və b. əsərlərini yazıb çap etdirəndə 19-20 yaşlarında imiş. O, 1930-cu illərdə yazdığı hekayə və povestlərini əsasən "Uşaqlar üçün ədəbiyyat", "Yeniyetmələr üçün ədəbiyyat" rubrikaları altında çap etdirmişdir.

İkinci Dünya Savaşının başlanması da ədəbiyyatda bədii dəyərlərin, keçmişi tənqidin, sosializm quruculuğunun tərənnümünün arxa plana keçməsinə, publisistikanın qabarmasına şərait yaratmışdır. Fazil Abdulcəlilovun da 1941-1950-ci illərdə yazdıqlarının böyük qismi qəzet və jurnal məqalələrini xatırladır.

1950-ci illərdən sonra faşist Almaniyası üzərində Sovetlərin qələbəsi ədəbiyyatın əsas mövzusuna çevrilmişdir. Fazil Abdulcəlilovun "Güclülər ailəsi" (1950), "Asantay" (1956), "Sərt dönüş" (1961) povestlərini, kolxozlaşmadan bəhs edən "Güclü axın" romanını, "Kuban çağlayır" (1955), "Kuban-mənim nəğməm" (1957) şeir toplularını çap etdirmişdir. Onun "Güclülər ailəsi" povesti daha çox təbliğ olunmuşdur.

Noqay ədəbiyyatına şair, nasir və dramçı kimi daxil olan Fazil Abdulcəlilovun ən böyük xidmətlərindən biri ədəbi dili zənginləşdirmək olmuşdur.

Kuruptursın Başi ulu Orazbayev (1924, Dağıstan Respublikası, Noqay rayonunun Boranşı kəndi-1990). Noqay ədəbiyyatında önəmli yer tutan yazıçılardandır. Ədəbiyyata şeir və hekayələrlə gəlmişdir. 1962-ci ildə "Gen çöllər", 1964-cü ildə "Nasip yıldızı" (Bəxt ulduzu) hekayə kitabları, 1970-ci ildə "Atadın quşağı" (Atanın qurşağı), 1976-cı ildə "Saban tübi" (Sarı qızıl), 1979-cu ildə "Danıl sagını" romanlarını nəşr etdirmişdir.

Söyün İmaməli ulu Kapayev (1927, Erkin Yurt kəndi-2001). Gənc yaşlarından şeir yazmağa başlamış, sonralar publisistika və nəsr sahəsində də qələmini sınamışdır. 1955-ci ildən noqayca çap olunan "Lenin yolu" qəzetinə redaktor təyin edilmişdir. 1957-ci ildə Stavropol Pedaqoji İnstitutunu bitirmişdir. Çoxsahəli yaradıcılığı olan Söyün Kapayev 1957-ci ildə "Dağ bulaqları", 1958-ci ildə "Danıl uyandı" (Çöl oyandı), 1969-ci ildə "Yürek sırlarım" (Ürək sirrim) şeir kitablarını nəşr etdirmişdir.

Araşdırıcılar ədibin yaradıcılıq qaynağından söz açanda iki məsələyə diqqət yetirirlər. Zəngin noqay

folkloru və özünün çətin həyat yolu. Çoxlu mahnılar və tərcümələr müəllifi kimi tanınan Söyün Kapayev üç roman, ondan çox povest və beş şeir kitabını noqay oxucusunun mühakiməsinə vermişdir. Onun "Tandır" (Təndir), "Yuvsan" (Yovşan) povestləri vaxtilə ən çox təbliğ edilən əsərlər olmuşdur.

Ədəbiyyatda yeniləşmənin öncüllərindən olan yazar noqaylarda sərbəst vəzndə şeirin ustadlarından sayılır. Onun durnalara xitabən yazdığı şeirdə deyilir:

Yarasık tı, - Gözəldir,

Şuvak bolup yaynaydı - Aydınlıq olub parlar,

Küzgi kibik, küz kuni. - Güzgü kimi payız günü.

Tav betinde - Dağ belində

Kökşil turgan kök köldey, - Göydə duran göy göl kimi,

Köp-kömekyi - Tamam gömgöydü

Küz küninde kök yüzü. - (Güz) payız günündə göy üzü.

Sovet dönəmində ən çox inqilabdan, bolşeviklərin noqay xalqını xoşbəxtliyə çıxardığından yazan Söyün Kapayev ömrünün son illərində çap etdirdiyi povest və hekayələr kitabını "Müqəddəs Quran" adlandırmışdır. Son illər xalq arasında geniş yayılmış əfsanə, əsatir, rəvayət və

nağılları bədiiləşdirib oxuculara təqdim etməsi öncələr yazdıqlarının üzrxahlığı kimi başa düşülə bilər. Bəlkə elə buna görədir ki, son kitablarından olan "Noqay evi" noqayların stolüstü kitabına çevrilmişdir. Burada xalqının tarixinə və etnoqrafiyasına geniş yer ayrılmışdır.

Söyün Kapayevin "Tazasu sərgisi" (1965), "Durnacık" (1974) və b. əsərləri noqay ədəbiyyatının savaş mövzusunda ən yaxşı əsərləri sayılır.

* * *

Sovetlər Birliyi çökdükdən sonra ədəbiyyatşünaslar 1920-1930-cu illərdə Musa Kurmanaliyevin, Zeyd Kaybaliyevin, Rasim Kereytovun, İsmayıl Mirzayevin, Vladimir Qazaqovun formalaşdırdıqları ədəbiyyatı şüarçı ədəbiyyat kimi dəyərləndirirlər.

2.3. Ədəbiyyatda insanın iç aləminə diqqətin artması

1956-cı ildə quruluşun bütün nöqsanlarının İosif Stalinin (Cuqaşfili) adına yazılması, 1937-ci il irticası qurbanlarına fiziki bəraət verilməsi, bir

sözlə, rejimdə baş verən yumşalma ədəbiyyata da müsbət təsirini göstərdi. Noqay nəsrində sürətli bir dirçəliş baş verdi. Təəssüf ki, bu dirçəliş yeni yazılan əsərlərin məzmununda deyil, daha çox həcmində özünü göstərirdi. Nəşrlərin sayı artdığı kimi, roman, povest və hekayələrin həcmi böyüyür, mövzu dairəsi genişlənirdi.

1960-cı illərdə Sovet ədəbiyyatında baş verən dəyişikliklər noqay ədəbiyyatından da yan keçə bilməzdi. Ədəbiyyatda "Altmışıncı illər nəsli" deyə bir ifadə işlədilməyə başladı. Bu nəslin nümayəndələri 1920-1950-ci illərin ədəbi simaları kimi ideologiyaya daha çox önəm vermir, sənətkarlığı önə çəkir, bədii təsvir vasitələrinə üstünlük verirdilər. Bekbiyke Kuluncaxova (1946), Valeri Qazaqov (1948), İsa (İsmail) Kapayev (1949) və b. kimi yeni nəsil peşəkar şair və yazıçıların meydana çıxması ədəbiyyata marağı artırdı. İsa (İsmail) Kapayevin yaradıcılığı çağdaş problemlərə yönəlmişdir. İnsanın gündəlik qayğıları yazıçının əsas mövzusudur. Onun qəhrəmanları insanlıq ləyaqəti, mənəvi borc, sevgi və qəhrəmanlıq haqqında düşünür. Yazıçı keçmişdən mənəvi dəyərləri alaraq gələcəklə birləşdirməyə çalışır. İsmail Kapayevin yaradıcılıq axtarışları bədii cəhətdən də dolğundur.

İsmail Kapayevin “Xurcun” (1975), “Sıntaslı Akında Tolgav” (1977), “Vokzal” (1980), “Sülder” (1989-1991), Vladimir Qazaqovun “Qızıl kəmər” (1977), “Doqquz kapital” (1983), “Babay ulduzu” (1983), Sadıq Kapayevin “Torpağın hərarəti” (1976), Bəyim Kulunçakovanın “Çöl torağayı” (1980) kimi hekayə və povestlərinin nəşri noqay nəsrinin yeni çağının başlandığından xəbər verir (Türkiye dışındakı..., 2002: 2, 21-ci cild).

Ümumtəhsil məktəblərində noqay dili və ədəbiyyatı tədris edilsə də, qalan fənlər rusca keçildiyindən, ölkədə rus dilinə xüsusi önəm verildiyindən noqay gənclərinin əksəriyyəti də rus dilinə daha çox diqqət yetirmişdir. Mərkəzdən maddi və mənəvi dəstək aldıqları üçün gənc noqay yazıçıları da fikirlərini daha çox sayda insana çatdırmaq, daha çox oxucu qazanmaq və məşhurlaşmaq üçün rus dilində yazıb-yaratmağa üstünlük verirdilər. Rusca yazmaq əcnəbi dillərə tərcümə olunmalarına şərait yaradırdı.

1960-cı illər nəsli insanın iç dünyasının bədii dillə təsvirinə diqqəti artırsa da, Kolumbiya yazıçısı Qabriel Qarsiya Markesin yazdığı “Yüz il tənhalıqda” əsəri xalqların tarixinə, ilkin başlanğıca, miflərə marağını artırmışdır. Uzun illər tarixi mövzulara yalnız bayları, mirzələri, bir sözlə, hakim

sinfi tənqid etmək məqsədilə müraciət edən yazıçı və şairlər indi keçmişlərinə tamam başqa gözlə baxmağa başlayıblar.

Askerbiy Söyün ulu Kireyev (17 fevral 1938, Qaraçay Çərkəz Muxtar Vilayəti-2011, Qaraçay Çərkəz Muxtar Vilayəti) Noqay uşaq ədəbiyyatının inkişafında böyük xidməti olan yaradıcı ziyalılardandır. Uşaqlar üçün 20-yə yaxın kitab çap etdirən müəllifin "Küpelek" (Kəpənək), "Biyala" (Piyalə), Köqerşin" (Göyərçin), "Şenilşek" (Yellənçək), "Karlıqaş" (Qaranquş), "Tulpar" və b. əsərləri uşaq poeziyasının nümunəvi əsərləri sayılır.

Askerbiy Kireyev bədii yaradıcılığında ümumtürk və onun bir qolu olan noqay folklorundan səmərəli bəhrələnmişdir. Şairin "Besik yırı" (Beşik nəğmələri-laylalar), eləcə də tapmacalar əsasında yazdığı şeirlər noqay uşaqlarının ana dilində söz ehtiyatının artmasında, nitqinin inkişafında və dünyagörüşünün formalaşmasında böyük rol oynamışdır.

Onun "İyt, mısık em topqay" (İt, pişik və qarğa), "Maymıl" (Meymun) və başqa əsərləri noqay mərasim mahnıları aytıslar üslubunda yazılmışdır. Bir çox şeirlərini isə heyvanların söhbəti formasında yazmışdır. Buna çöl dovşanı ilə ev dovşanının söhbətindən bəhs edən "Yolıqıs" (Görüş),

qoyunların söhbətindən bəhs edən “Kaynadılar kazanda” (Qaynadılar qazanda) və b. əsərlərini nümunə göstərmək olar. Şairin uşaq şeirlərinin bir çoxu başqa dillərə də çevrilmişdir.

Qamzat Yusup ulu Acıgəldiyev (21 dekabr 1939, Dağıstan Respublikası Noqay rayonu Orta Töbe kəndi-11 iyul 1966, Noqay rayonu Orta Töbe kəndi). Atasını savaşda, anasını savaşın doğurduğu aclıq və xəstəlikdə itirən Qamzat çətin bir ömür yaşamış, uşaq evinin ağır şəraiti onun psixologiyasını pozmuşdur. Savaş başa çatdıqdan sonra yaxın qohumu Badiya Acıgəldiyev onu ailəsinə almışdır. “Səlimət” hekayələr kitabının müəllifi olan, Qaranoqay kəndlərini (Dağıstan) gəzərək folklor nümunələrini çap etdirən, partiya işçisi Badiya Acıgəldiyev Qamzatın ədəbiyyata maraq göstərməsində böyük rol oynamışdır.

Tepekli (Dirəkli) Məktəb kəndindəki internat məktəbdə oxuyan Qamzat Belarusiya Hərbi Dairəsində əsgəri xidmətdə (1958-1961) olarkən də ikiillik Marksizm-Leninizm Universitetinin axşam şöbəsində təhsil almışdır. Bədii yaradıcılığa da həmin illərdən gəlmişdir. Mahaçqaladakı “Şöllik mayakı” (Çöllük mayakı) və Çerkesskdəki “Lenin yolu” qəzetləri ilə müntəzəm əlaqə saxlamışdır.

Əsgəri xidməti başa vurduqdan sonra fəal bədii yaradıcılıqla məşğul olmuş, noqay ədiblərindən Fazil Abdulcəlilov, Sadıq Kapayev, Keldixan Kumratovla görüşmüşdür. Ədəbiyyata gəlişi ilə diqqəti özünə cəlb edə bilmişdir. Moskvadakı M.Qorki adına Ədəbiyyat İnstitutuna oxumağa göndərilən ilk noqay olmuşdur.

1962-ci ildə Mahaçqalada "Sokpak" (Cığır) adlı ilk şeir kitabı çap edilmişdir. Badiya Acıgəldiyevlə birlikdə Dağıstanda yaşayan noqay ədiblərinin İkinci Dünya Savaşından sonrakı yaradıcılığından nümunələri seçərək 1964-cü ildə "Karlıgac" (Qaranquş) adlı topluda çap etdirmişlər. Bu təşəbbüsü araşdırıcılar noqaylarda ədəbi mühitin canlandırılması kimi qiymətləndirirlər.

Qəzetlərdə çoxlu ədəbi tənqidi məqalələr, tərcümələr çap etdirən, ədəbi mühitin canlanması üçün var gücü ilə çalışan gənc şair bədbinliyə qapılmış, vəziyyətdən çıxış yolu tapa bilmədiyindən içkiyə qurşanmışdır. "Kuşlar kaydan kelesiz" (Quşlar haradan gəlirsiniz?), "Mennen başqa bar bolsa..." (Məndən başqa varsa...), "İzleyemen seni" (Səni axtarıram), "Dördlüklər" şeirləri oxucular tərəfindən məhəbbətlə qarşılanan şair 1966-cı ildə, 27 yaşı tamam olmamış intihar etmişdir. Şairi intihara aparan yol onun şeirlərində öz əksini

tapmışdır. “Yayapsız soraclar” (Cavapsiz suallar) şeirində yazır:

Yazayıma yatlavlardı yanıdan?
– Yenidən yazmağa davam edimmi?
Tek korkman redaktorlar kapıdan
– Pək qorxuram redaktorlar qapıdan
Ketşi deek, kaqıtlardı körgende
– Getsin deyər, yazılarımı görəndə.
Koyayıma taslap yazqan zatlardı
– Hər şeyi atmaq, unutmaq,
Otı sönip, suvıp kalqan küllerdey
– Yoxsa yandırmaq, külə döndərmək.
Tars yumayım körmes uşin közimdi
– Gözüm görməməsi üçün yumummu?
Ya salayım korkaylandan külledi
– Kömək edər mənə güllələr,
Söndürmege ürügimnin yallavın
– Söndürməyə ürəyimin alovun.
Yazayıma yatlavlardı yanıdan?
– Yenidən yazmağa davam edimmi?

“Kuy, Rosiya” (Araq tök, Rusiya) və b. şeirləri onun sərxoşluqla keçirdiyi günlərin əhval-ruhiyyəsini özündə yaşadır. Şeir sanki Rusiyaya, rus mühitinə bir ittihamdır. Sərxoş olan, sərxoş yürüyən Rusiya! Araq içməyi mənə də sən öyrətdin. Bloka

da sən içki verdin, Yesenini də sərxoş etdin. Sən məyər özün, Yox, sən sərxoşsan!

"Lenin yolu" qəzeti 15 iyul 1966-ci il sayında şairin "Vəsiyyət" şeirini çap etmişdir.

1988-ci ildə Mahaçqalada Temur Akmanbetovun ön sözü ilə Qamzat Acıgəldiyevin "Urlanqan suyub" (Oğurlanmış sevgi) adlı şeirlər toplusu çap olunmuşdur (Suyunova, 2006: 237-238).

Anvarbıy Ötey ulu Kultayev (07 iyul 1940, Dağıstan Respublikası Noqay rayonunun Günbatar kəndi). 1965-ci ildə Qaraçay-Çərkəz Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirmiş, "Lenin yolu" qəzetində işləmişdir. "Yolda" adlı ilk şeir kitabını 1966-cı ildə Çerkessk şəhərində çap etdirmişdir. 12 kitabı yayınlanmış, "Qarşılaşma", "Halallıq", "Sənin haqqında nəğmə söyləyirəm", "Gözəl günlər", "Öylə vaxtı", "Çoban" və b. şeir, "Nərdivanlar" nəsr kitablarını nəşr etdirmişdir.

Uşaqlar üçün də şeirlər və nəsr əsərləri yaradan Anvarbıy Kultayev, Korney Çukovskidən, Samuil Marşakdan, Mixail Prişvindən, Arkadi Qaydardan, Qaysın Quluyevdən, Həmzət Sadasadan, Rəsul Həmzətovdan, Anvər Acıyevdən, Süleyman Staliskidən, Suqru Uvaysovdan, Mirzı Davudovdan və b. tərcümələri ilə də ana dilinin zəngin söz xəzinəsini ortaya qoymuşdur.

Keldixan İsa qızı Kurmatova (16 iyul 1944, Qaraçay-Çərkəz Muxtar Vilayətinin İkon Xalk kəndi-23 fevral 2003). Kəndlərindəki məktəbdə oxumuş, onun ədəbiyyata gəlməsində atasının söylədiyi nağıl, tapmaca, dastan və yırların rolu böyük olmuşdur. 1962-ci ildə "Lenin yolu" qəzetində ana dilində "Anama" şeirini çap etdirmişdir.

1963-cü ildə məktəbi bitirib kənd kitabxanasında işləməyə başlamış, bir il sonra isə onu Moskvadakı M.Qorki adına Ədəbiyyat İnstitutunda qiyabi oxumağa göndərmişlər. Həmin ildən "Lenin yolu" qəzetində çalışmış, şeir və məqalələrini də orada çap etdirmişdir. 1966-cı ildə Çerkesskdə "Şabden" (Novruzgülü) kitabı işıq üzü görmüşdür. Moskvada və bölgədə çap olunan jurnallar və toplularla sıx əməkdaşlıq etmişdir. Ukraynada, Türkmənistanda, Qaraqalpaqstanda, eləcə də Rumıniyada, Bolqarıstanda, Türkiyədə və b. ölkələrdə əsərləri çap olunmuşdur.

1969-cu ildə Çerkesskdə "Sonqı yapıraklar" (Sonuncu yarpaqlar) kitabını çap etdirən Keldixan Kurmatova 1971-ci ildə ədəbiyyat institutunu əla qiymətlərlə başa vurmuş, həmin il də rus dilində kitabı nəşr olunmuşdur. İki il sonra isə həmin kitabı Moskvada "Sovremennik" nəşriyyatı çap etmişdir.

Keldixan Kurmatovanın tanınmış noqay yazıçısı İsa (İsmayıl) Kapayevlə ailə qurması onların hər ikisinin yaradıcılığına müsbət təsir göstərmişdir.

1975-ci ildə ana dilində "Qılqpuz" kitabını çap etdirən şairə bir il sonra Rumıniyada keçirilən Beynəlxalq şeir festivalında iştirak etmək nəsib olur. Keldixan Kurmatova orada 19-cu yüzildə Rusiyanın Qafqaz savaşı zamanı Rumıniyaya qovduğu noqaylarla görüşür. Geri döndükdən sonra onların taleyindən bəhs edən "Tamız" (Od qoruyucu) poemasını yazır.

1990-ci ildə Sov.İKP-nin 28-ci qurultayında noqayların acı taleyindən, xalqının kasıb və miskin yaşamasından söz açır. 1995-ci ildə Keldixan Kurmatovaya Qaraçay Çərkəz xalq şairi adı verirlər.

Keldixan Kurmatovanın sağlığında "Altın oka" (Qızıl sap) (1985), "Tamız" (1988), "Tanı manında" (Dan anında, dan qızaranda) (1996), "Qızıl şılma" (2000), "Ömürlikten atlı" (Əbədiyətdən gələn atlı) (2000) kitabları çap olunmuşdur (Suyunova, 2006: 241-244).

Qədriyə (Kadriya) Orazbay qızı Temirbulatova (18 dekabr 1948, Dağıstan Respublikası Tepekli-Məktəb-30 iyun 1978, Mahaçkala, Dağıstan). Gənc yaşlarında faciəli ölümü ilə noqay xalqının

yaddaşında dərin iz buraxmışdır. Çoban ailəsində doğulan Qədriyə kəndlərindəki orta məktəbi bitirdikdən sonra, 1965-ci ildə Həmzət Sadasa adına Mahaçqala Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olmuşdur. "Şöllük mayakı" (Çöllük mayağı) adlı rayon qəzetində çap olunan ilk şeiri Dağıstan Yazıçılar İttifaqının diqqətini çəkmişdir. "Komsomolets Daqestana", "Daqestanskaya Pravda", qumuq türkcəsində çap olunan "Lenin yolu" qəzetlərində, qumuq türkcəsində çıxan "Dostluq" jurnalında müntəzəm şeir və məqalələrini nəşr etdirən Qədriyəni üçüncü kursdan sonra avar şairi Rəsul Həmzətovun zəmanəti ilə Moskvadakı M.Qorki adına Ədəbiyyat İnstitutunda oxumağa göndərirlər.

Ədəbiyyat İnstitutunun tələbəsi ikən onu SSRİ Yazıçılar İttifaqına üzv qəbul edirlər və yazıları Moskva qəzetlərində çap olunmağa başlayır.

İlk qələm təcrübələri olan "Qumlu tastar şöllüqim", alleqorik "Gələ zaman", "Men tuvqanda" (Mən doğulanda) şeirləri ədəbiyyata xalqını ürəkdən sevən, onun tarixinə və ənənəsinə bağlı istedadlı bir gəncin gəldiyindən xəbər vermişdir. Doğma kəndinə həsr etdiyi "Tereklidə (Dirəkli) üç gün", "Menim xalkıma", "Ayıtdılar" (Dedilər), "Güclü yellər əsdilər çölümdə", "Amzatxanqa", "Almirağa"

və b. şeirində noqay ədəbiyyatına gətirdiyi yeni ifadə vasitələri ilə seçilirdi. O, şeiri şüarçılıqdan uzaqlaşdıraraq poeziyaya klassik Doğu şeirində olduğu kimi dərin fəlsəfi məna vermək istəyirdi.

1971-ci ildə Mahaçqalada ilk şeirlər toplusu olan "Tav danıldan baslanadı" (Dağ düzənlikdən başlanır) nəşr edilir. İki il sonra isə Qədriyə Temirbulatovanın "Yaslık yırları" (Gənclik nəğmələri), "Tav danıldan baslanadı", "Ayındırık yarıqı" (İldırım işığı) və "Yatlablar" (Şeirlər) adlı kitabları çap olunur (Suyunova, 2006: 240). Bu milli azlıqlardan olan gənc bir şair üçün olduqca böyük bir uğur idi.

1975-ci ildə isə Moskvadakı "Molodoy qvardiya" nəşriyyatı Qədriyənin rus dilinə çevrilmiş "Ulıbka lunı" (Ayın təbəssümü) kitabını nəşr edir. Məşhur malkar şairi Qaysın Quliyevin ön söz yazdığı bu kitab müəllifinə böyük uğur qazandırır. Kitabın birinci nüsxəsi gənc şairə Moskvada Gənc Yazıçıların VI Ümumittifaq müşavirəsində təqdim olunur və Dağıstan Komsomolu Mükafatına layiq görülür.

Qədriyə Temirbulatova Qamzat Acıgəldiyevin ana dilində yazdığı şeirləri rus dilinə çevirməklə onu daha geniş aidutoriyada təbliğ etməyə çalışmışdır.

1978-ci ildə Moskvada SSRİ Yazıçılarının qurultayında və Daşkənddə Asiya Afrika Ölkələri şairlərinin forumunda iştirak edən, Mahaçqalada ana dilində "Xayran" (Heyran) kitabı çap olunan Qədriyə həmin ilin iyulunda Kubanın paytaxtı Havanada keçiriləcək 11-ci Ümumdünya Gənclər Festivalına hazırlaşır. Lakin bu ona nəsib olmur. 1978-ci il iyun ayının 30-da, gündüz onun öldürüldükdən sonra yandırılmış meyidini öz evində tapılıb (Suyunova, 2006: 239-241).

Qədriyənin şeirləri "Əsmə saxlan" və "Peşiman yırları" kitablarında toplanmışdır (Suyunova, 2003: 235-243). İsa Söyün ulu Kapayev (16 iyun 1949) noqay ədəbiyyatında araşdırıcı ədib kimi tanınır. Atası Söyün Kapayev noqay ədəbiyyatının görkəmli simalarındandır. 1975-ci ildə "Xurcun", "Berdazi", 1985-ci ildə "Qarmanıstika", "Dünya ömürlü senin gözlerinde" "Reklama" povestlərini, 1982-ci ildə "Vağzal" , 1989-cu ildə "Sülder" romanlarını nəşr etdirmişdir. "Sülder" romanını ikinci cildi 1991-ci ildə oxucuların mühakiməsinə verilmişdir.

Murat Alibek ulu Avezov (02 noyabr 1951, Dağıstan MSSR Noqay rayonu Orta Töbe kəndi). Murad noqay folklorunu yaşadan, onu təbliğ edən bir ailədə doğulmuşdur. Atası Alibek donbura çalaraq noqay əfsanələrini söyləməklə, nənəsi

Bazilet və anası Elbiyke isə tarixi şəxsiyyətlər olan "Suyunbiyke", "Yanbiykey", "Nayman xanın qızı Bayqız" və başqa ağıları söyləməkdə məşhur olmuşlar.

Murad kəndlərindəki səkkizillik məktəbi bitirdikdən sonra Qaraqasdakı orta məktəbdə oxumuşdur. Orta məktəbdə oxuyarkən "Besik" (Beşik) və "Anama" şeirlərini "Şöllik mayakı" qəzetində çap etdirmişdir. Elə həmin qəzet 1969-cu ildə onun Qamzat Acıgəldiyevə həsr etdiyi "Turnalar" poemasını da nəşr etdirmişdir.

1969-1970-ci illərdə Buynaksk şəhərindəki 1 saylı texniki-peşə məktəbində oxuyan Murat oranı bitirib əsgəri xidmətə gedir və Macarıstanda əsgərlik keçirir. 1972-ci ildə əsgəri xidmətdən geri döndükdən sonra bir il Qaraçay Çərkəz Pedaqoji İnstitututunun hazırlıq kursunda oxuyur və həmin ali məktəbin noqay-rus filologiyası fakültəsinə qəbul olunur. Ali məktəbdə təhsilini başa vurub kəndlərində müəllim işləməyə qayıdır.

Müntəzəm olaraq "Şöllik mayakı", "Lenin yolu" qəzetlərində və gənc şairlərə həsr olunmuş toplularda şeirlərini çap etdirir. "Şöllik mayakı" qəzetində müxbir, məsul katib, redaktor müavini, redaktor işləyən Murat Avezov 1990-1991-ci illərdə "Laşın" uşaq jurnalına, 1991-1992-ci illərdə uşaqlar

üçün çap olunan “Bayterk” qəzetinə redaktorluq edir. Tereklidəki noqay teatrına rejissorluq edən Murat Avezovun “Es” (Yaddaş) adlı ilk şeir kitabı 1982-ci ildə Mahaçqalada çap olunmuşdur.

Sovetlərin çöküşü zamanı yaradılan “Birlik” adlı noqay ictimai-siyasi təşkilatına rəhbərlik edən Murat Avezov Türk xalqlarının toplantılarında da fəal iştirak edir. Beynəlxalq İmaməddin Nəsimi mükafatının qızıl medalını və Dağıstan Respublikasının Əməkdar Mədəniyyət İşçisi adını alan Murat Avezovun “Aytıs” (Yarış) (1992), “Masaklar” (Sünbüllər) (1992), “Bir uvıs topırak, bir uvıs suv” (Bir ovuc torpaq, bir ovuc su) (2002), uşaqlar üçün yazdığı “Bayterek” nağıl kitabı (2001) və b. kitabları çap olunmuşdur. (Suyunova, 2006: 244-246)

Farida Muxambet qızı Sidaxmetova (22.11.1966, Stavropol Diyarı Neftekum rayonunun Arteziyan Manqit kəndi). Farida Sidaxmetovanın şeirləri haqlı olaraq “müasir Noqay poeziyasının inciləri” adlanır.[2] Fəridəni 8 yaşınadək nənəsi Avana tərbiyə etmişdir. Bölgədə məşhur bozlavçı (ağıçı) kimi tanınan Avana haqqında həmyerliləri “o

[2] **Мир Фариды Сидахметовой.**

https://stavropol.bezformata.com/listnews/mir-faridi-sidahmetovoj/52561394/

daşı da ağladar" deyirlərmiş. Nənəsindən çoxlu folklor nümunəsi öyrənən Farida 1978-ci ildə Qədriyənin faciəsindən üzülür. Həmin günlərdə nəinki noqay ailələrində, qəzetlərdə, yaradıcı ziyalılar arasında, hətta xarici radiolarda da Qərdiyənin faciəsindən və gənc şairənin şübhəli ölümündən söz gedirdi.

Qədriyənin ölümü ilk günlər acı və qəzəblə qarşılanırsa, əsas diqqət onun faciəsinə yönəlirsə sonra bu diqqət onun yaradıcılığına yönəlir. 1981-1985-ci illərdə Çeçen-İnquş MSSR-in Qudrumes şəhərindəki pedaqoji texnikumda oxuyanda, yəni 1983-cü ildə rusca yazdığı ilk şeirini "Krasnoye znamya" qəzetində çap etdirir. Noqay türkcəsində yazılmış kitabları da ilk dəfə texnikumda oxuyarkən Dağıstandan gəlmiş tələbə yoldaşlarında görür. Onların vasitəsilə ana dilində yazılmış kitablarla və kitabların müəllifi olan noqay yazıçı, şair və alimlərilə tanış olur.

Noqay türkcəsində yazdığı ilk şeirini isə 1986-cı ildə "Lenin yolu" qəzetində nəşr etdirir. 1986-cı ildə Stavropol Diyarının Qaraçay Çərkəz Muxtar Vilayətindəki dövlət pedaqoji institutunun ibtidai metodika fakültəsinə daxil olur. Elə həmin il də birinci dəfə Dağıstanda noqaylar yaşayan rayona gəlir. 1988-ci ildə internat məktəbdə ibtidai sinif

müəlliməsi işləyən gənc şair Çerkesskdəki radionun noqay türkcəsində veriliş hazırlayan redaksiyası ilə əməkdaşlıq edir. Bu ona noqay yazıçı, şair və alimlərilə yaxından tanışlığa imkan yaradır.

1990-cı ildə Mahaçqalada çap olunan "Yaslardın davısı" (Gənclərin səsi) toplusuna onun da noqay türkcəsində yazdığı şeirlər daxil edilir. Ana dilində ilk şeir kitabı isə 1991-ci ildə "Ak örnək" (Ağ naxış) adı ilə Çerkesskdə, "Priznaniye" (Etiraf) kitabında toplanmış rusca şeirləri isə 1997-ci ildə Moskvada çap olunur. Farida xanım "Şölliqim" (Çöllüyüm) şeirində deyir:

Yollarımda yellər essin, kum essin,
- *Yollarımda yellər əssin, qum əssin,*
Sokağımdı kar boratsın, korkpayman.
- *Küçəmdə qar-boran olsun, qorxmaram.*
Noqay şölim-ak niyetim, tüz esim,
- *Noqay çölüm, xoş niyyətim, düz ağlım,*
Sağa bergen sözlerimnen men tayman.
- *Sənə verdiyim sözlərimdən mən dönmərəm.*

Farida Sidaxmetova noqay folklorunun, şair və yazıçılarının əsərlərinin rus dilinə çevrilməsilə də ardıcıl məşğul olur. O, "Yedigey", "Süyimbikedin bozlavı" (Süyimbikenin ağısı) və 15-ci yüzildə yaşamış Şal Kiyizin şeirlərini rus dilinə poetik tərcümə edərək nəşr etdirir. 2004-cü ildə isə özünün

ana dilində yazdığı şeirlərini “Asıqaman alal sözler aytpaqa” (Məhəbbət sözləri deməyə tələsirəm) adlı kitabında toplamışdır (Suyunova, 2006: 246-249).

* * *

1970-1990-cı illərin noqay poeziyası Qədriyə (Kadriya) Temirbulatovanın, Karaçay-Çərkəz xalq şairi Keldixan Kumratovanın, Nəsimi mükafatı laureatı Murat Avezovun, Askarbiy Kireyevin, Muxarbiy Aubekigyevin, Farida Sidaxmetovanın, Salimat Maylibayevanın, Maqomatali Asanovun, Maqomet Kosayevin, Arqentin Ayıbovun, Srajdin Batırovun və b. əsərləri sayəsində inkişaf edir. Onlar şeirlərində tarixi mövzulara daha duyarlı yanaşır, epik və lirik dastan janrını mükəmməlləşdirirlər. Noqay poeziyası ənənəvi janrlarını, klassik ədəbiyyatdan gələn ifadə vasitələrini yaşatmaqla yanaşı Rus və Avropa ədəbiyyatının təsiri ilə inkişaf edir, zənginləşirdi.

1970-1990-cı illərdə sosial, əxlaqi problemlər (Maqomet Kirimov) gündəmə gətirilir, epik və lirik xalq dastanları əsasında pyeslər (Askerbiy Kireyev) yazılır. Yelena Bulatıkovanın (1937), Ajdaut Naymanovun (1942) və b. hekayə, povest və romanları çap olunur. Son illərdə noqay türkcəsində yeni qəzet və jurnallar nəşr olunmağa başlamışdır.

Uşaqların kiçik yaşlarından ana dilini dərindən öyrənmələri üçün "Mametekey" adlı jurnal da nəşrə başlamışdır. Bu jurnalın redaktoru tanınmış ədib Askarbiy Kireyevdir.

Sonuc

Sovetlər Birliyinin çöküşündən yararlanan noqaylar coğrafi olaraq "dağılmış" soydaşlarının ictimai və ədəbi qüvvələrini birləşdirməyə çalışırlar. Bu məqsədlə 1989-cu ildə Rusiya Yazıçılar İttifaqının Noqay Yazıçılar Birliyi yanında "Birlik" ictimai-siyasi təşkilatı yaradılır. Lakin bu təşkilat hələ də xalqın tam istəyincə işləyə bilmir. Bunun bir səbəbi təşkilat üzvlərinin içindən imperiya qorxusunun çıxmamasıdırsa, o biri səbəbi də Rusiya Federasiyasının xüsusi xidmət orqanlarının bölücülük fəaliyyətidir. Bütün bunlara baxmayaraq, noqay ədəbiyyatında sürətli bir yeniləşmə gedir. Bu yeniləşmə tarixə obyektiv yanaşma, milli miraslara yiyə çıxma, milli özünüdərk, qapalı Sovet məkanından çıxıb çoxçalarlı dünya sivilizasiyasına canatma şəklində özünü göstərir.

Noqayların aşağıdakı qəzet, jurnal və topluları nəşr olunur: Mahaçqalada 1973-cü ildən "Tuvkan erim" (toplu), 1989-cu ildən "Lasın" uşaq jurnalı,

“Şöllik mayakı” qəzeti, 1991-ci ildən Çerkesskdə “Polovetskaya luna” jurnalı, “Noqay davası” qəzeti, “Qıpçaq Ay” (noqay, qaraçay-malkar dialektlərində və rusca) yayımlanır. Maliyyə sıxıntısından bu nəşrlərin bəziləri davamlı çıxmır, bəziləri bağlanır, yeni adda qəzet və jurnallar da yayımlanmağa başlayır (Kalafat, 1999).

ЛИТЕРАТУРА НОГАЙСКИХ ТЮРКОВ – В ПРОШЛОМ И В НАСТОЯЩЕМ

Резюме

В последние годы некоторые ногайские исследователи считают, что история литературы берет свое начало от Орхано-енисейских памятников. Хоть и говорится о том, что с середины тысячелетия на территории Ногайского государства были созданы устные и письменные художественные образцы, но предпочитаются художественные произведения, созданные в XX веке.

В устном народном творчестве читающих дастан называют жиравами, бахшами рассказывающими миф и легенды называют эртегишами, а говорящих пословицы и предания величают шешенами. Ногайцы считают своими

литературные произведения кыпчаков. Известными Ногайскими дастанами считаются: “Ахмет Адиль улу”, “Эдигей”, “Копланлы батыр”, “Мамай”, “Шора Батыр”, “Эдиль Солтан”, “Кырк Ногай батыры”.

В 1830-ом году поляк, Александр Ходзко дастан “Эдигей” записал у Астраханского ногайца сказителя Али Шарапова, и в 1842-ом году издал его в Лондоне.

Собрание ногайского фольклора берет свое начало с 19 века. Сибра у ногайцев считается основоположником современной письменной литературы, который писал стихи в стиле народной словесности. В 15-16 веках после Сибра жили такие поэты, как Париздак Шабан улу (у кыпчаков слово “оглы” пишется и говорится как слово “улу”), Шал Кыйыз Тилениш улу, Асан Кайгулу. Домамбет Азайлы, Жиренше Шешен, Кази Туан Суюнишин Шабан и др. Несмотря ни на воины, ни на изгнание, ни на аресты, ни на высылки последователи традиционной поэзии такие как Фахраддин Абушахман улу (1808-1883), Садыкбай Алкайдар (1811-1876), Абдулхалыг Абдулрашид улу (1858-1913), Аслан Шабан улу (1858-1912), Баймырза Манап улу (1888-1918), Аджы Мола

Ногман улу (1884-1930), Тарам Гумуг улу, Менкилишейх Исмаил улу, Абдулкадыр Бекбай улу йырлау (стихи), дастан (поэма), толкау (монолог), мактау (ода), мунклау (причиания) и другие продолжили свою деятельность в других жанрах создали богатейшую базу для новой ногайской литературы.

В советскую эпоху литература ногайских тюрков обрело новое направление. Под видом обновления началось подражание русской литературе и присвоение себе европейских методов. С одной стороны это послужила политизации литературы, разобщению языка письменности ногайцев с языком соседних тюркских народов, с другой же стороны способствовало развитию литературного языка. Новое поколение пришедшие в литературу в лице Басир Абдуллина (1892-1937), Мусы Курманалиева (1898-1979) и Зейт Кайбалыева (1898-1979) писавшие о классовой борьбе, которая была ведущей темой того периода, попытались обновить традиционную поэзию. Пьесой “Фатимат” написанная Асаном (Хасан) Булатиковым (1907-1937) в 1936-ом году, положила основу ногайской драматургии. Вместе с тем, с романом “Враг повержен”

Басира Абдуллы (1892-1937), написанная 1932-ом году, роман “Батрак” (1934), роман “Время падения труда”, все эти произведения сформировали ногайскую прозу.

Литературный и научный центр ногайцев начинает свою деятельность в Карачаево-Черкесской Автономной области и в Дагестанской Автономной Республике. Из этих центров вышли такие поэты и писатели, как в Карачаево-Черкессии Авдулрагим Умаров (1867-1933), Абдулхамит Джаныбеков (1879-1955), Фазил Абдулджалилов (1913-1974), Салехжан Заляндин (1924-1973), Сеюн Капаев (1927-2001), Магомет Киримов (1927), Джанболад Туркменов (1935), Аскербий Киреев (1938), Гюльджамал Мирзоева (1940), Келдихан Кумратова (1944-2003), а в Дагестане Муса Кур-маналиев (1894-1972), Зеит Кайбалиева (1898-1979), Куруптурсун Оразбаев (1924-1990), Гамзат Аджыгелдиев (1939-1966), Анварбек Култаев (1941), Кадрия Темурбулатова (1948-1978) и др. поэты и писатели.

Народные поэты Карачаево-Черкесии Келдихан Курматова, лаурят премии им.Насими Мурат Авезов (1951), Фарида Сидахматова (1966), Асгербий Кириев, Иса Капаев, Анвербий

Култаев, Бекбийке Кулунчакова, Мухарбий Айбекижов и др. с 1970-1990 г.г. имели заслуги в развитии ногайской литературы.

Бекбийке Кулунджакова (1946), Валерий Казаков (1948), Иса Караев (1949) и др. отдалившись от представления литературы как средство рупора пропаганды Коммунистической партии, сделали акцент на освещение внутреннего мира человека.

Ключевые слова: Ногайцы, литература Кыпчак-ногайцев, фольклор, дастан "Эдигей", современная литература.

LITERATURE BY NOGAY TURKS IN PAST AND PRESENT

Abstract

Some Nogay researchers claim the history of their literature start from Orkhon-Yenisey monuments. Although it is mentioned that oral and written literary works dating back to Middle Ages were created on the Nogay territory, yet the literary works created in the twentieth century still get more attention.

The Nogays who name the person as jirav, bahshi who tell sagas, as ertegishi who tell myths

and fables and as sheshen who tell proverbs and tongue-twisters declare themselves the owner of the literary works created by Kipchaks. “Ahmet Adil Ulu”, “Edigey”, “Koplanli batir”, “Mamay”, “Shora Batir”, “Edil Soltan”, “Kirk Nogay batiri” are outstanding sagas of Nogay literature. In 1830 Alexander Khodzko, polish by nationality, collected the saga “Edigey” from Ali Sharapov who was a Nogay from Hashtarkhan and published it in 1842 in London.

The researchers believe the Nogay folklore started being collected in the nineteenth century. Poet Sibra who wrote in the style of folk poem is considered to be one of the founders of modern written Nogay literature. After Sibra such poets as Parizdak Shaban ulu, Shal Kiyiz Tilenish ulu, Asan Kaygulu, Domambet Azayli, Jirenshe Sheshen, Kazi Tuan Suyunishin, Shaban and others lived in the fifteenth-sixteenth centuries. Despite forced migrations, wars, imprisonments and exiles poets such as Fakhreddin Abushahman ulu (1808-1883), Sadikbay Alkaydar (1811-1876), Abulhalik Abdulrashid ulu (1858-1913), Aslan Shaban ulu (1858-1912), Baymirza Manap ulu (1888-1918), Aji Molla Noghman ulu (1884-1930), Taram Gumug ulu, Menkilisheyh Ismayil ulu, Abdulkadir Bekbay

ulu and others continued with the traditional poetry and created rich base for the creation of new Nogay literature through writing in the such genres as yirlau (poem), saga, tolkau (monologue), maktau (ode), munklau (elegy).

The Soviet period turned a new page in Nogay literature. Imitation of Russian literature under the name of mastering European methods and modernization began during that period. Though this process led to politicization of Nogay literature and separated it from neighboring Turkic languages, at the same time it played an important role in the development of Nogay literary language. Young people like Absulxamit Canıbekov (1879-1955), Basir Abdullin (1892-1937), Musa Kirmanaliyev (1894-1972) and Zeit Kaybeliyev (1898-1979) who newly entered the world of literature tried to actualize class struggle and renew traditional poetry. Asan (Khasan) Bulatikov (1907-1937) founded drama with his play "Fatimat" in 1936. Alongside with this, the works by Basir Abdulin such as "Dushmen yenildi" (The enemy is defeated) and "Batrak" which were written in 1932 and "Emeyin yendiyi zaman" (When labor defeats) which was written in 1934 formed Nogay prose.

Literary and scientific centers of the Nogays started functioning in the Republics of Karachay-Cherkez and Daghistan. Poets and writers such as Abdulrehman (1867-1933), Absulxamit Canıbekov (1879-1955), Fazil Abduljelilov (1913-74), Salekhjan Zalyandin (1924-73), Soyun Karayev (1927-2001), Magomet Kirimov (1927), Janpolat Turkmenov (1935), Askerbiy Kireyev (1938), Guljamal Mirzayeva (1940), Keldikhan Kumratova (1944-2003) emerged in Karachay-Cherkez and Musa Kurmanaliyev (1894-1972). Zeit Kaybaliyev (1898-1979), Kuruptursun Orazbayev (1924-1990), Gamzat Ajigeldiyev (1939-1966), Anvarbek Kultayev (1941), Kadriya Temirbulatova (1948-1979) and others emerged in Daghistan.

The 1970-90s poetry exquisitely treats historical topics in the works by such Karachay-Cherkez folk poets as Keldikhan Kumratova, Murat Avezov (1951) -laureate of Nesimi, Kadriya Temirbulatova, Askarbiy Kireyev, Muharbiy Aubekigyev, Ajdat Naymanov (1942), Farida Sidahmetova (1966), Salimat Maylibayeva, Magamedali Hasanov, Magamet Kosayev, Argrntin Ayibov, Srajdin Batirov(1951-1992) and frames up epic and lyrical saga genres. The revival of traditional genres and

classical elements is an ongoing process in Nogay poetry.

Such professional poets and writers as Bekbiyke Kulunchakova (1946), Valeri Qazaqov (1948), Isa Garayev (1949) tried to present literature as the way of bringing light into the inner world of humans by keeping it away from sloganism and publicity of the communist party.

Key words: The Nogays, Kipchak-Nogay literature, folklore, epos "Edigey", modern literature.

Qeyd: ***"Noqay türklərinin ədəbiyyatı keçmişdə və indi" məqaləsi Əli Şamilin "Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı" kitabının (2012, "Nurlan" nəşriyyatı) 185-228-ci səhifəsindən alınmışdır.***

REDAKTORLARDAN[3]

Azərbaycanın quzeyində, Rusiya Federasiyasının tərkibindəki Dağıstan Respublikasında yaşayan 30-dan çox xalq və etnik qrupdan biri də qumuqlardır. Onların adı Azərbaycan türkcəsində qumuq, Türkiyə türkcəsində kumuk, rus dilində кумы́к, ingilis dilində kumyk, fars dilində isə كوموك kimi, özləri isə къумукъ yazırlar.

1939-cu ildə SSRİ-də yaşayan müsəlman xalqları üçün kiril qrafikası əsasında yeni əlifbalar hazırlandı. Bu, türk xalqlarının bir birinin yazısını oxumasını çətinləşdirdi. Qumuqların istifadə etdikləri kiril qrafikalı əlifbada "k" və "kъ" hərfləri vardır. Qumuq sözü də "къ" hərfi ilə yazılır. Bu hərf Azərbaycan türkçəsindəki [ka] səsinə uyğun gəlir. Qumuqlar toplu halda yalnız Dağıstanda deyil, Alaniya (Quzey Osetiya) Respublikasının Qızılyar, Kiçik Yurd, Kiçik Malqobəy, İçkeriya (Çeçenistan) Respublikasının Borağan, Bammatyurd, İstisu kənd və qəsəbələrində, eləcə də Türkiyə Cümhuriyyətində yaşayırlar. Gəlmə rusları nəzərə

[3] Məqalə Aynur Qəzənfərqızının "Azərbaycan-qumuq folklor əlaqələri" kitabına (Bakı: "Elm və təhsil" nəşriyyatı, 2018, s. 5-10) Əli Şamil və Afaq Xürrəmqızının yazdığı "Redaktorlardan" başlıqlı önsözdür.

alınmazasa, Qumuqlar əhalinin sayına görə Çeçenistanda ikinci, Alaniya (Quzey Osetiya) Respublikasında isə osetinlərdən (alanlar), inquşlardan və ermənilərdən sonra gələn ən böyük etnik qruplardan biridir.

Bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra xalqlara azadlıq verəcəklərini vəd etsələr də, çar Rusiyasının sərhədlərini bərpa etməyə başladılar. Qumuqlar yaşayan bölgəni də üç muxtar respublika arasında böldülər. Beləcə onların eyni mərkəzdən idarə olunmasını, mədəniyyətlərinin, ədəbiyyatlarının, təhsil ocaqlarının eyni yerdən idarə olunmasını əngəlləmiş oldular. Hazırda Rusiya Federasiyasında yaşayan qumuqların sayı 503,1 mini keçir. Onun da 431,7 mini Dağıstan Respublikasında yaşayır (https:/ru.wikipedia.org/wiki/Кумыки).

Çar Rusiyası Quzey Qafqazı və Dağıstanı işğal etdikdən sonra müstəmləkəçilərə boyun əyməyən qumuqları sürgün etməyə və köçürməyə başladı. 18-ci yüzillikdə qumuqların ailəliklə Osmanlı dövlətinə köçü tək-tək hallarda baş verirdisə, 19-cu yüzildən etibarən bu köçlər kütləvi xarakter aldı. 19-cu yüzlliyin 60-cı illərində Şeyx Şamilin rəhbərlik etdiyi müridizm hərəkatı çar Rusiyası tərəfindən qəddarlıqla yatırıldıqdan sonra Quzey Qafqazın bir

çox xalqları kimi qumuqlar da toplu şəkildə köçürüldülər. Osmanlı dövlətinə köçürülən qumuqların şəhərlərdə yerləşənlərəri dil, din, adət-ənənə yaxınlığına görə yerli əhali ilə qaynayıb-qarışaraq assimilyasiya olundular. Üçqozən, Quşoturağı, Yavu, Ataköy, Doğan, Əzizə, Keyikkırı kəndlərində yaşayanlar isə dillərini, adət-ənənələrini qoruyub saxlaya bildilər.

Çar Rusiyası və Sovetlər Birliyi zamanında minlərlə qumuq ailəsi Sibirə və Türküstana (Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistan) sürgün edilsələr də, orada kənd salıb toplu halda yaşamalarına imkan verilmədi.

Bolşeviklər 1917-ci il oktyabrın 25-də (yeni təqvimlə noyabrın 7-də) silah gücünə hakimiyyəti ələ aldıqdan sonra Rusiya ərazisindəki xalqları öz tərəfinə çəkmək üçün onlar öz dillərində məktəb, teatr açmalarına, qəzet və jurnallar, kitablar nəşr etmələrinə icazə vermişdi.

Quzey Qafqazda yaşayan çeçenlər, kabardinlər, osetinlər, inquşlar, qaraçaylar, balkarlar, abxazlar, çərkəzlər üçün muxtar respublika yaradılmışdı. Bölgədə qumuqların sayı çeçenlərdən az olsa da, kabardin və osetinlərlə təxminən eyni sayda, inquşlar, qaraçaylar, balkarlar, abxazlar və çərkəzlərdən çox olsalar da, qumuqlar üçün nə

muxtar respubulika, nə muxtar vilayət, hətta milli mahal da yaradılmadı. Əslində, bolşeviklərin demokratik görünən bu hüquqlarının arxasında müstəmləkəçiliyin "parçala, hökm sür!" siyasəti dururdu.

1920-ci illərdə qumuqların (eləcə də Dağıstanda yaşayan avarların, ləzgilərin, darginlərin, tatların və b.) milli kadr hazırlamaq, kitab, qəzet-jurnal nəşr etmək üçün maddi-texniki imkanları yetərincə olmadığından onlar üçün Bakıdakı ali məktəblərdə, texnikumlarda xüsusi kurslar açılmış, gənclərin burada təhsil almalarına şərait yaradılmışdı. Həm də onların kitablarının, qəzet və jurnallarının bir qismi Bakıdakı 3-cü "İnternasional" mətbəəsində nəşr olunurdu. Dağıstan xalqları yüzillər boyu azərbaycanlılarla eyni mədəni mühitdə yaşadıqlarından bir-birləri ilə sıx bağlı idilər. Rusiya bölgəni işğal etdikdən sonra bu bağların qırılması üçün müxtəlif tədbirlər planlaşdırıb həyata keçirdi. Sovetlər Birliyi dönəmində isə çar Rusiyasını planlaşdırdığı və tam həyata keçirə bilmədiyi məsələləri beynəlmiləlçilik, qardaşlıq, bərabərlik, sosial ədalət və s. şüarlarla qısa müddətdə həyata keçirdi.

Belə ki, 1920-ci illərdə Dağıstan xalqlarının öndərlərindən bir qrupu Moskvanın uzaq olduğunu,

bölgənin iqtisadi, mədəni baxımdan Azərbaycanla sıx bağlı olduğunu əsas götürərək Dağıstan Muxtar Sovet Sosialist Respublikasının Rusiya Federasiyasının tərkibindən çıxarılaraq Azərbaycan Sovet Sosialist Respublikasının tərkibinə verilməsini istədilər. Sözdə çarizmin yeritdiyi müstəmləkəçilik siyasətinə düşmən olduğunu elan edən, əməldə isə velikorus siyasətini davam etdirən bolşevik hakimiyyətini bu məsələ ciddi narahat etdi. Milli və dini ruhlu kadrları sıxışdırıldı, Azərbaycandan Dağıstana işləməyə göndərilənlər bölgədən sürgün edildi. Bu da Dağıstan xalqlarının, xüsusən də qumuqların təhsilinin, mədəniyyətinin inkişafına, folklorunun toplanmasına ağır zərbə vurdu.

Qumuqların soykökünü araşdıran A.Acıyev yazır ki, bugünkü qumuq xalqının formalaşmasında hunlar, savirlər (sabirlər), barsillər, bulqarlar, xəzərlər, qıpçaqlar və b. türk tayfaları iştirak etmişlər. Azərbaycan tarixinə nəzər salsaq həmin tayfaların Azərbaycan türklərinin soykökünün formalaşmasında də iştirak etdiyini görərik.

Azərbaycan və qumuq türkləri yüzilliklər boyu eyni dövlətlərin tərkibində yaşamışlar. Müxtəlif dövrlərdə baş verən savaşlarla, ictimai-siyasi vəziyyətlə əlaqədar onlar ayrı-ayrı dövlətlərin tərkibində yaşasalar da aralarındakı mədəni, iqtisadi

əlaqələr kəsilməmişdir. Hər iki xalqın soykökündə eyni türk tayfaları iştirak edibsə, eyni dinə inanıblarsa, eyni dövlətin tərkibində yaşayıblarsa demək onların mədəniyyətlərində, dillərində, folklorunda da bir oxşarlığın olması təbiidir.

Azərbaycan türkcəsini oğuz qrupuna daxil edən araşdırıcılar burada qıpçaq elementinin də güçlü olduğunu, qıpçaq qrupuna daxil olan qumuq türkçəsində də oğuz ünsürünün güclü olduğunu yazırlar. Dağıstanda yaşayan tərəkəmələr haqqında Sapiyət Hacıyeva qaynaqlara dayanaraq olduqca dəyərli əsər ortaya qoymuşdur (Гаджиева, 1961). 1920-ci illərdən sonra aparılan siyasət nəticəsində tərəkəmələrin bir qisminin qumuq, bir qisminin isə azərbaycanlı kimi qeyd edilməyə başlanmışdı. İbtidai təhsilini qumuqca alan tərəkəmələr qumuqlarla qaynayıb-qarışmış, Azərbaycan türkcəsində təhsil alanlar isə azərbaycanlı kimi tanıdılmışdır.

Dediklərimizə misal olaraq Rəsul Rəsulovu göstərə bilərik. Azərbaycan türkü olan Rəsul Mirzə oğlu Rəsulovun adı (1912, Teymurxan-şura şəhəri-1977) qumuq nasirləri arasında ilk sırada çəkilir. Rəsul Rəsulov orta məktəbi Azərbaycan türkcəsində bitirmişdir. Buna görə də Azərbaycanda

gedən ədəbi prosesləri diqqətlə izləmiş, onun içərisində olmuşdur.

Azərbaycanın məşhur şairi Seyid Əzim Şirvani də 10 il qumuq kəndi Axsayda (Yaxsay) yaşayıb, mədrəsə təhsili aldıqdan sonra doğulub boya-başa çatdığı Şamaxı şəhərinə qayıdıb. O, bir neçə Doğu məmləkətlərini gəzib, biliyini və dünyagörüşünü artırdıqdan sonra vətənə dönmüş xalqını maarifləndirməyə çalışmışdır. Nə yazıq ki, cahil həmvətənlilərinin nadanlığında ömrünü faciəli şəkildə başa vurmuşdur.

Azərbaycanın məşhur şairlərindən Almas İldırımın (1907-1952), Maqsud Şeyxzadənin (1908-1967) də ömürlərinin müəyyən dövrləri Dağıstanla bağlı olmuşdur. Dağıstandan Azərbaycana gələn və burada yaşayan qumuqlar yerli xalqlarla elə qaynayıb qarışmışlar ki, illər keçəndən sonra onların qumuq olduğu unudulmuşdur. Bu qaynayıb-qarışma hər iki xalqın folkloruna öz təsirini göstərməyə bilməzdi.

1930-cu illərdə "pantürkizmə qarşı mübarizə" adı altında SSRİ-nin hər yerində olduğu kimi Dağıstanda da aydınlara təzyiq və təqiblər başladı. Qumuqların barmaqla sayıla biləcək araşdırıcıları, eləcə də yeni yetişməkdə olan aydınları 1937-ci il repressiyasının qurbanı oldu. Dağıstanda yaşayan

xalqlar arasında ünsiyyət dili olan və rəsmi qanunlarla təsdiq edilən qumuq dili planlı şəkildə rus dili ilə əvəzləndi. İkinci Dünya Savaşında minlərlə azərbaycanlı və qumuq gəncinin ölümü, şikəst olması Azərbaycanda qumuq folklorunun, mədəniyyətinin, ədəbiyyatının öyrənilməsinə ağır zərbə vurdu.

Sovet İttifaqı Kommunist Partiyasının 1956-cı ildə keçirilən 20-ci qurultayında rejimin bütün günahları İosif Stalinin adına yazıldı. İosif Stalinə qarşı hökumətin apardığı "şəxsiyyətə pərəstiş" kampaniyası ölkədəki sərt rejimdə bir yumşalma ab-havası yaratdı. Bundan istifadə edən Azərbaycan aydınları 1959-cu ildə "Dağıstan ədəbiyyatı antologiyası" kitabını nəşr etdirdilər. Kitab folklora həsr edilməsə də, oradakı nəsr və nəzm nümu-nələrində Dağıstanda yaşayan xalqların folklorundan istifadə edilmişdi.

"Dağıstan ədəbiyyatı antologiyası" kitabının nəşri Azərbaycanla Dağıstan arasındakı ənənəvi ədəbi, mədəni əlaqələrin yenidən dirçəldilməsinə bir cəhd idi. Lakin Moskvanın gizli göstərişləri xalqlar arasındakı birbaşa əlaqələri zəiflətdi.

Sovetlər Birliyinin əsarətində olan xalqların birbaşa ədəbi-mədəni əlaqələr qurması məhdud-laşdırıldı. Əsasən həmin xalqların rus dilinə

çevrilmiş əsərlərinin ana dillərinə çevirməsinə icazə verildi. Kitabların nəşrinin planlaşdırılmasına Moskvadan nəzarət edildiyindən Azərbaycanda da qumuqların, özbəklərin, qazax-qırğızların, tatar-başqırdların, türkmənlərin və b. türk xalqlarının folklor mətnlərinin, ədəbi-bədii əsərlərinin orijinaldan tərcüməsi arxa plana keçdi. Öz inadkarlıqları ilə bu işlə məşğul olan müəlliflərin sayı da azaldı.

Sovetlər Birliyi çökdükdən sonra soykökümüzü araşdıranların sayı surətlə artdı. Mətbuat üzərində nəzarət götürüldüyündən, yeni qəzet və jurnallar nəşr edildiyindən türk xalqları haqqında yazan müəlliflərin sayı çoxaldı. Onların böyük əksəriyyəti peşəkar mütəxəssislər deyil, həvəskarlar idi. Ona görə də yazılarda bir pafos, elmi yanaşmadan, qaynaqlardan uzaqlıq hiss edilirdi. Bu kimi nöqsanlara baxmayaraq mövzunun gündəmə gəlməsində həmin müəlliflərin rolu böyük oldu. Azərbaycan mətbuatında qumuqlar, onların tarixi, bugünkü mübarizəsi haqqında məqalələr yazıldı, radio və televiziya verilişləri hazırlandı.

Beləcə yeni bir mərhələnin başlanğıcı qoyulmuş oldu. Azərbaycanda nəinki türk xalqlarının, eləcə də dünya xalqlarının ədəbiyyatının orijinaldan çevrilməsində bir dirçəliş başladı. Gənc araşdırıcılar qonşumuz olan, eləcə də eyni soydan olduğumuz

xalqların tarixi, ədəbiyyatı, mədəniyyəti ilə bağlı yeni araşdırmalar aparmağa, məqalələr, kitablar yazmağa başladı.

Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnsititutunda da həm respublikamızda yaşayan azsaylı xalqların və etnik qrupların, həm də qonşu xalqların folklorunun toplanması, nəşri və elmi şəkildə araşdırılması istiqamətində məqsədyönlü işlər planlaşdırıldı.

Aynur Qəzənfərqızının "Azərbaycan-qumuq folklor əlaqələri" əsəri də bu yöndə atılan ilk addımlardandır. Filologiya elmlər üzrə fəlsəfə doktoru elmi adı almaq üçün yazılmış dissertasiya əsasında hazırlanmış monoqrafiya Azərbaycan-qumuq ədəbi-mədəni əlaqələrini öyrənmək baxımından dəyərli olsa da qüsurları da yox deyil. Bu qüsurlarına baxmayaraq monoqrafiya Azərbaycan folklorunu, mədəniyyətini türksoylu xalqların mədəniyyət konteksində öyrənmək istəyən araşdırıcılar üçün mənbə rolunu oynayacaqdır.

Arzu edərdik ki, AMEA Folklor İnstitunda bu iş genişləndirilsin, Azərbaycan folklorunun türksoylu xalqların, eləcə də qonşumuzda yaşayan avar, ləzgi, dargin, osetin, kabardin, çeçen və b. xalqların folkloru ilə müqaisəli öyrənilməsinə diqqət artırılsın.

UMAN YERDƏN KÜSƏRLƏR: – ŞEYİT XANIM

Qumuq mənşəli azərbaycanlıların sayını bilən yoxdur. Belə bir statistika da aparılmayıb. Həmçinin Göyçə, Borçalı, Naxçıvan, Qarabağ, Şirvan, yaxud Bayat, Əfşar və s. kökənli azərbaycanlıların da sayı bilinmir. Buna ehtiyac da duyulmur. Bu gün Azərbaycanda, keçmiş Sovetlər Birliyində, Türkiyədə Mesxeti türkləri, Axıska türkləri, bəzən də (əsasən Gürcüstanda) Cavaxetiya türkləri ifadəsi gen-bol işlədilir. Amma 20-ci yüzilin birinci yarısında belə, Mesxeti türkləri ifadəsi ayrıca xalq, etnik qrup mənasında, işlədilmirdi. Qarabağ, Naxçıvan, Şirvan, Gəncə və s. kimi bölgə adını bildirirdi.

1872-ci ildə Axalsix qəzasının Azqur köyündə (indiki Gürcüstan respublikasında) doğulan Ömər Faiq 1882-1891-ci illərdə İstanbulda "Fateh" mədrəsəsində "Darüş-şəfəq" məktəbində təhsil almışdır. Sonra Şəkidə, Şamaxıda, Gəncədə, Axalsixdə işləmış, 1906-cı ilin yazında isə Tiflisdə naxçıvanlı Mirzə Cəlillə birlikdə "Molla Nəsrəddin" gülgü dərgisini yayınlatmağa başlamışdır.

Qumuqlar da bax beləcə, Azərbaycan türkləri ilə qaynayıb-qarışmış bir xalq idi. Sovet

hakimiyyətinin ilk onilliklərində − yəni 1920-1930-cu illərdə Bakının ali məktəblərində qumuqlar təhsil alır, basın evlərində kitabları, dərgiləri yayınlanırdı. Nəinki qumuq məktəblərinə, mədəni-maarif ocaqlarına, ümumiyyətlə, Dağıstana kadrların əksəriyyəti Azərbaycandan gedirdi. 20-ci yüzilin ilk onilliklərində Dağıstan xalqlarının həvəskar teatr truppaları əsasən Azərbaycan müəlliflərinin əsərlərini səhnələşdirirdilər. Bu xalqlar arasında ortaq dil də Azərbaycan türkcəsi idi. Dağıstanın Rusiya Federasiyasının tərkibində olmasına etiraz edən, onu Azərbaycanla bir federasiyada görmək istəyən yerli ziyalılar öz fikirlərini açıq söyləyirdilər.

Rusiya öz mövqelərini möhkəmləndirdikcə milli düşüncəli kadrları müxtəlif vasitələrlə sıxışdırmağa başladı. 1930-cu illərdə onlar həbs edildi, sürgünə göndərildi. Azərbaycandan gedib Dağıstanda müəllim işləyən Maqsud Şeyxzadə də Orta Asiyaya sürgün edildi. Sonralar o, Özbəkistanın tanınmış şairi, dramaturqu, ədəbiyyatşünası kimi şöhrət qazandı.

Dağıstanda və Quzey Qafqazda yaşayan çoxdilli xalqlar arasında ortaq danışıq dili olan türkcə sıxışdırıldı, rus dili isə aparıcı ünsiyyət vasitəsinə çevrildi. Az qala hər tayfa öz kökündən

ayrılıb bir millətə çevrilməyə başladı. Xalqlar arasında birbaşa əlaqələr kəsildi. Bütün münasibətlər rus dili və Moskvanın vasitəşiliyi ilə qurulmalı idi. Beləliklə, Azərbaycanın qonşuluğunda yaşayan qumuqlarla birbaşa əlaqəsi qırıldı.

Sovetlər Birliyi laxladıqda xalqların milli oyanışı başlandı. Yeni yaranan, yarımgizli və ya açıq fəaliyyət göstərən təşkilatlar da bir-biriylə birbaşa əlaqə yaratmağa çalışdılar. Azərbaycan Xalq Cəbhəsi də qumuqların "Tenlik" hərəkatı ilə əlaqə yaratdı. Beləliklə, orada baş verənləri diqqətlə izləmək, lazım gələndə kömək göstərmək imkanı qazandıq.

1992-ci ilin mayında Azərbaycanda xalq hərəkatı öncüllərinin hakimiyyəti ələ alması keçmiş Sovetlər Birliyindəki türk xalqları arasında milli hərəkatı gücləndirdi. Onlar Azərbaycana bir arxa, bir dayaq kimi baxmağa başladılar. 1993-cü il martın 21-23-də Antalyada Birinci Türk Dövlət və Topluluqları Dostluq, Qardaşlıq və İşbirliyi Qurultayı keçiriləcəkdi. Oraya Türk xalqlarının milli hərəkat öncülləri də dəvət edilmişdilər. Lakin Moskva onların getməsini əngəlləyirdi. Vəziyyətdən çıxmaq üçün onları Azərbaycana dəvət etdik. Keçmiş Sovetlər Birliyi Cümhuriyyətləri arasında gediş-gəliş sərbəst idi. Milli hərəkat

öncülləri asanlıqla Bakıya gəldilər. Sovet Ordusu Azərbaycandan çıxarıldığından onların Türkiyəyə getməsinə elə bir əngəl törədən qüvvə qalmamışdı. Azərbaycan gömrükçüləri və sərhəd mühafizləri Sovetlər Birliyi daxilində hərəkət üçün verilmiş pasportlara da möhür vurub onları yola saldılar. Türkiyə sərhədçiləri də bunları rəsmi sənəd kimi qəbul edərək giriş möhürü vurdular. Bax beləcə Qazaxıstandan, Özbəkistandan, Qırğızıstandan, Saxadan, Tuvadan, Dağıstandan və b. bölgələrdən olan nümayəndələr də qurultayda iştirak edə bildi.

"Tenlik" Qumuq Xalq Hərəkatını Şeyit Xanım Alişeva, əri və qaynı Salav və Kamil Əliyev qardaşları təmsil edirdilər. Haqqında çox eşitsək də onlarla ilk dəfə Bakıda görüşdük. "Uman yerdən küsərlər" deyiblər qumuq qardaş və bacılarımız da bizdən gileyli idilər. Az qala 50-60 ilin ayrılığının, acısının günahkarı kimi bizi qınayırdılar. Hadisələrdən xəbərsiz adam bu söhbəti dinləsəydi, nə çar Rusiyasının, nə də Sovetlər Birliyinin müstəmləkəçilik siyasətində günah görərdi. Onların danışığından belə çıxırdı ki, bu ayrılığın, soyuqluğun səbəbi Azərbaycan və Azərbaycan türkləri imiş. Azərbaycan istəsəymiş, qumuqların haqqının tapdanmasına, onların başqa xalqlar içərisində əridilməsinə mane ola bilərmiş. Bütün

bunların istəkdən, Azərbaycana olan məhəbbətdən irəli gəldiyini yaxşı bilirdik. Ona görə də söhbəti keçmişlərin üzərində deyil, gələcəkdə birgə görəcəyimiz işlər üzərində qurmağa çalışırdıq.

Şeyit Xanım qadın və həm də şair olduğuna görə daha hiss və həyəcanla danışırdı. Son illər yazdığı şeirlərdən nümunələr söyləyirdi. Əksəriyyəti də ictimai-siyasi məzmunlu şerlər idi. O deyirdi: Qumuqlar şeiri, ədəbiyyatı çox sevirlər. Fayzəddin Məhəmmədovun, Ahməd Caçıyevin, Məhəmməd Atabayevin, Süpyana Xamayevanın, Cənnət Kərimovanın şeirləri qumuqların dilinin əzbəridir. Kamal Abukovun "Mən suçluyam, Maryam" əsəri hamının stolüstü kitabına çevrilib. Uzun illər bu xalqa siyasətlə, hərbi işlə məşğul olmağa icazə verilməyib. Nisbətən ədəbiyyat və incəsənətin inkişafına şərait yaradılıb. Onun da üzərinə sərt senzura nəzarəti qoyulub. Belə halda mədhiyyə, tərənnüm ədəbiyyatı formalaşsa da hərdən sətiraltı, ikibaşlı söz demək də mümkün olub. Ona görə də bu gün xalqın oyanışından, təşkilatlanmasından söz düşəndə hamı yazarlara üz tutur, onların arxasınca getməyə hazır olduqlarını bildirirlər. Yazarlarımız da...

Antalyada fasilələrdə, süfrə arxasında da Kamil və Salav qardaşları ilə, Şeyit Xanım Arslanəli qızı

ilə müxtəlif mövzuda söhbətlər edirdik. Onları 19-cu yüzildə və 20-ci yüzilin birinci yarısında Türkiyəyə sığınmış qumuqların taleyi maraqlandırırdı. Bilmək istəyirdilər onlar qumuqca bilirlərmi? Övladları ata və babalarının köçüb gəldiyi yurd haqqında nə bilirlər?

Şeyit xanımın fikrincə, hazırda dünyanın 50-yə yaxın ölkəsində 350 min qumuq yaşayır. Toplum halında ən çox qumuq Dağıstan Muxtar respublikasında yaşayır. Dağıstan çoxmillətli bir bölgədi. Statistik bilgilərə görə burada 30-a yaxın yerli xalq yaşayır. Qumuqlar sayca üçüncüdür. Birinci yerdə 24 faiz olan avarlar, ikinci yerdə 14 faiz olan darginlər, üçüncü yerdə 12 faiz olan qumuqlar, dördüncü yerdə 11,5 faiz olan ləzgilər gedirlər. Laklar, Azərbaycan türkləri, tabasaranlılar, noqaylar, rutullar, tatlar, aqullar, saxurlar isə hər biri 5 faizlə 0,5 faiz arasındadırlar. Keçmiş Sovetlər Birliyinin Quzey Osetiya, İçkeriya (Çeçenistan), İnquşetiya bölgələrində, hətta Suriyada da toplum halda yaşayan qumuqlar var.

Ədəbiyyat tarixindən söz düşəndə isə fikirlərimiz haçalanırdı. Özlərini hunların, xəzərlərin, bulqarların, alanların, qıpçaqların nəvələri hesab edən və bununla da qürur duyan qumuqlar yazılı ədəbiyyatlarının 19-20-ci yüzildə

formalaşdığını söyləyirlər. “Bəs ondan öncə? 19-cu yüzildən öncə qumuqlar yazmayıblarmı?”– deyəndə “Yazmışlar, amma çağatayca və ya oğuzca yazmışlar”, − cavabını verirdilər.

Şeyit xanıma: − Bütün dillər inkişaf edir, zənginləşir. Biz də çağataycanı inkişaf etdirib ədəbi dil kimi yaşatsaydıq, sizin şerlərinizi indi 180 min qumuq deyil, bütün Tatarıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və b. bölgələrdə yaşayan türklər oxuyardı, − dedikdə isə, “Onda qumuq dili itib-batardı axı!” − deyə narahatçılığını bildirir.

Rusiya müstəmləkəçilərinin uzun illər məqsədyönlü apardıqları ayırma, parçalama siyasətindən milli şüurlu insanlarımız da hələ qurtula bilməyiblər. 20-ci yüzilin ilk onilliklərindən qumuqlar arasında yazışma əsasən oğuz türkcəsində gedirdi. Bu da səbəbsiz deyildi. Güney qumuq-larının ləhcəsində oğuz ünsürü üstünlük təşkil edirdi. Sonralar Quzey ləhcəsi − əsasən də Xasavyurd ləhcəsi əsasında yeni ədəbi dil formalaşdırıldı. Bu işdə M.Əlibəyov, N.Batır-Muradov, Yırçı Qazaq öncül oldu. Yırçı Qazaq yada “yır” sözünü salır. Çünki şair ləqəbini həmin sözdən alıb. Bugünün özündə də İran İslam Respublikasının Sava bölgəsində yaşayan türklər, Krım türklərinin böyük bir qrupu şerə yır, şairə yırçı deyir.

Bu gün qumuqlarla Azərbaycan türklərinin istər dilləri, istər mədəniyyətləri arasında xeyli fərq var. Amma qədimlərdən bizi bir-birimizə bağlayan iplər hələ tam qırılmayıb. Yenə də süfrələrimizdə eyni xörəklər − xəngəl, şorba, gürzə, dolma, plov, qovurma, bozbaş, şişlik olur. Yenə də toylarımızda, şənliklərimizdə zurna, qaval, balaban, tar, saz, qopuz səslənir. Ötən illərə baş vuranda eyni xalqa, eyni millətə çevrilirik.

Çar Rusiyası Azərbaycanı olduğu kimi qumuqları da 1813-cü ildə öz tərkibinə qatdığını elan etdi. Lakin qumuqlar da Quzey Qafqaz xalqları kimi Rusiyanın tərkibində qalmaq istəmirdilər. Onlar Rusiya kəndliləri kimi təhkimli ola bilmirdilər. Ağalarının − knyazların onları kəndləri ilə birlikdə ailəliklə, mal-qarası, torpağı ilə birlikdə, yaxud tək-tək sata biləcəyini ağıllarına belə gətirə bilmirdilər (Rusiya kəndliləri isə buna təbii, ağasının haqqı kimi baxırdılar). Ona görə də silaha sarıldılar. Çoxmillətli, çoxdilli Quzey Qafqaz xalqlarını bir din − tək olan Tanrıya inanc, İslam dini birləşdirirdi. Müridizm hərəkatı 30 ildən çox davam etdi. Rusiya müstəmləkəsi altında olan kiçik bir bölgədə ildə 200 min döyüşçü itirirdi. İtkilərdən yaxa qurtarmaq üçün Rusiya islahatlar aparmaq məcburiyyətində qaldı. Qumuqların, avarların,

çeçenlərin, çərkəzlərin, balkarların, qaraçayların apardıqları 30 illik mübarizə onlara azadlıq bəxş etmədisə 100 minlərlə Rus kəndlisini təhkimçilik zülmündən azad etdi.

Antalyada söhbətlərimizdə qumuqlar arasında milli şüuru yüksəltmək üçün gənclərin Türkiyəyə və Azərbaycana təhsil almağa göndərilməsi yollarını arayır, tarixə nəzər salırıq. 1920-1930-cu ildə Bakıda qumuq gənclərinin teatr texnikumunda qrup halında oxuduğunu, geri dönüb Dağıstanda ilk peşəkar teatr yaratdığını xatırlayırıq.

Novruz bayramı münasibətilə təşkil etdiyimiz şənlikdə də birgə iştirak edirik. Şeyit Xanım həmin tədbirdə 1981-ci ildə Mahaçqalada yayınlatdığı "Yolda yır" kitabına aşağıdakı avtoqrafı yazdı: "Ali bey! Bizim yollar türk dünyasına çıxan sevgi yolları! Uğurlar bolsun! Nasipli bol! Şeyit xanım. 22.III.1993. Türkiyə. Antalya".

Şeyit Xanım Mahaçqalanın altından xətt çəkib əvəzində şəhərin qumuqca adını "Anji-qala" yazmışdı.

1996-cı ilin aprelində Ankaradakı Öyrətmən Evinin foyesində Şeyit xanım, Salav və Kamillə yenidən görüşdük. Hal-əhval tutduq. Kamil və Salav Azərbaycanın durumu ilə maraqlanırdılar. Şeyit Xanım yenə də özünəməxsus bir çılğınlıqla Aydın

Kərimova və mənə gileyini bildirdi. Ötən ilin payızında "Tenlik"in qurultayında iştirak etmədiyimizə görə incidiyini bildirdi. Mən vəziyyətdən çıxmaq üçün: "Siz siyasi partiyalara Xalq Cəbhəsinə, Musavata və başqa təşkilatlara dəvət göndərmişdiniz. Mən də heç bir siyasi partiyanın üzvü deyildim. Ona görə gəlmədim. Siyasi partiyaların rəhbərliyinə də dəvətlərinizi və arzularınızı dəfələrlə çatdırdım. Mən nə edə bilərdim?" − deyə vəziyyətdən çıxmağa çalışdımsa da mümkün olmadı. Şeyit xanım: − "Sən istəsəydin, israrlı təkid etsəydin onlardan kimsə gələrdi. Özünün gəlməməyini isə heç bağışlaya bilmirəm. Azərbaycandan kiminsə gəlməsini çox istəyirdik. İstəyirdik qurultayımızda qonaq kimi iştirak edən avarlar, laklar, darginlər, inquşlar görsün ki, bizim də arxamız var" − dedi.

Vəziyyətin çıxılmaz olduğunu gördükdə:

Birden manğa
Suratınqnı etemen,
Sen qörersen, qörersen!
Oramda bir zorba gün −
Ol sensin, sen!

-deyə şer söyləməyə başladım. Şeyit Xanım duruxdu. Salav və Kamil bərkdən gülərək: “Şairin zəif yerini tapıbsan. Bu dəqiqə incikliyini unudacaq”, − deyə məni həvəsləndirdilər. Mən də:

Söyqenim! −
Men çıqqıraman
Seni mağa savğatlağan
Yaşavğa tyüqyül.
Söyqenim!

Şeyit Xanım şerin ardını ilhamla söyləyərək: “Şeri belə deyərlər! Yoxsa sənin kimi” − dedi. Mən yenə də əl çəkməyib:

Şeyit Xanım menim atım −
Şibir-qyubyur ete qökde yıldızlar.
Şeyit Xanım menim atım −
Şağra yolğa alğasay sırtlı qızlar”.

-deyəndə o yenə şeirin ardını söylədi. Şeyit xanımın 1993-cü ildə bağışlamış olduğu “Yolda yır” kitabından bəzi parçaları Azərbaycan radiosunda apardığım verilişdə qumuqlara həsr etdiyim veriliş üçün əzbərləmişdim. Heç ağlıma da gəlməzdi ki, Ankarada dadıma çatacaq. Elə foyedəcə əyləşib çay

içə-içə söhbətimizi davam etdirdik. Onlar bir aylıq kursa gəlmişdilər. Biz də 10 günə yaxın Ankarada olmalıydıq.

Eyni yerdə qalmağımız tez-tez görüşüb söhbətləşməyimizə imkan yaratdı. Azərbaycanda xalq hərəkatı fəallarının döyüşlərdə öldüyündən, həbslərə atıldığından, təqiblərə məruz qaldığından xəbərləri olsa da yenə də onlardan yardım umurlar. Azsaylı xalqların milli hərəkat fəalları da çox vaxt təqib edilir, təzyiq altında olurlar. Ona görə də çox vaxt əlaqə saxlamaq, vaxtlı-vaxtında görüşmək olmur. Bu da narazılığa səbəb olur. Onların narazılığını təbii qəbul edirəm. Uman yerdən küsərlər.

Şeyit Xanım hərdən qumuqca oxuduğu şeirləri yaxşı anlayaq deyə türkcə izah etməyə çalışırdı. Bu bəzən asan anladığımız sözləri də çətinləşdirirdi. Onun şeir dili xeyli dəyişmişdi. Kitabdakı şeirlərinə nisbətən indi oxuduqlarını daha asan anlayırdım. Şeyit xanımı çətinlikdən qurtarmaq üçün dedim: − "Bu il aprelin 3-də həmyerlimiz İmperiyat Arslanbəy qızı Bakıda doktorluq dissertasiyası müdafiə edirdi".

Şeyit Xanım gülərək sözümü kəsdi: − "İlk dəfə görüşəndə Siz də, Arif Rəhimoğlu da mənə Şeyit Xanım Arslanəli qızı deyəndə bir az acığım tuturdu.

O qədər Arslanəliyevna eşitmişdim, qulağım ona o qədər alışmışdı ki, mənə şirin gəlirdi. Sizin Arslanəli qızınız isə mənə yad gəlir, elə bil qulağımı deşirdi. Bir iki dəfə istədim səhvinizi düzəldim. Utandığımdan dillənmədim. İndi Türkiyəyə gəlib-gedəndən Arslanəli qızı ifadəsinə alışmışam. Qulağımda həzin bir musiqi kimi səslənir. İmperiyata da Arslanbəy qızı deməyiniz mənə ötən illəri xatırlatdı. − dedi.

Mən sözümü tamamlamaq üçün dedim:

− İmperiyat xanım fikrini anlatmaq üçün qumuqca əski bir yırı söylədi:

Qök Tenqrim qokten mağa
Qök gözlərini açıb bağa,
Qök çüman avlaqlarda.
Qök çiçəkli tarlada
Qök pozula hayrayem.
Qök çoxkelli balama,
Qök Tenqrim ördüm bağa.

Sonra da onu belə çevirdi:

Mavi Tanrı göktən mana
Mavi gözün açıb baxar,
Mavi bozqırlarda.

Mavi çiçəkli tarlad,
Mavi keçilər otlaqda,
Mavi mantolu yavrular
Mavi Tanrım yüksəklərdən baxar.

Müdafiədən sonra İmperiyat xanımla söhbət edəndə ona dedim: “Sizin qumuqca söylədiyiniz çevirmənizdən daha anlaşıqlı idi. Çünki Azərbaycan türkləri “göy” deyir, siz “qök” deyirdiniz, biz “çəmən” deyirik, siz “çüman”, biz “otlaq” deyirik, siz “avlaq” dediniz. Sizin işlətdiyiniz “n” səsi 1930-cu illərdə Azərbaycan əlifbasında olub. Sağır “nun” adlanıb. Bu gün ləhcələrimizdə geniş işlənir. Anayı yox anagi, dəniz yox, dənqiz kimi deyirlər”.

Şeyit xanım, Kamil və Salav bəy qızğınlıqla söhbətə girişdilər. Mənim İmperiyat xanıma istinadən söylədiyim şeir parçasını çox qədim dövrdə yaranmış bir dua, yaxud Tanrıya həsr olunmuş dastandan parça olduğunu söylədilər. Qayaxan bölgəsində “Tanrıxan” adlı ağacın olduğundan, həmin ağaca insanların bu gün də tapınıb qurban kəsdiklərindən, Tanrının göy rəngdə olduğundan, həmin rəngin bu gün də xalq arasında “ilahi gözəllik” anlamında işlədildiyindən danışdılar. Qumuqlardan toplanmış “Cavad bəy” haqqında yırla Şumerlərin “Bilqamıs” eposu

arasındakı paralelliyi önə çəkdilər. Hər ikisində ölüm mələyi Əzrailə qarşı qəhrəmanın mübarizə metodunu müqayisə etdilər.

Söhbətimiz eyni kökdə gedirdi. Mən də "Kitabi-Dədə Qorqud" eposundakı "Duxa Qoca oğlu Dəli Domrul boyundakı" Dəli Domrulun Əzraillə savaşmasını onların diqqətinə çatdırdım. Gah Tanrıçılıqdan, Tanrıya inamdan, gah Albaslı, Suv-anası, eləcə də Günəş, Ay, Su, Yer kultlarının bu gün də xalq arasında yaşadığını xatırlayırdıq. Tarixin dərinliklərinə endikcə xalqlarımızın kökü eyniləşir, bizlər eyni mədəniyyətin, eyni dilin varislərinə çevrilirdik.

Şeyit xanımdan yeni kitabının çap olunub-olunmadığını xəbər aldım: "Qəzet, jurnallar artıb. Amma kitabların sayı azalıb. Sponsor lazımdı, nə bilim, kağız lazımdı. Bir sözlə pul lazımdı. Bizi də milli hərəkatda iştirakımıza görə hər addımda sıxırlar. Gümanım var, kitabımı Türkiyədə çap etdirəm", − dedi.

Qumuqların toplam yaşadığı kəndlərdə ilk okullarda dərslərin çoxu ana dilində keçilir. Orta okullarda isə həftədə bir saat qumuq dili və ədəbiyyatı keçilir. Qalan fənlər hələ də rus dilində keçilir. Əhali qarışıq yaşayan yerlərdə isə bütün dərslər rusca keçilir. Buna görə də orta məktəbi

bitirənlər ana dilini yaxşı bilmirlər. Ana dilində yayınlanan kitabları oxuyan da az olur.

Dağıstanda televiziya yalnız rus, radio isə qumuq, avar, dargin, tabasaran, tat, noqay, rus dillərində yayınlar hazırlayır. Mahaçqaladakı Qumuq Dövlət Teatrı isə maliyyə çətinliyindən bağlanma təhlükəsi qarşısındadır.

Öyrətmən evindəki söhbətdən qumuq xalq hərəkatının liderlərinin həmişə böyük ümidlər bəslədikləri Azərbaycandan əllərini üzdüklərini hiss etdim. Bu mənə çox ağır gəldi. Amma nəyisə dəyişmək qüdrətində də deyildim.

04.02.1998

Qeyd: ***Məqalə Əli Şamilin "Tanıdığım insanlar" (1-ci kitab. "Sumqayıt" nəşriyyatı, 2000, s. 50-56) kitabında "Uman yerdən küsərlər: – Şeyıt xanım" adı ilə nəşr edilmişdir.***

TÜRK DÜNYASININ MƏŞHURLARI

İNAMINI İTİRDİYİNDƏN ÖMRÜNÜ BİTİRƏN QAMZAT ACIGƏLDİYEV

(26 yaşında ölümə sürüklənən noqay şairi)



noqay. Qamzat Acigəldiyev
əski əlifba ilə
قامزات آجيگلدييو,
rus. Гамзат
Аджигельдиев
(1939-1966)

İctimai-siyasi dəyişikliklər burulğana bənzəyir. Bu burulğan kiçikliyindən-böyüklüyündən asılı olmayaraq insanları silkələyir, onların ruhunda bir qarışıqlıq yaradır. Dünyanın necə gəlib-getdiyini düşünməyənlər üçün bu bir maddi sıxıntı dövrü kimi yadda qalır. Həssas, millətinin, vətəninin taleyini düşünənlər üçün isə bu proses çox ağır keçir. Necə deyərlər, tarixin yeni səhifəsini yazdıqlarına, yaxud yazılmasında iştirak etdiklərinə görə onlar özlərini xoşbəxt sayırlar. Eləcə də o keçid dövrlərinin ağrı-acısını, aclıq və səfalətini, mənəviyyatsızların mənəviyyatdan, oğruların doğruluqdan xalqa dərs dediklərinin şahidi kimi yaşadıqlarına görə faciələrlə üzləşirlər. Belə faciə ilə üzləşən və intihar

edənlərdən biri də çox gəncikən özünə qəsd etmiş noqay şairi Qamzat Acıgəldiyevdir.

1956-cı ildə SSRİ-də keçirilən Sov.İKP 20-ci qurultayı da bir keçid dövrünün başlanğıcını qoydu. On illər boyu bütləşdirilərək sitayiş obyektinə çevrilən Stalinin heykəlləri qısa bir zamanda dağıdıldı. Onun qəddarlığı, qaniçənliyi, ikiüzlülüyü haqqında qəzet və jurnalların səhifələrini dolduran yazılar çap olunmağa başladı. Dünənədək onu tribunalardan ağzı köpüklənə-köpüklənə mədh edənlər, bu gün də eyni şövqlə tənqid etməyə başladılar. Bəzi arxiv sənədlərinin çapına icazə verildi. Kütləvi həbs olunanlara, güllələnənlərə bəraət verilirdi. Əslində bunlar ötəri, gözdən pərdə asan və xalqı aldadan dəyişikliklər oldu. Çünki ölkəni idarə edənlər yaxşı bilirdilər ki, ciddi islahatlar aparılsa, demokratik bir ortam yaradılsa qısa müddətdə SSRİ dağıla bilər. Sadə insanlar isə cəmiyyətdə ciddi dəyişikliklər baş verəcəyini gözləyirdilər. Dəyişikliklərin baş verəcəyinə ürəkdən inananların biri də gənc noqay şairi Qamzat Acıgəldiyev idi.

Qamzat 1939-cu il dekabrın 21-də indiki Rusiya Federasiyasının Dağıstan Respublikasının Noqay rayonunun Orta Töbe kəndində anadan olmuşdu. O, ailə sevincinin, ata-ana məhəbbətinin, qayğısının nə

olduğunu bilmədən böyümüşdü. Çünki İkinci Dünya Savaşı başlayanda atasını cəbhəyə aparmışdılar. Az sonra isə anası ölmüşdü. Savaşın doğurduğu aclıq və qıtlıqdan ata-analar özlərini, övladlarını dolandıra bilmirdilər. Bir tərəfdən də antisanitariya, xəstəlik baş alıb gedirdi. Buna görə anasını da itirən Qamzatı xalq arasında yetimxana deyilən uşaq evinə verirlər. Qıtlıq, aclıq, baxımsızlıq onun yaddaşında sarsıdıcı izlər buraxır. Uşaq evinin ağır şəraiti onun psixikasına ağır zərbə vurur. Savaşdan sonrakı illərdə Qamzatın yaxın qohumlarından Badiya Acıgəldiyev onu uşaq evindən alaraq ailəsinə gətirir. Rəhbər partiya işində çalışan və ədəbiyyata böyük maraq göstərən, "Səlimət" adlı hekayələr kitabı çap edilmiş Badiya Acıgəldiyev də firavan yaşamırdı. Onun vaxtının çoxu işdə keçirdi. Buna baxmayaraq o, Dağıstan Muxtar Sovet Sosialist Respublikasına daxil olan Qaranoqay kəndlərini gəzərək folklor nümunələrini toplayıb çap etdirirdi. Badiya Acıgəldiyev Qamzata çox vaxt ayıra, onun uşaq evində keçirdiyi sarsıntıların tam aradan qaldırılmasına nail ola bilməmiş, onu yenidən Noqay rayonundakı Dirəkli Məktəb kəndindəki internata qoymuşdu.

Qamzatın ədəbiyyata maraq göstərməsində Badiya Acıgəldiyevin rolu böyük olur.

Qamzat uşaqlıq və yeniyetməliyində Sovetlər Birliyinin dünyanın ən güclü və humanist dövləti olduğuna inanır. Elə bilir ki, Sovetlər Birliyində deyil, hər hansı bir xarici ölkədə yaşasaydı ona qayğı göstərən, sahib duran olmazdı. Xoşbəxtliyinin əlindən alınmasının, atasının savaşa aparılmasının, anasının ölməsinin səbəbinin Sovet hökuməti olduğunu heç ağlına da gətirmir.

Orta məktəbi bitirdikdən sonra Qamzat vətəni sandığı SSRİ-yə xidmət etmək, onu ölümdən qurtardığını, ona təhsil verdiyini düşündüyü hökumət qarşısında borcunu yerinə yetirmək üçün böyük həvəslə əsgəri xidmətə yola düşür. 1958-1961-ci illərdə Belarus Hərbi Dairəsində əsgəri xidmətdə olarkən iki illik Marksizm-Leninizm Universitetinin axşam şöbəsində oxuyur. Gələcəyə böyük ümidlərlə baxan gənc şair ordudakı nizam-intizamsızlığın, zabitlərin günlərini sərxoşluqla keçirdiklərinin, yüksək rütbəli zabitlərin özlərindən aşağı rütbədə olan əsgər və zabitləri necə alçaltdıqlarının şahidi olur.

İlk vaxtlar ona elə gəlir ki, bunlar kiçik bir hərbi hissədə baş verənlərdir. Ölkədə böyük bir nizam-intizam, düzlük və doğruluq var. Kiçik əyintilər isə mübariz gəncliyin, doğru və vətənpərvər insanların sayəsində aradan qaldırılacaqdır.

Gənc şair Dağıstan MSSR-in paytaxtı Maxaçqalada noqay türkcəsində çap olunan "Şöllik mayakı" (Çöllük mayağı) və Qaraçay-Çərkəz Muxtar Vilayətinin paytaxtı Çerkeeskidəki "Lenin yolu" qəzeti ilə müntəzəm əlaqə saxlayır, orada şeirlərini çap etdirir.

Şeirlərindəki yeni ifadə vasitələri ədəbiyyat həvəskarlarının da, peşəkar şair və yazıçıların da diqqətini cəlb edir. Gənc şair əsgəri xidmətdən döndükdən sonra noqay ədiblərindən Fazil Abdulcəlilov, Söyün Kapayev, Keldixan Kumratova ilə görüşür, onlardan məsləhətlər alır, ədəbiyyatın inkişafı mövzusunda gedən müzakirələrdə fəal iştirak edir. Təcrübəli və yaşlı noqay ədibləri bu istedadlı gəncə Moskvadakı M.Qorki adına Ədəbiyyat İnstitutunda oxumağı məsləhət görürlər. Beləliklə, Qamzat Acıgəldiyev Moskvadakı M.Qorki Ədəbiyyat İnstitutunda oxuyan ilk noqay olur.

Moskva mühiti, buradakı tələbə və müəllimlərin öz fikirlərini sərbəst söyləmək cəhdlərinin boğulmasına etirazlar, xarici ölkədən SSRİ-yə oxumağa gələn gənclərlə etdiyi söhbətlər, ölkədə baş verən dəyişikliklərlərə fərqli münasibətlər gənc şairi sanki bir burulğana atır. Qamzat da bu dəyişiklikləri alqışlayanlardan olur. Lakin

dəyişikliklərin ciddi olmaması kosmetik olması, yuxarıdan verilən qərarların, rəsmi toplantılarda rəhbərlərin dedikləri ilə reallığın uyğunsuzluğu çoxları kimi Qamzatı da çaşqın vəziyyətə salır.

Qamzat Acıgəldiyev 1962-ci ildə Mahaçqalada "Sokpak" (Cığır) adlı ilk şeir kitabını çap etdirə bilir. Poeziyanı şüarçılıqdan uzaqlaşdırmaq, Kommunist Partiyasının qərar və göstərişlərinin bəsit təbliğindən qurtarıb, insanların daxili aləmini açan, mənəviyyatı önə çəkən sənət nümunəsinə çevirmək istəyənlərin sırasına Qamzat da qoşulur.

Noqay dilində yazıb-yaratmış şairlərin şeirlərini oxuduqca öz dilinə, tarixinə, ədəbiyyatına heyran qalır. İllər uzunu rus ədəbiyyatının ən zəngin ədəbiyyat, rusların dünyanın ən qədim və mədəni xalq olduğuna inandığına təəssüflənir. Açıq-aşkar aldadıldığını görür. Rus şeirinin tarixi 17-ci yüzildən o tərəfə keçmədiyi halda, kiçik, yox olmaq təhlükəsi ilə üzləşmiş noqayların 14-cü yüzildə yaşamış Sıbranın, 15-16-cı yüzillərdə yaşamış Parızdak Şaban ulunun (qıpçaq kökənli türklərin əksəriyyəti "oğlu" sözünü "ulu" və ya "ulı" kimi yazır − Ə.Ş.), Şal Kiyiz Tileniş ulunun, Asan Kaygulunun, Domambet Azaylının, Jirenşe Şeşenin, Kazı Tuan Suyunişin Şabanın və b. xalq şeiri üslubunda gözəl, axıcı, lirik və dərin məzmunlu

əsərləri var. Məcburi köçlərə, savaşlara, həbs və sürgünlərə baxmayaraq, Faxreddin Abuşaxman ulu (1808-1883), Sadıkbay Alkaydar (1811-1876), Abdulxalıq Abdulraşid ulu (1858-1913), Aslan Şaban ulu (1858-1912), Baymırza Manap ulu (1888-1918), Ajı Molla Noğman ulu (1884-1930), Taram Qumuq ulu, Menkilişeyh İsmail ulu, Abdulkadır Bekbay ulu kimi ənənəvi poeziyanı davam etdirən şairlərin yazdıqları yırlau (şeir), destan (poema), tolkau (monoloq), maktau (oda), munklaular (ağı) xalq tərəfindən ürəkdən sevilir.

Beləliklə, o, Noqayın tarixini öyrənir. Xalqının onu uzun illər rəhbərlik etmiş cəsur bir sərkərdə və dövlət adamı kimi tanıdığını öyrənir. Öyrənir ki, Noqayın babası Taval bəy 12-ci yüzilin sonlarında Qıpçaq bozqırlarının Aksu-Buq çayı çevrəsində yaşayan bir peçeneq boyunun – tayfasının başçısı imış. Çingiz xanın nəvəsi Batı xanın (1236-1255) yürüşlərində iştirak edərək, az bir zamanda cəsur döyüşçü, bacarıqlı sərkərdə kimi şöhrətlənir.

Batı xanın ölümündən sonra hakimiyyətə gələn qardaşı Bərkə xan (1255-1266) Noqayı qabiliyyət və bacarığına görə ordu komandanı təyin edir. Ordu komandanı kimi Noqay Qafqaz dağlarını keçərək Hülakü xan və varisləri üzərinə yürüşlər edir, döyüşlərdə qazandığı qələbələrə görə dövləti Bərkə

xanla birlikdə idarə etmək hüququ qazanır. Qamzat Bərkə xanın ölümündən sonra Noqayın Don və Dunay çayları arasındakı bölgəni müstəqil idarə etməsi haqqında məqalə yazır. Lakin bu məqaləni heç bir yerdə çap etdirə bilmir. Çünki Rusiya Altın Orda dövlətinə və Noqay xana düşmən, işğalçı kimi baxdığı bir zamanda həqiqətləri deməyə hər adamın cəsarəti çatmırdı. Qamzat isə Noqay xanın rus xalqına qarşı deyil, öz xalqına divan tutan rus knyazlarına qarşı sərt davrandığını yazır.

Beləliklə, o araşdırmalarını dərinləşdirərək, həm xalqının qəhrəmanlıq tarixi ilə, həm də yaratdığı şifahi və yazılı ədəbiyyatla qürurlanır, onları qəddar, vəhşi və mədəniyyətsiz kimi tanıdanlara qarşı içində bir qəzəb hissi baş qaldırmağa başlayır.

Əldə etdiyi materialları diqqətlə oxumaqla kifayətlənmir, onlardan səmərəli bəhrələnir, bədii ifadə vasitələrindən istifadə etdikdə daha da ilhamlanır.

Qamzat Acıgəldiyev çox gənc olmasına baxmayaraq, Noqay poeziyasına yeni bir ruh gətirir. Lakin mühafizəkar, vəzifəsini milli mənlikdən və həqiqətdən uca tutanlar, sözdə keçmişdəki nöqsanları tənqid edənlər, əməldə yeniliyin qarşısını bir sədd kimi kəsənlər onu heç cür qəbul etmirlər.

Şair bunu “Yayapsız soraclar” (Cavabsız suallar) şeirində belə dilə gətirir:

Yazayıma yatlavlardı yanıdan? -*Yenidən yazmağa davam edimmi?*
Tek korkman redaktorlar kapıdan -*Pək qorxuram redaktorlar qapıdan*
Ketşi deek, kaqıtlardı körgende. -*Getsin deyər, yazılarımı görəndə.*
Koyayıma taslap yazqan zatlardı, -*Hər şeyi atmaq, unutmaq,*
Otı sönip, suvıp kalqan küllerdey -*Yoxsa yandırmaq, külə döndərmək.*
Tars yumayım körmes uşin közimdi? -*Gözüm görməməsi uçun yumummu?*
Ya salayım korkaylandan külledi -*Kömək edər mənə güllələr.*
Söndürmege ürügimnin yallavın -*Söndürməyə ürəyimin alovun.*
Yazayıma yatlavlardı yanıdan? -*Yenidən yazmağa davam edimmi?*

Çünki SSRİ-də qəzet-jurnallara istedadlı jurnalistləri, yazıçı və şairləri deyil, məmur xarakterli, yuxarıların əmr və tapşırıqlarını, düşündüklərini həyata keçirmək istəyən insanları

rəhbər təyin edirdilər. Bütün çap məhsullarında senzuranın möhürü olmasa onu heç bir mətbəə çap etməzdi. Mətbəələri də hökumət müəssisələri idi. Yəni şəxsi adamların mətbəəsi ola bilməzdi. Bu çür sərt nəzarətə baxmayaraq ən kiçik qəzet və jurnaldan başlamış Sovet İttifaqı Kommunist Partiyasının orqanı "Pravda"ya qədər bütün redaktorların kabinetindəki dəmir seyfində senzur təlimatı haqqında kitab vardı. Redaktorların çoxu bu kitabda yazılanları az qala senzor məmurlarından daha yaxşı bilirdilər. O, dönəmin məşhur Rus-Sovet şairi Yevgeni Yevtuşenkonun mətbuata sızmış "Bizim nəslə kosmik gəmilərin sükanı etibar edilir, amma qəzet-jurnalların sükanı etibar edilmir" fikri demokratik düşüncəli insanların dilinin əzbərinə çevrilmişdi.

Ədəbi qəzet və jurnallara istedadlı yazıçı və şairlər deyil, mühafizakar, qorxaq, qanunlara deyil, onları vəzifəyə qoyan rəhbər işçilərin əmirlərinə əməl edən məmurların mühitindən Qamzat Acıgəldiyev cana doymuşdu. Ona görə də bu mühitə etirazını bildirmək üçün:

Tek korkman redaktorlar kapıdan -*Pək qorxuram redaktorlar qapıdan*

Ketşi deek, kaqıtlardı körgende. -*Getsin deyər, yazılarımı görəndə,* − deyə yazırdı.

Qəzetlərdə çoxlu ədəbi tənqidi məqalələr, tərcümələr çap etdirən, ədəbi mühitin canlanması üçün var gücü ilə çalışan gənc şair bədbinliyə qapılır. Vəziyyətdən çıxış yolu tapa bilmədiyindən içkiyə qurşanır. Bir tərəfdən də ailədə narahatlıqlar yaranır. Xanımı ondan ayrılır. Bundan təsirlənən şair sevgisi yolunda ölümə belə hazır olduğunu "Məndən başqası varsa" şeirində belə təsvir edir:

Men yaşavdan bek razı man taymaga, -*Mən hayatdan razıyam getməyə,*
Men turganda baskalarga tar bolsa. -*Mən yaşamam başqalarına dar olsa.*
Men bolarman süyüvimdi tıymaga, -*Mən sevgimə əngəl ola bilərəm,*
Mennen başka süygen âdem bar bolsa. -*Məndən başqa sevən kimsə var olsa.*

Şair 24 misralıq "Məndən başqası varsa" şeirində qədim türk şeirindəki alliterasiya sistemindən bacarıqla istifadə edərək 13 misranı "m" səsi ilə başlamaqla şeirlərində bir axıcılıq yaradır. Bununla şeirdə forma gözəlliyinə nail olmaqla kifayətlənmir, böyük humanist olduğunu oxucusuna çatdırmaq üçün deyir ki, mənim yaşamım başqalarının yerini dar edirsə, mən

həyatdan getməyə razıyam. Şəxsi həyatını belə qurban verməyə hazır olan Qazmat Acıgəldiyev vətəninə, millətinə xoşbəxtliyin şimaldan-Rusiyadan gələcəyinə inanmır. Bu inamsızlığını da misralara çevirərək, eyhamla da olsa, oxucusuna çatdırır.

Sovet ədəbiyyatı yaratmaq istəyən şairlər, yazıçılar, dramçılar böyük pafosla xoşbəxtliyin, azadlığın və firavanlığın şimaldan gəldiyini, yəni Rusiyadan gətirildiyini yazdıqları bir zamanda Qamzat böyük cəsarətlə quşlara müraciətlə yazır:

Kıs bolmaygan uzakta bir kalada, -*Qış olmadı uzaqda bir şəhərdə,*

Siz kördiniz yüregimnin yanganın. -*Siz gördünüz ürəyimin yandığını.*

Nege sizden mağa oylar kaladı, -*Nədən sizdən mənə düşüncələr qalır,*

Eş sezbeysiz kütip közim talganm. -*Heç fərq etmirsiniz qayğılı gözümün daldığını.*

….Men bilemen: kuşlar onnan keleşiz, -*Mən bilirəm: quşlar oradan gəlirsiniz,*

Kuşlar, om körmedik dep aytpanız. -*Quşlar, onu görmədik deməyin,*

Siz uşkanda mağa yara beresiz, -*Siz uçarkən mənim qəlbimdə yara açarsınız,*

Yanırmasın, keri munnan kaytpanız. -*Ötmədən, buradan geri dönməyin.*

"Kuşlar kaydan keleşiz?" (Quşlar haradan gəlirsiniz?) şeirində quşlara bu cür müraciət edərək "Siz gəlirsiniz güneydən bilirəm, bəlkə, oradan mənə məktub gəlmişdir. Sən baxsana, həmən ardından yüyürürəm, Ya da bəlkə öz gülüşünü vermişdir", − deyə yazması Sovet təbliğatçılarını qayğılandırmaya bilməzdi. Onlar bir tərəfdən narahat olurdular ki, bu gənc yönünü haraya tutur. O birisi tərəfdən də narahat olurdular ki, oxucu onlara deyə bilər: Nədən siz hər bir yaxşının Şimaldan, müstəmləkəçi Rusiyadan gəldiyini yazırsınız? Görürsünüz, Qamzat kimi bir gənc bunu etmir.

Qamzat və Badiya Acıgəldiyevlər Dağıstanda yaşayan noqay şairlərinin İkinci Dünya Savaşından sonrakı yaradıcılığından nümunələri seçərək "Karlıgac" (Qaranquş) adlı toplu hazırlayır və onu 1964-cü ildə çap etdirirlər. Bu təşəbbüsü araşdırıcılar noqaylarda ədəbi mühitin canlandırılması kimi qiymətləndirir.

Qamzat Acıgəldiyevin şeirlərini Moskvada yaşayan yenilikçi şairlər sevə-sevə oxuyur və onu təqdir edirlər. Onun "İzleyemen seni" (Səni axtarıram), "Dördlüklər" şeirləri və "Urlanqan

süyüv” (Oğurlanan sevgi) poeması oxucular tərəfindən məhəbbətlə qarşılanır. Şairi intihara aparan yol onun şeirlərində öz əksini tapıb. O yazır:

Men bilemen, yan bar yerde azal bar, -*Mən bilirəm, can olduğu yerdə əcəl var,*

Belki közim, eki közim yabılar. -*Bəlkə gözüm, iki gözüm qapanır.*

Yaşav değen tik ketegen biyik yar, -*Yaşam deyən dik gedən böyük yar,*

Belki mağa süriner zat tabılar, -*Bəlkə mənə sürünür bir şey tapılar.*

Süyinermen men közimdi yapkanda, -*Sevinərəm mən gözümü yumduğumda,*

Yatlavlarım, halk arada kalsafuz. -*Şeirlərim, xalqın arasında qalsanız.*

Süyinermen yer astında yatkanda, -*Sevinərəm yer altında yatdığımda,*

Yatlavlarım, halkımnan siy alsanız, -*Şeirlərim, xalqımdan saygı görsəniz.*

Qamzat uşaqlıq və yeniyetməlik illərində aldığı təlim və tərbiyənin nəticəsində, elə düşünürdü ki, onu ölümün pəncəsindən qurtaran, onu böyüdən, ona təhsil, tərbiyə verən, onu xoşbəxtliyə çıxaran Rusiya-Sovetlər birliyidir. Həqiqətləri öyrəndikcə

onun ümidləri daşa dəymiş büllur qab kimi çilik-çilik olur. Rusiyanın Böyük Noqay Ordasını məhv etdiyini oxuduqca onun qəzəbi daha da artır. Xilaskar kimi tanıdığı Rusiyanın onun millətinə yüzillər boyu necə divan tutduğunu, silahla, həbs və sürgünlərlə öldürə bilmədiklərini aclıq və səfalətlə necə məhv etdiyini, onun yetim qalmasının, atasının noqaylara dəxli olmayan savaşa göndərilib orada öldürülməsini, anasının arxa cəbhə adlandırılan evlərində, aclıq, səfalət, xəstəlik və baxımsızlıqdan öldüyünün öyrənir. Sovetlər İttifaqı donuna bürünmüş Rusiyanın Lenin tərəfindən "xalqlar həbsxanası" adlandırılması fikrinin yaşadığının şahidi olur.

Onu da öyrənir ki, Rusiya əsarət altına aldığı xalqları, savaşlara, həbsxanalara, sürgünlərə göndərməklə məhv etməklə kifayətlənmir, sadə ruslara da divan tutur. Rusiyanın hakim dairələri rusları bir millət kimi "görünməz ölümlə"-sərxoşluqla məhv edir. Öz xalqı ilə də belə amansız davranan Rusiyaya qəzəbini və nifrətini "Kuy, Rosiya" (Araq tök, Rusiya) şeirində belə bildirir:

Esirik bolan, esirik yürqen Rossiya, -*Sərxoş olan, sərxoş yürüyən Rusiya!*

Arakıqa mene de sen üyretdin. -*Araq içməyi mənə də sən öyrətdin.*

Blokka da işki berqensin, -*Bloka da içki verənsən,*

Yesenini de sen esirtip, -*Yesenini də sən içirdib,*

Özün də esiriktey yüresin! -*Özün də içkili yürüyürsən*! *Yox, sən sərxoşsan*!

Şeir sanki Rusiyaya və rus mühitinə bir ittihamdır. Ölümündən sonra da uzun müddət bu şeir çap olunmadı.

Qəzet və jurnal redaktorlarının "onun məqalə və şeirlərindən oddan qorxar kimi qorxduqlarını" dərk edir. Sevimli xanımının da ondan uzaqlaşdığını görən şair başqa mübarizə yolu tapa bilmir. Sovet cəmiyyətinə və bu cəmiyyətin köləsinə çevrilmiş soydaşlarına üsyanını o dövrün bir çox ziyalıları, düşünən insanları kimi intiharla bildirir. Şairin ölümü sükutla qarşılansa da, "Lenin yolu" qəzetinin 15 iyul 1966-cı il sayında çap olunmuş "Vəsiyyət" şeiri Qamzat Acıgəldiyevin dünyasını dəyişdiyini oxuculara çatdırır. Bu şeir şairin ölümündən sonra çap olunan ilk şeir olur.

Sovetlər Birliyi çökməyə doğru getdikcə noqayların ayıq düşüncəli ziyalılarının Qamzat Acıgəldiyevə, onun noqay ədəbiyyatına gətirdiyi

yeniliyə, ənənəvi türk şeirindən bəhrələnərək, onu çağdaş poeziya formasında təqdim etməsinə maraqları artır.

1988-ci ildə Mahaçqalada T.Akmanbetovun ön sözü ilə Qamzat Acıgəldiyevin "Urlanqan süyüv" (Oğurlanmış sevgi) adlı şeirlər toplusu çap olunub. Bu gün yalnız noqaylarda deyil, dünyanın çox yerində Qamzat Acıgəldiyevin şeirləri çap olunur və sevilə-sevilə oxunur. Onu ölümə sürükləyən məddahları isə xatırlayanlar belə yoxdur.

Qeyd: ***"İnamını itirdiyindən ömrünü bitirən Qamzat Acıgəldiyev (26 yaşında ölümə sürüklənən noqay şairi)" məqaləsi "Ulduz" jurnalının 2012, 4-cü sayında (s. 24-27) çap olunmuş, TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2011-cü il dekabrın 9-da, saat 12.14-də efirə getmişdir.***

www.uluturk.info/photos/TURKELI_13%20zeif.pdf

NOQAY ŞAİRİ, 29 YAŞLI QƏDRİYƏ NƏDƏN ÖLDÜRÜLDÜ?



noqay. Kadriya Orazbay kızı Temirbulatova
əski əlifba ilə كادريئ تئميربولاتووا,
rus. Кадрия Уразбаевна Темирбулатова
(1948-1978)

Tanınmış noqay şairi Qədriyə Temirbulatovanın ölümündən 40 ilə yaxın vaxt keçir. Günün günorta çağı, 29 yaşında evində öldürülmüş, sonra cəsədi yandırılmış şairi heç zaman unuda bilmirəm. Eyni illərdə, yaxın bölgələrdə doğulsaq da, onu şəxsən tanımırdım. Sağlığında heç şeirlərini də oxumamışdım. Ölümü ilə bağlı xəbəri də Sovet mətbuatından deyil, xaricdə fəaliyyət göstərən antisovet "Azadlıq" radiosundan eşitmişdim. Sonra da mətbuatda çap olunmuş üç-beş şeirini tapıb oxumuşdum. Bu şeirlərdə onun ölümünə səbəb olacaq bir iz tapa bilməmişdim. Amma həmişə düşünmüşdüm ki, yəqin çap olunmamış şeirlərində, yaxud da yazılarında nəsə var.

SSRİ-nin çöküşü başlayanda Azərbaycanı mitinqlər dalğası bürüdü. Bura sanki antisovet düşüncəli, demokratik dünyagörüşlü insanlar üçün bir təcrübə məktəbinə çevrildi. Pribaltikadan, Ukraynadan, Tatarıstandan, Dağıstandan və b. bölgələrdən buraya mitinqlərə tamaşa etməyə, onları təşkil edənlərlə fikir mübadiləsi aparmağa gələnlərlə tez-tez görüşürdüm. Bəzən onları o dövrdə yaşadığım və işlədiyim Naxçıvana da aparırdım. Dağıstandan gələnlərlə söhbət zamanı onlardan Qədriyə Temirbulatovanın KQB-Dövlət Təhlükəsizliyi Komitəsinin əməkdaşları tərəfindən öldürüldüyünü eşitdim. Lakin onlar ciddi bir qaynağa dayanmırdılar.

Azərbaycan müstəqilliyinə qovuşandan, SSRİ süquta uğradıqdan sonra Bakıda simpoziumlara, konfranslara gələn alimlər də həmin fikri söylədilər. Bu yaxınlarda dağıstanlı alimlərdən biri ilə telefonla söhbət edərkən SSRİ dağıldıqdan sonra Qədriyə Temirbulatovanın öldürülməsi ilə bağlı çap olunmuş sənəd və məqalələrin surətini mənə göndərməsini xahiş etdim. O həyəcanla bildirdi ki, bu mövzu telefon söhbəti deyil.

Başqa bir tanışıma zəng vurdum. Onu daha cəsarətli sanırdım. O da eyni cavabı verdi və üstüörtülü bildirdi ki, qonşu vilayətdə baş

verənlərdən sonra nəinki o mövzularda yazmağı məhdudlaşdırdılar, hətta KQB arxivlərini də üzümüzə bağladılar.

Qədriyə Orazbay qızı Temirbulatova 1948-ci il dekabrın 14-də Rusiya Federasiyasının Dağıstan Respublikasının Noqay rayonu Tepekli Məktəb kəndində anadan olmuşdu. Rus qrafikasının və rus dilinin təsiri ilə noqaylar Qədriyə Teymurbulatovanın ad və familiyasını Kadriya Temirbulatova, qıpçaq kökənli olduqlarına görə də doğulduğu kəndin adını Dirəkli Məktəb deyil, Terekli Məktəb kimi yazırlar. Çoban ailəsində doğulan Qədriyəni 1954-cü ildə, hələ beş yaşı tamam olmamış kəndlərindəki orta məktəbin birinci sinfinə aparırlar. O illərdə uşaqlar yeddi yaşından birinci sinifə qəbul edilirdilər. Ona görə də Qədriyə sinifdəkilərdən həm yaşda, həm də boyda kiçikmiş. Buna baxmayaraq cəldliyi və dərin zəkasıyla sinif yoldaşlarının arasında seçilərək müəllimlərinin sevimlisinə çevrilir.

1964-1966-cı illərdə SSRİ-də orta məktəblər 11 illik olmuşdu. Qədriyə də 1965-ci ildə Terekli Məktəb kənd orta məktəbini bitirib, həmin il də Həmzət Sadasa adına Mahaçqala Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsinə daxil olmuşdur. Orta məktəbdə oxuduğu illərdə ədəbiyyata böyük

maraq göstərən çoban qızının ilk şeiri Noqay rayonunda, noqay türkcəsində nəşr edilən "Şöllük mayakı" (Çöllük mayağı) qəzetində dərc olunur.

Qədriyə ilk şeirləri ilə müəllimlərinin, rayonun ədəbiyyat həvəskarlarının, Dağıstan Yazıçılar İttifaqının diqqətini çəkir. "Komsomolets Daqestana", "Daqestanskaya Pravda", qumuq türkcəsində çap olunan "Lenin yolu" qəzetlərində, qumuq türkcəsində çıxan "Dostluq" jurnalında müntəzəm şeir və məqalələrini nəşr etdirən Qədriyəni üçüncü kursdan sonra o dövrdə SSRİ-də böyük nüfuzu olan avar şairi Rəsul Həmzətovun zəmanəti ilə Moskvadakı M. Qorki adına Ədəbiyyat İnstitutunda oxumağa göndərirlər.

Ədəbiyyat İnstitutunun tələbəsi ikən Qədriyənin SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilməsi böyük əks-səda doğurur. O dövrdə əyalətlərdə yaşayanların, xüsusən də SSRİ-də yaşayan və rus olmayan xalqların nümayəndələrinin imzalarının Moskvada çap olunan qəzet və jurnallarda görünməsi böyük hadisə sayılırdı. Qədriyə rus dilini də ana dili kimi bildiyindən hələ tələbə ikən Moskvada çap olunan qəzet və jurnallarda nəşr olunurdu.

İlk qələm təcrübəsi olan "Qumlu tastar şöllüqim", alleqorik "Gələ zaman", "Men tuvqanda"

(Mən doğulanda) şeirləri ədəbiyyata xalqını ürəkdən sevən, onun tarixinə və ənənəsinə bağlı istedadlı bir gəncin gəldiyindən xəbər verir. Doğma kəndinə həsr etdiyi "Tereklidə (Dirəkli) üç gün", "Menim xalkıma", "Ayıtdılar" (Dedilər), "Güclü yellər əsdilər çölümdə", "Amzatxanqa", "Almirağa" və b. şeirlərində noqay ədəbiyyatına gətirdiyi yeni ifadə vasitələrilə seçilirdi. O, şeiri şüarçılıqdan uzaqlaşdıraraq, poeziyaya, klassik Doğu şeirində olduğu kimi, dərin fəlsəfi məna verməyə çalışırdı.

Qədriyə "Bağçada" şeirini gözəl bir lirik lövhənin təsviri ilə başlayaraq yazır:

Tangı şakta, bavdı kezip yürgende -*Dan vaxtında, bağçanı gəzib yürürkən*

Tamşı tüsti kızıl güldey ayama. -*Damla düşdü qızıl güldən ovcuma.*

Ottay yağıp, kamışıday şalındı -*Oddan yanıb, qamçı kimi çalındı*

Sol tamşıdın paşmanlıgı yanıma.- *O damcının peşmanlğı canıma.*

Lakin şair şeirinin son bəndində mövzunu gözlənilməz şəkildə dəyişir. Lirik lövhə ilə başlayan şeir qəhrəmanlığın tərənnümü ilə bitir.

Atsız bâtir yata menim koynunda - *Adsız bahadır yatır mənim qoynumda*

Yuvıklarga dayımga ol yoyılgan. -*Yaxınlara daima o yox olur.*

Köresifime başka güller ayandı,- *Görürmüsən başqa güllər söylədi,*

Küydirtpeydi köz yaslanman. -*Yaxmaz göz yaşlarım ilə.*

Yüz illər boyu rus knyazlarının canına vicvicə salan Noqay Ordası dövlətini məhv etdiyini düşünən rus şovinistləri əriyib yox olmaqda olan noqayların gənc bir qızının belə uğur qazanması, hətta rusiyalı gənclərin əksəriyyəti tərəfindən də sevilməsi ilə barışa bilmirdilər. Çox zaman açıq-aşkar büruzə verirdilər ki, nədən 150 milyonluq Rusiyadan deyil, 50-60 minlik noqaylardan və b. əsarət altında saxladıqları xalqlardan belə istedadlar ortaya çıxır.

Allahın verdiyi istedadın qarşısını heç bir güclə, təbliğat və təzyiqlə almaq mümkün deyil. Bu gənc çoban qızında da şairlik Allahın verdiyi bir istedad idi. O dövrdə məşhur yazıçı və şairlərin kitablarının nəşriyyatların planına saldırılması, rəyə göndərilməsi və çapı azı 3-5 il çəkirdi. Bürokratik əngəllərin güclü olduğu bir dövrdə Qədriyənin 22 yaşında, yəni 1971-ci ildə Mahaçqaladakı dövlət

nəşriyyatında ilk şeirlər toplusu çap olunur. Şairin ana dilində çap olunan, "Tav danıldan başlandı" (Dağ yamacdan başlayar) adlandırdığı şeirlər kitabı yalnız noqaylar və Dağıstanda yaşayan qumuqlar, avarlar, ləzgilər, darginlər arasında deyil, Quzey Qafqazda yaşayan qaraçaylar, balkarlar, çeçenlər, çərkəzlər, kabardalılar, inquşlar, osetinlər, türkmənlər arasında da böyük maraqla qarşılanır.

Qədriyənin şeirinə marağın artmasına səbəb onun poeziyanın, o dövrün siyasi maşınının tərənnümçülüyündən, şüarçılığından uzaq olması idi. O, poeziyaya ideoloji mübarizədə bir təbliğat vasitəsi kimi baxmırdı. Şeirə bir sənət nümunəsi, insanların daxili aləminə enən, onların mənəviyyatına təsir edən, iç dünyasının tələblərini ödəyən bir vasitə kimi baxırdı. O istəyirdi ki, şeirlərini oxuyanlar ürəklərindən keçirdiyi duyğuların bədii əksini orada görsünlər.

1956-cı ildə Sov.İKP 20-ci qurultayında Stalinin şəxsiyyətə pərəstişdə ittiham edilməsi, ölkədəki kütləvi həbs və cəzaların onun idarəetmədəki yanlışlığı kimi dəyərləndirilməsi, bu qəddarlıq və haqsızlıqlardan ziyalıların daha çox zərər gördüyünün rəsmi məclislərdən söylənməsi gənc nəsildə böyük ruh yüksəkliyi yaratmışdı. Xüsusən gənc yaradıcılar keçmişdəki haqsızıqların

bir daha təkrarlanmayacağına inanır və böyük həvəslə yazıb-yaradırdılar. Onlar hər gün qarşılaşdıqları haqsızlıqları, senzor nəzarətini isə yerli məmurların özbaşınalığı kimi dəyərləndirirdilər. Beləcə Sovet ədəbiyyatında altmışıncı illərin nəsli deyə bir ədəbi gənclik formalaşırdı. Onların sayı o qədər artırdı ki, hamısını 1937-ci ildəki kimi kütləvi həbslər, güllələnmələrlə aradan qaldırmağın mümkünsüz olduğunu hakimiyyət orqanları yaxşı başa düşürdü. 1960-cı illərin nisbi yumşalmasını aradan qaldırmaq mümkün olmadığını gördükdə senzor nəzarətini artırır, arxivləri yaradıcı ziyalıların üzünə qapayır, xarici ölkələrdən qəzet-jurnal, kitab gətirilməsini məhdudlaşdırır, onların həqiqəti öyrənmək, söz demək imkanlarını daraldırdılar.

1973-cü ildə Qədriyə Temirbulatovanın "Yaslık yırları" (Gənclik nəğmələri), "Tav danıldan baslanadı" (Dağ yamaçdan başlayar), "Ayındırık yarıqı" (İldırım işığı) və "Yatlablar" (Şeirlər) adlı kitabları çap olunur. Bu milli azlıqlardan olan gənc bir şair üçün olduqca böyük bir uğur idi. 1964-cü ildə N.S.Xruşşovu devirərək hakimiyyəti ələ alan partiya rəhbərləri Stalini şəxsiyyətə pərəstişdə ittiham edə-edə özləri də onun yolunu davam etdirirlər. Onlar açıq-aydın görürdülər ki,

demokratik islahatların həyata keçirilməsi Sovetlərin dağılmasına gətirib çıxaracaqdır. Odur ki, xaricdə özlərini demokrat, xalqların hüququnun müdafiəçisi kimi göstərmək üçün etnik qrupa çevirdikləri avarlardan, nenlərdən, noqaylardan olan yazıçı və şairlərə müəyyən həddə milli mövzularda əsərlər yaratmağa imkan verirdilərsə də özbək, qazax, ukrayın, Azərbaycan ədiblərinin milli mövzuda yazmalarını əngəlləyir və müxtəlif təziq vasitələrilə bu yoldan çəkindirirdilər.

Qədriyə də yaranmış imkandan istifadə edərək "Tereklidə üç gün", "Nənəmə", Atama", "Anama" və başqa şeirlərində Rusiyanın yüzillər boyu xalqının başına açdığı müsibətləri dilə gətirirdi. Rəhbər partiya-sovet işçiləri çar hakimiyyəti zamanı əsarət altında olan xalqlara divan tutulduğunu tənqid etsələr də, özləri də həmin siyasəti yürüdürdülər. Ona görə də əsarət altında saxladıqları xalqların qələm sahiblərinin Rusiyanın işğalçı siyasətini tənqid etmələrini istəmirdilər. Yaxşı bilirdilər ki, bu milli oyanışı sürətləndirir.

Belə bir ikili siyasət yeridildiyi zamanda onlar Qədriyə kimi fitri istedadları özlərindən narazı salmaq istəmirdilər. Əksinə, nə yolla olur-olsun, onları öz siyasətlərinin təbliğatçısına çevirmək üçün şirnikdirir, imtiyazlar, mükafatlar verirdilər.

1975-ci ildə isə Moskvadakı "Molodaya qvardiya" nəşriyyatı Qədriyənin rus dilinə çevrilmiş "Ulıbka lunı" (Ayın təbəssümü) kitabını nəşr edir. O dövrdə çox böyük nüfuza malik olan, hakimiyyət orqanları tərəfindən neçə-neçə mükata layiq görülmüş, məşhur malkar (balkar) şairi Qaysın Quliyevin ön söz yazdığı bu kitab müəllifinə böyük uğur qazandırır. Kitabın birinci nüsxəsi Qədriyəyə Moskvada, Gənc Yazıçıların VI Ümumittifaq müşavirəsində təqdim olunur. Az sonra Qədriyə Temirbulatova Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı Dağıstan Vilayət Komitəsinin Mükafatına layiq görülür.

Qədriyə öz əsərlərini təbliğ etməklə kifayətlənmir, 26 yaşında intihara sürüklənmiş Qamzat Acıgəldiyevin noqay türkcəsində yazdığı şeirləri rus dilinə çevirərək çap etdirir. Qamzat intihar edəndə Qədriyənin 16 yaşı yenicə tamam olmuşdu. Hakimiyyət orqanları adının belə çəkilməsini istəmədikləri Qamzatın daha geniş auditoriyada təbliğ edilməsilə də razılaşa bilmirlər. Qədriyə Temirbulatova "Qamzatxan" şeirində yazırdı:

Küntuvarda kün tuvmaydı zamansız, -
Gündoğarda gün doğmadı zamansız,

Künbatarda kün batpaydı zamansız, - *Günbatarda gün batmadı zamansız,*

Yahşi yok dep aytpayman bu dunıyada, - *Yaxşı yox deyib söyləməm bu dünyada,*

Tekbolmaydı eken dunıya yamansız... -*Tək olmadı ikən dünya yamansiz...*

Zaman yetpey tuvmaydılar âvletler, -*Zaman yetmədən doğulmur övladlar,*

Zaman yetpey atılmaydı tav suvlar, -*Zaman yetmədən axmır dağ suları,*

Zaman yetpey kurımaydı tenizler. -*Zaman yetmədən qurumur dənizlər.*

Bu dunıyada bolmay bir zat zamansız, -*Bu dünyada olmaz heç şey zamansız,*

Bolmay bir zat zamansız bu dunıyada. -*Olmaz heç şey zamansız bu dünyada.*

Tek zamansız kele yerge şairler, -*Tək zamansız gələr yer üzünə şairlər,*

Zamansız da taya olar dunıyadan... -*Zamansız da gedərlər onlar dünyadan..*

Onu bir tərəfdən mükafatlandırsalar da, o biri tərəfdən rəhbər partiya işçiləri, hakimiyyətə yaxınlığı ilə seçilən, mükafatlı yazıçı və şairlər, KQB məmurları öyüd-nəsihətlər verir, üstüörtülü hədələyirdilər. Qədriyə isə heç bir hədə-qorxudan

çəkinmir, öyüd-nəsihətə qulaq asmır. Rəsmi dairələrdə deyilənləri əldə bayraq edərək millətinin hüquqlarını qorumağa çalışır.

1978-ci ildə onu Moskvaya SSRİ Yazıçılarının qurultayına və Daşkənddə keçirilən Asiya-Afrika Ölkələri şairlərinin forumunda iştirak etməyə göndərirlər. Həmin il Mahaçqalada Qədriyənin ana dilində "Xayran" (Heyran) kitabı çap olunur.

Rəsmi toplantılarda öyülən, mükafatlandırılan, arxada isə hədələnən, qorxudulmağa çalışan gənc şair yolundan dönməz olduğunu nümayiş etdirir. 1978-ci ilin iyulunda onun adını da Kubanın paytaxtı Havanada keçiriləcək XI Ümumdünya Gənclər Festivalına gedəcək nümayəndə heyətinin tərkibinə daxil edirlər. Lakin bu səfər Qədriyəyə nəsib olmur. İyun ayının 30-da, günün günorta çağında onun cəsədini öz evində tapırlar. Məlum olur ki, onu öldürdükdən sonra cəsədini yandırıblar ki, başqalarının da gözünü qorxutsunlar. Bu faciəyə cinayət donu geydirilir. Sovetlər dağıldıqda isə bu qəddar cinayətin KGB tərəfindən təşkil edildiyi açıldı. Çeçenistanda başlayan antirusiya hərəkatından qorxuya düşən rəhbər işçilər yenidən bu mövzunu qapatdılar və KQB arxivlərinin Dağıstan Respublikasında açılmasını əngəllədilər.

Qədriyə Temirbulatovanın şeirləri ölümündən sonra toplanaraq "Əsmə, saxlan" və "Peşiman yırları" adlı kitablarda çap olundu.

Qeyd: ***"Noqay şairi Qədriyə nədən 29 yaşında öldürüldü?" məqaləsi "Türk eli" elmi-ictimai-ideoloji jurnalının 2012, 13-cü sayında (dekabr, s. 36-39) və "Birlik" jurnalının 2014, 08-09 (19)-cü sayında (s. 45-47) çap olunmuş, TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il fevralın 2-də, saat 12.14-də efirə getmişdir.***

www.uluturk.info/photos/TURKELI_13%20zeif.pdf

ABDRAXMAN UMAROV



noqay. Abdraxman Umarov,
əski əlifba ilə
عبدالرحمن عؤمروو,
rus. Умаров Абдурахман
(1866-1933)

Abdraxman İsmayıl ulu Umarov 1866-cı ildə doğulub. Onun doğulduğu illərdə noqaylar hələ də köçəri halda yaşayırdılar. Buna görə də qaynaqlar onun hansı şəhərdə, hansı kənddə anadan olduğunu deyil, Həştərxan bölgəsində yaşayan Nayman tayfasından olduğunu yazıblar.

20-ci yüzilin ilk onilliklərinə kimi keçmiş Rusiyada yaşayan türk xalqlarını bir-birindən ayırmaq o qədər də asan olmurdu. Yəni onlar günümüzdəki kimi kəskin özbək, qazax, qırğız, azərbaycanlı, tatar, başqırd, noqay və başqa adlarla ayrılmamışdılar. Ona görə də bir çox alimlər, yazıçılar, jurnalistlər, bir sözlə tanınmış ziyalılar gah tatar, gah başqırd, gah türk, gah noqay adlandırılır. Abdraxman Umarovun gah noqay, gah

tatar yazılması da bundan qaynaqlanır. Onun adının Abdraxman, Əbdülrəhman, soyadının isə Umarov, Omarov və Ömərov yazılmasına da tez-tez rast gəlmək olur.

Abdraxman Umarov ilk təhsilini molla yanında almışdır. Molla ona yalnız oxumağı və yazmağı öyrətməmişdir. Türk ləhcələrini, fars, ərəb dillərini öyrətmiş, dini və dünyəvi biliklərdən məlumat vermişdir. Bəzi qaynaqlarda Abdraxman Umarovun dövrün böyük alimi Şəqabəddin Mərcaninin tələbəsi olduğu və Kazandakı "Mərcaniyyə" mədrəsəsində oxuduğu göstərilir. 1892-ci ildə Həştərxana dönən Abdraxman Umarov yeni üsulla dərslər keçiriləcək "Nizamiyyə" mədrəsəsini açır. Krımda İsmail bəy Qaspıralının təşəbbüsü ilə yaradılmış bu təhsil metodu tarixə cədidçilik (yenilikçilik) hərəkatı kimi daxil olmuşdur.

Abdraxman Umarov 1906-cı ilə kimi məktəbdarlıqla məşğul olmuşdur. Onun ictimai işlərdə fəallığı 1905-ci il inqilabından sonra artmışdır.

1900-cü illərə kimi Rusiya işğalı altında olan müsəlman şəhərlərinə nisbətən Həştərxan şəhərində təhsilli insanların sayı az idi. Buraya kadrlar əsasən Kazandan və İstanbuldan gəlirdi. Hətta şəhərin ictimai-siyasi həyatında iştirak edən, ticarətlə

məşğul olan müsəlmanların sayı da az idi. 1900-cü ilin siyahıya almasına görə şəhərdə 50 minə yaxın müsəlman yaşayırdı. Onların da çoxunu tatarlar, noqaylar, az bir qismini isə qazaxlar, Qafqazdan, İrandan gələnlər təşkil edirdi.

Əsli Şirvandan olan və bir neçə il İstanbulda yaşayaraq, orada təhsilini davam etdirən Mustafa Lütfi əfəndi Şirvanskinin (İsmayılov) Həştərxana gəlişi şəhərdə bir dirçəlişə səbəb olur. Ticarət və maarifçilik məqsədilə Həştərxana gələn Mustafa Lütfi əfəndi 1905-ci il 17 Oktyabr Manifestinin verdiyi imkanlardan istifadə edərək 1905-ci il noyabrın 26-da Həştərxanda ilk ictimai-siyasi cəmiyyət olan "Şurayi-İslam"ı qurur. Bu cəmiyyətin nəzdində 1906-cı il iyunun 6-da "Bürhani-tərəqqi" qəzeti nəşrə başlayır və 1906-1912-ci illərdə fəaliyyət göstərmiş oğlanlar üçün Darülədəb, qızlar üçün "Numuneyi-tərəqqi" adında yeni üsulla dərs verən məktəblər açır.

Bundan təsirlənən tatar və noqayların bir qrupu da Abdraxman Umarovun rəhbərliyi altında Cəmiyyəti-İslamiyyəni qurur. Bu cəmiyyət "İdil" qəzetinin nəşrinə icazə alır. Naşiri Abdraxman Umarovun olan qəzetin redaktorluğuna "Bürhani-tərəqqi" qəzetinin müxbiri Zahidullah Şerifullin gətirilir. Qəzetin ilk sayı 1907-ci il sentyabrın 7-də

işıq üzü görür. Cəmiyyəti-İslamiyyə də öz məktəblərini təşkil edir.

İlk baxışda xoş görünən bu işin arxasında Rusiya xüsusi xidmət orqanlarının məkirli siyasəti dayanır. Onlar İstanbuldan gəlmiş, islamçılığı, türkçülüyü təbliğ edən, müsəlmanların birliyinə nail olmaq istəyən bir qrupun Həştərxanda maarif və mədəniyyət sahəsini əllərinə almasını istəmirdilər. Eyni qayəli bu iki təşkilat əl-ələ verərək, bir-birinə yardım edib şəhərdə maarif və mədəniyyəti yüksəltmək əvəzinə qısa müddətdə bir-birinə düşmənə çevrildilər.

Çox təəssüf ki, istər Abdraxman Umarov, Mustafa Lütfi əfəndi və onları dəstəkləyən onlarla millətsevər və dindar Rusiya xüsusi xidmət orqanlarının məkrini lazımınca dəyərləndirə bilmirlər.

Hətta ziddiyyəti aradan qaldırmaq üçün Rusiya müsəlmanları arasında böyük nüfuzu olan, İttifaqi-Müslimin Partiyasının sədri Əlimərdan bəy Topçubaşov da Həştərxana gəlir. Şəhərin müsəlman öndərlərinin toplantısında Əlimərdan bəy Topçubaşov hər iki qrupun liderlərini barışdırır. Çox təəssüf ki, bu barışıq uzun sürmür. Hətta vəziyyət o qədər gərginləşir ki, Cəmiyyəti-İslamiyyə üzvlərindən bir qrup Həştərxan qubernatoruna

şikayət edərək 1908-ci il yanvarın 22-də Mustafa Lütfini həbs etdirirlər.

Bu ziddiyyətlərə görə Mustafa Lütfi əfəndi bir neçə dəfə qısamüddətli həbs cəzasına məhkum olunub, onu cərimə ilə əvəzləyiblər. 1912-ci ildə Şurayi-İslam və Cəmiyyəti-İslamiyyə birləşdirilir, onun qəzeti və məktəbləri bağlanır. İlk baxışda hər şey Cəmiyyəti-İslamiyəni xeyrinə bitdiyi kimi görünür. Əslində isə belə deyildi. Bu qarşıdurma müsəlmanların birləşməsinə əngəl olmağa yönəldilmişdi. Şurayi-İslam və onun rəhbəri Mustafa Lütfi əfəndi dindaşlarının əlilə sıradan çıxarıldıqdan az sonra, yəni 1913-cü ilin payızında Abdraxman Umarov da panislamizmdə suçlanaraq 1914-cü ilin fevralında Kazana sürgün olunur və 1917-ci ilədək orada yaşamağa məcbur edilir.

Abdraxman Umarov "İdil" qəzetini və yeni açdıqları başqa qəzet və jurnalları gücləndirmək məqsədilə Kazanda məşhur tatar şairi Said Remiyevi "İdil" qəzetinə redaktor işləməyə dəvət edir.

Abdraxman Umarov Cəmiyyəti-İslamiyyəyə rəhbərlik etmək, məktəblər açaraq orada dərs demək, dərsliklər yazmaqla yanaşı, qəzet və jurnallara məqalələr yazmaqla kifayətlənmir, yeri gəldikdə onlara redaktorluq da edir.

1906-cı il avqustun 16-21-də Nijni Novqorodda keçirilən Rusiya Müsəlmanlarının Üçüncü Qurultayında və ondan sonra 1917-ci ilədək keçirilən Rusiya Müsəlmanlarının bütün qurultaylarının iştirakçısı olur.

Abdraxman Umarov 1907-ci ildə evində mətbəə açır. Bu mətbəə 1917-ci ildə bolşeviklərin törətdiyi qarışıqlığınadək fəaliyyətini davam etdirir. Bağlananadək 60-dan çox kitab çap edir ki, bunun da ümumi tiraji 123500 keçir. Şəhərdə ilk kitab mağazası, ilk oxu zalı açan da Abdraxman Umarov olur. Dindar ziyalı Abdraxman Umarov Volqa boyunu, Başqırdıstanı, Qazax çöllərini gəzərək noqay nəğmələrini də toplayır. Topladığı nəğmələrə ön söz yazıb 1912-ci ildə "Noqay jirları" adı altında çap etdirir.

Onun mədrəsələrdə tədris edilmək üçün yazdığı "Muqallim sarf lisan al-arab" dərsliyi 9 dəfə altı min tirajla, "Muqallimu naxvi lisan al-arabi" kitabı" iki dəfə bir neçə min tirajla çap olunur.

Abdraxman Umarov bolşeviklərin gəlişini də xoş qarşılamır. Bolşeviklər də onun bütün malını, mülkünü, hətta əlyazmalarını və sənədləri müsadirə edirlər. "Həştərxan noqaylarının tarixi" əsərini yazan alim, pedaqoqu Sovet hökuməti 1926-cı ildə Məkkədə keçirilən Ümumdünya İslam Konfransına

göndərir. Konfransdan döndükdən sonra da həmişə təqib və təzyiq altında olur. 1929-cu ilin iyulunda və 1930-cu il avqustun 9-da onun evini yenidən yoxlayır, əsərlərini müsadirə edir, özünü istintaqa çəkirlər. Bu istintaqdan isə qurtula bilmir. Həbs edərək Arxangeliski vilayətinin Kiçik Karel kəndinə göndərirlər. Qoca alim və din xadimi 1933-cü ilin martında orada dünyasını dəyişir.

SSRİ dağıldıqdan sonra noqay və tatar alimləri Abdraxman Umarovun həyət və yaradıcılığını öyrənməyə, əsərlərini çap etməyə başlayırlar.

Qeyd: TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il noyabrın 21-də, saat 12.14-də efirə getmişdir.

ABUSUFYAN AKAYEV



Abusufyan Akayev,
əksi əlifba ilə آبوسپیان
rus. Абусупьян Акаев
(1872-1931)

Abusupyan Akayqadı oğlu Akayev (Arslanbekov) 1872-ci ildə indiki Rusiya Federasiyasının Dağıstan Respublikasının Töbenkazanıs kəndində doğulub. Bu elə bir zaman idi ki, Qafqazda müridizm hərəkatı məğlubiyyətlə sonlansa da, Rusiyanın Qafqazı işğalından 70 ildən çox keçsə də müstəmləkəçilərin qanunları hələ tam oturuşmamışdı. Rus məmurları yerli xalqları Peterburqda hazırlanmış qanunlarla idarə etməkdə çətinlik çəkirdilər.

Rusiyanın hakim dairələri Şeyx Şamilin rəhbərlik etdiyi müridizm hərəkatını söndürmək üçün 30 ildən çox bölgədə müharibə apardıqdan və yarım milyondan artıq əsgər və zabitini itirdikdən sonra anladılar ki, qanunları köhnəlib. Yəni, Rusiyada mövcud olan qanunlar işğal altına alınan xalqlar tərəfindən deyil, rusların qabaqcıl ziyalıları tərəfindən də qəbul edilmir.

Ona görə də 1861-ci ildə təhkimçiliyin ləğvi haqqında qanun qəbul etdi. Bununla yanaşı, Rusiyada mövcud olan qanunların bəziləri Qafqaz xalqlarına, eləcə də əsarət altına aldığı müsəlman xalqlarına aid edilmirdi.

Rusiyada ictimai yerlərdə mülki şəxslərin qılınc, xəncər və b. kəsici silahlarla görünməsi qadağan olduğu halda, Qafqaz xalqlarının nümayəndələrinin xəncərlə gəzməsi milli atribut sayılırdı. Müsəlman xalqları aralarında mübahisələr, ziddiyyətlər düşdükdə, hətta problem ölüb-öldürməyə gəldikdə belə Rusiyanın məhkəmə orqanlarına deyil, müsəlman qazılarına müraciət edirdilər. Rusiyanın hakim dairələri də zor gücünə də olsa, bunun qarşısını ala bilmədiklərindən şəriət məhkəmələrini də saxlamağa məcbur olmuşdu. Beləliklə ölkədə iki məhkəmə sistemi vardı.

Abusufyanın atası Akay da dini təhsil gördüyündən, İslami ehkamlarını yaxşı bildiyindən onu qazı seçmişdilər. Çar məmurları qazıların işinə nəzarət etsələr də, onlar cəzaları Rusiyanın qanunlarına görə deyil, şəriət qanunlarına görə müəyyənləşdirir, hökm verərkən Qurani-Kərimi əsas götürürdülər.

Abusufyan da ilk təhsilini evdə atasından alır. Quran oxumağı, şəriəti, fars və ərəb klassiklərinin

bədii-nəsihətamiz əsərlərini oxumağı öyrənir. Sonra onu Töbenkazanıs kəndindəki məktəbə göndərdilər. Bu məktəblərdə dərs tədris proqramı ilə deyil, şagirdin proqramı mənimsəməsi ilə ölçülürdü. İti zəkalı, dərslərini yaxşı mənimsəyən şagirdləri müəllim-molla zəif oxuyanlara rəhbər təyin edirdilər.

Fitri istedadı ilə seçilən Abusufyanı da molla yaşıdlarına, həm də yaşda özündən böyük olan, proqramı mənimsəməyə bilməyənlərin rəhbər təyin edir. Necə deyərlər, balaca Abusufyan özü molladan öyrənməklə yanaşı, həm də müəllimlik edir, məktəbə yeni gələnlərin və proqramı vaxtında mənimsəyə bilməyənlərinin dərs oxumalarına nəzarətdə saxlayır. Bununla da özünün oxuduqlarını bir daha təkrarlamış olur. Bu da tədris edilən proqramın yaddaşına hopmasına kömək edir.

Abusufyan doğulduğu kənddəki ibtidai məktəbi bitirdikdən sonra, atası onu Güngüteydəki mədrəsədə oxumağa göndərdi. Oradakı tədris proqramını birincilər sırasında başa vurur. Atası Akay dövrünün elm adamlarını və pedaqoqlarını yaxşı tanıdığından oğlunu Temirxan-şuradakı, Soğratdakı, Tarqutdakı mədrəsələrə göndərir və bununla da Abusufyanın Dağıstanın tanınmış alimlərindən dərs almasına, dini elmlərilə yanaşı,

dünyəvi elmləri də dərindən mənimsəməsinə şərait yaradır.

O, türk, fars, ərəb dillərini, ədəbiyyat, tarix, astronomiya, astrologiya, fəlsəfə, fizika, riyaziyyat, həndəsə, coğrafiya və b. fənləri əla bilən bir gənc kimi doğma kəndinə qayıdır. Kənddə yeni məktəb açaraq bildiklərini həmyerlilərinin övladlarına öyrətməyə çalışır. Onun sorağı tezliklə ətraf kəndlərə də yayılır. Bölgənin sayılıb-seçilən adamları uşaqlarını Abusufyanın yanına gətirirlər. Beləcə az zamanda onun şagirdlərinin sayı xeyli artır. Abusufyan müəllim işlədikcə təhsil və tədrisdəki nöqsanları görmək imkanı əldə edir. Keçmiş mədrəsə proqramlarının zamanın nəbzini tutmadığının şahidi olur. Odur ki, həm təhsilini artırmaq, həm də təcrübə qazanmaq üçün Kazana, Orenburqa oxumağa gedir.

1902-ci ildə təhsilini tamamlayan, təcrübə qazanan Abusufyan Akayev Dağıstana, yəni doğma kəndi Töbenkazanışa dönərək yeni məktəb açmağı planlayır, lakin bu dəfə mədrəsə açmaqdan əl götürüb Üsuli-cədid məktəbi açmaq istəyir. Bu məktəb üçün dərslik və metodik vəsait çatmadığından yaxın dostu Muhammed Mirza Maqrayov ilə birlikdə Krıma, İsmayıl bəy Qaspıralının yanında gedərək həm ondan məsləhət

almağı, həm də təcrübəsindən yararlanmağı qərara alırlar.

1902-1903-cü illərdə orada mətbəə, nəşriyyat işlərini öyrənir, "Tərcüman" və başqa qəzet-jurnallara məqalələr yazır. Bağçasaray və Akmescitdə (Simferepol) yazdığı kitabları da çap etdirir. Qumuq Abusufyan Akayev İsmaıl bəy Qaspıralının "Dildə, fikirdə, işdə birlik" tezisinə ürəkdən bağlı olsa da, onu Dağıstanda həyata keçirməyin çətin olduğunu da görür.

Çünki Dağıstan və Quzey Qafqaz dillər muzeyini xatırladırdı. Dünya xəritəsində kiçik bir bölgə olan Quzey Qafqazda insanlar 40-dan çox dil və ləhcədə danışırdılar. Çox vaxt bir kəndin sakinləri qonşu kənddə danışlan dili başa düşmürdülər. Fərqli dilləri öyrənmək, həmin dillərdə bir-birləri ilə ünsiyyət qurmaq çətin olduğundan türk dili burada ortaq danışıq dilinə çevrilmişdi. Bölgədə yaşayan qumuq, qaraçay, malkar (balkar), noqay və urumlular türksoylu olduqlarından bir-birini anlasalar da, avarların, ləzgilərin, darginlərin, lakların, abazalıların, osetinlərin, qabardalıların və b. dilləri tamam fərqli idi.

Abusufyan Akayev yaxşı başa düşürdü ki, bölgə xalqlarını savadlandırmaq üçün türk dili aparıcıdır.

Çünki kəndlərdə yaşayanların çoxu ömürləri boyu bəlkə də bir dəfə də olsun doğulduğu yerdən uzağa getməyib, orada doğulub, orada yaşayıb, orada da dünyadan köçürdülər. Buna görə də çoxdilli bir bölgədə yaşayanları inancla, dinlə birləşdirmək daha asan idi. Abusufyan da dinin yayılmasına və dini təbliğata xüsusu önəm verir. Yaxşı bilirdi ki, Şeyx Şamil də islam dininin birləşdirici gücündən bacarıqla yararlanaraq Rusiya kimi hərbi qüdrəti dünyanı lərzəyə salan dövlətə 30 il müqavimət göstərə bilmişdi.

İstanbulda, Kırımda təcrübə keçib Dağıstana qayıdan Abusufyan Akayev kənddə məktəb açmaq fikindən daşınır. 1904-cü ildə bölgənin ən böyük yaşayış məskənlərindən olan Teymurxan-şuraya köçərək orada Muhammed Mirza Maqrayov ilə birlikdə ilk milli mətbəəni qururlar.

Abusufyan Akayevin Teymurxan-şurada Muhammed Mirza Maqrayov ilə birlikdə qurduğu ilk milli mətbəə böyük uğur qazanır. Azərbaycanın ictimai-siyasi xadimləri və ədiblərindən Şeyx Məhəmməd Xiyabani, "Əkinçi" qəzetinin müxbirlərindən Məmnun Əlqadari, Mirzə Əbdürrəhim Talıbov və b. Abusufyan Akayevlə sıx əməkdaşlıq edir, kitablarını onun mətbəəsində çap

etdirir, onun ərəb dilində nəşr etdiyi "Bəyan ül-həqiqət" jurnalına məqalə yazırlar.

Abusufyan Akayev əsas ağırlığı İslam dininə dair kitabların nəşrinə verməklə yanaşı, özü də dininin təbliğinə dair kiatablar yazır. O, yalnız din alimi və dini ədəbiyyatı yayan naşir olmaqla qalmır, qumuq folklorunu toplayıb nəşr edir, müxtəlif dillərdən qumuq dilinə tərcümələr edir.

Müəllimlik etməklə yanaşı, Doğu ədəbiyyatına dair araşdırmalar aparan, folklor nümunələri toplayıb çap etdirən Abusufyan 40-dan çox kitab yazıb. Bu o dövr üçün olduqca böyük bir iş idi.

1917-1920-ci illərdə bölgədə gedən savaşlar Abusufyanın fəaliyyətinə də mənfi təsir göstərir. 1920-ci ildə bölgəni işğal edən bolşeviklər Abusufyan kimi nüfuzlu, əlində təbliğat vasitəsi və mətbəəsi olan bir insanın gücündən məharətlə istifadə edirlər.

Abusufyan da Sovet hökumətinin sülh, bərabərlik, azadlıq və s. şüarlarına aldanaraq onlarla əməkdaşılğa razılaşır. "İnternasyonal" marşını qumuq türkcəsinə tərcümə edən Abusufyan, qumuq türkcəsində ilk bolşevik qəzeti "İşçi xalq"ı da nəşr edir və bir müddət onun redaktoru da olur.

Abusufyan Akayev dərs deməklə gənc nəslin tərbiyəsi ilə məşğul olmaqla yanaşı, yazdığı "Əxlaq

kitabı", "Yüz ilin asan təqvimi", "Qumuq folkloru və ədəbiyyat əsərləri antologiyası", "Tahir ilə Zöhrə", "Yusup və Züleyxa", "Bozyigit" və b. kitabları böyük maraqla qarşılanır.

Lakin hökumətin ona göstərdiyi diqqət və qayğı uzun sürmür. Qadınlara çadralarını, kişilərə papaqlarını atdırma kampaniyası, dinə qarşı təzyiqlər, min ildən çox istifadə edilən ərəb əsifbasının latın əlifbası ilə əvəz edilməsi Abusufyanın ürəyincə olmur. Hökumətin siyasətinə açıq narazılığını bildirir.

Abusufyan Akayev və bölgənin bir çox ziyalılar, hətta partiya-sovet işçiləri Moskvaya Dağıstan xalqları arasında ortaq ünsiyyət vasitəsi olan türkcənin rus dili ilə əvəzlənməsinə etiraz edirlər. Təklif edirlər ki, Moskva uzaq olduğundan ora ilə əlaqə qurmaq çətindir, buna görə də Dağıstan MSSR Azərbaycan Respublikasının tərkibinə verilsin. Sovet xüsusi xidmət orqanları sərt tədbirlər həyata keçirir. Onlarla ziyalını, partiya-sovet işçilərini həbs etdirir, sürgünə göndərir, vəzifədən uzaqlaşdırır.

1929-cu ildə Abusufyan Akayevin mətbəəsi bağlanılır və özü də həbs edilərək Perm vilayətinin Pinyuq stansiyasında dəmiryolu çəkilişində işləməyə göndərilir. Oradan da Arxangelski

vilayətini Kotlas şəhərinə göndərilən yazıçı-alim ilk dəfə həbsxanada siyasi aclıq aksiyasını təşkil edən Azərbaycanlı siyasi məhbuslarla görüşür. Bu yer daha çox Solovki kimi tanınır. Rus yazıçısı Soljınitsinin Nobel mükafatına layiq görülən "Qulaq arxipelaqı" romanı da burada baş verən hadisələrdən bəhs edir.

Abusufyan Akayev orada həbsdə olan Azərbaycan siyasi məhbusları ilə görüşür və onların mübarizəsini dəstəkləyir. 1931-ci ildə həbsdə ölən ictimai xadim, şair, naşir, tərcüməcinin həyat yolunun və yaradıcılığının öyrənilməsinə maraq Sovet hökumətinin çöküşündən sonra başladı. Ona bəraət verilib, yubileyi qeyd edilib, bəzi əsərləri nəşr edilib. Lakin, hələ də fəaliyyəti layiqincə qiymətləndirilməyib, əsərlərinin hamısı çap olunub oxuculara çatdırımayıb.

Qeyd: TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2011-ci il oktyabr 21-da, saat 12.14-də efirə getmişdir.

ALİM PAŞA SALAVATOV



qum. Alim Paşa Salavatov,
rus. Алим Паша Канболатович Салаватов,
(1901-1942)

Alim Paşa Salavatov 1901-ci il oktyabrın 29-da indiki Dağıstan Respublikasının Xasavyurt rayonundakı Axsay kəndində (kəndin adı qaynaqlarda Yaxsay, Aqsay, Yaqsay, Ağsay, Yaxsay kimi də yazılır) doğulub. Daşyonan Kanbolat yeni doğulan uşağın qulağına əzan oxuyaraq adını Alim Paşa deyir. Qaynaqlarda isə onun adı və soyadı Alim Paşa Salavatov, Alim-Paşa Salavatov, Alim Salavat, istintaq materiallarında isə Alim Paşa-Solqar, Alim Paşa Soqavat kimi yazılır.

Rusiya Qafqazı işğal etdikdən sonra burada yeni inzibati bölgələr yaradır. Alim Paşanın doğulduğu Yaxsay kəndi də Teresk quberniyasına daxil edilir. Bölgənin ən inkişaf etmiş mədəni mərkəzlərindən olan Yaxsaydakı mədrəsəni bitirənlərin çoxu alim, yazıçı, şair, ictimai-siyasi xadim, dövlət adamı kimi məşhurlaşır. 20-ci yüzildə

yaşamış qumuq yazıçı və şairlərinin az qala yarısı bu kənddəndir. Alim Paşa ata, anasını kiçik yaşlarında itirsə də ruhdan düşməmiş, əvvəl Yaxsay, sonra da Qaranoqay rayonunun Terkli (Dirəkli) Məktəb kəndindəki mədrəsədə oxumuşdur.

Yaradıcılığa 1914-1915-ci illərdə başlayan Alim Paşa Salavatov ilk yazılarını həmkəndlisi, inqilabçı Zeynalabid Batırmurzayevin (1897-1919) "Tanq çolpan" (Dan ulduzu) jurnalında çap etdirir. Birinci Dünya Savaşının başlanması Dağıstanda da vəziyyəti gərginləşdirir. Bolşeviklər hakimiyyəti silah gücünə ələ aldıqdan sonra Dağıstan və Quzey Qafqazda yaşayanlar müstəqil dövlətlərini yaratmağa cəhd edirlər. Onlar 1918-ci ilin mayında istədiklərin nail olurlar. Lakin qurduqları dövlətin ömrü çox uzun sürmür. Denikinin orduları Qafqazı yenidən işğal edir və milli hökumət quranları və onların tərəfdarlarını sərt cəzalandırır.

Ziyalıların bir qismi ağqvardiyaçılar və bolşeviklər tərəfindən öldürülür, həbs edilir, böyük bir qismi də mühacirətə getməyə məcbur olur. Bolşeviklər əsarət altına aldıqları xalqları öz tərəflərinə çəkmək üçün onlara milli dövlətlər qurmağa yardım edəcəyini, ana dilində məktəb, qəzet, jurnal, teatr açacağını, savadsızlığı aradan qaldıracağını, sinfi ayrıseçkiliyə son qoyacaqlarını vəd

edirlər. Gənc Alim Paşa Salavatov da şirin vədlərə aldananlardan olur. Xalqının xoşbəxt gələcəyi üçün bolşeviklərlə əməkdaşlıq edir.

Bolşeviklər onu Teymurxan-şura qəsəbəsində ibtidai məktəb müəllimləri hazırlayan bir illik kursa oxumağa göndərir. Alim Paşa Salavatov kursu əlaçı kimi bitirsə də onu müəllim işləməyə göndərmirlər. Bolşeviklərin yeni yaratdığı siyasi maarif cəmiyyətində tərcüməçi kimi işlədirlər. Az sonra isə onu Kazan şəhərindəki pedaqoji kursda oxumağa göndərirlər. Kursu başa vurduqdan sonra doğma kəndlərində müəllim işləməyə göndərirlər. Alim Paşa Salavatov Sovetlərin yeni açdığı məktəbdə müəllim və dərs hissə müdiri işləyir.

Yeni yaradılmış hökumətin hər yerdə olduğu kimi Dağıstanda da milli kadrlara böyük ehtiyacı vadrı. 30-a yaxın dil və ləhcələrdə danışan Dağıstan xalqlarının əlifbaları, məktəbləri və ixtisaslı kadrları yox dərəcəsində idi. Vəziyyətdən çıxmaq üçün Dağıstan İnqilab Komitəsi, Dağıstan Xalq Maarif Komissarlığı 1921-ci ilin iyul, avqust, oktyabr aylarında, eləcə də 1922-ci ilin iyul, 1923-cü ilin mart ayında Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Sovetinə, Xalq Maarif Komissarlığına məktublar göndərərək köməklik göstərmələrini xahiş edirdilər.

Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Soveti və Xalq Maarif Komissarlığı Azərbaycan Dövlət Universitetində, Politexnik və Pedaqoji institutlarında, texnikumlarda, texniki peşə məktəb və kurslarında Dağıstanlı gənclərin təhsil almalarına imkan yaradır.

1923-cü ildə 218 dağıstanlı gənc Azərbaycanın ali və texniki-peşə məktəblərində oxuyur. Tələbələrin təhsil xərclərini də Azərbaycan hökuməti ödəyir. Dağıstan Vilayəti Partiya Komitəsi 1923-cü ilin noyabrı ayında keçirdiyi plenumunda dil məsələsini müzakirə edir. Qərara alır ki, Dağıstanda rəsmi yazışmalar və sənədləşmə türk dilində aparılsın. Dağıstan Muxtar Sovet Sosialist Respublikasının Maarif Komissarlığına tapşırılır ki, avar, qumuq, dargin, ləzgi, lak və b. xalqların dillərindəki məktəblərinin ibtidai siniflərində və ikinci dərəcəli məktəblərdə (yəni natamam orta məktəblərdə) türk dili dərsləri keçirilsin. Bu dilin tədrisi üçün lazım olan dərsliklər və metodik vəsait isə Azərbaycandan gətirilsin.

Azərbaycana oxumağa göndərilən dağıstanlı gənclər arasına istedadlı şair Alim Paşa Salavatov da daxil edilir. O, 1924-cü ildə Bakıda Pedaqoji İnstitutunda oxumaqla yanaşı ədəbi mühitdə də fəal iştirak edir. Azərbaycanlı alimlərlə və yazıçılarla sıx

əməkdaşlıq edir. Yazdığı şeirləri çap olunmaq üçün Dağıstana göndərir. Dağıstanda nəşrə hazırlanan jurnalların, kitabların bir qismi Bakıya göndərilərək buradakı "Üçüncü İnternasionla" mətbəəsində çap edilərək Mahaçqalaya göndərilir, oradan da Dağıstanın şəhər və kəndlərinə paylanırdı. Gənc şairin "Birinci qesek" (Birinci qisim) adlı kitabçasını Dağıstan Dövlət Nəşriyyatı 1925-ci ildə nəşr edir. Bu hadisə gənc şairi həvəsləndirir. "İkinci qesek" adlı şeirlər kitabını nəşriyyata göndərir. 1930-cu ildə isə onun "Seçilmiş əsərləri" nəşr edilir.

Alim Paşa Salavatov Bakıda oxuduğu illərdə, yəni 1926-cı ilin fevral-mart aylarında Birinci Ümumittifaq Türkoloji Qurultayı keçirilir. Qaynaqlar qurultayda 600 nəfərə yaxın ziyalının iştirak etdiyini yazır. Onlardan bizə, qurultaya nümayəndə olan və şəxsi dəvətlə gəlmiş 131 nəfərin, eləcə də qurultay nümayəndələri ilə birlikdə şəkil çəkdirimiş bəzi iştirakçıların adı və soyadı məlumdur. Ehtimal ki, adını hələlik müəyyənləşdirə bilmədiklərimiz sırasında Alim Paşa Salavatov da olmuşdur.

Alim Paşa Salavatovun təhsil almasına, əsərlərini çap olunmasına şərait yaradılsa da o cəmiyyətdəki saxtakarlıq və ikiüzlülüklə barışa bilmir. Bolşeviklərin hakimiyyətə gəldikləri ilk

günlər verdikləri vədə əməl etmədiklərini, milli məsələdə çar Rusiyasının yeritdiyi siyasəti davam etdirdiklərini görür. O da bir çoxları kimi gec də olsa aldadıldıqlarını başa düşür. Tələbə yoldaşları ilə bu mövzuda müzakirələr aparır. Bakıda yaşayan və ali məktəblərdə işləyən müəllimlərdən Krım tatarı Bəkir Çobanzadə ilə, özbək Xalid Səid Xocayevlə, Kazan tatarı Əziz (Qaziz) Ubaydullinə (Qubaydullin) fikirlərini bölüşür. Bu söhbətlər onu Bəkir Çobanzadənin rəhbərlik etdiyi gizli Vahid Türk Tatar Dövləti yaratmaq istəyənlərin qrupuna gətirib çıxarır.

1936-1938-ci illərdə keçmiş Sovet Sosialist Respubliaları İttifaqınında bir kabus dolaşmaqda idi. İnsanları xalq düşməni, əksinqilabçı, trotskiçi-zinonyevçi və s. adlarla kütləvi şəkildə həbs edirdilər. Bakıda da bir qurup ziyalı Sovetlər Birliyini dağıtmaqda, Vahid Türk Tatar Dövləti qurmağa cəhd göstərməkdə təqsirləndirilərək istintaqa cəlb edilmişdi. Onların arasında professor Bəkir Çobanzadə də vardır. Onun istintaq sənədlərinin həcmi min səhifədən çoxdur. Həmin istintaq sənətlərində və Vahid Türk Tatar Dövləti qurmaqda suçlandırılaraq istintaqa cəlb edilənlərin işlərində qumuq şairi, dramaturq Alim Paşa Salavatovun da adı keçir. Bəkir Çobanzadə

müstəntiqin suallarına verdiyi cavabda deyir ki, Bakıdakı antisovet təşkilatın ikinci və üçüncü qrupuna daxil olanlar arasında Dağıstandanlı Osman Qeqarbayev, Alim Paşa Salavatov, Surxay Yusupov da vardı. O, Dağıstanda və Quzey Qafqazda yaşayan Alim Paşa Salavatovla, Abusufyan Akayevlə, Ehtem Feyzi ilə, Şövqi Bektora ilə sıx əlaqədə saxladığını bildirir.

1931-ci ildə Bakıda təhsilini başa vuran gənc şairi Teymurxan-şuradakı (Buyunyaksk) Pedaqoji Texnikuma ədəbiyyat müəllimi göndərirlər. Lakin Alim Paşa Salavatovu texnikumda çox işləməyə qoymurlar. Dağıstanın paytaxtı Mahaçqalada yeni açılmış Elmi Mərkəzə gətirirlər.

1932-ci ildə Dağıstanda dağlı əməkçilərin Sovet hökumətinin qurulması uğrunda mübarizəsində və sosializm quruculuğundakı fəallığından bəhs edən dram əsərlərinin müsabiqəsi keçirilir. Alim Paşa Salavatov da "Qırmızı partizanlar" pyesi ilə müsabiqəyə qatılır və müsabiqənin qalibləri sırasında olur. Azərbaycan teatr işçilərinin yardımı ilə yaradılan Qumuq Xalq Teatrında oynanılan ilk milli əsərlərdən biri də "Qırmızı partizanlar" pyesi olur.

Alim Paşa Salavatov Elmi Mərkəzdə işləyərkən bölgələrə ezamiyyətə gedir, folklor nümunələri

toplayır, elmi araşdırmalar aparır. 19 yüzildə çar hökumətinin Sibirə sürgün etdiyi qumuq şairi Yırçı Qazağın şeirlərini toplayır. Bu iş onun cəmiyyətdəki nüfuzunu daha da artırır. Topladığı folklor materialları əsasında yazdığı "Ayqazi" və "Qarasaç" pyesləri qumuq milli dramaturgiyasının formalaşmasına güçlü təkan verir. Elmi Mərkəzdə işlədiyinə görə onu Moskvadakı Şərq Dilləri Universitetinin aspiranturasında qiyabi təhsil almağa göndərirlər. 1936-ci ildə isə Sovet Sosialist Respublikaları İttifaqı Yazıçılar İttifaqına üzv qəbul edirlər.

Ənənəvi şeir qəliblərindən və mövzusundan uzaqlaşmağı çalışan Alim Paşa Salavatov mövzunu günün hadisələrindən, çağdaşlarının həyatından seçir və uşaqlar üçün də şeirlər yazır. Nəşr etdirdiyi əsərlərində Sovet ideologiyasını təbliğ etsə də Bakıda üzv olduğu gizli təşkilatla da əlaqəsini kəsmir. Elə buna görə də KQB Aktay Acamatovu, Alim Paşa Salavatovu və b. antisovet fəaliyyətlərinə görə həbs edir.

İkinci Dünya Savaşı illərində alman ordularının sürətli hücumu Sovetlər Birliyini çətin vəziyyətə salır. Ölkənin ağır duruma düşdüyü günlərdə, yəni 1941-ci ildə Alim Paşa Salavatov ərizə yazaraq könüllü cəbhəyə gedir. 1942-ci ilin may ayında

Krımda (Sevastapol) gedən döyüşlərdə həlak olur. Savaşda həlak olması onun üzərindən millətçilik damğasını götürür, adının əbədiləşdirilməsinə şərait yaradır. Bir zaman qısamüddətli də olsa dərs dediyi Buyunyaksk (indiki İzberbaş) Pedaqoji Texnikumuna, Kumuk Musiqili Dram Teatrına, Mahaçqalada bir küçəyə Alim Paşa Salavatovun adı verilir.

Qeyd: ***TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2010-cu il fevralın 26-da, saat 12.14-də efirə getmişdir.***

CƏLALƏDDİN QORXMAZOV



Cəlaləddin Qorxmazov, əski əlifba ilə جلاالدين قورخمازوو, *rus. Джелал-Эд-Дин Коркмасов (1877/79-1937)*

Cəlaləddin Əsildar oğlu Qorxmazov 1 oktyabr 1877 və ya 1879-cu ildə Dağıstanın Kumtorqala kəndində ortabab bir ailədə doğulmuşdur. İndi həmin kənd Cəlaləddinin şərəfinə onun familyasına uyğunlaşdırılaraq Qorxmazqala adlandırılır. Cəlaləddin ilk təhsilini kəndlərindəki xalq arasında mollaxana adlandırılan ibtidai məktəbdə almış, sonra geniş yayılmış təhsil ocağı olan mədrəsədə oxumuşdur. Rusiya müstəmləkəçiləri işğal etdikləri bölgədəki mədrəsələr qapatmaq üçün müxtəlif vasitələrdən istifadə edir, oranı bitirənlərə dövlət idarələrində iş verməməyə çalışırdı. Lakin xalq Rusiyanın açdığı məktəblərdən çox mədrəsələrə rəğbət bəsləyirdi.

Bölgədə təhsilini başa vurduqdan sonra Cəlaləddin Qorxmazov bir çox həmyerliləri kimi

təhsilini davam etdirmək üçün Şərq ölkələrindəki dini mərkəzlərə getməmiş, Rus dilini, Rusiya təhsil sistemini öyrənərək Stavropoldakı klassik oğlan gimnaziyasına daxil olmuşdur.

20-ci yüzilin başlarında Rusiyanı bürüyən qarışıqlıq, geniş yayılan vətəndaş itaətsizliyi Dağıstandan da yan keçməmişdi. Çılğın və vətənsevər bir gənc olan Cəlaləddin xalqını müstəmləkədən azad, millətini firavan yaşayan görmək istəyir. Sosialistlərin "xalqlara azadlıq", "bərabərlik, insanın insan tərəfindən istismarına son qoyulması" və s. şüarları yaşıdlarının bir çoxu kimi ona da şirin gəlir. "Avropanı dolaşan kommunizm kabusu" gənc Cəlaləddini də öz qoynuna çəkir.

1906-cı ildə çar polisi onun hökumət əleyhinə fəaliyyətindən xəbər tutaraq həbs edir. Məhkəmənin qərarı ilə polis nəzarətində Olsnetski quberniyasına sürgünə göndərilir.

1907-ci ildə sürgündən qurtulub mühacirətə getməyə nail olan Cəlaləddin Qorxmazov Parisdə Sorbon Universitetinin Hüquq fakültəsinə qəbul olunur. Elə həmin il də Polşa inqilabçısı Skakovskinin qızı, sonralar özü də inqilabi mübarizə tarixində silinməz izlər qoymuş Mariya (1886-1937) ilə evlənir. Fransada ali təhsil almaqla yanaşı ictimai-siyasi işlərdə də fəallıq edir.

Cəlaləddin Qorxmazovla eyni illərdə gələcəyin ictimai-siyasi xadimi və dövlət adamı, Azərbaycan Cümhuriyyətinin 4 və 5 kabinetlərində nazir olmuş Rəşid xan Qaplanov da Sorbon Universitetinin Hüquq fakültəsində oxuyur. Onlar arasında dostluq telləri o qədər möhkəm olur ki, fərqli dünyagörüşə sahib olsalar da, dara düşəndə bir-birinə kömək əlini uzatmaqdan çəkinmirlər.

Cəlaləddin Qorxmazov Parisdə "Gənc türklər" adlandırılan qrupun üzvləri ilə yaxından dostluq edir. "İttihad və tərəqqi" partiyasının liderləri ilə sıx ünsiyyətdə olur. Bu təşkilatı, yalnız Osmanlı dövlətini deyil, şərq xalqlarını cəhalətdən, gerilikdən qurtaracaq bir xilaskar kimi görür. Odur ki, "İttihad və tərəqqi"çilər İstanbulda hakimiyyəti ələ aldıqdan sonra Sorbon Unversitetini bitirən Cəlaləddin Qorxmazov vətəninə dönmür, əqidə və məslək dostları olan "Gənc türklər"in yanına İstanbula gəlir.

Həmin illərdə İstanbulda hökumət dairələrinə yaxın xeyli qumuq yaşayırdı. Ona görə də Cəlaləddin Qorxmazov üçün İstanbul həyatı o qədər də çətin keçmir. Gənc ailə İstanbulda yaşayır, Rusiyadan gələn mühacirlər üçün pansionat təşkil edir. 1909-cu ildən isə ilk rusdilli türk mətbuatı olan – "Stambulskie novosti" qəzetinin nəşrinə başlayır.

Cəlaləddin Qorxmazovun redaktorluğu ilə cəmi 33 sayı çıxan bu qəzet "Gənc türklər" inqilabından sonrakı Osmanlını rus ictimaiyyətinə tanıtmaq baxımından mühüm rol oynayır. Bir sıra türk ziyalılarının məqaləsi qəzetdə verilir. Qəzet Osmanlı-Rusiya savaşlarının təsiri altında əsrlər boyu ruslarda yaranmış türk düşmənçiliyi düşüncəsinin tədricən aradan qaldırmağa kömək edir. Rusiyanın Osmanlı dövlətindəki səfiri N.V.Çarıxov Xarici İşlər naziri A.P.İzvolskiyə məktubunda "Stambulskie novosti" qəzetinin redaktorunu "mötədil görüşlərə malik çox istedadlı adam", qəzeti isə "Osmanlı dövləti ilə iqtisadi və mədəni zəmində yaxınlaşmağa xidmət edən nəşr" adlandırır.

Rusiyanı bürüyən qarışıqlıq, çar II Nikolayın taxtdan uzaqlaşdırılması əksər vətənpərvərlər kimi Cəlaləddin Qorxmazovu da vətəninə çəkir. O, yaranmış imkandan səmərəli istifadə edərək xalqını azadlığa çıxarmaq, ona xoşbəxtlik bəxş etmək istəyir.

1917-ci il martın 5-6-da əqidəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq əksər Quzey Qafqaz ziyalıları və xalqın öncülləri sayılanlar Vladiqafqazda bir araya gələrək Dağlıların Birləşmiş Müvəqqəti Mərkəzi Komitəsini yaradır.

Cəlaləddin Qorxmazovda təkcə bu qurultayda deyil, 1917-ci il mayın 14-21-də keçirilən qurultayda da iştirak edir. Qurultay Quzey Qafqaz və Dağıstan Dağlıları İttifaqı adlı təşkilat yaratdıqlarını elan edir. Həmin ilin sentyabrında keçirilən növbəti qurultayda Abxaziyanın da İttifaqa qoşulması nəticəsində təşkilat Quzey Qafqaz, Dağıstan və Abxaziya İttifaqı adlandırılır.

Cəlaləddin Qorxmazov 1917-ci ildə dağlı xalqlarının hər iki tarixi qurultayında iştirak etsə də, az sonra milli qüvvələrdən uzaqlaşır, Temirxan-şurada Dağıstan Sosialist qrupunu yaradır. Qrup üzvləri Dağıstanda sosialist inqilabını hazırlayıb həyata keçirməyi qarşılarına məqsəd qoyur. Bolşeviklərin savadlı və genişdünyagörüşlü, təbliğat-təşviqat işini bilən, təşkilatçılıq təcrübəsi olan kadrlara böyük ehtiyacı olduğundan onu tezliklə RKP(b) Qafqaz ölkə komitəsi MK-nın üzvü seçirlər.

Bolşeviklər 1919-cu ildə Cəlaləddin Qorxmazovu Bakıda zəif olan RKP(b) Bakı Komitəsinin işini canlandırmağa göndərir. Azərbaycan təhlükəsizlik orqanları Cəlaləddin Qorxmazovu iş başında yaxalayaraq həbs edirlər. Azərbaycan hökuməti siyasi görüşlərinə görə insanlara sərt cəza vermirdi. Bundan yararlanan

Cəlaləddin Qorxmazov Bakı möhkəmləndirilmiş hərbi rayonunun rəisi vəzifəsini yerinə yetirən, çərkəz əsilli general Murad Gəray Tlexasın (1874-1920) yardımı ilə həbsdən çıxaraq Dağıstana qayıdır. Dağıstanda Müvəqqəti İnqilab Şurasına rəhbərlik edən Cəlaləddin Qorxmazov bölgəni bolşeviklər işğal etdikdən sonra 1921-ci ildə yaratdıqları Dağıstan MCCR-nın XKS-nın sədri təyin edilir.

Dağıstanda rəhbər vəzifədə işləyəndə Azərbaycanla sıx əlaqədə olan, Azərbaycanın maddi imkanlarından yararlanaraq Dağıstanın iqtisadiyyatını yüksəltməyə çalışan, maarif və mədəniyyətinin inkişafına nail olan Cəlaləddin Qorxmazov Bakıda bolşeviklərin tələbəlik dostu Rəşid xan Qaplanovu həbs etdiklərini eşidəndə Azərbaycan XKS sədri Nəriman Nərimanova, habelə Qafqaz Hərbi-İnqilab Komitəsinin üzvü Serqo Orconikidze və Azərbaycan MİK sədri İ.Naneyşviliyə müraciət edərək onun azad edilməsinə nail olur.

On il Dağıstan MCCR-nın XKS-nın sədri işləyən Cəlaləddin Qorxmazov 1926-cı ildə Bakıda keçirilən Birinci Umumittifaq Türkoloji qurultayına qatılır, bölmə iclaslarına sədirlik edir, yeni latın qrafikalı əlifbaya keçilməsində xüsusi fəallıq göstərir.

Bakı ali və orta ixtisas məktəblərində Dağıstan xalqları üçün xüsusi kursların açılmasına, Bakı mətbəələrində Dağıstan xalqlarının dillərində qəzet, jurnal, kitab nəşrinə nail olan Cəlaləddin Qorxmazovun fəaliyyəti getdikcə Sovet rəhbərlərini narahat etməyə başlayır.

1928-ci ildə yaradılan Umumittifaq Yeni Əlifba Komitəsinin sədr müavini kimi böyük təşkilati işlər görən, 1934-cü ildə Firdovsinin 1000 illik yubileyi münasibəti ilə yaradılan Sovet Təşkilat komitəsinə sədrlik edən Cəlaləddin Qorxmazovun dostları sırasında Jan Jores, Emil Zolya, Anatol Frans, Romen Rollan, Anri Barbüs və b. məşhurlar vardı. 1925-ci ildə Cəlaləddin Qorxmazovla görüşən məşhur Norveç qütb tədqiqatçısı, Nobel mükafatı laureatı Fritof Nansen onun haqqında yazır: "Qorxmazov Mahaçqala yaxınlığındakı Kumtorqala adlı qumuq kəndindəndir. Daha çox avropalıya bənzəyir. Ziyalı sifəti və geniş alnı var. Saçları bəyaz və dalğalıdır. Onun ana dili türk-qumuq dilidir. Bu dil Dağıstanda çox geniş yayılıb. Rus dili ilə birlikdə ümumi ünsiyyət vasitəsidir. Qorxmazov çox ağıllı adamdır. Gözəl təhsil alıb. Əsas peşəsi hüquqşünaslıqdır, lakin mütaliə dairəsi həddindən artıq genişdir. İnqilabdan əvvəl uzun müddət siyasi mühacir kimi Parisdə yaşayıb".

O, Umumittifaq Yeni Əlifba komitəsinin sədr müavini işləyəndə daim sıxışdırılan, təqib altında olan dostu Rəşid xan Qaplanovu komitədə hüquq məsləhətçisi işləməyə gətirir.

Ölkənin kiçik bir bölgəsində çalışsa da, xalq arasında böyük nüfuzu olan Cəlaləddin Qorxmazovun xarici əlaqələri də Sovet rəhbərliyini rahatsız edir. Onu öncə möhkəm dayağı olan Dağıstandan uzaqlaşdıraraq Moskvaya SSRİ MİllətlərSoveti sədrinin müavini vəzifəsinə aparıblar. Cəlaləddin Qorxmazov bolşeviklərin etdiyi vədlərin boşa çıxdığını, əsarətdə olan xalqlara çar Rusiyası dövründəki kimi münasibət bəsləndiyini, rəhbərlikdəkilərdən fərqli düşünənlərə qarşı açıq və gizli divan tutulduğunu görür. Aldandığını gec də olsa, anlayaraq özü kimi aldanmışlarla birləşib dəyişiklər etməyi planlaşdırır. Lakin bu da mümkün olmur. Çünki ötən 20 ildə Sovetlər güclü cəza aparatı qura bilir. Xüsusi xidmət orqanları hətta hökumətdə rəhbər vəzifə tutanları belə ciddi izləyir, onların hər bir hərəkatından xəbər tutur. Buna görə də vəzifəsindən, yaşından, siyasi mövqeyindən asılı olmayaraq hökumətə müxalif saydıqları insanların kütləvi həbsinə və cəzalandırlmasına başlanılır.

Qumuq xalqının oğlu Cəlaləddin Qorxmazov da 1937-ci il iyunun 22-də həbs edilib, sentyabrın 27-də isə güllələnir.

Sov.İKP-nin 1956-cı ildə kecirilən 20-ci qurultayından sonra Cəlaləddin Qorxmazova da bəraət verildiyi elan edilib, adının əbədiləşdirilməsi üçün bir sıra tədbirlər görülsə də, nəyə görə həbs edildiyi və güllələndiyi xalqdan gizlədilir. Sovetlər Birliyi çökdükdən sonra sözdə arxivlərin açıldığı elan edilsə də, hələ də Cəlaləddin Qorxmazov və onun kimi yüzlərlə insanın nədən güllələndiyinə siyasi qiymət verilmir.

Qeyd: ***TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il avqustun 31-də, saat 12.14-də efirə getmişdir.***

HAYDAR BAMMAT



qumuq. Haydar Bammat (Bammatov), Nacmutdin ulu,
əski əlifba ilə حيدر بامات,
rus. Гайдар Нажмутдинович Баммат, (Баммatов)
(1889-1965)

Haydar Bammat (Bammatov) 1889-cu il noyabrın 1-də Rusiyanın işğalı altında olan Teymurxan-şura dairəsi Kafirqumuq kəndində doğulub. Atası Rus ordusunda kiçik rütbəli zabit kimi xidmət edən Haydar ilk təhsilini kəndlərindəki məktəbdə və ailədə dərs deyən özəl müəllimlərdən alır. Yetkinlik yaşına çatdıqda isə Stavropoldakı klassik oğlan gimnaziyasında oxuyur.

Gimnaziyanı bitirib Peterburqa gedən Haydar orada ali hüquq təhsili aldıqdan sonra 1912-ci ilin payızında Tiflisə gələrək Qafqaz Canişinliyində xüsusi tapşırıqlar üzrə məmur işləyir. Haydar məmurluqla ailəsini dolandırmağı düşünmür,

firəvan yaşaması üçün ictimai işlərdə fəallıq göstərir, 1916-cı ilin sonlarında Tiflisdəki Müsəlman Xeyriyyə Cəmiyyətinə üzv seçilir.

Tiflisdə yaşadığı dövrdə Qafqaz türklərilə, indiki terminlə desək Azərbaycan ziyalıları ilə sıx ünsiyyətdə olan, onların nəşr etdiyi qəzet-jurnallarla əməkdaşlıq edən Haydar Bammatov 1917-ci ilin fevralında Zaqafqaziya müftüsü və şeyxülislamı ilə birlikdə bütün xeyriyyə cəmiyyətlərinin və mədəniyyət təşkilatlarının üzvlərini monarxiyanı deyil, demokratik respublika quruluşunu müdafiə etməyə çağıran müraciət hazırlayır. Çar II Nikolay hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra isə o, Qafqaz xalqlarının milli azadlıq mübarizəsini təşkilatlandırmağa çalışır.

1917-ci ildə Dağıstana qayıdan Haydar Bammat yalnız Dağıstanda deyil, Quzey Qafqazda fərqli dillərdə danışan xalqların birliyinə nail olmağa və Rusiyanı müstəmləkə zülmündən qurtararaq demokratik respublikaya çevirmək istəyənlərin sırasına qoşulur. O, yaxşı başa düşür ki, çevrəsində özlərini demokratiya tərəftarı sayanların düşündüyü idarəetmə ilə xalqların birliyinə nail olmaq mümkün deyil. Yüzillər boyu Quzey Qafqaz xalqlarını birləşdirən İslam dinindən və mədəniyyətindən də yararlanmaq lazımdır. Ona görə də bu məsələyə

toplantılarda və görüşlərdə xüsusi önəm verir. Quzey Qafqazda və Dağıstanda yaşayan çoxdilli xalqların dağlı adı altında birləşdirilməsi fikrini müdafiə edir. Lakin bu fikirin ciddi elmi və ideoloji əsası olmadığından ətrafına kifayət qədər güc toplaya bilmir.

Beləliklə, 1917-ci ildə Peterburqda baş verən ferval devrimindən az sonra, yəni martın 5-6-da Vladiqafqazda Quzey Qafqazın 340 aydını və imkanlı adamı bir araya gəlir. Qurultayın maliyyələşdirilməsinə Azərbaycan milyonçularından Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov və Şəmsi Əsədullayev yaxından kömək edirlər. Bu qurultaya Azərbaycanın tanınmış ictimai-siyasi xadim, doktor Həsən bəy Ağayev də dəvət edirlər. O, qurultaydakı təbrik nitqində dağlıları müstəqil dövlətçilik forması kimi respublika quruluşunu seçməyə çağıraraq deyir: "Yalnız milli-ərazi prinsipinə əsaslanan demokratik cümhuriyyət İslam dininə sitayiş kimi şərəf və xoşbəxtliyə nail olmuş xalqların milli-siyasi inkişafını ən uğurlu bir şəkildə təmin edə bilər. Yalnız belə bir cümhuriyyət quruluşu şəraitində tam milli, mədəni və siyasi tərəqqi əldə oluna bilər. Yalnız belə olduqda İslam bir zamanlar nuru ilə bütün Avropanı işıqlandırdığı, son dövrlərdə isə

məhrum edildiyi dəyərləri yenidən bəşəriyyət xəzinəsinə bəxş edə bilər".

Qurultayda Dağlıların Birləşmiş Müvəqqəti Mərkəzi Komitəsi yaradılır və quruma qaraçay-malkar maarifçisi və ictimai xadim Basiyat Şaxanov rəhbər seçilir. Müvəqqəti Mərkəzi Komitə Rusiyadakı devrimdən yararlanaraq Qafqaz dağlılarının maraq və mənafelərini qoruyan bir qurum kimi geniş siyasi, idarəçilik və maarifçilik fəaliyyəti aparmağı planlaşdırır.

Bütün cəhd və təşəbbüslərə baxmayaraq Quzey Qafqazda Terek-Dağıstan hökuməti, Çeçenistan və Dağıstanın Dağlı hökuməti, Çeçenistanda Şimali Qafqaz Əmirliyi və Dağıstan və Çeçenistanın bir hissəsində isə Şimali Qafqaz imamlığı yaradılır. Uzun sürən danışıqlardan, aparılan təşkilatı işdən sonra bu qurumlar bir yerə toplaşaraq 1918-ci il mayın 11-də Şimali Qafqaz Dağlıları Cümhuriy-yətinin yarandığını elan edir. Belə bir respublikanın qurulması üçün Haydar Bammat çox zəhmət çəkməli olur. Yeni qurulan hökumət qarşısına regiondakı qüvvələri birləşdirmək və vahid mərkəzdən idarə etmək məqsədini qoyur.

Gəncə, Bakı və Moskvada keçirilən Umumrusiya Müsəlmanlarının qurultaylarında fəal iştirak edən Haydar Bammat sosialistlərin

demokratik görüşlərinə də qatıldığı üçün Zaqafqaziya Fəhlə, Kəndli və Əsgər Deputatları Sovetinin də üzvü olmuşdur.

Bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra narazı qüvvələr, zabitlər, yunkerlər, kazaklar 1917-ci ilin noyabrında Novoçerkasskda toplaşaraq Rusiyanı xilas edəcək bir güc kimi Könüllü Ordu deyə bir təşkilat yaratdıqlarını elan edir və Haydar Bammatı da qiyabi olaraq bu təşkilata üzv seçirlər. Lakin Haydar Bammat onların qarşıya qoyduqları məqsədlə razılaşmadığına, Zaqafqaziyanın, Şimali Qafqazın ayrıca bir qurum kimi formalaşmasını istədiyinə görə Novoçerkasska getmir.

Haydar Bammat Abdulməcid Tapoy Çermoyev və Maqomed Kadı Dibirovla birlikdə Quzey Qafqaz və Dağıstan xalqlarının nümayəndə heyəti kimi 1918-ci ilin əvvəllərində Zaqafqaziyanın o zamankı mərkəzi Tiflis şəhərinə gəlir. Burada 1917-ci ilin noyabrında yaradılmış Zaqafqaziya Komissarlığının, 1918-ci ilin fevralından onu əvəz edən Zaqafqaziya Seyminin rəhbərləri ilə danışıqlar aparır, bolşeviklərə və ağqıvardiyaçılara qarşı birgə mübarizə aparmağı və bəzi iqtisadi, hərbi məsələləri təklif edirlər. Lakin onların təklifləri seymin erməni üzvləri tərəfindən heç də xoş qarşılanmır. Bəzi

gürcü nümayəndələri ilə də aralarında kəskin fikir ayrılığı yaranır.

Belə olduqda onlar Almaniya və Osmanlı dövlətindən kömək almaq ümidilə Batumda və Trabzonda düzənlənən sülh konfranslarına qatılırlar. Almaniyadan heç bir yardım ala bilməsələr də, Birinci Cahan Savaşında məğlub olan Osmanlı dövləti Quzey Qafqaz və Dağıstan dağlılarına yardım əlini uzadır. Az zamanda Osmanlı zabitlərinin və kiçik rütbəli hərbiçilərinin köməyi ilə milli ordu yaradılır. Ən çox maddi və mənəvi yardımı isə 1918-ci il mayın 28-də öz dövlət müstəqilliyini elan edən Azərbaycan Cümhuriyyəti göstərir.

1918-ci il mayın 11-də Quzey Qafqaz və Dağıstan Cümhuriyyəti elan edildikdə Haydar Bammat yeni hökumətdə xarici işlər naziri vəzifəsinə təyin edilir. Nazirliyin təşkilati işlərini qurmağa imkan tapmadan 1919-cu ildə Parisə Versal Sülh Konfransında iştirak etməyə yola düşür.

Denikinin rəhbərlik etdiyi ağqvardiyaçılar Quzey Qafqazı və Dağıstanı işğal etdikdən sonra Haydar Bammat Tiflisə dönərək Rusiya işğalçılarına qarşı Quzey və Güney Qafqaz xalqlarının birgə mübarizəsini təşkil etməyə çalışır.

Bolşeviklər Denikin ordularını darmadağın etdikdən sonra Azərbaycan, Ermənistan, Gürcüstan Cümhuriyyətlərini də işğal edirlər. Haydar Bammat Trabzona mühacirət etməli olur. Orada yaşadığı müddətdə ailə qurur və mühacir ömrünü yaşamaq və mübarizəsini davam etdirmək üçün Parisə gedir.

Parisdə olarkən məşhur mühacir jurnalı "Kavkaz"ı nəşr edir. Müxtəlif vaxtlarda Parisdə və Berlində 6 dildə nəşr olunan bu jurnalda bəzən türkcə də yazılar verir. Mühacirlər arasında siyasi publisist kimi geniş və səmərəli fəaliyyət göstərən Haydar Bammat Parisdə mühacir həyatı yaşayan Azərbaycan Cümhuriyyəti Məclisinin sədri Əlimərdan bəy Topcubaşovla sıx iş birliyində olur. Onun məqalə və xatirələrində adı ən çox və müsbət planda çəkilən müasirlərindən biri Haydar Bammatdır.

Parisdə və İsveçrədə mühacir həyatı yaşayan Haydar Bammat var gücü ilə mühacir təşkilatlarının iş birliyinə nail olmağa çalışır. Quzey Qafqaz, Azərbaycan və Gürcüstan mühacir təşkilatlarının birgə fəaliyyət proqramlarının hazırlanmasında, 1924-cü ildə İstanbuldakı Qafqaz Konfedaralistləri Komitəsinin işində fəal iştirak edir.

1925-ci ildə isə Əfqanıstan şahı Məhəmməd Nadir Haydar Bammatı Əfqan vətəndaşlığına qəbul

edir. Bundan sonra o, yalnız Qafqaz, Rusiya məsələləri ilə məşğul olmaqla qalmır, həm də xaricdə Əfqanıstan hökumətinin mövqeyini müdafiə edir.

1926-cı ildə məşhur "Prometey" hərəkatının yaradılmasında da fəal iştirak edən Haydar Bammat həm də elmi-publisistik kitablar nəşr etdirməklə Avropa demokratlarının diqqətini Qafqaz xalqlarının taleyinə yönəltmək istəyir.

1942-ci ildə Berlin şəhərindəki "Adlon" otelində keçirilən konfransdakı çıxışında alman hökumətinin Qafqaz xalqlarının müstəqil dövlətlərini tanımasının vacibliyindən söz açır. Siyasi mübarizənin bir nəticə verməyəcəyini görən Haydar Bammat ömrünün sonuna kimi İslamiyyət və İslam dünyası ilə bağlı əsərlər yazır.

31 mart 1965-ci ildə Parisdə dünyasını dəyişən Haydar Bammatın əsərləri, bir də Nəcməddin və Timur adlı oğlanları qalır. Nəcməddin Bammat İslam dünyasının tanınmış şəxsiyyətlərindəndir.

Sayları 450 min nəfərə çatan qumuqların mərd oğlu Haydar Bammatın xatirəsi yalnız Dağıstan və Quzey Qafqaz xalqları arasında deyil, dünyanın azadlıqsevər insanları arasında əziz tutulur. Əsərləri təkrar-təkrar çap olunur, müxtəlif dillərə çevrilir, adının əbədiləşdirilməsi üçün bir sıra işlər görülür.

Qeyd: ***TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il avqustun 13-də, saat 12.14-də efirə getmişdir.***

MUHAMMAT ƏFƏNDİ OSMANOV



Muhammat Əfəndi Osmanov, əski əlifba ilə محمد عوثمانوو , *rus. Магомед-Эфенди (Мухаммед) Османов, (1838-1904)*

Muhammat Əfəndi Ömər oğlu Osmanov 24 fevral 1838-ci ildə (onun doğum tarixini 1837, 1839, 1840, 1841 yazılan qaynaqlar da var) Terek quberniyasının Axsay (Yaxsay) kəndində doğulub. Bu kənd yalnız qumuqların deyil, Dağıstanda və Quzey Qafqazın doğusunda yaşayan dağlıların mədəni mərkəzi sayılırdı. Kənddəki mədrəsəni bitirənlərin əksəriyyəti elm və ədəbiyyatda iz qoymuş insanlardır. Axsayda (Yaxsay) doğulmuş Muhammat Əfəndi Osmanov, Maqomed Alibekov, N.və Z.Batmirzəyevlər, A.Maqamedov, Alim Paşa Salavatov, A.V.Süleymanov, S.Tokblatov, Ş.Aliberiyev, Atabayev, Latip, Mahammadali Adilxanov, Yusup Alimxanov və başqaları şair, yazıçı, publisist kimi tanınmışlar.

Azərbaycanda Məhəmməd kimi işlədilən adın qumuqlarda və b. türk xalqlarında Muhammat, Muhammad, Maqamed kimi deyildiyindən və yazıldığından biz də bu azsaylı Türk xalqına hörmət əlaməti olaraq şairlərinin adını onların dediyi kimi yazırıq.

Qumuqlar toplu halda Azərbaycanın quzeyində, yəni Rusiya Federasiyasının Dağıstan Respublikasında yaşayırlar. Əhalinin rəsmi siyahıyaalmasında sayları 400 min nəfərə yaxın olduğu göstərilir. Qumuqların yaşadığı Dağıstan sanki bir xalqlar, dillər muzeyidir. Burada yerli radiolar hər səhər 33 dildə xalqı salamlamaqla verilişlərinə başlayır. Bu isə orada yaşayan xalqların və etnik qrupların hamısı demək deyil. Rəsmi qəzet-jurnallar, kitablar isə əsasən 7 dildə nəşr olunur. Ümumtəhsil məktəbində 7 dildə dərs keçilir. Bu 7 dildən biri də qumuq dilidir. Bölgənin qədim xalqlarından olan qumuqlar öncələr yaratdıqları ədəbi-bədii məhsulları ümumtürk ədəbiyyatının bir parçası sayırdılar. Rusiyanın bölgəni işğalından, yeritdiyi "Parçala, hökm sür! siyasətindən sonra qumuq ləhcəsində yeni ədəbi dil formalaşdırılmağa başladılar.

Çünki qədim dövrlərdən ta 20-ci yüzilədək nəinki türksoylu qumuqlar, hətta bölgədəki türk

olmayan, fərqli dil ailələrinə daxil olan xalqlar belə türk dilindən ümumi ünsiyyət vasitəsi kimi istifadə edirdilər. Qumuq şairlərinin yazdıqları şeirlər Azərbaycanda, Krımda, Kazanda, Türkmənistanda, Özbəkistanda da tərcüməsiz başa düşülür və oxunurdu.

Rusiya işğal etdiyi bölgələrin nüfuzlu ailələrindən seçdiyi yeniyetmə və gənclərə təhsil verməк, onların təlim-tərbiyəsilə məşğul olmaqla özünə sadiq məmurlar hazırlamağa çalışırdı. Osmanovlar ailəsi də belə seçilmiş nəsillərdən biri olub. Muhammat Əfəndinin atası uzun illər çar mühafizə alayında xidmət edib. Atası Ömər çarın mühafizə alayından təqaüdə çıxdıqda oğlu Muhammat Əfəndini onun yerinə təyin etmişlər. Bu təyinatdan sonra o, Peterburqa getməli və daima orada yaşamalı olmuşdur.

Muhammat Əfəndi Osmanov Yaxsay mədrəsəsində oxuduğu illərdə Seyid Əzim Şirvani həmin mədrəsədə oxumuşdur. 1835-ci il iyulun 10-da Şamaxıda anadan olan Seyid Əzim Şirvani 7 yaşında atasını itirdikdən sonra anası Gülsüm xanım Yaxsayda qazı işləyən atası Molla Hüseynin yanına getməli olmuşdur. Buna görə də Seyid Əzim Şirvani 10 ilə yaxın Yaxsayda yaşamalı, oradakı mədrəsədə oxumalı, babasının himayəsində böyüməli

olmuşdur. 1853-cü ildə isə anası Gülsüm xanımla geriyə – Şamaxıya dönmüşdür.

Seyid Əzim Şərq ölkələrinə səfərə çıxmış, müqəddəs yerləri ziyarət etmiş, məşhur sufilərlə və islam alimləri ilə görüşüb onlardan öyrənmişdir. Bu ayrılıq Seyid Əzimlə Muhammat Əfəndi Osmanovun əlaqələrini zəiflətmişdir.

Muhammat Əfəndi Osmanov çarın mühafizə alayından tərxis olunduqdan sonra, 1867-ci ildən Peterburq Universitetinin şərqşünaslıq fakültəsində türk-tatar dilindən dərs deməyə başlamışdır. O, universitetdə dərs deməklə kifayətlənməmiş, şifahi xalq ədəbiyyatı nümunələrini və qumuq, noqay şairlərinin əsərlərini toplamağa başlamışdır.

Qumuqlardan toplanmış "Minküllünün yırı" Şumer dastanı "Bilqamıs"ı, "Eniligim, Seniligim, eşikini ac!" nağılı yenə də Şumerlərin keçinin qurdla (və ya keçinin şirlə) savaşını, "Bozoğlan" nağılı "Kitabi-Dədə Qorqud"dakı "Bamsı Beyrək" boyunu, "Cavat biy" yırındakı qəhrəmanın ölüm mələyi Əzraillə savaşması "Kitabi-Dədə Qorqud"dakı Dəli Domrulu yada salır. "Koroğlu" nağılı "Koroğlu" dastanını xatırladır. Bu cür oxşarlıqlar yalnız folklorda deyil, yazılı ədəbiyyatda da çoxdur.

Son illərdə qumuq yazılı ədəbiyyatının tarixini 15-ci yüzildə yaşamış Kamal Ümmu Nuri ilə başlayırlar. Onun yayımlanmış şeirləri isə günümüzün qumuq türkcəsindəkindən çox Azərbaycan və Türkiyə türkcələrinə yaxındır. Ümmi Kamala aid edilən:

Dəngizdə bir saz olur,
Gül açılır, yaz olur.
Mən yarıma gül demen –
Gülün ömrü az olur.

– şeiri bu gün də Azərbaycanda xalq mahnısı kimi oxunur və bayatı kitablarına yazarı bəlli olmayan mətn kimi salınır.

Muhammat Əfəndinin məşhur qumuq şairi Yırçı Qazaqla çağdaş olduqlarından onların yaradıcılıqlarında bir yaxınlıq var. İkisi də cəmiyyətdəki nöqsanları, ayrı-ayrı adamların çatışmazlıqlarını poetik dillə tənqid edib onu islaha çalışır. Aralarındakı fərq ömür yollarının ayrılığı və birinin bu mövzudan çox, o birinin az yazmasından o yana keçməyir. Yırçı Qazaqın şeirlərini ilk dəfə toplayıb nəşr etdirən də Muhammat Əfəndi Osmanov olur.

Muhammat Əfəndi Osmanov 1883-cü ildə Peterburqda çap etdirdiyi "Ногайские и кумыкские тексты (Сборник ногайских и кумыкских песен, переданый, поговорок, пословиц)" kitabına Yırçı Qazağın ona nəzmlə yazdığı məktubu da daxil edir. Bu qumuq ləhcəsində ilk kitab sayılır. Kitaba daxil edilmiş məktubda Yırçı Qazaq Muhammat Əfəndi Osmanovu Peterburqdan vətənə dönməyə səsləyir. Hökumət qulluğunda olan, hakim dairələrə yaxın sayılan bir şəxsin Sibirə sürgünə göndərilmiş, necə deyərlər hökumətin gözündən düşmüş Yırçı Qazağın belə vətənpərvər şerini universitetin dərs kitabına salması onun cəsarətindən və mövzuya ürəkdən bağlılığından xəbər verir. Vətənsevər araşdırıcı-pedaqoq Muhammat Əfəndi Osmanov kitaba "Aysulu oğlu Erqo Əhməd əfsanəsi", "Toxtuş xan əfsanəsi", "Kırım sultanı Adil əfsanəsi", "Narın və çura Batır əfsanəsi", "Mirza Mamay əfsanəsi" və b. mətnlərini, eləcə də Şul uzi ləqəbi ilə yazdığı şeirlərini də daxil etmişdir. Bunu sonrakı fəaliyyəti də təsdiqləyir.

Şair Kazan şəhərində olarkən cədidçilərin (yenilikçilərin) təsiri ilə sadə və aydın dillə xalqı təhsilə çağıran, sosial məsələləri gündəmə gətirən, spirtli içkilərdən uzaq durmağı nəsihət edən, igidliyi, qəhrəmanlığı öyən şeirlər yazır. "Nəsihət"

adlı kitabını da 1889-cu ildə Kazan şəhərində çap etdirir. Onun lirik-romantik səpgili "Gülqız" əsəri klassik Doğu şairlərinin işlətdiyi təşbih və istiarələrlə zəngindir.

Kazandan 1875-ci ildə Qafqaza gələn araşdırıcı-pedaqoq soyuqdəymədən ağır xəstələndiyinə görə geri dönməsi 1876-cı ilin martına çəkir.

Muhammat Əfəndi Osmanov 1904-cü ildə dünyasını dəyişir. Yaşlı çağlarında və ölümündən sonra onun əsərlərinə, elmi-pedaqoji fəaliyyətinin öyrənilməsinə diqqət yetirən olmur. Rusiyada hakimiyyəti ələ alan bolşeviklər özlərinə tərəfdar toplamaq üçün azsaylı xalqlara bir sıra mədəni imtiyazlar verir. Əslində bu imtiyazların arxasında bütün müstəmləkəçilər kimi bolşeviklərin də "Parçala, hökm sür!" siyasəti dururdu. Bolşeviklərin azsaylı xalqlara verdiyi mədəni imtiyazlardan yararlanan qumuq ziyalıları şairin ölümündən 22 il sonra – yəni 1926-cı ildə Buynyakda "Muhammat Əfəndi Osmanovun şeirlər məcmuəsi" adlı bir kitab çap etdirə biliblər. Buraya şairin dini, fəlsəfi şeirləri daxil edilib. Çap edilən şeirlər Sovet ideologiyasına uyğun gəlmədiyinə görə onun əsərlərinin hamısını toplayıb çap etdirmək, həyat və yaradıcılığını təbliğ etmək unudulur.

Böyük türkoloq, professor Bəkir Çobanzadə də 1926-cı ildə Qumuqlar haqqında yazdığı məqalələri və "Qumuq dili və ədəbiyyatı tədqiqləri" adlı kitabını Bakıda işləyərkən çap etdirir.

Sovetlər Birliyi çökdükdən sonra yenidən Muhammat Əfəndi Osmanovun həyat və yaradıcılığına, elmi və ictimai fəaliyyətinə diqqət artır. Qumuqların toplum halında yaşadığı Dağıstan Respublikasının başkəndi Mahaçqalada əsərləri çap olunmağa başlayır, haqqında araştırmalar aparılır.

Qeyd*:* ***TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2010-cu il iyunun 29-da, saat 12.14-də efirə getmişdir.***

RƏŞİD XAN QAPLANOV



Rəşid xan Qaplanov,
əksi əlifba ilə رشید خان قاپلانوو,
rus. Рашид-Хан Забитович Капланов
(1883-1937)

Rəşid xan Zabit xan oğlu Qaplanov 1885-ci ildə qumuqların o zamankı mədəni mərkəzlərindən olan Axsayda (Yaxsay) doğulub. İndi bu kənd Rusiya Federasiyasına bağlı Dağıstan Respublikasının Xasavyurd rayonundadır.

Rəşid xanın babaları bölgənin ən nüfuzlu və varlı ailələrindən olub. Rusiya işğal etdiyi bölgələrdə yerli hakimlərin övladlarını çar sarayına aparıb orada təlim-tərbiyəsi ilə məşğul olurdu. Bununla həm özünün siyasətini həyata keçirəcək kadrlar hazırlayır, həm də övladları girov olduğuna görə ata-babalarının baş qaldırmasını əngəllədiyini düşünürdü. Rəşidin atası Zabit, əmisi Əbu Müslim də belə bir həyat yaşamışdır. Atası Zabit çarın, əmisi Əbu Müslim isə Qafqaz canişininin mühafizə alayında xidmət edərək polkovnik rütbəsinədək yüksəlmişdilər.

Diqqəti çəkən cəhətlərdən biri də odur ki, görkəmli qumuq alimi, Peterburq Universitetinin müəllimi Muhammat Əfəndi Osmanov və atası da çarın mühafizə alayında xidmət etmişdilər.

Rəşid xan Axsaydakı (Yaxsay) mədrəsədə və evdə xüsusi müəllimlərdən dərs alaraq ana dili ilə yanaşı rus, fars, ərəb, fransız dillərini öyrənmişdir. Yaxsay mədrəsəsi o dövrün ən yaxşı təhsil müəssisəsi sayılırdı. Bu mədrəsəni bitirənlər arasında çoxlu alim, ictimai-siyasi xadim, dövlət adamı, şair, yazıçı var. Seyid Əzim Şirvani də bu mədrəsəni bitirənlərdəndir.

Rəşid xan Qaplanov sonra təhsilini o dövrdə Rusiya çarının Quzey Qafqazın mərkəzinə çevirdiyi Vladiqafqazdakı gimnaziyada davam etdirmişdir.

Vladiqafqazda gimnaziyanı bitirdikdə atası Rəşid xanı Rusiyanın Peterburq, Moskva kimi şəhərlərindəki ali məktəblərə deyil, Parisdəki Sorbon Universitetinə, kiçik oğlu İbrahim xanı da (1887-1948) Rusiyada hərbi məktəbdə oxumağa göndərir.

Görünür Zabit Qaplanova və oğlu Rəşid xana Əbu Müslümün oğlu Əhməd Səidin təsiri olmuşdur. Əhməd Səid Rusiyada kadet korpusunu bitirdikdən sonra vəzifə pillələri ilə yüksəlməyə

şansı olsa da nədənsə Osmanlı vətəndaşlığını qəbul etməyə üstünlük verir. 1888-ci ildə o, Sədrəzəm Qazi Əhməd Muxtar Paşanın yaveri təyin edilir. Qazi Əhməd Muxtar Paşa Misirə vali göndəriləndə Əhməd Səid onunla gedərək 1899-1902-ci illərdə Qahirədə "Sancaq" (Bayraq) qəzetini nəşr etdirir.

Rəşid xanın kiçik qardaşı İbrahim xan hərbi təhsil aldıqdan sonra Rusiya ordusunda hərbi xidmətə başlayır və polkovnik rütbəsinə qədər yüksəlir. Quzey Qafqaz xalqlarının azadlıq mübarizəsində fəal iştirak edir və 1918-ci ildə yaradılan cümhuriyyətin ordusunda qumuq süvari alayının komandiri təyin edilir. Bolşeviklər bölgəni işğal etdikdə onlara qarşı vuruşan İbrahim xan sonra mühacirətə getmək məcburiyyətində qalır və Amerikada həyatını başa vurur.

Rəşid xan Sorbon Universitetində təhsil alan həmyerlisi, sosialist dünyagörüşlü Cəlaləddin Qorxmazovla (1877-1937) da orada dostlaşır.

Rəşid xan hüquq fakültəsində oxumaqla yanaşı, ədəbi-mədəni mühitdə də fəal iştirak edir. Parisdəki "Gənc türklər"lə tez-tez görüşən, vətəninin, eləcə də Osmanlı dövlətinin geridə qalma səbəblərini monarxiya idarəetmə sistemində görən Rəşid xan Fransız sosialistlərinin təsiri ilə monarxiyanın ləğvi, cümhuriyyət sisteminə keçid,

anayasaların dəyişdirilməsinə daha çox həvəs göstərir. O, xan, iri torpaq sahibləri nəslindən olmasına baxmayaraq, cəmiyyətdə sosial ədalətə üstünlük verən insanlarla daha çox qaynayıb qarışır.

1910-cu ildə universiteti bitirən Rəşid xan doğulduğu Yaxsaya, təhsil aldığı Vladiqafqaza, yaxud da Rusiyanın böyük şəhərlərinə deyil, İstanbula gəlir. Onun bu gəlişi heç də təsadüfi deyildi. Parisdə olarkən tez-tez görüşdüyü və fikir mübadiləsi etdiyi "Gənc türklər" təşkilatının üzvlərinin əksəriyyəti Osmanlı dövlətində rəhbər vəzifələrdə idilər. Parisdən tanıdığı və dostluq etdiyi, qumuq Cəlaləddin Qorxmazov da iki ilə yaxın idi İstanbulda yaşayırdı. O, 1909-cu ildə İstanbulda ilk rusdilli Türk mətbuatı – "Stambulskie novosti" qəzetinin əsasını qoymuşdu.

Rəşid xanın əmisi oğlu Əhməd Səid də Misirdən geri dönərək İstanbulda yenidən mətbuat sahəsində çalışmaqla yanaşı, həm də universitetin professoru kimi fəaliyyət göstərirdi. Elə buna görə də İstanbula gələn kimi onu universitetdə işə götürürlər. Lakin üç il sonra atasının təkidi ilə vətənə dönməli olur. Bir il sonra isə atası dünyasını dəyişir. Rəşid xan 1917-ci ilin fevralınadək

Vladiqafqazda andlı müvəkkil kimi məhkəmə sistemində çalışır, Quzey Qafqazın ictimai-siyasi həyatında yaxından iştirak edir.

Milliyyətcə malkar (balkar) olan Basiyat Şaxanovun rəhbərliyi ilə 1917-ci il martın 5-6-da Vladiqafqazda Birləşmiş Dağlıların Müvəqqəti Mərkəzi Komitəsi yaradılır. 14-21 mayda keçirdikləri toplantıda isə təşkilat Şimali Qafqaz və Dağıstan Dağlıları İttifaqı, sentyabrda keçirilən növbəti qurultayda Abxaziyanın da İttifaqa qatıldığından Şimali Qafqaz, Dağıstan və Abxaziya İttifaqı adlandırılır. Qurultayda qumuqların, qaranoqayların və Stavropol quberniyası türkmənlərinin nümayəndəsi kimi iştirak edən Rəşid xan Qaplanov dil və din fərqlərini də aradan qaldırmağa çalışaraq "dağlı" ideologiyasını irəli sürür. Anayasası, siyasi platforması və proqramı kimi mühüm sənədlərin hazırlanmasında da onun rəhbərlik etdiyi qrupun rolu böyük olur.

1917-ci il dekabrın 14-dən 1918-ci il martın 8-nə qədər Terek-Dağıstan hökumətinin sədri və eyni zamanda xarici əlaqələrin rəhbəri olan Rəşid xan Qaplanov 1918-ci il mayın 11-də Terek-Dağıstan hökuməti, Çeçenistan və Dağıstanın Dağlı hökuməti, Şimali Qafqaz Əmirliyi

(Çeçenistan) və Şimali Qafqaz imamlığı birləşərək Şimali Qafqaz Dağlıları Cümhuriyyəti yarandıqda bu hökumətdə parlament üzvü, 1918-ci il dekabrın 12-dən isə daxili işlər naziri kimi fəaliyyətini davam etdirmişdir.

1919-cu il martın 5-də hökumət istefa verdikdə, Rəşid xan ağqvardiyaçılarla əməkdaşlıq edən yeni kabinetdə iştirak etməyərək Bakıya gəlir.

Rəşid xan Qaplanov Bakıya gəldikdən az sonra, yəni martın 14-də Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi dördüncü hökumətdə onu xalq maarifi və dini etiqadlar naziri təyin edirlər. Eyni zamanda "Əhrar" partiyasının üzvü kimi ölkənin siyasi həyatında yaxından iştirak etməyə başlayır. Azərbaycanda ilk universitetin açılmasında, xaricdə oxumağa tələbələr göndərilməsində, ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsində onun rolu olduqca böyük olur. Universitet açmaq üçün uyğun vaxt olmadığını söyləyən parlament üzvlərinə, hətta partiyadaşlarına belə çox sərt cavablar verərək, bu işi ləngitməyi böyük günah sayır. Universitet işə başladıqda isə kadr çatışmadığına görə özü Osmanlı tarixi və ədəbiyyatından dərs deyir. Onun fikrincə, universitet yalnız tədris deyil, daha çox

milli-mənəvi mərkəz kimi fəaliyyət göstərməli, buradakı elmi personal Azərbaycanı öz qədim tarixi, mədəniyyəti, zəngin yeraltı və yerüstü sərvətləri ilə dünyaya tanıtmalıdır.

Dördüncü hökumət istefaya getdikdə Rəşid xan Qaplanov Bakını tərk etmir. Beşinci hökumətdə o maliyyə naziri təyin olunur. Dövriyyəyə buraxılan pulların qiymətdən düşməməsi və devalvasiyaya uğramaması üçün böyük səy göstərən nazir 1920-ci ilin fevralında Bakı bonolarının, yəni qiymətli kağızlarının Zaqafqaziya pullarına dəyişdirilməsini dayandırmaq barədə, aprel ayında Batumda ixrac edilən neft və neft məhsulları üçün rüsumların yalnız Azərbaycan pulu ilə ödənilməsi haqqında sərəncam verir.

Bolşeviklər Azərbaycanı işğal etdikdən az sonra, yəni 1920-ci ilin iyununda Rəşid Qaplanovu həbs edirlər. Həmin dövrdə Bakıdan gələn Stalin, Məhəmməd Əmin Rəsulzadə ilə birlikdə Rəşid xan Qaplanovu da həbsdən azad etdirir. Görünür, həmin dövrdə Dağıstan İnqilab Komitəsinin sədri olan Cəlaləddin Qorxmazov Stalini inandıra bilib ki, yeni hökumətin Rəşid xan kimi savadlı və təşkilatçılıq bacarığı yüksək olan kadrlara ehtiyacı var.

Bakıdan getdikdən sonra onu həbs etsələr də az sonra azad etməli olurlar. Moskvaya gedən Rəşid xan Qaplanov Rusiya Sosialist Federal Cümhuriyyəti Xalq Maarifi Komissarlığında çalışır, habelə Şərq Zəhmətkeşlərinin Kommunist Universitetində və Moskva Şərqşünaslıq İnstitutunda orta əsrlər və yeni dövr türk tarixi üzrə mühazirələr oxuyur. 1923-cü ildə Moskvada "Osmanlı tarixi üzrə mühazirələr" kitabı litoqrafiya üsulu ilə çap olunur.

1930-cu ildə onu yenidən həbs etsələr də, fəaliyyətində cinayət tərkibi olmadığına görə azad etməli olurlar.

Bir müddət dostu, o dövrdə Ümumittifaq Yeni Əlifba Komitəsinin sədr müavini işləyən Cəlaləddin Qorxmazovun yanında hüquq məsləhətçisi, Özbək Ticarət müvəkkilliyinin Moskvadakı daimi nümayəndəliyində hüquq məsləhətçisi vəzifəsində çalışır.

1937-ci ildə yaxın dostları və məsləkdaşları kimi onu da həbs edərək dekabrın 10-da güllələyirlər. Lakin ona bəraət 1937-də repressiyaya məruz qalanların əksəriyyəti kimi 1956-ci ildə deyil, 1991-ci ilin aprelin 29-da verilir.

Rəşid xanın oğlu Murad Qaplanov poçt indeksi ilə tanınan məxfi şəhərciklərdən birində S.P.Korolyovun rəhbərliyi altında raket texnologiyası sahəsində çalışır. “Molniya-1” adlı raket qurğularının hazırlanmasında xüsusi xidmətlərinə görə keçmiş xalq düşməninin oğlu iki dəfə SSRİ Dövlət mükafatına layiq görülür.

Qeyd: ***TRT və Azərbaycan İctimai Radiosunun “Qorqud Ata” proqramının “Türk dünyasının məşhurları” rubrikası ilə 2012-ci il iyulun 29-da, saat 12.14-də efirə getmişdir.***

YUSUP QEREYEV



Yusup Qereyev
əski əlifba ilə يوسف قئرئيئو,
rus. Гереев
Юсуп Арсуевич (Яков Сирмайс)
(1903-1941)

Yusup Arsu oğlu Qereyev 1903-cü ildə indiki Rusiya Federasiyası Dağıstan Respublikasının Teymurxan-şura kəndində doğulub. Onun anadan olduğu kəndin adına Kafirqumuk da deyərdilər. Sovet hakimiyyəti illərində oranın adını bir ara dəyişdirib Buynaksk də qoydular.

Rusiyada ölkənin ərazisi olduqca böyük olduğundan hakimiyyətdən narazı olanların bir yerdən başqa yerə sürgün edilməsi geniş yayılmışdı. Azərbaycandan, indiki Gürcüstandan, Ermənistandan, Ukraynadan insanların böyük bir qismini Sibirə, Türküstana sürgün edirdilərsə, Polşadan, Pribaltikadan, Mərkəzi Rusiyadan da Qafqaza sürgün edilənlər az deyildi. Onların arasında tanınmış yazıçı və şairlər, sənət adamları, millətçilər, inqilabçılar da vardı.

Milliyyətcə latış olan Yakov Sirmais də Dağıstana gəlib çıxmış və burada müəllim işləməyə başlamışdı. Burada doğulan uşağa da nədənsə atasının adı verilmişdi. Onun valideynləri, yaşamları haqqında geniş bilgi yoxdur. Araşdırıcılar valideynlərini itirən Yakovu atasının dostu latış Avqustin Skrabenin himayəsinə götürdüyünü yazırlar. O, dostunun oğluna böyük qayğı göstərməklə yanaşı, təhsilinə də xüsusi diqqət yetirir.

Lakin Avqustin Skrabenin inqilabi fəaliyyətinə görə həbs edilməsi balaca Yakovun yenidən həyatını cəhənnəmə döndərir. O, kimsəsiz qalır. Dünya isə xeyirxah insanlarsız deyil. Bu dəfə onu kasıb, milliyyətcə qumuq olan xalimbekli Arsu Qereyev himayəsinə götürür. O, nə uşağın xristian ailəsində doğulmasına, nə də böyüyüb, boya-başa çatdıqdan sonra atasının vətəninə gedə biləcəyinə əhəmiyyət verir. Sadəcə mömin bir müsəlman, xeyirxah bir türk kimi kimsəsizə dayaq durur.

Xalimbek kəndindən olan Arsu Qereyev Yakovu himayəyə götürməklə kifayətlənmir. Ona ölmüş qardaşı Yusupun adını və ailələrinin soyadını verir. Yakov böyüyüb şöhrətli bir yazıçı olduqda belə nə bu ad və soyadından imtina edib

doğulanda ona verilmiş adı bərpa edir, nə də ədəbi təxəllüs götürməklə ad və familiyasını arxa plana atmış olur.

Gələcəyin yazıçısı uşaqlığını dağlar qoynundakı İşkartı kəndində keçirir. Qumuq dilini ana dili kimi öyrənməklə yanaşı, xalqın psixologiyasını mənimsəyir, adət-ənənəsinə dərindən bələd olur. Yaradıcılığa başlayanda əsərlərində bunlardan məharətlə yararlanır, qumuqların çoxu onun bu məharətinə heyran qalır.

Kənddə məktəbi bitirdikdən sonra onu Azərbaycana pedaqoji texnikuma oxumağa göndərirlər. Bakının qaynar mühiti yeniyetmə Yusupa güclü təsir edir. Xüsusən keçmiş tənqid kampaniyasında Mirzə Ələkbər Sabirin yaradıcılığından geniş istifadə edilməsi, bir növ Sabir satirasının təbliğinə səbəb olur. Gənc Yusup da bir az təbliğatın təsirindən, bir az da Sabir şeirinin axıcılığından təsirlənərək satirik poeziyanın aludəsinə çevrilir. Özü də Azərbaycan və qumuq türklərinin başa düşəcəyi bir dildə şeirlər yazmağa başlayır.

Bakıdakı Müəllimlər Seminariyasını (texnikumunu) başa vurub Dağıstana dönən Yusup Qereyev az zamanda çılğın inqilabçı, vətənsevər bir qumuq gənci kimi çoxlarının diqqətini özünə

cəlb edə bilir. İctimai-siyasi işlərdə fəallıq göstərməklə yanaşı, qəzet və jurnallarda məqalələr, hekayələr çap etdirir. Bütün bunlar yeni kadrlara böyük ehtiyac duyulan diyarın partiya-sovet rəhbərlərinin diqqətindən yayınmır. Onu 1924-cü ildə Rostov Diyar Hüquqşünaslıq kursuna oxumağa göndərirlər.

Rus və türk xalqlarının bir neçəsinin dilini gözəl bilən, eləcə də Dağıstanda yaşayan xalqların bəzilərinin danışığını anlayan, 21 yaşlı Yusup Qereyevi Rostov Diyar Hüquqşünasıq kursunu uğurla başa vurub geri dönən kimi prokurorluqda işə götürürlər.

Yusup Qereyev bir neçə il prokurorluqda işləsə də bədii yaradıcılıqdan əl götürmür. Onu 1925-ci ildə onu Sovet ordusunda əsgəri xidmətə aparırlar. Əsgəri xidmətdə olduğu müddətdə qumuq dilində çap olunan qəzet və jurnallara hekayələr göndərir. 1927-ci ildə hərbi xidmətini başa vurduqdan sonra yenidən Dağıstana qayıdan Yusup prokurorluqda işləyənlərin sadə insanlara qarşı qəddarlığından, haqsızlıqlardan bezdiyindən özünə partiya-sovet təşkilatlarında iş tapır. Vəzifə tapşırıqlarını vicdanla yerinə yetirməklə yanaşı, dövrün ideoloji tələblərinə cavab verən satirik hekayələr də yazır.

“Daqqaze” nəşriyyatı 1927-ci ildə yazıçının qumuq dilində “İnsanın bədbəxtliyinin dərmanı”, 1928-ci ildə “Yolgöstərən”, “İnq paydalı dualar” (Ən faydalı dualar) hekayələr kitablarını oxucu mühakiməsinə verir. Yusup Qereyevin hekayələrində tənqid hədəfinə çevirdiyi savadsız, məhdud dünyagörüşlü, bürokrat məmurların bir çoxu onun iş yoldaşları və ona rəhbərlik edənlərdi. Həmin adamlar da satirik yazıçının hər gün bürokratik aparatın içərisində olmasına, onların bacarıqsızlığını, saxtakarlığını, yaltaqlığını və ikiüzlülüyünü görüb ictimailəşdirməsinə dözə bilmirlər. Beləcə gənc yazıçı partiya işindən uzaqlaşdırılır.

Yusup Qereyevin cəhaləti, geriliyi, dini, bəzən də onlara qataraq milli adət-ənənələri də tənqid etməsi Sovet ideologiyası ilə üst-üstə düşürdü. Yazıçının özü də bolşeviklərin xalqları azadlığa çıxaracağına, onları xoşbəxt bir cəmiyyətə aparacağına ürəkdən inanırdı. Odur ki, hekayələrini “Şimaldan qelqen yazbaşı” (Quzeydən gələn bahar) adı altında toplayıb “Daqqaze” nəşriyyatında çap etdirir. “Molla Nasritdinin sapar yoldaşı” kitabı isə yazıçıya böyük uğur qazandırır.

Dağıstanda gənc yazıçıların təşkilatlanması üçün var qüvvəsilə çalışan Yusup Qereyevi 1934-cü ildə yaradılan SSRİ Yazıçılar İttifaqının Dağıstan şöbəsinə məsul katib işləməyə göndərirlər. Çoxdilli bir diyarda, həm də ideoloji mübarizənin olduqca kəskinləşdiyi bir zamanda yazıçıları bir çatı altında toplamaq heç də asan olmur. Belə gərgin zamanda o, bədii yaradıcılığından da qalmır. "Daqqaze" nəşriyyatı onun ana dilində "Biyler va adatlar" (Bəylər və adətlər) hekayələr kitabını, Quzey Qafqaz Diyarşünaslıq nəşriyyatı isə və 1935-ci ildə rus dilində "Neudaça" (Uğursuz) kitabını çap edir.

Yusup Qereyev hekayələr və məqalələr yazmaqla kifayətlənmir, rus dilindən tərcümələr edir, dramçılıqda da qələmini sınayır. 30 il Quzey Qafqaz xalqlarının rus işğalçılarına qarşı mübarizəsinə rəhbərlik etmiş Şeyx Şamildən bəhs edən "Kim kimni?" (Kim kimi), "Manap" pyeslərini yazır. Bu pyeslər tamaşaçılar tərəfindən maraqla qarşılanır. Dağıstandakı Qumuq Dram Teatrı ona bir-birinin ardınca Midvaninin "Şərəf", Krasevanın "Mayağın işıqları", "Zirvə", "Biz gedirik" pyeslərini qumuq dilinə çevirməyi sifariş verir. Onun çevirdiyi əsərlər səhnələşdirilir və tamaşaçılar tərəfindən alqışlarla qarşılanır. Yusup

Qereyev o dövrdə dəbdə olan, maraqla oxunan, filmi çəkilən Dmitri Furmanovun irihəcmli "Çapayev" romanını da qumuqcaya çevirir.

Yusup Qereyev yazıçılar təşkilatının işini canlandırmaq və yazıçıları ideoloji yönlü əsərlər yazmağa istiqamətləndirmək məqsədilə 1936-cı il sentyabrın 30-da "Komsomolets Daqestana" qəzetində "Gənc yazıçıların vəzifələri haqqında" məqaləsini çap etdirir. Məqalə böyük əks-səda doğurur. Bu da rəhbər partiya-sovet işçilərinin istəklərinə cavab verir.

Şair, publisist, bəstəkar, peşəkar Qumuq Teatrının əsasını qoyanlardan biri kimi tanınan Yusup Qereyevin bədxahları da az olmur. Onun doğruluğunu, haqqı nahaqqa verməməsini, getdikcə milli məsələyə daha çox diqqət yetirməsini antisovet baxış kimi qiymətləndirirlər. Xüsusən, Şeyx Şamil haqqındakı əsərini beynəlmiləlçiliyə zidd, rus xalqına qarşı yönəldilmiş, xalqlar dostluğuna zərbə vuran əsər kimi də dəyərləndirirlər.

1939-cu ilin aprelində Sovet cəza aparatının rəhbəri, SSRİ Daxili İşlər Xalq Komissarı (NKVD rəhbəri) Nikolay Yejov həbs ediləndən sonra bir nisbi yumşalma yaransa da haqsız cəzalandırılmalar, sübutsuz ittihamlar və

istintaqlar davam edirdi. Yusup Qereyev də 1938-ci il oktyabrın 15-də həbs edilir. Bir il üç aya yaxın müxtəlif maddələrlə ittiham edib, istintaq zamanı sərt cəzalar versələr də o dözümlü çıxaraq sübutsuz ittihamları qəbul etmir. KQB müstəntiqləri çıxılmaz vəziyyətdə qalıb Yusup Qereyev 1940-cı il yanvarın 9-da azadlığa buraxsalar da onun azadlıqdakı ömrü uzun sürmür.

1941-ci il noyabrın 27-də Dağıstan Muxtar Respublikasının Xasavyurd şəhərində dəmiryol xəttini keçərkən onun qatar vurduğuna görə öldüyü sənədləşdirilir. Lakin qəza nəticəsindən ölümü inandırıcı görünmür.

Başqa bir ehtimala görə, İkinci Dünya Savaşına başlayanda Yusup Qereyevi orduya səfərbərliyə alırlar. O, cəbhədən geri dönmür. Lakin, Yusup Qereyevin həyat və yaradıcılığına münasibət heç də birmənalı deyil. Son dövrlər hazırlanan saytlarda onun da adını repressiya qurbanları sırasına salırlar. Bunun yazarın 1937-ci ildə KQB tərəfindən istintaqa cəlb edilməsinəmi, yoxsa savaşda əsir düşərək Sovetlərə qarşı mübarizə aparmasınamı dəlalət etdiyini bilmədik.

Bilinən odur ki, milliyyətcə latış olan birisi qumuq dilinin zənginləşməsinə, ədəbiyyatının inkişafına təkan vermişdir.

Qeyd: ***TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-cü il fevralın 2-də, saat 12.14-də efirə getmişdir.***

ƏLİ ŞAMİL

QUMUQLAR-NOQAYLAR:

yol qeydləri, məqalələr

Direktor: Səbuhi Aslan
Dizayner: Nigar Sadıqova
Texniki redaktor: Hüseyn Məmmədov

Çapa imzalanmışdır: 20.09.2026
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru

Qeyd üçün: